AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# GÜNEY AZƏRBAYCAN FOLKLORU

## XI KİTAB

BAKI – 2021

**AMEA Folklor İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.**

**Layihə rəhbəri:** **Muxtar KAZIMOĞLU-İMANOV**
AMEA-nın həqiqi üzvü

**Tərtib edən:** fil.ü.f.d., dos. **Mətanət MAŞALLAHQIZI (ABBASOVA)**

**Mətnləri transliterasiya edənlər:** fil.ü.f.d. **Qiymət MƏHƏRRƏMLİ**
**Səbuhi BƏDƏLOV**
**Səadət ƏLİYEVA**

**Redaktoru:** fil.ü.f.d., dos. **Ləman VAQİFQIZI (SÜLEYMANOVA)**

**Güney Azərbaycan folkloru, XI kitab,** Bakı, Elm və təhsil, 2021, 340 səh

Kitaba Güney Azərbaycanın müxtəlif bölgələrindən toplanmış folklor örnəkləri daxil edilmişdir.

folklor.az

G 4603000000 / N-098-2021 Qrifli nəşr

© Folklor İnstitutu, 2021

# ÖN SÖZ

Güney Azərbaycan folkloru, bütövlükdə mədəniyyəti zamanla müxtəlif siyasi proseslərin və tarixi hadisələrin burulğanında, sosial-iqtisadi çətinliklər şəraitində formalaşmış və müasir günümüzə zəngin, əvəzolunmaz bir xəzinə olaraq gəlib çatmışdır. XX əsrin əvvəllərindən başlayaraq Cənubda baş verən siyasi hadisələr – Azərbaycanın yeni sərhədlərinin müəyyənləşdirilməsi, xalq üsyan və inqilabları, sonrakı dövr Pəhləvi rejimi, fars şovinizmi cəmiyyətlə yanaşı, ədəbi-mədəni mühitə də öz təsirini göstərmişdir. Sözsüz ki, bu dönəmdə siyasi hadisələrin mədəni mühitə təsirində folklor da xalqın sözçüsü olaraq yeni mübarizə cəbhəsinə keçmişdir. Məmmədəli Fərzanə, Salamullah Cavid, "el müəllimi" Səməd Behrəngi, Behruz Dehqani kimi xalq ədəbiyyatı yaşadıcılarının başladığı müqəddəs işi onların ardıcılları Behruz Həqqi, Əli Kəmali, professor Hüseyn Məhəmmədzadə Sədiq və b. kimi Azərbaycan ziyalıları davam etdirməyə başlayır. Bu istiqamətdə ilk çalışmalar folklor irsinin toplanılması və yeni təcrübənin qazanılması üzərində qurulur. Bir çox siyasi səbəblərdən dolayı şifahi ədəbiyyat örnəklərinin toplanıb, bir arada çap etdirilməsi ziyalılar qarşısında böyük çətinliklər yaradır. Lakin ata-baba irsini, bu irsin qorunmasını özünün müqəddəs vəzifəsi hesab edən ziyalılar həvəslə folklorun toplanılması işinə qoşulurlar. Çox keçmədən toplanan folklor nümunələri mətbuatda çap edilməyə, xüsusi kitablarda nəşr olunmağa başlayır. Və bu ənənəni bu günə qədər qoruyub saxlayan böyük bir ziyalı ordusu formalaşır. Güney mətbuatı başda olmaqla, xalq ədəbiyyatı nümunələrinin toplanılması işinə bir növ səfərbərlik elan edilir. Nəticədə "Məhdi-Azadi" qəzeti, "Varlıq", "Yol", "Azəri", "Dilmanc", "El bilimi" və s. dərgilər xalq ədəbiyyatı nümunələrinin təbliği işində xüsusi fəallıq göstərir. Güney folklor mühitində yaranan bu canlanma nəticəsində minilliklərdən baş alıb gələn xalq bayatıları, tapmaca,

nağıl, lətifə, atalar sözləri və zərbi-məsəllər, aşıq dastanları və s. folklor nümunələrinin zəngin bir irsi işıq üzü görür. Ümumazərbaycan folkloru kontekstində bu zəngin irsin öyrənilməsi Folklor İnstitutu, ayrıca Cənubi Azərbaycan folkloru şöbəsi olaraq bizim də qarşımızda mühüm vəzifə kimi durur.

"Güney Azərbaycan folkloru" seriyasından olan növbəti cild-XI kitabımızda Güney Azərbaycan folklorunun müxtəlif nümunələri toplanılmışdır. Kitabda özünə yer alan nümunələrin əksər hissəsini o taylı-bu taylı soydaşlarımızla qarşılıqlı ünsiyyət prosesində əldə edilmiş faktiki materiallar təşkil etsə də, sahə ilə bağlı Türkiyə, eləcə də bir sıra Şərq ölkələrində aparılan araşdırmalar topluya xüsusi rəng qatmışdır. Sözsüz ki, bu istiqamətdə ağırlıq başda "El bilimi" olmaqla, İranda nəşr olunan bəzi dərgilərin və müxtəlif kitabların üzərinə düşür ki, translitersiya əsasında toplanılıb, tərtib edilmişdir.

Sözügedən cilddə Təbriz, Marağa, Urmiya, Mərənd, Həmədan və s. ərazilərdən toplanılan folklor nümunələri janrlar üzrə qruplaşdırılmışdır. Müxtəlif nağıllar, bayatı, atalar sözü və məsəllər, tapmacalar, mahnılar qeydə alınan janrlar sırasındadır.

"Güney Azərbaycan folkloru"nun XI cildində nağıl mətnlərinə xüsusilə geniş yer verilmişdir. Xalq həyatı, məişətinə bağlı olaraq yaranan nağıllar sehrli, mifoloji qüvvələr, heyvanlar, real məişət obrazlarında müxtəlif dövr və zamanın, təsəvvür və düşüncələrin tarixi izlərini öz məzmununda qorumaqdadır. Məhz bu səbəbdən nağıllar təkcə bir ailə, bir evin ağbirçəyi, ana, nənəsi tərəfindən övlad, nəvənin dinlənməsi üçün söylənilən sıravi mətndən çox, xalqın taleyi, mübarizə, dərd-sərinin gələcəyə ötürülən mirası, tarixi kimi mühüm funksiyaya malikdir. Bu baxımdan xalq məişətində "kürsü söhbətləri", qış axşamlarından başlayan nağıl söyləmə ənənəsi Novruz, toy mərasimləri, "Çillə gecələri" də daxil olmaqla geniş bir auditoriyanın zövqü, istəklərini əhatə etməkdədir.

Kitabda qeydə alınan nağılların əksəriyyəti "El bilimi" dərgisi üzvlərinin əməyi nəticəsində müxtəlif bölgələrdən top-

lanılmış və əməkdaşlarımız tərəfindən transliterasiya edilmişdir. Güneydə folklor irsimizin toplama və nəşrində böyük əmək sərf edən Susən Nəvadə Rəzi, Zəhra Abdar, Məlikə Nəlbəndi, Zivər Abbasi, Roya Rak, Əlirza Sərrafi, Əhəd Fərəhməndi, Kazım Abbasi, Ehsan Qasımxani kimi dəyərli alimlərimizlə bölgə materialları, nağılların mətn variantlılıqları, şivə özünəməxsusluqlarına dair xüsusi söhbətlər aparılmış, geniş informasiya əldə edilmişdir. "El bilimi"nin qadınlar qolu olan "Folklorçu xanımlar" qrupu "Dəstan gecələri" və "Nağıl axşamları" təşkil etmiş, bu gecələrdə aşıq Qafar İbrahimi tərəfindən "dəstan", Sahib Sultan xanımdan isə müxtəlif nağıllar söylənilərək dinlənilmişdir: "Azərbaycan El bilimi müəssisəsi nağıllar qonusuna artıq dəyər verib və bu günə kimi çeşidli saylarında ölkəmizin türkdilli bölgələrindən onların dil şivələrini qoruyaraq çoxlu nağılları müxtəlif qaynaq şəxslərin dillərindən toplayanlar vasitəsilə qələmə alınaraq öz adlarına el bilimi iç böltənində dərc edib. Bunlardan başqa müəssisənin dəftərində bir neçə dönə nağıl axşamları keçirilib. Rəhmətlik aşıq Qafarın bu axşamlarda danışdığı nağıllar, habelə Sahib Sultan xanımın danışdığı nağıllar müəssisənin səs arşivində saxlanılır".[1] Qeyd edək ki, "El bilimi"nin nağıllardan ibarət özəl sayları da dərc olunmuşdur. ("El bilimi" 26-cı say, Bəhmən, 1398; "El bilimi" 104-cü say, Şəhrivər, 1397; "El bilimi" 117-ci say, Mehr, 1398, Qadınlar qrupu; "El bilimi" 121-ci say, Bəhmən, 1398; "El bilimi" 123-cü say, Fərvərdin, 1399; "El bilimi" 125-ci say, Xordad, 1399).

Ümumilikdə, Güney Azərbaycanda Əli Zəfərxahın "El biligi sərvətimiz" (1383), "Folklor xəzanəsi" (1379), "Dəyərli el mirası" (1386, Təbriz), "Folklor varlığımız" (1388, Təbriz), "Kimliyimizin ruhu" (1393, Təbriz), Mir Hidayət Hesarinin "Seyri dər folklore Azərbaycan bər əsase munuqrafi-ye məntə-

[1] Əhəd Fərəhməndi. Ön söz. El bilimi, 125-ci sayı (Qızaran ay), 1399, səh.125.

qe-ye Yekanat" (1969, Tehran), Pərviz Yekani Zarenin "Azərbaycan şifahi el ədəbiyyatına bir baxış" (1377, Tehran), Əhəd Fərəhməndi və Rəhim Qabelnəjadin "Bağ-i Məruf Folkloru" (1391, Təbriz), Mələkə Nalbənd Əqdəmin "Biri var idi, biri yox idi" (1395, Təbriz), Əli Fəlsəfi Miyabın "El nağılları" 2 cilddə (1398, Təbriz) və s. kitablarında nağıllar haqqında məlumatlar verilmiş, eləcə də konkret nağıl mətnləri qeyd edilmişdir.

Kitabda yer alan "Ruzinin bolluğu", "Ağıciruğ", "Qulyabani", "Şeytan" nağılları "El bilimi" dərgisinin 92-ci sayında dərc olunmuşdur. "Ruzinin bolluğu" və "Şeytan" nağılları Zəhra Abdar tərəfindən qaynaq şəxs olaraq Səhənd şəhərində yaşayan Məsumə Həqsərşətdən yazıya alınmışdır. "Qulyabani" mətnini isə İlyas Əmirhəsəni oxuma-yazma bacarmayan anası Səfiyə Qədiridən (Qarağan, Razqan kəndi) dinləyib təqdim etmişdir. Əlirza Sərrafi tərəfindən təqdim edilən digər nağıl mətni "Ağıçiruğ" "Cırtdan" nağılının Həmədan variantı kimi qeyd edilir. Ə.Sərrafi sözügedən nağılla bağlı izahatda nağılın qaynaq şəxsi haqqında əldə heç bir məlumatın olmadığını, eləcə də səs faylının bütün mənbələrdə Həmədan variantı kimi göstərildiyini bildirir və "Ağıçiruğ" sözünün ifadə etdiyi mənaya da aydınlıq gətirir: "Yeri gəlmişkən, "Ağıçiruğ", yaxud "Ağıçırığ"ın mənası haqqında da izah vermək lazımdır. "Ağ" sözü qara rənginin qarşılığı olan rəngə deyilir. Bu ağın ən məşhur mənasıdır. Ancaq onun başqa mənaları da var. O cümlədən, bir mənası da ağ rəngi olan bez parça deməkdir. Qədim zamanlar şalvarın ortasına bir tikə ağ bez salardılar, buna sadəcə "ağ" deyilirdi. Demək farsların "xeştək" dediklərinə türklər "ağ" deyirlər. Beləliklə, Ağıçırığ sözü "şalvarının arası çırığ" anlamında ola bilər"[2]. Bundan başqa, "Yalançı qul", "Şah Abbasla keçəl", "Üç bacı", "Qızla qırx həramilər", "Xoruzun nağılı", "Noxud", "Quru kəllə", "Ovçu Pirim", "Torçu Səyyad" və s. nağıllar Havar İbadi tə-

[2] "El bilimi" dərgisi, 92-ci say, (Quyruq doğan, Zumar ayları), 1396, səh.94

rəfindən Marağa, Təbriz, Binab sakinləriindən, “El bilimi” kollektivinin toplayıcılığında “Anamın nağılları” başlığı altında yazıya alınan “Qarı nənə ilə qarğalar”, “Xoruznan padşah”, “Qarı ilə pişik”, “Əsalət” nağılları isə Raziyə xanım Behcətpurdan (doğum tarixi 1329, Marağa) Təbriz ləhcəsində qələmə alınmışdır. Qeyd edək ki, təqdim olunan nağıllar Quzey folklorumuzdakı folklor mətnləri ilə yalnız müəyyən süjet əlavələri, obraz artırmaları, dialekt və şivə xüsusiyyələri baxımından müqayisə olunmaqdadır. Bu mətnlərdə nağıl qəhrəmanlarının əhatə olunduğu təbiət, məişət predmetləri daha çox fərqlilik yaratmaqdadır.

Güney Azərbaycan folklorundan tapmacalar da kitabda xüsusi yer tutur. Azərbaycan şifahi xalq ədəbiyyatının çevik janrlarından olan tapmacalar bu və ya digər xalqın məişəti, həyatı, təsəvvür və düşüncələri əsasında yaranmaqla milli-tarixi xarakterə malikdir. Ən qədim zamanlardan başlayaraq el-obada müxtəlif məclislər – aşıq məclisləri, qış gecələri, toy mərasimləri və s. cavanlar arasında tapmacalar üzərində xüsusi oyunlar icra olunmuşdur. Maraqlıdır ki, xalq məişətində daha əski zamanlarda gəlini ata ocağından çıxaran oğlan adamları qız evinin gəncləri ilə güləş tutar, at yarışı təşkil edər, ya da söz – tapmaca ilə bir-birlərinə güc göstərib, oyun qurardılar. Ənənəyə uyğun olaraq keçirilən bu oyunlar onu göstərirdi ki, burada gənclərin fiziki gücü-güləş tutması, igidliyi-at çapması qədər onun ağıl və düşüncəsinin itiliyi də tapmacalar vasitəsilə simvolik şəkildə yoxlanılmışdır. Oyun üzərində qurulan və asudə vaxtın səmərəli keçirilməsinə yardımçı olan tapmacalar əslində, insan şüurunun inkişafına, məntiqi düşüncənin formalaşmasına bilavasitə təsir edir. Tapmacalar xalq məişətində müxtəlif mövzular – insan, heyvan, bitki, təbiət hadisələri əsasında həm nəzm, həm də nəsr formasında yaranmışdır. Kütləvi məzmun, quruluş-formaya malik tapmacalarla yanaşı, lokal yönlü tapmaca mətnləri də bütün xalqların folklorunda geniş yayılmaqdadır. Güney Azərbaycanda tapmacaların toplanılması və araşdır-

malara cəlb edilməsi ənənəsi də məhz Səməd Behrəngi və Behruz Dehqaninin adları ilə bağlıdır. Bu iş sonrakı dövrdə Behruz Həqqi, Zöhrə Vəfai, Əhməd Azərlu, Davud Kiyani və b. tərəfindən davam etdirilmişdir. Behruz Həqqi Türk ədəbiyyatı araşdırmalarının V cildini məhz tapmacalara həsr etmiş, kitabda 700-ə yaxın mətn qeydə alınmışdır (Türk ədəbiyyatı V. Tapmacalar, bilməcələr. "Azərbaycan" Yayın evi, 2000). Azərbaycan-türk tapmacalarının özəlliyindən danışan tədqiqatçı kitaba daha çox tapmacaların daxil edilməməsi səbəbini ön sözündə təəssüf hissi ilə bildirərək, Pəhləvi hakimiyyəti, fars şovinizmi səbəbi ilə janrın toplama və araşdırmalardan kənarda qalması ilə izah etmişdir. Hazırladığı tapmacalar kitabını el müəllimi Səməd Behrəngi və onun davamçısı Behriz Həqqiyə təqdim etdiyini bildirən Zöhrə Vəfainin toplamasında isə 800-ə yaxın tapmaca mətni qeyd edilir.[3] Davud Kiyaninin 1396-cı ildə çap etdirdiyi "Tap Tapmaca" kitabında Ərdəbil şəhəri və ətraf ərazilərdən topladığı 1750 tapmaca mətni verilməkdədir. Susən xanım Nəvadeyi Rəzinin "Ənnəmlə mən" kitabında Təbriz ləhcəsində qeydə alınan bir neçə tapmaca nümunəsi maraq doğurur: "Ənnə paprızını alışdırdı, kirbit çöpün mənə püflətdi, dedi:

– İndı denə görax bu nədi, girdədi girdəkan dəyi, quyruğu var siçan dəyi.

– Qırmızı tıpdi.

– Bərəkallah!

– Dörd bacım var, dördü də quyuya daş atar.

– İnəyin məməsidi.

– Bərəkallah!

– Tap bu nədi tapbaca, əyaxlari yapbaca, gözləri piyalaca.

– Dəvədi, dəvə…."[4]

Kitabda təqdim etdiyimiz tapmacalar Əhməd Azərlunun toplayıcılığında "Tapmacalar" kitabından (Təbriz, Əxtər, 1385)

---

[3]Zöhrə Vəfai. Tapmaca (Tapmacalar-bilməcələr). Təbriz, 1383.
[4]Ənnəmlə mən (Toplayıb, hazırlayan: S.Nəvadeyi Rəzi). Tehran, 1393.

transliterasiya edilmişdir. Kitaba yazdığı ön sözdə tapmacalar da daxil olmaqla folklor janrlarının yaranması, formalaşmasını xalq həyatı və məişətindən irəli gəldiyini söyləyən müəllif bu nümunələri hələ 16 yaşından başlayaraq el-obadan topladığını qeyd edir. Xalq məişətindən toplanan tapmacalar içərisində geniş işləklik qazanmış "Axşam baxdım çox idi, səhər baxdım yox idi", "Bazardan aldım bir dənə, içində var min dənə", "Bədəni var, qanı yox", "Saqqalı uzun sallanar, dama, daşa tullanar" tapmacalarıyla yanaşı, "Ağ quş suya töküldü" (düyü), "Bir balaca mil daşı, yandırdı yanın qaşı" (bit), "Alaca arğa, ləpləri yorğa" (qurbağa) və s. kimi orijinal mətnlər də diqqəti cəlb edir. Eyni bir predmetə söz oyunu üzərindən müxtəlif şəkildə yanaşılması bədii üsulu da ayrı-ayrı mətnlərin seçkinliyində fərqləndirilir. "Balaca gümbəz, qapısı yox", "Bir ağ otağım var, içinə yol yox", "Cıqqılı quyu, iki rəng suyu", "O yanı qaya, bu yanı qaya, İçində sarı maya", "Ağac motal ağzı yox, İçində ağ, sarı çox", "Bir bardaqda iki rəng su" və s. tapmacaların işarə olunduğu predmet məhz yumurta ilə bağlıdır. Təqdim edilən tapmaca mətnləri içərisində nəzmlə qurulan nümunələrə də geniş yer verilmişdir:

Bir atım var ay eylərəm,
Ölsə minnət eylərəm.
Ətini ataram o yana,
Sümüyün xeyrat eylərəm. (Çəltik)
Dümdüz idi meşədə,
Evdə başqa peşədə.
Üstə ilan uzanar,
Özünə köynək qazanar.
(Üstündə xəmir açan taxta)

Atalar sözü və məsəllərin xalq məişətinin demək olar ki, bütün sahələrində yaranması, eləcə də danışıq dilinin ayrılmaz tərkib hissəsinə çevrilməsi bu kiçik həcmli janrların zənginliyinə dəlalət edir. Əvvəlki illərdə çap olunan "Güney Azərbaycan folkloru" cildlərimizdə olduğu kimi, növbəti kitabda da

atalar sözü və məsəllərə ayrıca yer vermişik. Güneydə atalar sözlərinin toplanılması, çap və nəşr işləri ilə bağlı V, VIII, IX kitablarımızda geniş məlumat verdiyimizdən, bu məsələlər haqqında geniş danışmağa ehtiyac duymuruq.

Şifahi xalq ədəbiyyatının lirik növünə aid olan bayatılar yaranması, xalq məişətinə bağlılığı, tarixiliyi baxımından qədim janrlardan sayılır. Hələ ən əski dövrlərdən öz məişətini müxtəlif əl əməyi üzərində quran ata-babalar, ana-nənələr, qız-gəlinlər beşikbaşı, əkin-biçin, yas törənləri, toy-düyünlərdə və s. arzu-istəkləri, hiss-düşüncələrini bayatı dilində nəğmələr üzərində söyləmiş, bayatını həyatlarının bir parçasına çevirərək zəngin bir xəzinənin əsasını qoymuşlar. "Bayatıların izi insan oğlunun beşikdən məzara qədər bütün həyatında görsənməkdədir. Onlar ötən yüzillikləri arxada qoyaraq nəsildən-nəslə, ağızdan-ağıza axaraq durulub, sığallaşıb və bugünkü çağımıza gəlib çatmışdırlar. İnsan ən körpə çağından qulağına dəyən ana laylası kimi bayatılarla üns tapıb, istər-istəməz onun qanına və iliginə hopan belə ecazkar nəğmələrlə əbədi bir dinclik hiss edir. Yaşının gənc çağlarına ayaq qoyarkən öz içəri məhəbbət və eşq fəlsəfəsini bu söz parçalarıyla bəyan edə bilir. Əgər vətənindən ayrı düşürsə və ya həyatın hər nə ağrı və acılarıyla qarşılaşırsa yenə də bayatılarla incimiş ruhuna toxtaqlıq verir".[5] Qədim türk mədəni irsinin bir parçası olan bayatılar müxtəlif tayfa, etnoslarda olduğu kimi, Azərbaycan türklərinin folklorunda da digər xalq ədəbiyyatı janrları ilə müqayisədə daha aktiv, aparıcı janra çevrilmişdir. Ənənəvi musiqi mədəniyyətimizin əsasında dayanan bayatılar söz, musiqi, şəkil, mövzu, ifadə forma və şəkilləri, assosiativ-məcazi düşüncə sistemi, müxtəlif dil vasitələrinin koordinasiyası baxımından zəngin bir sistemə malikdir. Türkiyə türkcəsində "mani", İraq türklərində "xoyrat", qaşqaylarda "asa-

---

[5]Məhəmməd İbadi Qaraxanlı (Alışıq). Bayatı nə deməkdir? Bayatılar. (Ön söz), Təbriz, Əxtər, 1378. səh.5

nak", özbəklərdə "dördlük", türkməncədə "rübayi" adlandırılan bu janr türklərin "milli nəzm şəkli", "türk şeirinin təməli" olaraq əsaslandırılmışdır.

Bayatı janrının təşəkkülü, yaranması bütün hallarda onun aid olduğu xalqın mədəniyyəti, dili, tarixi qədər qədimdir. "Bayatılar tarix boyunca nəsillərin bəslədiyi arzu və nisgillərin, daşıdığı sevinc və kədərin və yaşadığı duyumların səbir daşı və qəm pıçağı olmuşdur".[6] Ayrı-ayrı dövrlərin müxtəlif sosial-siyasi hadisələriylə səsləşən yüzlərcə bayatı nümunələri və onların yayğın variantları daha qədim tarixi dövrlərə bağlı milli düşüncə və zamanın möhürünü öz üzərində qoruyub saxlamaqdadır.

Qeyd edək ki, Güney folklor mühitində toplanılan nümunələrin ayrı-ayrı bölgə materialları üzrə qruplaşdırılmaması uzun zaman qarışıqlıq yaratmışdır. Lakin Güneydə sonrakı illərdə fəaliyyət göstərən bir sıra dil və ədəbiyyat dərgilərində çap olunan toplama materiallarında xüsusi pasportlaşdırmanın aparılması bölgə bayatılarının öyrənilməsi işində yeni bir səhifə açmışdır. Məlumdur ki, folklorun ayrı-ayrı janrlarının yaranması, improvizasiya, poetik imkanları – dil, ifadə formaları və s. bilavasitə bu nümunələrin yarandığı sosial-siyasi mühit, tarixi şəraitlə sıx bağlıdır. Bu baxımdan bayatıların motivləşməsi də müvafiq ideoloji mühit, cəmiyyət hadisələri, məişət problemlərinə bağlı formalaşıb öz milli kökləri üzərində inkişaf edib, xalqın dilində yaşama hüququ qazanmışdır. Tanınmış folklorşünas M.H.Fərzanə vaxtilə Təbriz bayatılarının Güney mühitində toplanılıb öyrənilməsi tarixində ilk addımlar atmışdır. O zamanlar M.Ə.Qövsi adıyla yazan Fərzanə 1945-ci ildə Təbrizdə "Şəfəq" məcmuəsi, habelə 1946-cı ildə nəşr olunan "Azərbaycan ruznaməsi"nin ayrı-ayrı saylarında yüzlərcə bayatı nümunələri dərc etdirmişdir. 1946-cı ildə isə "Azərbaycan

[6]M.H.Fərzanənin Lənkəran folklor seminarında məruzəsindən. Azərbaycan xalq ədəbiyyatı. Bayatılar. Tehran, Əndişe-ye no, 1382.

ruznaməsi"nin 294-cü sayında ziyalılarda folklor toplama işinə maraq yaratmaq üçün bildiriş-elanı vermiş, nəticədə müxtəlif folklor mətnləri, ayrıca bölgə bayatılarının bir arada toplanılması işi sürətləndirilmişdir.

Sonrakı dövrdə Səlamullah Cavid Tehranda "Folklor nümunələri" adlı aylıq bülleten çıxararaq burada bir çox bayatılara yer vermişdir. 1960-cı illərdə Səməd Behrəngi başda olmaqla ayrı-ayrı ziyalılar yerli dərgi, qəzetlərdə şeir, nəsr nümunələri ilə yanaşı bayatı mətnləri də toplayıb dərc etdirmişdilər.[7] Təqdim etdiyimiz kitabda bayatı mətnlərinin böyük bir hissəsi M.Ə.Fərzanənin "Azərbaycan xalq ədəbiyyatından. Bayatılar" kitabından[8] və "El bilimi" dərgisində çap olunan toplama materiallarından transliterasiya yolu ilə əldə edilmişdir.

Bayatıların məzmun və poetik özəllikləri ilə bağlı onu demək mümkündür ki, ümumazərbaycan kontekstində Güney və Qüzey folklor mühitlərinin müxtəlif siyasi-sosial şəraiti janrın sonrakı inkişaf prosesində fərqli tendensiyada mətn variantlılıqlarını bir araya gətirmişdir. Beləliklə, Təbriz, Urmiya, Marağa və s. bayatıları həm ümumazərbaycan, həm də Güney bölgə materialı sırasında xüsusi funksionallığı, dəyişmə, ifadə formaları ilə seçilir, hər iki kontekstdə bayatılar bir sıra spesifik mətn özəlliyində fərqləndirilir.

Sözsüz ki, bayatılar da digər folklor mətnləri kimi şifahi şəkildə yaranır, bu və ya digər etnosun, xalqın yaddaşında zaman-zaman dəyişikliklər qazanaraq yenidən formalaşır, gələcək nəsillərə ötürülür. Qazanılan dəyişikliklər mətnlərin fikrə uyğunlaşdırılması, dil formalarının yenisi ilə əvəz olunması, ifaçının fərdi yaradıcılıq səylərində özünü göstərir. Əlbəttə, xalq tərəfindən qəbul edilən və mənimsənilən orijinal mətnlər sonrakı versiyalarında tam şəkildə dəyişikliyə uğramır, sosial-

[7]M.H.Fərzanənin Lənkəran folklor seminarında məruzəsindən. Azərbaycan xalq ədəbiyyatı. Bayatılar. Tehran, Əndişe-ye no, 1382.

[8]Azərbaycan xalq ədəbiyyatından. Bayatılar. M.Ə.Fərzanə, Tehran, Əndişei No, 1382.

tarixi şəraitdə mətn variantlarının yaranması başlanğıc məcaz sistemini tamamilə sıradan çıxarmır. Nəticə olaraq "miras nümunələrin"in ideoloji, estetik mahiyyəti, funksiyalılığı yeni tarixi şəraitdə belə demək mümkündürsə, hədəfə alınır. Burada bayatıların mətn variantlılığında fərqləndirilməsi daha çox səs dəyişmələri, oxşar, sinonim ifadə dəyişikliklərinə bağlıdır.

Kitabda bayatılarla yanaşı, xalq mahnılarına da ayrıca yer verilmişdir.

Beləliklə, həm güneyli soydaşlarımız, həm də əməkdaşlarımızın yorulmaz əməyi sayəsində toplanılıb, transliterasiya edilib bir araya gətirilən bu folklor nümunələri zəngin, illərlə qapalı saxlanılan bir xəzinədən götürülən kiçik bir parçalardır. Bu xəzinənin üzə çıxarılması, xalqın ixtiyarına verilməsi həm indiki, həm də gələcək nəsillər üçün böyük, zəhmətli bir işdir ki, onun həyata keçirilməsində elm adamları, ziyalılarımızın əməkdaşlığı vacib məsələlərdəndir.

***Mətanət Maşallahqızı (Abbasova)***
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***

***Əlirza Sərrafi***
***Tədqiqatçı, "Azərbaycan El bilimi" dərnəyinin rəhbəri***

# NAĞILLAR

## RUZİNİN BOLLUĞU

Biri var idi, biri yox idi. Tanrıdan sonra kimsə yox idi. Çox günlərdən sonra bir gün Allahın mələklərindən biri sual edir:

– Ya Rəbbi, niyə birinə çox veribsən, birinə az?

Allah tərəfindən səs xəlq olar:

– Mən sənə izn verirəm, sən get hər kəsə öz əliynən ruzi ver.

Mələk gələr aşağıya, görür bir kimsə yerdə oturub bir əli başını qaşıyır, bir əlin də açıb gədalıq eyləyir. Mələk yaxınlaşıb ona salam verib kef-əhval edər. Ondan soruşar:

– Tanrıdan nə istəyirsən?

O cavab verər:

– Hər şeydən əvvəl sağlamlıq, sonra bir balaca ruzi.

Mələk ona bir keçi balası verib ondan ayrılar. Bir az yol gedəndən sonra görür, yenə bir nəfər duvar dibində əmmamə kurudur, oturub onunla da danışır. Çox sözdən sonra soruşar, Allahdan nə istəyirsən? Deyir:

– Bir tək göz, bir azca da ruzi.

Mələk ona bir qoyun balası verib bir gözünü də sağaldır. Mələk yola düşər. Az gedər, çox gedər, görər bir ala xəstəliyinə düçar olan yolda oturub gədalıq edir. Mələk yaxına gedib halından xəbərdar olandan sonra soruşar:

– Allahdan nə istəyirsən?

Deyir:

– Bir sağlıq, bir də bir az ruzi.

Mələk ona da bir inək balası verər və gedər. Bir uzun müddətdən sonra Allah tərəfindən bir səs xəlq olar:

– Ay mələk, o kimsələr ki, onlara ruzi vermisən, onlardan xəbərin var?

Mələk deyir:

– Yox.

Bir daha səs xəlq olar ki:

– Get, onlara baş vur, xəbərdar ol.

Mələk aşağı enib əvvəl gedər birinci ruzi verdiyi keçəlin yanına. Yerini, yurdunu tapar. Görür çox varlanıb. Dağın ətəyində taxt qurub. Taxta çıxıb, dövrəsində nökər dayanıb, keçi sürüləri gözünün qabağında. Mələk gedib salam verər, keçəl saymaz. Mələk kef-əhval edər, keçəl eşitməz. Keçər lap yaxından deyər:

– Maşallah, çox varlanıbsan. Nə olar bir keçi balası da mənə verəsən.

Keçəl deyər:

– Olmaz!

Mələk deyər:

– Əvvəlliyin yadındadı?

Keçəl deyər:

– Mən əvvəlindın beləydim.

Mələk deyər:

– Belə olursa, Allah səni qaytarsın əvvəlki haluva!

Keçəl görər birinci dönə ki, duvar qırağında oturmuşdu, orda dübarədən oturub. Mələk də uzaqlaşır. Səsləyir ki:

– Gəl, keçilərin hamısını sənə verim.

Mələk deyir:

– Olmaz. Gördüyümü gördüm!

Mələk yol gedər, gedər, o qədər ki, ala xəstəsinin yanına yetişər. Görür, ala da çox parlıyıb. Dağın döşü doludu inəklə. Ala taxt qurub, qollu qoçlar da bərabərində dayanıblar. Kef-damaq dizdəndir. Mələk gedər qabağa, salam deyər. Ala təhvil almaz. Mələk deyər:

– Maşallah, çox varlanıbsan. Nə olar bir inək balası mənə verəsən.

Ala deyir:

– Verə bilmərəm. Qərar olsa verəm, öz balalarıma verərəm.

Mələk deyər:

– Eyb olmaz. Olara da ver, mənə də ver.

Ala qəbul etməz. Mələk deyər:

– Heç sənin əvvəlki halın yadındadı?

Ala deyər:

– Mən əvvəldən, dədə-babadan beləydim.

Mələk deyər:

– Allah qaytarsın əvvəlki haluvu!

Ala görər əyləşib gədalıq edir. Səslər:

– Ay qardaş, inəklərin hamısı sənin.

Mələk deyər:

– Yox, olmaz!

Ordan keçib gedər. Az gedər, çox gedər, kor qardaşı tapar. Görər bu da onlara ta dağ döşündə taxtını qurub. Kefi saz, damağı çağ, nökərlər bərabərində. Qabağa gedib salam verir. Kor durar ayağa, mələki təhvil alar, yerini ona verər. Mələk qəbul etməyə-etməyə kor deyər:

– Sən mənim qonağımsan. Xoş gəlmisən, qonaq əzizdi.

Bir qədər dağdan-bağdan söhbətdən sonra Mələk deyər:

– Mənə bir qoyun balası verərsən?

Kor deyir:

– Hamısını da verə bilərəm. Allah bu sağlamlığı mənə verib. Dübarədən hamısını qazana bilərəm.

Mələk deyər:

– Bərəkətli olsun, Allah bundan da çox eləsin.

Mələyin sözündən sonra onun sürüsü qat-qat artar.

## AĞICİRUĞ[9]

Biri var idi, biri yox idi, Taridan ğeyri heş kim yox idi. Uzağ yollərdə bir meşə var idi. Bu meşədə bi dana qarı var idi. Bu qarının bi dana balacə nüvəsi var idi. Nüvəniy adı Ağıciruğ idi. Bu Ağıciruğ çox təmbəl idi. Amma çox da huşli idi. Bir gün Ağıciruğnan uşaqlar gedəllə odun – alışuğ yığmağə. Qarı da Ağıciruği tapşırır o biri uşağlara.

[9] Bu nağılda Həmədan şivə xüsusiyyətləri mümkün qədər qorunmuşdur.

Xulasə bular gethaget çatəllə meşiyə. Başlallə odun-alışuği yığmağə. Amma Ağıciruğ tutər yuxlər naharacəy, uşağlar gələllə görəllə ki, Ağıciruğ heş odun-alışuğ yığmiyib. Ağıciruğ başlar uşağlara yalvarmağə ki:

– Hər biriz mənə bi dana ağaj vəriy! Mən kəndə çatandə sizə iydə verərəm.

Diyillə:

– Yaxçı, gə!

Hər biri bir ağaj verillər Ağıciruğa. Annan Ağıciruğ baxar görür ki, heş buların alışuğları bağlıya bilmiri. Uşağlərə diyir ki:

– Uşağlər, gəlin siz bu odunların ipinən bağliyiy mənimçin. Kəndə çatandə biri bi dana qoz verərəm.

Hammi diyər:

– Yaxçı.

Gələllə bağləllə biləsi için.

Canım disin biləyiz içi ki bular elə alışuğ zad yığmağə, birdən görəllə ki, qaş qəraldı, hava qərənquluq oldi. Bular getdilə bu taya, getdilə o taya, yolu itirdilər.

Biri didi: – Sağdan gedək!

Biri didi: – Soldan gedək!

Birdən gördülər ağajlar arasından bir dənə işıq gəlir. Didilər:

– Gəlin gedək, orada bir ev var. Ev sahab buraləri taniyər. Yol görsədər biləmizə, qeyidərik eyimizə.

Hammı yola düşdi. Birdən gördülər, bi dana yekkə öy. Qapı-bacəsi çox böyük. Didilər:

– Nəmə eliyək?

Didi:

– Da çarə yoxdi.

Qapını çaldilə. Birdən bi danə yekkə döy çıxdı qapıya. Öz yanında didi:

– Bəh, bəh, bəh, bu gecənin şamı da öz ayağinən gəldi qapimizə.

Da üzünə gətirmədi. Gülə-gülə dedi:

– Balələrim, can balələrim. Siz harə, bura harə?

Uşağlər də hal-qaziyyəni tərifllədilə. Didilə:

– İtmişik. Bu gecəni sizdə qalaq.

Döy dedi:

– Bi zat deyil. Hamı yatuğ, mən ki ayuğ. Gəlin bu gecəni burda yatın. Səhər apararam, yoluvuzu görsədərəm.

Uşağlar çarəsiz getdilər içəri. Birdən Ağıciruğ adam sümüklərini gördi ki, öyün guşə-bacəsində düşübdü. Da uşağlar bir söz demədi ki, oları qorxutmuya. Döy hamıya ğəza verdi, yedilər. Oları çığatdı yedi. Sora döy oları apardı saldı bir dənə otağa, qapısını da daldan qıfılladı. Tab elədi ki, bular yatalar. Bir az keşdi, döy gəldi, qapı çaldı, dedi ki:

– Kim ayuğ, kim yatuğ?

Ağıciruğ dedi ki:

– Hamı yatuğ, Ağıciruğ oyaq.

Döy dedi:

– Ağıciruğ balam nəmə için ayuğ?

Ağıciruğ deyir:

– Axı, mənim nənəm gecələr mənimçin yumurta pişirirdi, mən yeyirdim.

Döy də deyir ki:

– Nəmədi sənin için mən yumurta pişirərəm, verərəm yeyərsən.

Öz yanında deyir ki:

– Verərəm sən yumurtanı yeyərəy yuğunlayaray, mən də səni yeyərəm.

Yumurtanı pişirir, gətirir verir, Ağıciruğ yeyir. Gənə bir az səbr elər, vaqt keçər, döy gələr, səslər:

– Kim yatuğ, kim ayuğ?

Ağıciruğ səslər:

– Hamı yatuğ, Ağıciruğ ayuğ.

Döy deyir:

– Balam, Ağıciruğ, nəmə için ayuğ?

Ağıciruğ deyir:

– Axı, nənəm mənə gecələr qəlbirdə su gətirərdi.

Döy deyir:

– Qəlbir nəmədi?

Deyir:

– Odu bax, dəluk-dəluk qaf vardı, oninən.

Döy qəlbiri götürür, gedir çaya sarı. Hər neynir bunnan su götürə gələ, olmaz. Bir də qayıdır su götürür gələ, gəlməz. Gələr Ağıciruğa deyir ki:

– Qəlbirdə su gətirə bilmədim. Olar kuzədə biləyin içi su gətirim?

Deyir:

– Əlin ağrımasın!

Döy də diyir:

– Bi zat deyil. Sən iç, yuğunnə, mən də səni yeyərəm.

Gənə bir az keçir, döy səslənir:

– Kim ayuğ, kim yatuğ?

Ağıciruğ deyir:

– Hamı yatuğ, Ağıciruğ ayuğ.

Döy diyir:

– Balam, Ağıciruğ nəmə için ayuğ?

Ağıciruğ deyir:

– Axı, mənim nənəm gecələr mənə məkə pişirərdi, yeyərdim.

Döy deyir:

– Məkə nəmədi?

Ağıciruğ deyir:

– Bilmirəy məkə nəmədi? Məni burdan çığat, sənə görsədim məkə nəmədi?

Ağıciruğu otağdan çığardır, Ağıciruğ görür həyət guşəsində bir dənə ağaj var, miyvələri yetişib. Bir fikir çatər başına, diyər ki:

– O miyvələri görürəy ağaj başində, olar məkədi. Həyətində məkə var, sən necə bilmirəy məkə nədi?

Döy də allənər diyir:

– Nəmə eyləyim?

Deyir:

– Bir dana ot alışdır, bu miyvələri tut dişinə, saxla od üstündə pişsinlər, mən də gəlim oları yiyim.

Döy də öz yanində diyir:

– Bir zat dəyil. Sən məkə ye, yuğunnə, mən də səni yiyərəm.

Döy meyvələri tutur dişinə, saxlar od üstündə. Birdən miyvələrin suyu tökülür oda, tütün elər, girər döyün gözünə. Gözləri də görməz. Ağıciruğ da uşağları yuxudan ayıldır, deyir:

– Nə yatmışız ki, döy istiyir bizi yiyə. Durun qaçaq.

Əl qoyullar qaçmağa. Oyanan da uşağların dədə-nənələri nigarançılıqdan gəlmişdilər meşəyə, uşağlarını axtarmağa. Orda bir-birini tapıllar, qaçıllar.

Döy də ki gözləri kor olmuşdu. Düşür oların dalısına. Amma gözü görməz, düşür suya, çay aparır biləsini. Bizim də burda qissəmiz tükəndi.

Göydən üç alma düşdü. Biri səniy, biri mənim, biri də Allah qulinin.

## QULYABANI

Uzax zamanlarda bir dənə kişi varumuş və bunun ailəsində bir dənə gözəl qızı varumuş. Bir gün bu qız gedər bulaxdan su gətirə, qulyabani bunu tutar aparar. Bir mağarada saxlayar. Orda bu qızdan iki dənə uşaq dünyaya gələr.

Bir gün ki kəndin davarı gedər o mağara sarı. Bu qız davarların tanur, qolbağın salar keçilərinin şaquna. Gecə ki davarlar gələr evə, kişi görür qızının qolbağı keçinin şaqundadı. Anlar, gedər çobanın sorağına. Soruşur:

– Əmi can, davarı bu gün hansı tərəfdə yayırdın?

Çoban deyir:

– Necə məgər?

Deyir:

– Heç, elə-belə.

Çoban deyir:

– Getmişdim Ağ qaşa tərəf.

Kişi gedər qızını tapar gətirər. Ondan belə qulyabanı gələr ha deyir:

– Mahı, mahı, balalarıvu uhi, uhi.

## ŞEYTAN

Biri var idi, biri yox idi, Allahdan savayı heç kim yox idi. Bir uzun müddətdən sonra bir kimsə tapılır, şeytandan soruşur:

– Niyə hamı sənə lənət deyir?

Şeytan deyir:

– Mən də bilmirəm. Mən heç bir iş görmədən lənət qabı oluram. İnanmırsan gedək görsədim!

O adam şeytanla bərabər yola düşürlər. Şeytan onu bir tövləyə aparar. Bir inəyin mıx tövləsini tərpədir, deyir gəl gedək.

Şeytan gedir şeytanlığının dalısınca. O adam qalar görsün nə olur.

İnək tövlədən çıxar, sallana-sallana mıx tövləni dalısıca çəkə-çəkə gedər. Xanımın ayna bəzək otağına yetişər. Dörd dörə aynalarda inək öz əksini görər. Onları da inək sanıb onlarla güləşə dayanar. Buynuzlarıyla onlara həmlə edib nə ki ayna varıydı sındırıb tökür yerə.

Hay-küyə kəniz qaça-qaça gələr. Odayı görüb iki əli olar, bir təpəsi. Əsəbləşib çubuğ ağacın götürür, düşür inəyin canına. Döyə-döyə aparar həyətə. İnək uzanar, ölər. Kəniz narahat bir küncdə dizlərini qucaqlar. Xanım hamamdan gələnə qədər oturar. Xanım həyətə girəndən sonra soruşar:

– Bu inək niyə ölüb?

Kəniz hal-qəzyəni deyir. Xanım düşünüb-düşünməmiş deyir:

– Sənin nə borcun idi inəyi öldürəsən?

Ağacı götürüb düşür kənizin canına, vurhavur... Kənizin səsi çıxmır. Öz-özünə deyir ki:

– Mən otaqların aynasını sala bilərdim.

Bir az sonra evin ağası gələr həyətə. Görür inəyin ölüsü bir yanda, kənizin ölüsü o biri yanda. Xanımı da dizlərini qucaqlayıb hovuzun kənarında oturub. Hal-qazyəni soruşar. Xanım başına gələnləri söylər. Kişi iki ölünü görüb gözlərinin qabağını qan tutar. Çubuq ağacıyla düşür xanımın canına. Nə yemisən, turşulu aş. Vurar ha vurar. Deyə-deyə ki:

– Köpəyin qızı, sən niyə xalqın qızın öldürürsən!?

Bir zaman ayılar ki, xanım da öz əlində ölüb!

Hay düşür, xanımın qohumları tökülürlər ağanın üstünə. Nə yemisən, turşulu aş. O qədər vururlar ki, o da ölər, nəfəsdən düşər. Xəbər yetişər ağanın qohumlarına. Tökülərlər, qohum davası düşər, çox adam həlak olar. Ölüləri yığışdırıb quyulayanda şeytan o adam ilə üzbəüz olar. Şeytan deyir:

– Gördün, mən heç bir iş görmədim?

O adam deyir:

– Dünyanı vurdun bir-birinə. Allah sənə lənət eləsin!

## GƏVƏNÇİ VƏ QIZILQUŞ

Biri var idi, biri yox idi. Allahdan savayı kimsə yox idi. Bir qoca kişi var idi. O, hər gün tezdən yuxudan durub külüngün götürərdi və gəvən yığmağa gedərdi. Və hər axşam yorğun evə qayıdardı və gəvənləri satıb onun puluynan əhli-əyalına çörək qazanardı.

Günlərin bir günü gəvən dərəndə gördü ki, bir quş gəvənin üstündə yatıb. Quş gəvənçini görcək uçdu, getdi. Bir yumurtası qaldı. Gəvənçi axşam çağı bu yumurtanı evinə gətirdi və arvadına verdi. Sabah oldu, gəvənçi getdi gəvən yığmağa. Uşaqlar da məktəbə getdilər. Arvad yumurtanı götürüb bazara getdi. Bazarda bir yəhudi var idi. Yumurtanı arvadın əlində görcək müştəri çıxdı. Ona yaxşı pul verib dedi:

– Hər gün bu yumurtadan mənə gətirsən, yaxşı pul verərəm.

Arvad axşam kişiyə dedi:

– Kişi, hər gün bu quşun yumurtasın mənə gətir. Gətirməsən, evə gəlmə.

Qoca kişi hər gün gedirdi gəvənin üstündən yumurtanı götürüb arvadına gətirərdi. Arvad da yəhudi kişinən aranı sazlamışdı və tamah arvadı yoldan çıxartmışdı. Bir gün yəhudi kişi arvada dedi:

– Əgər kişi bu quşun özün gətirə, sən başın kəsib məni qonax eyləsən, səni dünya malından biniyaz eylərəm.

Arvad aldandı. Qoca kişini zora basdı:

– Gərəh bu yumurtaların toyuğun mənə gətirəsən. Yoxsa evə qoymuyacağam.

Gəvənçi çölə getdi. Axşamacan çalışdı, bu quşu tutdu və evə gətirdi. Arvad sevincəh quşu alıb səbət altına qoydu. Səhər oldu, hər kəz öz işinə getdi. Arvad quşun başın kəsib pişirdi və bazara gedib yəhudi kişini qonax çağırdı. Uşaxlar məktəbdən çıxdılar, gəldilər gördülər nənələrinin qonağı var, çölməh də ocağın üstündə qaynayır. Çölməyin ağzını aşdılar. Böyük oğlan quşun cigərini götürdü, ütdü. Balaca oğlan da ürəyini ütdü. Nənələri gəldi qazanı çəkdi ta qonağına versin, yəhudi kişi gördü ki, bu quşun ürək-cigəri yoxdu. Arvad pərt oldu dedi:

– Hətmən balaca nökərrərin bilməyib yeyiblər.

Arvada dedi:

– Onda gərək uşaqları öldürüm, quşun ürək-cigərin oların qarnınnan çıxardam. Yoxsa səni də öldürəcəyəm.

Uşaxlar bu sözü eşidib evdən çıxdılar, qaçdılar, şəhərdən çıxdılar. Az getdilər, çox getdilər. Axşam oldu, bir ağacın altında başların qoyub yatdılar. Səhər quşun səsinə ayıldılar. Balaca qardaş gördü bir kisə pul başının altında var. Bu pulu götürdülər, yola düşdülər, bir şəhərə yetişdilər. Bir az yemək-içmək aldılar, yedilər. Bir müsafirxana tutdular və gecəni yatdılar. Genə səhər tezdən bala qardaşın başının altından bir ki-

sə pul götürdülər. Müsafirxananın pulun verib yola düşdülər. Bir neçə müddət belə qaldılar.

Günlərin bir günü bir şəhərə yetişdilər. Gördülər camaat yığışıb. Soruşdular:

– Nə üçün bura yığışmısınız?

Dedilər:

– Bizim məmləkətin şahı ölübdü. Bir güvəçin uçurdacaxlar. Hər kəsin çiynunə qonsa, o adamı şah edəcəklər.

Bu iki qardaş camaatın yanında durdular. Bir müddət keçdi. Məmurrar bir güvərçin uçurtdular. Güvərçin gəlib böyük qardaşın çiynində oturdu. Camaat əl çaldılar və bu qardaşı şahın qəsrinə aparıb bu məmləkətin şahı elədilər. Balaca qardaş şahdan xudafizləşib yola düşdü. Getdi bir əlahi şəhərə yetişdi. Bu şəhər bir gözəl, abad şəhər idi. Oğlan şəhərdə gəzirdi. Bir müsafirxana gördü, çox qəşəng. Girdi içəri, gördü bir gözəl xanım əyləşib. Dedi:

– Mən gecəni bu müsafirxanada qalmax istəyirəm.

Xanım dedi:

– Buranın pulu bahadı. Hər adam burada qala bilməz.

Oğlan dedi:

– Hər neçə olsa olub. Mən verə bilərəm.

Xanım buna bir qəşəng otaq verdi. Oğlan bu müsafirxanada qaldı, yedi, içdi, özünə xoş keçirtdi. Gecələr buranın müsafiri yığılıb bu xanımnan nərtaxta oynuyub yeyib, içib xoş keçirdillər. Bir zaman keçdi. Bu xanım gördü oğlan nə işə gedir, nə pul qazanmağa gedir. Amma hər gün müsafirxananın pulun verir. Bir gecə bu oğlanın otağın güddü. Gördü səhər başının altından bir kisə pul götürür və bu xanıma verir. Xanım bildi ki, bu oğlan qızıl quşun qəlbin udubdu. Gecə oldu, xanım oğlanın ğazasına bir maddə qatdı. Oğlanın ürəyi bulandı və haldan gedib qusdu. Qız tez əlin atıb quşun ürəyin ağzına qoyub uddu. Oğlan yuxudan ayıldı. Əlin başının altına apardı. Gördü puldan xəbər yoxdu. Bir gün, iki gün, müsafirxananın pulun verə bilmədi. Bu xanım oğlana acıqlandı və eşiyə saldı. Oğlan məlul-

müşkül müsafirxanadan çıxdı. Gəldi qardaşının yanına və dastanı qardaşına dedi. Padşah bir neçə nəfər də nökər-nayib götürüb qızın müsafirxanasına gəldi. Gecə-gündüz bu xanıma çoxlu pul verir. Gecələr də nərtaxta oynuyur. Bir gecə xanımı bihuş eyləyir, qusdurur və qızıl quşun ürəyin qardaşına verir. Və tapşırır ki, özündən gərək çoxlu muvazib olsun.

Sizə deyim gəvənçidən. Gəvənçi uşaqlarının ayrılığından o qədər ağlamışdı, kor olmuşdu. Bir gün şahın başı açılmışdı, atası yadına düşdü. Qardaşın çağırıb dedi:

– Biz öz vilayətimizə getməliyik.

Yola düşdülər. Yorulmuşdular. Bir suyun kənarında, ağacın altında yatdılar. Başlarının üstündə bir səs gəldi:

– Bacı, bilirsən bu oğlanlar kimdi, yatıblar?

Dedi:

– Kimdi?

Dedi:

– Həmin gəvənçinin oğlanlarıdı. Cəlayi-vətən oldular. Dədələri ağlamaqdan kor olub. Əgər bu ağacın yarpağından götürüb aparıb suyun atalarının gözünə salsalar, gözü açılar.

Padşah gözün açdı. Başlarının üstündə iki güvərçin gördü. Güvərçinlər deyib uçdular. Uçanda iki yarpaq yerə düşdü. Padşah bu yarpağı götürüb cibinə qoydu. İki qardaş yola düşdülər. Getdilər ta öz vətənlərinə yetişdilər. Gördülər ataları ağlamaxdan kor olub. Yarpağı əzib suyun atalarının gözünə saldılar. Ataları gözün açıb oğlanları qucaxladı. Oğlanlar baslarına gələn macəranı atalarına dedilər. Yəhudini mühakimə eyləyib öldürdülər. Nənələrin bağışladılar və padşah öz qəsrinə apardı, qardaşın özünə vəzir eylədi və bir ömür xoş yaşadılar. Siz də xoş yaşayın.

## KEÇƏL (1)

Keçmiş zamanlarda şahın bir qızı var idi. Onu lap cana gətirmişdi. Vəzirinə dedi:

– Birini tapıb bu qızı səssiz ərə verək, başımızdan olsun.

– Qurban, bir car çəkdir. Carçılar desinlər, hər kəs subaydı, şah onu evləndirəcək. Bütün subaylar bura yığılandan sonra bir-bir çağırıb qabaqlarına bir kasa duz qoyarıq. Şərt eləyərik. Hər kəs bu dolu kasa duzu yeyib qurtara bilsə, şah qızını ona verəcəyik.

Şah vəzirin sözün qəbul edib carçılar xəbəri şəhərdə yayandan sonra çoxlu subay oğlan ayaq qabağa qoyub razılıq elədir. Hər kimsənin qabağına bir kasa duzu qoydular, onu bütün yeyə bilmirdi. Subayların içindən bir keçəl oğlan gəlib oturdu. Şah soruşdu:

– Oğul, sən nə üçün gəlmisən?

– Şah sağ olsun, gəlmişəm duzu yeyib qızı alam.

– Olsun, başla ye, hamısını yeyə bilsən, qız sənindir.

Keçəl oğlan barmağını ağzının suyu ilə isladıb, kasada olan duza basıb barmağını yalayandan sonra dedi:

– Mən duzu yedim!

– Qabaqkı elçilər qaşıq-qaşıq bu duzdan yeyiblər, amma qurtara bilmədiklərinə görə qızı ala bilməyiblər. Sən bir barmaq duz yalamaqla istəyirsən, onlardan qabağa keçib qızı aparasan?

– Şah sağ olsun, mənim nəzərimdə bir hündür duz dağını yemək ilə, o dağdan bir dadım dadmağın heç fərqi yoxdur. Mən duz yeməyin dəyərini bilsəm, bir barmaq yalamaq yetər. Amma bilməsəm, bu kasanı bütün yesəm də, yenə bilməyəcəyəm.

Şah üzün tutub vəzirə dedi:

– Bu oğlan dərin fikir adamıdır. Mənim qızımı da yaxşı saxlaya bilər. Qızı ver bu oğlana. Yaşamaları üçün hər nə də istəyirlər, ver, aparsınlar.

## KEÇƏL (2)

Biri yox imiş, biri var imiş bir keçəl var imiş. Bir ağacı var imiş. İldə üç alma gətirərmiş. Bir gün durub görür, almanın biri yoxdu. Bir başına vurur, bir ... vurur. Deyir:

– Səhərdən güdəcəm. Görüm mənim almamı kim yığır?

Güdür, güdür, güdür, yuxusu aparır. Tülkü gəlib almanın birin də aparır. Yenə sabah durur, görür. Bir başına, bir .... deyir:

– Day, bu gündən yatmayacağam.

Yatmır. Görür, hə! Tülkü gəldi su arxından girdi. Ağaca çıxan yerdə tutur tülkünü:

– Köpəyin malı (Köpəgin malı) səni öldürəcəm, – deyir.

Tülküyə bir dənə, iki dənə vurur. Tülkü deyir:

– Məni vurma! Sənə şahın qızın alaram.

Deyir:

– Axı necə alarsan?

Deyir:

– Sənin işin olmasın.

Tülkü gedib oturur şahın qapısında, yolçu daşının üstündə. Şaha xəbər gedir:

– Şah! Başın sağ olsun! Tülkü gəlib oturub yolçu daşının üstündə.

Deyir:

– Pul verin, getsin!

Getmir, deyir:

– Mən yolçuluğa gəlməmişəm, elçiligə gəlmişəm!

Gedib, deyirlər:

– Şah! Başın sağ olsun! Deyir, mən yolçuluğa gəlməmişəm, elçiligə gəlmişəm!

Şah deyir:

– Neynək! Deyin gəlsin!

Şah soruşur:

– Tülkü! Neyçün gəlibsən?

Deyir:

– Elçiligə.

Deyir:

– Kimə?

Deyir:

– Keçələ. Nə istəyirsən de, gətirim.

Deyir:

– Yeddi dəvənin yükü qızıl.
Deyir:
– Yaxşı.
Gedib, keçələ deyir. Keçəl deyir:
– Mənim nəyim vardı? Səni öldürəcəgəm!
Deyir:
– Yox! Öldürmə! Curlaram.
Deyir:
– Axı necə?
Deyir:
– Sənin işin olmasın!
Tülkü gedirmiş. Görür, divlər özlərin günə verirlər. Divlər deyirlər:
– Nə eləyirsən?
Deyir:
– Axtarram! Sizi gəzirdim. Dalızca gəlmişəm, bir xəbər verim. Şahın dəvələri qotur tutub. Sizi gəzir. Sizin ətiz ona dərmandı.
Deyirlər:
– Nə eliyək?
Deyir:
– Girin samanda gizlənin!
Gedəndə də tülkü bir qıran pul tapır. Ona nöyüt (neft)nən kirpit alır. Onlar samana gircək onları otlayır. Sonra girir divlərin evinə. Nə qədər pulları, qızılları var imiş, aparır keçələ. Yeddi dəvənin də yükün şaha aparır.
Şah gördü ki, ah dədənnən! Bu bir məmləkətin şahıdı, heç bir dəvənin yükü qızılı yoxdu. Götürür, qızı verir. Qırx gün-qırx gecə toy elir.
Sonra qız gedib, iki gündən sonra keçəlnən savaşır, keçinmir. Acıq eliyib gəlir, dədəsinin evinə. Sonra keçəl tülkünü yollayır. Tülkü gəlir aparır. Genə bir-iki gündən sonra savaşırlar. Keçəl genə gedir, yalvarır tülküyə. Genə tülkü gedib gətirir.
Bir gün oturmuşmuşlar. Tülkü deyir:

– Mən bu qədər sizə pul-qızıl verdim, zindəganlığıvızı dəyişdim. Mən öləndə bir qızıl bu əlimə, bir qızıl da o biri əlimə qoyub basdırasız!

Bir gün tülkü yalandan özünü vurur ölmüşçülüyə. Arvad gedib keçələ deyir:

– O sovxa ölüb. Get onu götür apar at küllügə.

Keçəl də gedib onu bir kürgin üstünə qoyur aparır, atır küllügə. Bir azdan sonra tülkü durub çırpınır gəlir.

Bir-iki gündən sonra genə də bular savaşırlar. Arvad acıq eləyib gedir dədəsi evinə. Keçəl nə qədər gəlir tülküyə yalvarır. Tülkü deyir:

– Gətirməyəcəgəm. O belə qızıldan bir dənə mənim əlimə qoymadın.

Keçəl qoyul verir ki, bu dəfə ölüb-eləsə əlinə qızıl qoyalar. Sonra tülkü gedib gətirir. Bir gün tülkü doğru-doğru ölür. Bir qızıl bu əlinə, bir qızıl da o əlinə qoyub ovucların bağlayırlar. Sonra basdırarlar. Keçəlnən şahın qızı, day yaşayırlar.

## EŞŞƏYİNƏN DƏVƏNİN NAĞILI, YA ELAT NAĞILI

Bir oba var idi. Burda elatlar durdular köçməyə. Elat qismi köçəndə görüsən cəhrənin sınığın, dəhrənin sınığın, keçinin, qoyunun nəmənə arıx-uruğu var, töküb gedirlər. Deyirlər: "Bu da qurd-quş payı".

Bunlar yurd yerində bir arıx dəvə qoydular, bir eşşək, bir tazı, bir xoruz, bir inək, bir də bir keçi qoydular. Demə, bunlar altısı bir oba oldular. Yavaş-yavaş onlar köçüb getdilər, bunlar qaldılar.

Gəlin sizə kimdən danışım, keçinən, inəhdən. Keçinən inəh dağın döşündə otluyurdular. Canavar öz-özünə dedi:

– Deyəsən, oba köçüb yurd yerində inəhnən keçi qalıb, onları yemiyəsən, olmayan bir işdi.

Sən ölmiyəsən, keçi baxdı gördü ki, canavar gəlir:

– İnəh qardaş, canavar gəlir – dedi.

– Neyniyəh, heç zad, sən get orda yat, daşın dibində. Mənə sarı gələndə sən ordan qışqır, bəyə çıxa gedə, başımızdan ola.

Canavar yaxınlaşmışdı, keçi birdən daşın dibindən durdu:

– Mənim adım Abdalkərimdi, qavala çəkilən mənim dərimdi, belə-belə daşlarım var mənim.

Daşdan götürdü yağdırdı. Canavar gördü, baba, Abdalkərimin daşları bunu işdən saldı. Sapand daşından bərk gəlir, qayıdıb qaçdı. Bunlar gözəl birlikdə bu dağda yedilər, içdilər, kefə baxdılar.

Gəl indi tazıynan xoruzdan deyim. Tazıynan xoruz qalıb yurd yerində. Xoruz dedi:

– Tazı qardaş, neyliyək? Mən diləyirəm, buğdadan, otdan sənə, axı bir şey yetişmir.

– İstəyirsən mənə xörək yetişsin, mən girim qalağın içində yatım, sən çıxginən qalağın üstündə quqqulda. Sən ki quqqulduyasan, bir heyvan tapılar, tutaram, yeyərəm.

Tazı girdi qalağın altında yatdı. Xoruz çıxıb qalağın üstündə deyir:

– Quq-qulu-qu!

Səhər oldu, heç bir gəlib-gedən yox. Tülkü bilirdi, oba köçüb gedib, yurd yerində heç kim yoxdu.

– Balam, yurd yerində heç kəs qalmayıb. Oba dünən köçdü, çıxdı getdi. Qalan da yoxdu. O xoruz hardadı? Sən ölmiyəsən, qarının xoruzu yadından çıxıb qalıb. Gəl getginən, bunu tut, kabab elə.

Bir az yaxınlaşdı, gördü, xeyir, elə xoruz çıxıb qalağın üstündə quqqulduyur. Cana bala – dedi.

İndi bi yol tülkü dilin işə salıb özün tərifləyir:

– Bəh-bəh, göz deyil ki, şahçıraqdı, şahçıraq. Qulaq deyil ki, dufarı dəlir. Quyruq deyil ki, ləldi ləl!

Tülkü ki özün belə tərifləyir, gəldi dedi:

– Xoruz qardaş, buranın yolu hardandı?

İstəyirdi yaxınlaşsın xoruza, xoruz dedi:

– Sözün düzün axtararsan, mənim yaşım azdı. Nənəm məndən aşağa cücə çıxardıb, qalağın qapısından nənəmdən soruşginən desin.

– Can bala, bi xoruz, bir nənəsi, on balası mənim beş-on gün qəlyanaltımı görər.

Gəldi yavaş-yavaş qalağın qapısından xoruzun nənəsini çağırdı. İçəridəki dedi:

– Qorxma, gəl içəri qonaq!

Başın belə uzatdı xoruzun nənəsini tutsun, başın içəri uzatmağınan, tazının içəridən çıxması bir oldu. Tazı bunu götürdü qovalağa. Ha burda, ha orda. O qədər qovaladı, tülkü özün batırdı, t…..d, hər yeri batdı. Ancaq tülkü qaçıb bunun əlindən qurtardı. Tazı istədi qayıda, dedi:

– Tazı qardaş, savadız yoxdur, mən gəlmişəm sizlərə savad öyrədəm. Bu kənd çətin abad olar. İndi gəlib o yana deyir, göz deyil ki, kordu kor, qulaq deyil ki, kardı kar, quyruq deyil ki, p…., p…. Sən bilmirsən bu kənddən bir xoruz olsa, onun da bir güdükçüsü olar. Nəyə gedirsən irəli, axmaq, sən qəlbidən xoruzu tut, düzəl yola da.

Tülkü yanıxlana-yanıxlana ordan vızdı.

İndi sizə deyim, eşşəyinən dəvədən. Eşşəyinən dəvə yorulub yurd yerində qalmışdı. Bunlar getdilər meşədə yedilər, içdilər, kökəldilər. Bi gün eşşəh dedi:

– Dəvə qardaş, bilirsən nə var?

Dedi:

– Nə var?

– Mənim anqırmağım gəlir, – dedi.

– Yox ha, sözə bax. İnsaf eləginən. Aparıb yenə çatarlar, belin yara olar, ölərsən ha!

– Dəvə qardaş, yeyib doymuşam, anqırmağım gəlir.

Dəvə:

– Özün bilərsən, – dedi.

Eşşəh başladı bir ağız anqırmağa. Birin, ikisin anqırırdı. Bir çərçinin eşşəyi ölmüşdü, yükü yurdda qalmışdı. Qulaq verdi gördü, bağda bir eşşəh anqırır. Bu eşşəyin dalısıcan getmişdi, gördü bir də bir dəvə var. Bunların ikisini də sürdü, götürdü gəldi. Gətirdi cahazı basdı dəvənin belinə, palanı da basdı eşşəyin belinə. Eşşəyin qulağı sallandı, mısmırığı sallandı. Çərçi gördü eşşəh yorulub, gətirdilər eşşəyi çatdılar öz yoldaşının belinə. Dəvə yavaşca bunun qulağına dedi:

– Xəbərin var, səni elə yerdə çalacağam yerə, dərdinə dərman olmasın.

Eşşək:

– Dəvə qardaş, insaf elə, – dedi.

– Dedim ha insaf elə, sözümə baxmadın.

Bunlar getdilər, getdilər, yetişdilər bir gur çaya. Çayın ortasında dəvə dedi:

– Eşşəh qardaş, mənim oynamağım gəlir.

– Qardaşıq ha, sən oynarsan, mən ölərəm.

Dəvə dedi:

– Elə mənim oynamağım gəlir ki, oynamağım gəlir.

Dəvə aşağı endi. Yuxarı qalxanda eşşəh tappıltıynan getdi düşdü suyun tərkinə. Dəvə də ayağın qoydu eşşəyin qarnına, soyuldu getdi. Yazığın qarnı yırtıldı. Getdi suyun altına. Eşşəh ölməhdə olsun, bunlar dəvəni bir zaman çatdılar. Bu dəvəni yordular, sonra dəvəni açıb ötürdülər. Dəvə getdi, meşədə yeyirdi. Burda bir canavar var idi, bir də bir tülkü. Bu meşənin balasıdılar. Bunlar ikisi də əlbir oldular. Tülkü gəldi, dedi:

– Canavar qardaş, orda bir dəvə görmüşəm, gedək, onu yeyək!

– Yeyək də!

Gəldilər bunlar istəyirlər dəvəyə kələk qursunlar. Tülkü dəvədən soruşdu:

– Sən buranın nəmənəsisən?

– Mən buranın sərdarıyam, – dedi.

Tülkü dedi:

– Bu bağ mənimkidi. Mən də buranın qurquçusuyam.

Canavara dedilər:

– Sən buranın nəmənəsisən?

Dedi:

– Mən buranın artıq ət yeyəniyəm, sərvanıyam.

Dəvə dedi:

– Yaxçı oldu. Mənim dilimin ucunda bir az artıq ət vardı. Yeyə bilsən, yaxçı olar.

Dəvə ağzın açdı, canavara dedi:

– Mənim dilimin böyründəki ət artıqdı. Başını sal, onu gətirginən.

Canavar ki, başın soxdu artıq əti gətirsin, dəvə basdı zindanına. Bunun başı əzildi. Canavar daldan zır-zır zırıldadı. Tülkü hoppuldu o yana, dedi:

– Sərdarın basmağından, sərvanın çezməyindən bizə elə bil bir zad olmayacaqdı.

Dəvə dedi:

– Öldürdüm də, gəl ye.

Atdı yerə. Canavarın azca nəfəsi var idi. Tülkü də daldan canavarı eşirdi, yeyirdi. Canavar dedi:

– Tülkü qardaş, gəl sinəmin bu yağlı yerindən ye.

Tülkü dedi:

– Elə dəvəni də bu cür tovladım gətirdim. Dəvə səni öldürdü, ətini də mən yedim.

## TÜLKÜ VƏ AYI

Biri var idi, biri yoxdu, bir kişi var idi. Bu gedirdi, çöldə cüt əkirdi. Buğdadan, arpadan, qar-qarpızdan alıb başın dolandırardı, əhl-əyalın keçindirərdi. Bir gün çöldə cüt əkirdi, gördü duzkanlıxda tülküynən ayı mırtlaşır. Nə cür oldu tülkü ayını basdı. Bir azdan sonra ayı gəldi:

– Cütcü qardaş, nəmənə gördün? – dedi.

– Heç zad, – dedi.

Tülkü:

– Yenə gördügünü danış. Amma mən ölüm, düzünü de. Mən görəni sən də görübsən, elədi?

Cütcü:

– Niyə mən ölüm deyirsən! Mən onu gördüm ki, tülkü sənin canını dincələtdi.

– Cütcü qardaş, heç yerdə deməginən, sənə gündə bir qoyunun cəmdəyini verərəm, ye, kef elə – dedi.

Cütcü:

– Heç yerdə demərəm. Sən öləsən, özüm ölüm. Elə qalar burda!

Ayı gündə bir yaxçı qoyun cəmdəyi gətirir, bu da yeyir, kef eləyir. Bu gətirər cəmdəyi atar yerə, bu da götürər aparar. Cütcünün arvadı ətləri yedi, qızışdı. Bir gün dedi:

– Kişi, bu nəyin kimidi, gündə bizim bacadan cəmdək sallayırlar?

– Arvad, sənin nə işinədi, sən çörəyini ye, çayını iç, Allahına şükr elə. Daha sənin nə vecinədi, bizim bacamızdan hər nə sallayırlar.

Dedi:

– Yox, olmaz, gərək deyəsən.

Arvadların adətidir kişinin sirrini bilmək. Kişinin bir yerdən beş qıran gəliri olsa, arvad onu bizləyir. Deyir bə görərsən, kişi başqa arvadı var, ya olacaq. Əl çəhmədi. Bu çox dedi, o az eşitdi. Ayı da bacadan qulaq asırdı. Kişi arvadına dedi:

– Günlərin bir günü getmişdim aşağa, bulağın başında cüt əkirdim. Orda gördüm tülkü bir ayını dincələtdi. O cür olanda ayı bildi, mən onları görmüşəm, gəldi mənim yanıma dedi:

– Bunu heç kimə deməginən, mən sənə gündə bir qoyun cəmdəyi gətirərəm. Allah sənə lənət eləsin, arvad, axırda mənə sirrimi dedirtdin, çörəyimi kəsdin.

Ayı bacadan dedi:

– Köpəyöğlu, ölmüyüm, ölmiyəsən. Səhər gəlsin, xeyir gəlsin. Səninkini sənə verərəm.

Kişi dedi:

– Allah sənin evini yıxsın, arvad, mənim dədəmi yandırdın. Daha mən evdən çölə çıxa bilmərəm.

Arvad:

– Allah kərimdi – dedi. Çarə yoxdu, get görək hələ.

Səhər bu gedir qorxa-qorxa cüt əkir. Bir əkir, bir də dörd dövrəyə baxır. Gördü tülkü gəlir.

– Cütcü qardaş, oğru adam kimi niyə belə yaman dəvikisən? – dedi.

– Bilmirsən ki, cərəyan cəhrəsi nəyin cəhrəsidi?

Tülkü dedi:

– Yox, bilmirəm, deginən.

– Mən o gün sənlə ayını gördüm. Onun sirrini bilirdim. Ayı dedi heç kimə deməginən. Sənə gündə bir qoyun cəmdəyi gətirərəm. Onu Allah arvadıma lənət eləsin, arvad əl çəhmədi, arvada dedim, ayı da eşitdi. İndi bi yol ondan qorxuram.

Tülkü dedi:

– Mən gedirəm, orda tozanaq salam. Toz salanda ayı gələcəh sənin yanına. Desə ki, cütcü qardaş, orda nə haydı, denən, şahın qızının gözü bozarıbdı, ona ayı yağı axtarırlar. Onda qorxusundan girəcəh sənin torbana. Ağzın bağla, götür apar, neyləyirsən elə, sənin canın qurtarsın. Sən məndən ötrü niyə əkin əkmiyəsən?

Bu tülkü gedib o yanda bir toz qopardıb, gəl görəsən. Dünyanı toz-duman götürüb. Cütcü gördü, ayı qardaş gəlir. Yetişdi, dedi:

– Cütcü qardaş, o nə tozdu, xəbərin yoxdu?

Cütcü dedi:

– Şahın qızının gözü bozarıbdı, ona ayı yağı axtarırlar. Onların atdılarıdı.

Ayı:

– Cütcü qardaş, sən Allah, mən harda gizlənim, tapa bilməsinlər – dedi.

– O daha, ba orda çuvalım var. Gir çuvala, səni görməsinlər.

Elə ki girdi çuvalın içinə, cütcü çəkdi çuvalın ağzını bərk-bərk gözədi. Atdı öküzün üstünə, götürdü gəldi evinə. Arvadına dedi:

– İsti suynan toxmağı gətirginən.

İsti sudan tökdülər, toxmaqdan vırdılar. O qədər vırdılar ki, dərisi bədənindən çıxdı, cıbrığı qaldı. Çuvalın ağzın açdılar ki, görsünlər ölübdü, yoxsa diridi? Qırmızı çuğundura dönən ayı dərisi yox, çıxdı qaçdı. Ayı qaçdı, getdi çöldə, meşədə ayıları yığdı, dedi:

– Köpoylular, gəlin, məni öldürüblər.

Soruşdular:

– Kimdi? Kimdi?

Dedi:

– Filan cütcüdür.

– Gəlin gedək – dedilər.

Cütcü baxdı gördü meşədə nəmənə ayı var idi, gəlir. Neyləyim, neyləməyim, arvad dedi:

– Qaç çıxginən çinar ağacının başına. Orda səni endirə bilməzlər.

Bu çıxdı ağacın başında oturdu. Baxdı gördü, lüt ayı ki var idi, bu dedi:

– Mən yatım lap altda, siz də çıxın bir-birizin üstüzə, bəyə gedib ağacdan endirəsiz. Mənim dədəmi yandırıbdı.

O yatdı, bular da üst-üstə çıxdılar. Cütcü ağacın başında əsim-əsim əsirdi. Baxdı gördü çıqqan qalır bunu endirsinlər, birdən qışqırdı:

– Arvad, isti suynan toxmağı gətirginən.

İsti suynan toxmağı ki qabaqkı görmüşdü, bunların adını eşidəndə altdan çıxdı qaçdı. Qaçanda o biri ayılar bütün töküldülər yerə. Qolu sınan kim, qıçı sınan kim, başı sınan kim, beli sınan kim, hərə bir yanda canın götürüb qaçır. Bunlar getdi. İndi bi yol səhər gedib çöldə cüt əkir. Bi seri də tülküdən qor-

xur, gələcək haqqın istiyəcək. On görə ki, tülkü demişdi canın qurtulsa, d...... ağır tayını mənə verəcəksən. Bu da qəbul eləmişdi. Gəlib oturub yerə, bi yol tülkü gəlib haqqını alsın. Outrub yerə. Hərdən tülkünün qorxusundan bir bərki zır-zır gedir. Tülkü dedi:

– Qardaş, o nəmənədi səs çıxır?`

– Nəmənə olacaq – dedi. Bahalıxdan o qədər tazıdan, tuladan yemişəm, tazı deyir, ötür mənə tülkünü yeyim, tula deyir, ötür mənə tülkünü yeyim. Mən bilmirəm səni hankisinə yedirdim. Sən mənə bir yaxçılıq eləyibsən, bir yol ötürə bilmirəm.

Dedi:

– Sən Allah, cütcü qardaş, sənin heç zadını istəmirəm, mən getdim.

Başını götürüb qaçdı. Gedirəm – dedi, amma sirrini arvada açmayacaqsan.

– Baş üstə, qardaş, – dedi.

Bu qaçdı, bu da durdu cütün əkdi. Teşə murazı atdı, eşşəyin üstünə qoydu, çıxdı gəldi.

## ALI QIZI, ÖZÜ QIZI

Biri var idi, biri yoxuydu, bir padşah var idi. Bunun bir oğlu var idi. Bu bir gün gedir qarıya deyir:

– Qarı nənə, vallah, bizim içimizdə bi nəfər var, ondan üşənirəm.

– Nəmənədi? – dedi.

– Lap sözün düzün soruşsan, öz əmim qızıdı. Alı qızı, özü qızı, barmağında üzük yeri, qolunda bilərzik yeri, yandırır bizi. Nə cür eləyirəm, bundan bir cavab ala bilmirəm.

Qarı dedi:

– Sabah gedin Ülgüş dağına. Ülgüşdən az götürsə qızdı, çox götürsə oğlandı.

Bunlar səhər gedirlər Ülgüş dağına. Bu ülgüşdən bi çuval yığır. Dedilər:

– Bir beləni neynirsən?

Dedi:

– Birinən üzümü, birinən başımı qırxaram, birinən qıçımı qırxaram.

Bunlar gördü bu ülgüşdən çox götürdü. Qayıtdılar gəldilər.

– Qarı nənə, Alı qızı, özü qızı, barmağında üzük yeri, qolunda bilərzik yeri, yandırdı gözü bizi. Biz adama birini götürdük, o təkinə bi xurcun yığdı, – dedi.

Qarı:

– Yalan deyirsiz, – dedi. Sizin gözüzü oğurlayıb, töküb yerə. Səhər gedirsiz, muncuqdan az götürsə oğlandı, çox götürsə qızdı.

Bunlar səhər gedirlər muncuq dağına. Bu yalnız birini götürür. Oynada-oynada soruşdu:

– Neynirsiz bunları, axı bizim dərdimizə dəyməz ki? Bu qız uşağının dərdinə dəyər. Birin götürün yadigar üçün.

Bunların gözün oğurladı, xurcunun doldurdu, qoydular gəldilər. Padşahın oğlu yenə gəldi:

– Qarı nənə, biz adama neçəsini götürdük, o yalnız birin götürdü.

Qarı dedi:

– Sənin huşun başında deyil, get baxginən, o xurcunun doldurub gətirib.

Bu buracan bu qızdan heç nə bilmədi. Qarı dedi:

– Səhər gedərsiz çölə, yatarsız, altıza gül döşərsiz. Gülü çox yatırtsa qızdı, az yatırsa oğlandı.

– Qarı nənə, bu nə cür bir sözdür?

– Odur ki, qız qisməti harda düşdü orda yatar qalar. O ki yatdı, gül çox yatar. Oğlan çox aşar o yüzə, bu yüzə, gül çox yatmaz.

Bu gecə bunların gözünü oğurladı, getdi özü ayrı yerdə yatdı. Bütün gülü o cür qaldı. Səhər şahın oğlu hay tələsik durdu, gördü bunların yeri yatıb, bununkunun üstünə heç elə bil adam çıxmayıb. Yenə nəticə alammadı. Gəldi dedi:

– Qarı nənə, Alı qızı, özü qızı, barmağında üzük yeri, qolunda bilərzik yeri, yandırdı gözü bizi. Bizimki əzilmişdi, yatmışdı, onunlu heç elə bil əl gəzməmişdi.

Qarı dedi:

– Sənin ağlın cayıb. Sən gecə yuxudan ayılsaydın, bilərdin ki, yatıb, ya yox. O gedib ayrı yerdə yatıb. Səhər gedərsiz, ovlaxda onnan bir gülşərsən. Güləşəndə əlini altdan gətir.

Qızda bunlar nə iş, görürdü, bilirdi. O arada bi göyərçin tutdu, yolda bağladı qıçının arasına. Səhər getdilər, padşahın oğlu yetirdi.

– Əmi oğlu, gəl bir gülşək.

Əli atdı bunun xusuyalarına. Gördü, baba, bunda olan heç bunda yoxdu. Hər zad yerindədi. Bilmirdi ki, göyərçindi. Gəldi dedi:

– Qarı nənə, ondan da bi nəticə alammadım.

Qarı dedi:

– Sən ki nurunan şurun fərqin bilmirsən, nəmənədi bilmiyəcəhsən.

– Qarı nənə, nə edim daha tapammadım.

Qarı dedi:

– Gedəcəhsiz, bunlar ki qapılarında düşəcəhlər. Harda düşsə, orda bi səyiri quyruğu gülü bitəchdi. Gülü dərsə, bil ki, qızdı.

Bu ki düşdü yerə, düşən kimi səyiri quyruğu gülü bitdi. O ləhzə, naxırçının keçəl qızı ordan keçirdi. Bunun tamahı düşdü, bu səyiri quyruğu gülünü dərdi. Bu cür olanda dədəsin məcbur elədi, naxırçının qızını aldılar buna. Alandan sonra bunlar ki muncuqlardan gətirmişdilər, verdi naxırçının qızına. Bu naxırçının keçəl qızında qırıldı. Bunlar neynədilər bu muncuğu düzə bilmədilər. Orda da o qarı tapşırmışdı ki, bu muncuqdan harda qırılsa, o qızdan sonra heç kim düzə bilməz. Hər kimi gətirdilər, bunlar məlul-müşkül qalmışdılar. Bir gün nənəsin yolladı, dedi:

– Mənim qızım deyir, mən bu muncuğu düzə bilmirəm.

Verdi əmisinin arvadına. Bu da muncuğu gətirdi, verdi qıza. Bu oğlan da bacadan qulaq asırdı.

– Muncuğum, düzül! – dedi.

Muncuq başladı birbəbir düzüldü sapa.

– Günlərin bir günündə əmim oğlu at paylayırdı. Mən də dədəmi yolladım, getdi birini alıb gətirdi.

Bu dedikcə, muncuqdan bir-bir düzülür.

– Getdik Ülgüş dağına. Mən çox götürdüm, bunların gözün oğurlayıb töhdüm yerə. Getdik muncuq dağına. Mən dedim, muncuğu neynəyirik. Göz-göz eyləyib çox yığdım.

Bu dedikcə muncuq düzülür. Deyir, muncuq düzülür.

– Ora yetişdi ki, bunun ayağının altında səyiri quyruğu gülü bitdi. Naxırçının keçəl qızı dərib apardı, onu qapılarında əkdi. Mənim əmi oğlumun ona tamahı düşdü. Tamahı düşəndə gəldi naxırçının keçəl qızını aldı.

Padşahın oğlu eşidəndə düşdü yerə, getdi bu naxırçının qızının başını kəsdi. Diqqı-dıqqı doğrayıb yığdı bir mejməyiyə, üstünə də parça çəkib yolladı dədəsinin evnə. Naxırçıgil dedi:

– Qızımız bizə xonça yollayıb.

Naxırçının da bir-iki fədul qızı var idi. Baxdı, gəldi:

– Nənə, yanasan, bacımın başı ordadı.

Biri dedi:

– Nənə, yanasan, bacımın gözü ordadı.

Bu da dedi:

– Səs eləməyin, bacız sizə xonça göndəribdi.

Xonçanı gətirib qoydu yerə. Hay tələsik durdu, çıxdı getdi. Arvad getdi yazıx görsün nəmənədi. Gördü qızın doğrayıb yığıblar məjməyiyə. Dedi:

– Olsun, sizə bi aş pişirərəm, görərsiz.

Oğlan öz əmisi qızısından əl çəhmədi, evləndi. Ondan sonra bu əmi qızısından bir cüt uşaq oldu. Birinin adını qoydular Laçın, birinin adın qoydular Maçın. Bunlar dedilər, güldülər, danışdılar. Bu uşaqlar çox gözəl idilər. Ağa bu kənddə toyudu, bu qız uşaqları qoyub evdə. Gedib toya. Naxırçının

arvadı gördü ki, bu, uşaqları qoyub gəlib toya. Getdi bunların ikisinin də başını kəsdi. Ülgücü də qanlı-qanlı gətdi soxdu nənəsinin cibinə. Hay düşdü, şahın nəvələrinin başını kəsiblər. Kim kəsib, kim kəsib, o dedi, bu dedi, naxırçının arvadı böyürdən dedi:

– Hər kəs kəssə, indi bıçaq elə onun cibindədi.

Hamının cibini axtardılar. Baxdılar, gördülər, qanlı bıçaqlar öz nənəsinin cibindədi.

– Neyliyək, bunu öldürax, zindana salax.

Sonra dedilər:

– Nə öldürax, nə də dustaq eliyək. Uşaqları sarıyın nənəsinin kürəyinə, kənddən çıxardın, ötürün eşiyə.

Uşaqları sarıdılar nənəsinin kürəyinə, kənddən ötürdülər çölə. Bi qədər getdi, iki yolun ayrımında dayandı. Bir yandan işıq gəlir, bir yandan it hürür. Öz-özünə dedi:

– Allah, görəsən işıq gələnə gedim, yoxsa it hürənə?

Uşaqlar bunun kürəyində dilə gəlib dedilər:

– İt hürən tərəfə getsək, it bizim baş-qulağımızı gəmirər. Gedək işıq gələnə.

Bu, birdən huyuxub salavat çevirdi.

– Nəmənə salavat çevirdin, nənə, – dedilər.

– Bala, ikizin də başızı kəsiblər axı!

– Yox nənə, ilikdən olmamışıq, ikimiz də salamatıq. İşıq gələn gedəcüyük.

Bunlar az getdilər, çox getdilər, işıq gələmə yetişdilər. Getdilər, gördülər bi dənə qalaçadı. Qalaçanın üstündə hər bir şey vardı. Ocaq var, yemax var, işmax var. Arvad burda düşdü. Uşaqlar da yazıb oxuyurlar. Di bir gün, di iki gün, beş gün, on gün, uşaqlar böyüdülər.

Padşahın oğlu bir gün kənddə darıxırdı.

– Durun, gedax dolanmağa – dedi.

Yoldaşları dedi:

– Yaxçı.

Allahdan olan kimi bunların ağzı düşdü qız olan yönə. Getdilər dağın ətəyində iki göyərçin vırdılar. Verdi kölələrin birinə:

– Orda bir qalaça var. Apar, deyin bunları pişirsin, gətirin.

Bu kölə ki, getmişdi quşları burda pişirsin, gəldi gördü burda bi xanım var, iki də uşağı var, çox gözəldi.

Göyərçini qoydu ocağa, yalnız uşaqlara mat qaldı. Döndü gördü göyərçinin bir tərəfi yanıb, bir tərəfi çiydi. Bu bi tərəfi yanıq, bi tərəfi çiy götürdü gəldi. Şahın oğlu dedi:

– Mən sənə dedim göyərçin pişir, ya kömür eylə. Niyə bunu belə eləyibsən?

– Qurban sağ olsun, əgər mən görəni sən görsəydin, bunu lap kül elərdin.

Hərəsi bir-iki tikə yedilər, sonra ikisin də vırdılar, verdi kölələrin birinə:

– Apar, onun kimi yandırma ha! Yaxçı pişir, gətir.

Bu yazıq onun kimi gəldi, bu da mat qaldı arvada, uşaqlara. Baxdı gördü elə yanıb, tək boynu qalıb. Götürdü gəldi.

Şah oğlu dedi:

– Eviz yıxılsın, niyə siz bunu belə eləyirsiniz?

– Bağışla, qurban, genə mən boynun çiy gətirmişəm. Sən olsaydın, heç boynu da qalmazdı.

Bunlar beş gün, on gün, bir ay qaldılar burda. Şahın oğlu dedi:

– Gedin, o qalaçanın saibinə deyin görün, bizi qonaq elər? Gedim görüm orda nəmənə vardı? Hər nə aparırsız, yandırıb gətirirdiz.

Getdilər dedilər:

– Xanım, bizim padşahımız deyir, bizi qonaq elərsiz?

– Niyə eləmirik?

Xanım bunları tanıyır, bunlar xanımı tanımırlar. Bunlar gələndə üzünə niqab salır, bunu tanımırlar. Bunlar gəldilər, yedilər, içdilər, çoxlu quşdan zaddan vırmışdılar. Bi yol soruşdular:

– Xanım, sən tək canına burda neyləyirsən?

– Mənim başıma çox oyun gəlib – dedi.

– Gərək deyəsən – dedilər.

Şahın oğlu bu uşaqlara çox tamahı düşdü. Üzün görmür niqab salıb. Qız açdı, at alan zamandan başına nə gəlmişdi, bunlara dedi. Padşahın oğlu durdu döydü başına:

– Sən mənim xanımımsan, onlar da uşaqlarımdı.

– Naxırçının keçəl qızının nənəsi mənim başıma bu oyunu gətiribdi.

## İBRAHİMLƏ GÜLZAR

Biri vardı, biri yoxdu, günlərin bir günündə Şah Abbasın torpağında bir kişi var idi. Bunun arvadı ölmüşdü, gedib ayrı kənddən ayrı qadınla evlənmişdi. Bu kişinin qabaqcadan üç qızı var idi. Bir gün bu arvad dedi:

– Kişi, sən işləyirsən, gətirirsən, bu qızlar yeyir. Özləri də bir iş görmürlər.

Kişi:

– Neyniyim bə, arvad? – dedi.

Arvad:

– Neyniyəcəksən, apar üçünü də ötür çölə, qoy gəlginən.

Kişi:

– Belə bir iş olar?

Arvad:

– Eləsən, olar – dedi.

Kişi bir gün bunlara dedi:

– Bala, gəlin gedək, meşədən ağac kəsək.

Qızların üçün də götürdü getdi.

– Bala, siz burda oturun, mən də oyanlıqda ağac kəsirəm.

Bi çarığı var idi, çarığı bağladı ağaca. Yel vırır, çarıq o yan, bu yana taqqıldıynan dəyir ağaca. Uşaqlar belə bilirlər bə dədələri ağac kəsir. Axşamadək bunlar gözlədilər. Gördülər qaş qaraldı, dədələri gəlmədi. Çıraq yandı, gəlmədi. Uşaqlar dedilər:

– Gəlin gedək görək, bizim dədəmizin başına nə gəldi?

Getdilər gördülər, dədələri çarığı bağlayıb ağaca, yel vırır taqqıltıynan o yan bu yana gedir, dəyir o ağaca, bu ağaca. Qızların böyügü çox ağıllı idi, dedi:

– Qızlar, bilirsiz nə var, gedib başıza çarə qılın.

– Buyün bevaxdı, dedilər, kəndə gedə bilmirik. Gəlin elə bu ağacların içində yataq.

Səhər də bunların kəndi köçəcəydi. Bunlar səhər durdular teləsək qaçdılar evlərinə, gördülər lələ köçüb yurdu qalıb verənə. Hamı gedib, kənd bombuluboşdu. Qaçdılar, xalalarının ocağın eşdilər. Gördülər xalaları bir qoyunun başın qoyubdu ocağa, çıxıb. Çıxardıb onu yedilər. Getdilər bibilərinin yurd yerinə, gördülər bibiləri iki-üç büküm çörək qoyub gedib. Götürüb onu yedilər. Getdilər, nənə-dədələrinin ocağını deşdilər. Gördülər, s… üstün basdırıb, əyi vurursan toz qopur, olsun dedilər. Di bir gün, iki gün, üş gün bir-birinə dedilər:

– Qızlar, acımızdan ölürük, neyniyək, necə eyliyək?

– Gəlin püşk ataq, hər kəsə düşsə, onu yeyax!

– Gəlin qaçaq!

– Gəlin i……, hər kəsins s…… uzaq getsə, o udur.

Xırdanınkı az getdi, dedilər:

– Səni yeyəcüyük.

– Bacılar, məni yeməyin, siz oturun burda, gedib sizə axtarım, bəlkə bir şey tapdım. Hər nəmənə gətirim, yeyək – dedi.

– Yaxçı – dedilər.

Bu yazıq getdi, axşamacan dolandı, üç dənə kişmiş tapdı. Gətdi birin verdi o bacısına, birin də bu bacısına. O birin də böldü, hərəsinə yarısını verdi, özü də yemədi. Ortancıl bacısı dedi:

– Bu işlərdən bir şey olmaz. Gəl bacını yeyək.

Böyük dedi:

– Hələ buyünü də döz görək, nə cür olur?

Xırda bacı dedi:

– Siz bir yarım kişmiş yeyibsiz, mən onu da yeməmişəm.

Bu getdi səhər dolandı gördü bi yolunan noxudunan kişmiş tökülə-tökülə gedib. Yığa-yığa getdi gördü bir bacadı. Bacadan baxanda gördü, ay oğlan, burda iki at vardı. Atın qabağında yalnız noxudunan kişmişdi. Bu qəşəng hoppuldu mindi atın üstünə. Atın da üstündən atıldı axura. Ətəyin doldurdu noxudunan kişmişinən, gəldi dedi:

– Bacı, hamıız doyuncan yeyin. Məni yediz, sizə nə çıxacaq? Genə aj qalacaqsız. Amma indi doyuncan yeyin.

Bunlar bir gün, iki gün, bi həftə, bir ay… Şah bir gün gəldi baxdı gördü atlar belə çox arıqlayıblar. Mehtərə dedi:

– Sən bunların çörəyindən kəsib satırsan? Atlar çox arıxlayıblar.

– Qurban, yarım kasa da artıq tökürəm – dedi.

Şah dedi:

– Atlar öz-özünə arıxlayırlar?

– Aleybanı aparıb minir. At arıxlayır dedilər. Neyliyək, neyləmiyək, gəlin atların üstünə qır-saqqız salax. Gəlib minəndə yapışıb qalsın, tutax.

Gətirdilər atın belinə qır-saqqız döşədilər. Səhər o xırda qız bacadan düşdü atın belinə, yapışdı qaldı orda. Mehtər gəldi gördü bir gözəl qız oturub atın üstündə. Yapışıb orda qalıb. Elə atın üstündə çəhdi apardı şahın yanına.

– Qurban sağ olsun, atın oğrusun tapmışam, – dedi.

Bunu zülümnən atdan qopartdılar. Apardılar Şah Abbasın yanına. Şah soruşdu:

– Qızım, bə hardan gəlibsən, niyə belə eləyirsən?

Qız başına gələni başdan ayağa açıb dedi. Şah dəstur verdi, bunlara otaq versinlər. Təmiz bir otaq verdilər.

Şah:

– Gedin, bacıların da gətirin, burda keçinsinlər – dedi.

Gedib bacıların da gətirdilər. Bacılar burda yedilər, içdilər, keflərin çəkdilər.

Günlərin bir günündə Şah Abbas Allahverdixan vəzirə dedi:

– Gedək görək, qızlar nə iş görür.

Getdilər bunların bacalarından qulaq asdılar. Gördülər bunların o böyük bacısı deyir:

– Sən Allah, gəlin hərəmiz bir dilək diləyək.

– Diləyək də, – dedilər.

Böyük bacı:

– Allahdan gedəydim Allahverdixan vəzirin oğluna, bi qazan aş pişirəydim, Şah Abbasın torpağında nə qədər adam var hamısı içəydi, bi qazan da artıq qalaydı.

Ortancıl bacısı:

– Kaş gedəydim vəkilin oğluna, bir xalça toxuyaydım, Şah Abbasın torpağında nə qədər adam var, oturaydı üstündə, bir qırağı da boş qalaydı.

Xırda bacı:

– Kaş gedəydim Şah Abbasın özünə, iki uşaq doğaydım, bir birçəhləri gümüş, bir birçəhləri qızıl olaydı.

Bunlar dönüb qayıtdılar. Qayıdandan sonra səhər oldu. Şah Abbas qırmızı geyindi. Geyinəndən sonra dəstur verdi, qızları gətirdilər. Qızlara dedi:

– Siz üçüzdə gecə danışıbsız. Açın burda sözlərizi deyin.

Qızlar baxdılar bir-birinə:

– Əhdimizi bunlar nə bildilər?

Şah:

– Çox danışmayın – dedi.

Bunlar ərzilərini dedilər. Birin verdilər Allahverdixan vəzirin oğluna, birin də vəkilin oğluna. Xırdanı da Şah Abbas özü aldı.

Sənə deyim o aş pişirəndən. Gətirdi bir qazan asdı, içini doldurdu suynan. Qoydu qaynadı. İçinə də altı batman duz tökdü. Hər kim barmağını basdı, uluya-uluya qaçdı, bi qazan artıq qaldı. Heç kim əlini vırmadı.

O birisi də gətirdi bir xurcun tayı toxudu. Bunun üstünü bütöv eylədi iynə-sancaq. Hər kim oturdu yançağına batdı. Bir qırağı da artıq qaldı.

Xırda boyluydu. Bu iki bacının qarnına sancı dolub. Bunlar bir iş görəmməyiblər axı. Əgər bu iki uşaq doğa, onun da bir birçəyi qızıl, bir birçəyi gümüş, bizi onda bağlayacaqlar at daşqasına, sürüyələr. Ortancıl bacı dedi:

– Bə neyniyax?

Böyük bacı dedi:

– Heç zad. Bu doğanda aparaq bunu bacadan doğuzduraq. Uşaqları götüraq, altına iki it küçüyü qoyaq[10].

Vırdı xırda bacının ay-günü oldu. Uşağı olanda qarı çağırdılar, gətirdilər. Onda qarı olardı, hər işi görərdi. Bacıları qarıya dedilər:

– Bu uşaqları götürəcəksən, bunların yerinə iki it küçüyü qoyacaqsan.

Bunu apardılar, bacadan uşağı doğuzdurdular. Bacadan şappıltıynan düşən dıq qarı götürdü iki əccə bala it küçüyü qoydu yerinə. Bunu gətirdilər aşağa, dedilər:

– İki küçük doğubsan.

Uşaqları gətirdilər qoydular bir qutuya, ötürdülər suya. Qutuya qoyanda oğlanın barmağı keçdi qızın ağzına, qızın barmağı keçdi oğlanın ağzına. Əmdilər, diri qaldılar. Tanrı o sayaq onları saxladı.

Bunlar suynan getsinlər, Şah Abbasa xəbər getdi ki:

– Qurban sağ olsun, xanımın bir cüt küçüyü olub.

Biri dedi:

– Öldürax!

Biri dedi:

– Atın quyruğuna bağlayaq!

Biri dedi:

– Bunu aparın, üç yolun ayrımında yarıya kimi quyulayın torpağa, gələn də üzünə tüpürsün, gedən də. Çörəhdən zaddan atın qabağına.

[10] El arasında deyirlər: Bacı bacını istəsə, altına niyə it küçüyü qoyur.

Bunlar burda qalsın, gəlin sizə kimdən deyim, uşaqlardan. Uşaqları su apardı Misir padşahının torpağına. Burda padşahın bir bağbanı var idi. Çoxdanıydı bu bağa bağbanıydı. Bu sonsuzuydu. Çox yaxçı adamıydı, hamı sevirdi. Bir gün bağı suvarırdı, gördü su gəlmədi. Dedi:

– Vay dədə, yenə suyu görəsən kim yıxdı.

Belini aldı çiyninə, deyinə-deyinə, dolana-dolana getdi. Gördü bi qutu su yolunu bağlayıb. Qutunu götürdü gəldi, su da açıldı. Gətirdi yavaşcadan qutunun ağzın açdı. Gördü iki uşaq var, biri-birindən gözəldi. Biri qızdı, biri oğlandı. Bunların tüklərinin hərəsi bir rəng çalır. Özü də gözəldilər. Doğrudan bunlara tay tapılmaz. Bunun bir xanımısı var idi. Qoca arvad idi. Həmişə Tanrıya yalvarardı, uşaq istəyərdi.

– Allah yolluyubdur – dedi. İndi bunların çörəyin hardan alacayıq – dedi.

Kişi:

– Uşaqları yollayan çörəyini də yollayar – dedi.

Arvad Allaha sarı yalvardı, döşlərini saldı uşaqların ağzına. Yavaş-yavaş gördü döşləri gizildəyir, süd gəldi. Bunların hərəsin saldı birinin ağzına, nıqqa-nıqqıynan əmdirir.

Bu uşaqlara ad qoydular. Oğlanın adın İbrahım, qızın adı-nı da Gülzar qoydular. Bunlar yeddi yaşına yetişdilər. Getdilər birinci kilasa. Oxudular. İkinci kilasa gedəndə, dükanın qabağından keçəndə Gülzar əl atdı bir güzgü götürdü. Qız çox gözəliydi. Dükandarın xoşuna gəldi. Bir söz demədi. Bunun işi olmadı. Güzgünü götürdü, gəldi evə. Baxanda özünə bir güldü:

– Yəni mən bu gözəllikdəyəm?

Bu indiyəcən belə bilirmiş ki, İbrahim gözəldi, bu çirkindi. O da güzgüyə baxdı, inanmadı. O da deyirmiş bə qız gözəldi, bu çirkindi. Bunlar ikisi də baxdılar gördülər bir-birindən gözəldilər. İkisi də elə bil bir almadılar. Qız çoxbilmişiydi:

– İbrahim, bilirsən, biz bunların uşaqları deyilik. Dadaş, başımızın cəryanı var – dedi.

İbrahim:

– Nə iş görək bə?
Gülzar:
– Ataya deyək şahdan iki at alsın, atları minib qoyaq çıxaq gedək.
İbrahim:
– Evin tikilsin, bunlar o qədər ağlayarlar, gözləri kor olar – dedi.
Gülzar:
– Bə neyniyax? Bu diyarda bizdən gözəli yoxdur.
Ancaq şeytan bunlara vəsvəsə elədi:
– Dədə, gedəcəksən, şahdan bizə iki at alacaqsan, biz gedəcüyük dolanmağa – dedilər.
Bağban:
– Gözlərim üstə, bala, – dedi.
Bağban durdu getdi bi dəsmalda gözəl, qırmızı alma yığdı, bağladı, dingildiyə-dingildiyə getdi. Şah küləfərəngindən baxırdı, gördü bağban gəlir, bir dəsmal da alma gətirir. Düşdü, qaça-qaça gəldi. Bunu xiyavanda alıblar qucaqlarına, aparırlar şahın dərbarına. Kef əhvaldan sonra, (əlli ilin bağbanıydı, qocalmışdı, daha çox sevirdi, biləsin) şah soruşdu:
– Bağban, nə yavuz şahın dərbarına ayaq qoydun?
Dedi:
– Qurban sağ olsun, bir oğlum var, bir qızım. Bunlar iki at istəyirlər, getsinlər sənin oylağında dolansınlar.
Şah dedi:
– Sən nəmənə desən baş üstə!
– Lap yaxçı!
Bir cüt atlardan dəstur verdi gətirdilər. Yəhərləyib cilovladılar, bəzədilər, bərtədilər, verdilər qocanın əlinə. Qoca atları çəkə-çəkə gəldi. İbrahimnən Gülzar durdu qocaynan öpüşdülər, görüşdülər, dedilər:
– Çöldə yırtıcı heyvan olar. Adam bilmir ki, qabağına nə gələcək. Bəlkə birdən qayıtmadıq. Bizə halal elə.

Atı minib sürdülər. Şah küləfərəngidən baxırdı, öz-özünə dedi:

– Görüm qocanın uşaqları necədi?

Gördü bunun diyarında belə bir gözəl yoxdu.

Şah:

– Vəzir, təxtin tarac olsun, yəhərin qanla dolsun, gəl baxginən uşaqlara – dedi.

Vəzir:

– Qurban, bizim diyarımızda belə bir uşaq yoxdur. Bu qocanın belə uşaqları variymış, indiyəcən bilməmişik. Gedib qayıtsınlar, gələndə soruşaq görək nəyin nəsidi? Onda bunların yazasın qocadan üzək – dedi.

Bunlar az getdilər, çox getdilər. Qaş qaralmışdı. Bir şəhərin yanına yetişdilər. Darvazalar bağlanmışdı, içəri buraxmadılar. İbrahim dedi:

– Bacı, yoruldun sərvana, yatdın qəbristanlığa.

Gedib şəhərin kənarında qəbristanlıxda atları buraxıb yatdılar.

– Atlar da bir az otlasın, səhər yola düşək – dedilər.

Bunlar bir qəbirin yanında düşdülər yatdılar. Bir qapı açıldı qəbristanlıqda:

– İbrahim, səni çoxdan gözlüyürlər. Sənin saxatmanın, hər zadın hazırdı, atın da ordadı.

Getdilər içəri, gördülər hər zadı hazırdı. Qapıda bir at bağlanıbdı. At dilə gəldi:

– İbrahim, o atlar gedər öz yerlərin tapar, özləri gedərlər yerlərinə. Bundan belə hər yerə getsən, mənnən gedəcəksən – dedi. Dəstur bundan belə məndəndi.

Qoca axşamadək gözlədi, xəbər olmadı. Bir gün də gözlədilər, gördülər bunlar gəlmədi. O qədər ağladılar ki, gözləri tutuldu. Səhər şahın dərbarından xəbər gəldi ki, uşaqlar gəlsin dərbara. Bunlar dedilər:

– Atları gəlib, uşaqlardan xəbər yoxdur. Bilmirəm heyvan dağıdıb, nə olub, yoxdur.

Bunlar burda qalsın, İbrahimnən Gülzar qaldılar burda, yedilər, içdilər. Bir gün bu qara at İbrahimə dedi:

– Həmişə elə oturacaqsan evdə?

İbrahim:

– Bə neyləyim? – dedi.

– Dur ayağa, məni minginən, bir az yeməli götügünən, gedək bir İsfahan şəhərin dolanaq. Yolda da biri var, xanımdı, vacibdi ona xörək verəsən.

Getdilər gördülər üç yolun ayrımında bir xanımdı, yarıyacan quyulanıb torpağa.

– Xörəklərin ver ona – dedi.

O da seçib xörəklərinin yaxçısından verdi buna. Daha demir ha nədəndi. Desə, tilsimdən tilsimə düşər. Şahınan gəl-get eləsin görək sonra nə olur. Getdilər, dedilər bura Şah Abbasındı. Ovlağı burdandı. Şah Abbas küləfərəngindən baxırdı, gördü bir qara atlı, gözəl oğlandı, gəldi onun ovlağına. Öz-özünə dedi:

– Kimin qüdrəti var bura girsin?

Bunlar durdular atı minib çapdılar, gəldilər gördülər bir gözəl oğlandı, dünyada tayı yoxdur. Bu oğlanı görəndə bunun məhəbbəti ox kimi qırıldı, getdi dəydi Şah Abbasın ürəyinin başından, kürəyində dayandı.

Şah Abbas dedi:

– Allahdan şah olmayaydım, bu mənim oğlum olaydı.

O qədər buna məhəbbət saldı ki, gəl görəsən.

– Hardan gəlib hara gedirsən? – soruşdu.

– Şəhərin ucunda bir iki-üç keçi-küçüm var, saxlayıram. Darıxdım, durdum gəldim, yolum burdan düşdü.

Şah dedi:

– Ovlağ bütün sənə qurbandı, dolanginən. Hər vaxt darıxanda gəl, birgə dolanaq.

– Mən hərdən gələciyəm, iki gündən bir.

Gördü sən ölmiyəsən, bu xanımın qabağına çoxlu xörək qoyub. Bunlar bir gün, iki gün, üç gün, bu İbrahim bir gün şa-

ha qonaq getdi. Bir-iki gün orda qaldı. Bir gün xalaları bunu görüb üşəndilər:

– Bu kimdi? Bu xanıma çox xörək zad gətirir. Bunlar onlar olmuya? – dedilər.

Qaçdılar qarının başına:

– Qarı, o uşaqları neynədin?

Dedi:

– Onları qoyub qutuya, axıtdım suya, çıxdı getdi şahın ovlağına.

– Bir oğlan gəlir, biz ondan üşənirik.

– Olsun. Yerin öyrənim, bilərəm neynirəm.

Bu oğlan gəlir dolanır, ovluyur, Şah Abbasa qonaq gəlir. Elə burda yaşayır. Belə olanda qarı quyruğun vırdı belinə, yavaş-yavaş, dolana-dolana getdi bunların evlərin öyrəndi. Getdi gördü burda gözəl qız da var. Nə gözəllixdə. Soruşdu:

– Adın nədi, qızım?

Dedi:

– Gülzardı.

– Gülzarın gərək gülü xəndanı da olar.

– O nəmənədi? – sordu.

– O bir ağacdı çayın o tayında. Qardaşına desən, gedər gətirər.

Bu deyib çıxdı getdi. Gəlib dedi:

– Qorxmayın, elə yerə yollamışam ki, ya it olacaq, ya da qurd. Ancaq gedər-gəlməzə yollamışam.

Bu cür olanda axşam gələndə gündə bunun bacısı qaçardı bunun qabağına, halın soruşardı. İbrahim gəldi gördü qız mısmırığın sallayıb, qaş-qabağı yeri süpürür. Soruşdu:

– Bacı, nə olub?

Dedi:

– Qadan-balan mənə dəysin, nə olacaqdı. Gündə gedirsən, gəzirsən, dolanırsan, mən də burda təkcə qalıram.

– Bə neyləyim?

– Heç zad. Getginən çayın o tayından mənə gülü xəndan ağacın gətir. Deyirlər gülü xəndan ağacının sazı var, tarı var, aşığı var, nağılı var.

Dedi:

– Səhər gedib gətirərəm, bacı.

Gəldi qara ata tumar versin, gördü qara atın gözlərindən yaş tökülür. Soruşdu:

– Sənə nə oldu?

Dedi:

– O gülü xəndan ağacının qeydına qalmışam. Mən bir şahın oğluyam, gəlmişəm sənə at olmuşam. Məni də elə bacım yollamışdı gülü xəndan ağacına. Gətirə bilmədim, tilsimə düşdüm.

– Tilsimə düşək it olaq, qurd olaq, gərək gedək gətirəm. Getməsək, bacım məndən əl çəkmiyəcək.

– Elə bil getməlisən indi ki, boynuna alıbsan gedib gətirəsən. Birinci beş günlük xörək götür apar tök o xanımın qabağına. Bir də ovlaxda dolanaq, gəzək, Şah Abbasdan, Allahverdixandan halallaşıb gedək.

İbrahim:

– Baş üstə – dedi.

Apardı nənəsinin qabağına çoxlu xörək tökdü. Ondan sonra getdi ovlağı dolandı. Bir az dolandılar, şah da gəldi. Bir az dolanıb gəzəndən sonra şah dedi:

– Mənim dostum, beş-altı gün işim var, səfərə gedəciyəm. Darıxmayın gələrəm inşallah.

Bu yenə getdi Şah Abbasınan nahar yedi, çaylaşdı. Gəldi qara atı mindi, getdi nənəsinin qabağına yenə xörək töhdü. Qara at dedi:

– Bilirsən, İbrahim, nə deyirəm, yaxçı qulağına sırğalan. Gedəcəksən, mən qalam çayın qırağında. Orda sən çırmanacaxsan, çayı keçəcəksən. Hankı ayağını suya qoydun, hər nə sənə desələr, qulaq asmayacaqsan. Sən kimin oğlusan? Nənən kimdi, dədən kimdi, qulaq asmayacaqsan. Çönüb dalıya da baxmaya-

caqsan. Eşşək anqıracaq, at kişnəyəcək, it hürəcək, dəvə buzdayacaq, qılınc çəkəcəklər, qalxan gələcək, heç birinə qulaq asmayacaqsan. Sən elə suyu keçəcəksən, suyu ki keçdin, bir yol açılacaqdı. Yolda iki tumar gələcəkdi. Tumarları oxuyacaqsan. Yetişəcəksən, atın qabağında sümük vardı, itin qabağında arpa. Onların yerin dəyişəcəksən. Sümüyü götürüb qoyacaqsan itin qabağına, arpanı da götürüb qoyacaqsan atın qabağına. Yetişəcəksən ora, görəcəksən, bir ağacdı. Bunların başı qatışdı yeməyə, sən yetişib bi butasın sındırıb qayıdacaqsan mənə sarı.

Qara at deyən kimin getdi suyun qırağında düşüb atı qoydu ora. Qıçın çırmaladı, ayağın suya qoyanda:

– Ay İbrahim, hardan gəldi, nənəsi it küçüyü doğan, nənəsi yarıyacan quyulanan, hərə bir söz deyir, ay səni kimlər saxladı, qocaları qoydun gəldin.

Heç birinə cavab vermədi. Baxmayanda suyu atdadı. Bir ağ yol açıldı, tumar gəldi, başladı oxumağa. Oxuya-oxuya keçdi getdi. Gördü atın qabağında sümük, itin də qabağına arpa töküblər. Onların birini dəyişdi. At arpanı, it də sümüyü başladı yeməyə, başları qatışdı, keşdi içəri, gördü bir ağacdı. Bir budağın qırdı, qayıtdı. Gəldi gördü heç kimin işi yoxdur. Daha söz deyən yoxdur. Suyu atdadı, qara at dedi:

– Gəl minginən!

Mindi, qoydu gəldi. Gətirib butanı vırdı otağa. Hər gözündən bir hava çalır. Səhər İbrahim qara atı minib getdi ovlağa. Dolanırdı, şahnan vəzir də gəldi, birgə dolandılar. Naharı yedilər. Naharı yeyəndə xalaları bunu yenə gördülər. Qaçdılar qarının başına:

– Qarı, sənin yerin odnan dolsun. Deyirdin bə qayıtmayacaq, gəlibdi.

Dedi:

– Bu seri bilirəm, neyliyim.

İbrahim səhər yenə gəldi, o xanımın qabağına yeməyi tökdü, çıxdı getdi ovlağa. Qarı yenə quyruğun vırdı belinə, fırlana-fırlana gəldi Gülzar xanımın yanına:

– Hə, qadan-balan alım, gördün nə gözəldi, məndən sənə zərər gəlməz.
Gülzar:
– Hən, qarı nənə, lap da gözəldi.
Qarı:
– Ondan da gözəli var!
Gülzar:
– Nəmənədi?
Qarı:
– Bu ağacların bir Gülüxəndanı vardı, dadaşına denən gedib onu gətirsin, sənlə yoldaş olsun.
Gülzar:
– Onu kim gətirər?
Qarı:
– İbrahim. Gül xəndanın butasın gətirən, özünü də gətirə bilər.
İbrahim gəldi gördü, dədə vay, bacısının qaş-qabağı yeri süpürür. Soruşdu:
– Bacı, yenə nə oldu?
Gülzar:
– Nə olacaqdı. Səni nə vaxtacan subay görüm. Get, Gülüxəndan ağacının Gülüxəndanın da gətir.
Durdu getdi qara atın yanına:
– Bacım buyün də Gülüxəndanın özünü istəyir.
Qara at:
– Sözünə baxma, bunu gətirə bilməyəcəksən.
İbrahim:
– Allaha təvəkkül, səhər açılsın, xeyrə açılsın, görək nə cür olur.
Səhər yenə getdi ovlağa, nənəsinin qabağına yemək tökdü. Dolanırdı, gördü Şah Abbasla Allahverdixan vəzir gəldi. Naharı yeyəndən sonra:
– Qurban, elə bil keçilərim sütə dolubdu, yenə beş-altı gün gedəcəğam – dedi.

Şah:

– Olsun. Sən hər zaman getsən, azadsan – dedi.

İbrahim yenə qara atı mindi, az getdi, çox getdi, qara at dedi:

– Bilirsən İbrahim, elə orda məni ötürəcəksən. O cür suyu addayacaqsan, ondan betər bu seri qışqıracaqlar üstünə ha. Yenə yol açılacaq, iki zikr oxuyacaqsan, qurtarandan sonra yenə atın, itin xörəklərini dəyişəcəksən. Ordan sovulacaqsan, bir batman duz aparacaqsan, tökəcəksən qapının altına, qapı curuldamasın. Elə ki qapını açdın, qızın yanında bir yekə ağac vardı. Qız yatıbdı. Yanındakı o ağacınan götürüb nə gücün var, çalacaqsan qıza. Çaldın qıza, qız yuxudan ayılacaq. Qorxmaginən disginə, qorxa. Sənin nə gücün var, vırginən. Elə ki onu vırdın, vıran dəyqə sizin məhəbbətiz bir-birinə vurulacaq. Bir molla yetişəcəkdi, sizin kəbinizi oxuyacaqdı. Sonra gəlib suyu bu taya adladız, onun da bir atı var, sənə deyəcək ki, mənim atımı min, mən də sənin atını minim. Yox ha, o cür bir iş görmə. Elə deyəcəksən, hər kəs öz atını minəcəkdi. Sənə nə deyirəm, onu eləyəcəksən.

– Baş üstə – deyib, atı ötürdü, çırmalanıb ayağını qoydu suya. Dünya bir-birinə qovuşdu. Qulaq asmadı. Elə o cür oxuya-oxuya getdi. Körpünü atladı. Atınan itin xörəklərini dəyişdi. Bi batman duz götürdü, töhdü qapının altına, qapı cırıldamadı. İt başı sümüyə qatışdı, atın başı arpaya. Bu yetişdi qıza, gördü qız elə yatıb, kasıbın baxtı kimi. Gördü bir yekə zırpı ağac var. Ağacı götürüb yuhladı qıza. Qız yuxudan ayıldı:

– İbrahim, gəldin? – dedi.

Molla yetirib kəbinlərini oxudu. Gəldilər, qızın da bir atı var idi.

– İbrahim, sən mənim atımı min, mən də sənin atını.

– Yox, – dedi, hər kəs öz atını minsin – dedi.

İbrahim gördü nə su var, nə yol var, nə körpü var. Hamı olub adam, dünya bütün adamdı. Hamı düşdü bunun ayağına:

– Yolun açıq olsun, – dedilər. Biz nə zamandı, tilsim olub qalmışıq. Birimiz at, birimiz pişik, birimiz it, hərə bir heyvan olub.

– Gəlin gedək – dedi.

Bunlar da qoşuldular İbrahimə gəldilər. İbrahim səhər durdu getdi qara atı minə, gördü at orda yoxdu.

– Bə mənim atım hanı? – dedi.

Gördü bir ağayanı orda oturub:

– İbrahim sağ olsun, sənin qara atın mən idim. Filan padşahın oğluyam. Mən də tilsimə düşmüşdüm. Sənin kimin gəlmişdim Gülüxəndanı gətirəm, gətirə bilmədim, sənə at olmuşam. İndi də oğlan oldum. Atının yerinə at bağlamışıq. Gülüxəndan xanım bu oğlana (ki qara at olmuşdu):

– Sən getməginən – dedi. Bizim toyumuzu gör, sora.

– Baş üstə – dedi.

Yenə atı mindi. Atı dəyişilmişdi. Getdi xanımın qabağına xörək töhdü, getdi. Gedəndən sonra Gülüxəndan bilirdi, qarını yollayacaxdı. Getdi yenə padşahın evində nahar yedi. Xalaları gördü, qaçdılar qarının başına:

– Qarı, səni beiman olasan. Oğlan qayıdıb gəlibdi – dedilər.

– Bu seri elə yerə yollayım, iki yüz il gəlməsin – demişdi.

Yenə gəlib nahar yeyir.

– Bax, səbr elə – dedi.

Bu qarı yenə gəldi:

– Bala, dadaşın Gülüxəndanı gətiribdi.

– Bəli – dedi.

Gülüxəndan dedi:

– İşin olmasın, qoy gəlsin içəri, onnan işim var.

– Qarı, bu qıznan oğlanı neynədin? – dedi.

– Qoydum bir qutuya, ötürdüm suya.

Qarının başından yapışdı, bir də qıçından, elə sıxdı, sıxdı, dükçələyib soxdu təndirə. Təndirdə açılıb, açılanda çıxardıb – xəbər apar – dedi dostlarına, qarı yapışıb qıçından.

Qaça-qaça getdi dedi:

– Eviz yıxılsın, indi sizin axır günüzdü.

İbrahim gəldi yatdı. Səhər Gülüxəndan bir qara yumax, bir sarı yumax, bir də ağ yumax verib dedi:

– Bunları at yerə, ucundan yapış, getginən dolan gəl. Qayıdıb dalına baxmayacaxsan.

İbrahim bir belə yolu nə qədər gücü var idi, atı qova-qova getdi, gəldi bura.

– Bir qayıdıb dalına bax! – dedi.

Baxdı gördü, ay Allah, bir belə yol ki gedib gəlib, hamısı bir çadırdı. Nə dirəyi var, nə mıxı var, nə ipi. Elə bu yekəlihdə çadırdı dünyada. Bir qırmızı ip verdi, bir göy ip, bir yaşıl ipin ucun verdi əlinə, yumağı atdı yerə, dedi:

– Gedəcəhsən, çadırın içindən dolanıb gələcəhsən, qayıdıb dalına baxmıyacaxsan.

Getdi çadırın içini dolandı gəldi. Yanına yetişəndə dedi:

– Qayıt baxginən.

Qayıtdı baxdı gördü, o yekəlihdə çadırın içində bir fərş vardı.

– İndi oldu, – dedi. Gedib şaha deyəcəksən ki, qurban sağ olsun, sənə çox qonaq gəlmişəm, çox naharını yemişəm, bundan belə bi gün də mənə qonaq gəlginən.

– Baş üstə! – dedi.

Getdi padşahın ovlağına, gördü şahınan Allahverdixan vəzir gəlir. Dolanıb getdilər, şahın naharını yedilər, içdilər, oturdular:

– Qurban sağ olsun, sabah nahara mənə qonaqsan. Nə qədər şəhərində istəhli adamın var, çağırginən.

Şah:

– Olsun, çağıraram – dedi.

Gülüxəndan dedi:

– Gündə ki gedirsən o xanımın qabağına xörək tökürsən, bir beldən, külühdən apar, onun da dövərsin eşib, torpaqdan çıxardıb götür gəl bura.

Getdi onu da torpaqdan çıxartdı, gətirdi. Aparıb yuyundurub təmizlədilər, bir dəst paltar geyindirdi, qoydu lap yuxarı başa:

– Əyləş burda. Sənin heç zadınan işin olmasın – dedi.

Oturdular, oturandan sonra bi yol xəbər verdi yoldaşlarına. Danadan, qoyundan, öküzdən kəsdilər. Qazanları asıblar, qazanın ucu-bucağı gösənmirdi. Tamam xörək pişir. Şahın torpağında nəmənə adam vardı yığışıbdı çadıra. Oturdular. Yarısı da bekardı. Gülüxəndan tilsim fərman verdi:

– Misirdən qoca bağbannan arvadını gətirərsiz.

İkisini də ordan götürüb gətirdilər, qoydular bura. Dəva verdi, bunların gözləri açıldı.

Qarı:

– O sənin oğlundu, bu da qızındı. Bunları tanıyırsan?

Kişi:

– Hən, – dedi. İbrahim, bala, hardaydın?

İbrahim:

– Harda olacağam, burda qalırdıq. Azıb gəldik bura.

Qarı:

– Siz çox korrux çəkibsiz. Bunları siz saxlayıbsız.

Padşah gəldi, yer görsətdilər, əyləşdilər.

Kişi soruşdu:

– O üç qız ki saxlayırdın, onun biri aş pişirəcəkdi, dünya bütün yesin, bir qazan da artığı da qalsın.

Kişi:

– O nəmənə pişirdi?

Şah:

– Heç zad. Bir az şor su qaynatdı, hər kəs barmağını batırdı, yerə tüpürdü. O birisi də xalça toxuyacaxdı.

Kişi:

– Toxudu?

Şah:

– Yox. Bir xurcun tayı toxudu, hamısın eləmişdi iynəsancaq. Hər kəs oturdu, yanına batdı. Bir az da artıq qaldı.

Kişi:

– O çıqqılı nə demişdi?

Şah:

– O da ki uşaq doğaram, bir birçəkləri qızıl, bir birçəkləri gümüş.

Kişi:

– O neynədi?

Şah:

– Heç onu da danışdırmasan, yaxşıdı.

Kişi:

– Niyə? Genə soruşuram.

Şah:

– O da iki dənə it küçüyü doğdu.

Kişi:

– Qurban, sən gördün it küçüyünü doğanda?

Şah:

– Yox – dedi.

Kişi:

– Bə nə cür şahsan? Anlayaydın bə arvad it küçüyü nə cür doğar?

Şah:

– Bilmirəm ki – dedi. Səhər dedilər ki, xanım doğub, mən də bildim.

Kişi:

– Bunu kim doğuzdurubdu?

Şah:

– İki bacısı, bir də qarı məməsi.

Kişi:

– Onları gətir – dedi.

Üçün də gətirdilər. Qarı dedi:

– Öldürsələr də, mən deyəciyəm – bunlar dedi.

Bunlar gəldi, şah soruşdu:

– Qarı, o xanımı ki, damda, bacada doğuzdurdun, nəmənə doğdu?

– Qurban sağ olsun, iki uşaq doğmuşdu.

Şah:

– Neynədiz bə?

– Uşaqları qoyduq qutuya atdıq, su götürdü apardı. Mən eləmədim ki, bacıları elədilər. Bacıları dedi, bu cür elə, mən də elədim.

Gülüxəndan dedi:

– Şah Abbas, özün bi yol qəzavət eylə.

Gətirdilər, bacılarının başlarını qıxdırdılar. Tərsə mindirdilər ağ eşşəyə, yoldan keçən bunların üzünə tüpürsün. Qarını da öldürdülər, atdılar çölə.

Gülüxəndan:

– Qurban sağ olsun, bu sənin xanımındı, bu sənin qızındı, bu da oğlundu. Bunun adı İbrahim, bunun da adı Gülzardı. Su qutunu apardı, Misir şəhərində bu qoca bağban tutub apardı. Xanımının da əmciklərinə süd gəldi. Bunları əmişdirdi, böyütdü. Gülzar xanım gördü bu bunlara bənzəmir, qoydu gəldi bu diyara. Mən də sənin gəlininəm. Bu da sənin qızındı. O cavan oğlan da padşah oğludur. Mənin yolumda gəlib çox zəhmət çəkib. Burda at olmuşdu. Bunun gücünə sənin bu oğlun indi burdadı, yoxsa çoxdan getmişdi. Zəhmət olmasa, elə sənin də qızını verax bu oğlana, getsin öz məmləkətinə. Desin ki, Gülüxəndan budur, bunun dalısınca getmişdim.

O getdi o yana, Şah Abbas da İbrahimə qırx gün, qırx gecə toy elədi. O qoca bağbanı da, xanımın da gətirdi dərbara saxladı, İbrahim bunlara qulluqçu oldu.

## QARI NƏNƏ İLƏ QARĞALAR

Biri var idi, biri yox idi, Allahdan sora heç kim yox idi. Bir qarı nənə var idi. Bu qarı nənənin bir balaca evi var idi. Qarı nənənin balaca evinin bir balaca da bağçası var idi. Bu balaca bağçada bir iydə ağacı var idi. Hər il qarı nənə gözlərdi yay qurtula, payız gələ, payızın əvvəl yağışı yağa, ta iydələri dərə. Amma hər il qarı nənə iydələri dərərdi, görərdi iydələrin

bir üzi yoxdu. Onun üçün nə iydələrdən yeyə bilərdi, nə də birinə peşkəş eləyə bilərdi. Bir il qarı nənə öz-özünə deyir:

– Bu il iydə ağacını güdəcağam. Görüm bu iydələrin başına nə gəlir? Bir üzləri var, bir üzləri yox.

O il bahar iydə ağacı güllənir, sora da gülləri tökür, barlanır. Qarı nənə hər gün gözlərini dörd açır, iydə ağacını güdür.

Bir gün görür bir dəstə qarğa gəldilər, otdular oydə ağacının budağlarında. Ye ha ye. İydələrin bir üzlərin dimdikləyib yedilər… yedilər, doydular, uçub getdilər. Qarı nənə dedi:

– Sizə deyirəm, mənim iydələrimi yeyirsiz?

Sabahları qarı nənə ocağı yandırar, şişləri qoyar ota. Qarğalar gəlib budağlarda oturmağa, həmən şişləri basar yanlarına. Qarğalar çığıra-çığıra, bağıra-bağıra, qarıldıya-qarıldıya uçub gedirlər.

Bir neçə gün qarı nənə gələn qarğaların yanlarına dağ basdıxdan sora daha heç qarğa qarı nənənin bağçasına dolanmaz. Qarğalar gəlirlər qonşuların bağçasına, otururlar duvarların üstündə, amma iydə ağacının yaxınına belə gəlməğa cürət eləməzlər.

Gün o gün olur iydələrin hamısı yetişir. Qarı nənə bir neçə iydə dərir, görür bəh-bəh, iydə, nə iydə. Qabığı qıpqırmızı məxmər kimi, dadı şipşirin bal kimi, hər biri badam yekəlixdə, sağ-salim iydədilər. Üzün tutur duvar üstündə oturan qarğalara, səslənir:

– Qarğalar, qarğalar, gəlin iydələr yetişibdi.

Qarğalar da səslənib qarı nənənin cavabında deyirlər:

– Qarı nənə, gələmmərux, yanımız pişibdi.

## QARI İLƏ PİŞİK

Biri var idi, biri yox idi, Allahdan sonra heç kim yox idi. Bir qarı var idi. Bu qarının bir pişiyi var idi. Bu qarı çox pinti bir arvad idi. Ev işi zadı görməzdi. Bir gün zirəklənər, durar evi süpürər. Evi süpürürkən bir bisti tapar. Sevincək bistini

götürür, bazara gedib bir az halva alar. Halvanı gətirib qoyar taqçaya, pişiyinə deyir:

– Mən çox yorulmuşam. Qoy bir az yatım, durum halvamızı yeyax.

Qarı yatar, pişik tamahını tutammaz, istər atılsın taqçadan halvadan yesin, əl-ayağı zuyər, düşər qarının başına. Cırmağı ilişər, qarının gözünün altı didilər. Qarı da yuxudan diksinib atılar, gözü də dididildiyinnən hirslənib cəhrəni atar, dəyər, pişiyin başı yarılar.

Bu ikisi savaşıb, savaşıb sonrasında qazı yanına gedərlər. Qazı olan-bitəni soruşar. Qarı deyir:

– Mən evi süpürməzdim.

Qazı:

– Pinti imişsən, qarı.

Qarı:

– Bu gün durdum, evi süpürdüm.

Qazı:

– Zirənglənmisən, qarı.

Qarı:

– Evdən bir bisti tapdım.

Qazı:

– Şansın gətirib, qarı.

Qarı:

– Getdim bir az halva aldım.

Qazı:

– Köylün istəyib, qarı.

Qarı:

– Gətirib qoydum taqçaya.

Qazı:

– Boğazı təmiz imişsən, qarı.

Qarı:

– Pişik atıldı halvanı yesin.

Qazı:

– Nəfsi istəyib, qarı.

Qarı:
– Düşdi, mənim gözümi cırmaqladı.
Qazı:
– Sürmə çəkirmiş, qarı.
Qarı:
– Mən də cəhrəni atdım, pişiyin başı yarıldı.
Qazı:
– Telini darayırmışsan, qarı.
Qarı baxar pişiyə, pişik baxar qarıya, qarı deyir:
– Dur gedax, halvamızı yeyax, pişik.
Durub gedirlər evlərinə, halvalarını yeyirlər.

## ƏSALƏT

Biri var idi, biri yox idi, Allahdan sonra heç kəs yox idi. Qədim zamanlar bir vilayətdə bir padşah var idi. Bu padşahın bir dürr qaşlı üzügü var idi. Padşah bu üzügü çox sevirdi.

Bir gün padşah üzügünü taxanda görür üzügün qaşına bir qara ləkə düşüb. Nə qədər dürrü silər, yuvar, o qara xal getməz. Vəziri-vəkili çağırar, deyir:

– Tez olun, tapın görüm nə olub mənim üzügümün qaşına.

Vəzir-vəkil hər kəsdən soruşarlar, bir cavab tapammazlar. Şah da bulara hərbə biçər, deyir:

– Bəs siz nə təhər vəzir-vəkilsiniz, bir balaca məsələnin də cavabını tapammırsız?

Vəzir dəstur verir, şəhərdə car çəkirlər.

– Qibleyi-aləmin üzügünün qaşına bir xal düşüb. Hər kəs bunun illətini bilsə, gəlsin desin, cayizə alsın.

Sabahısı bir kasıb kişi gələr şahın sarayının qapısına, deyir:

– Mən məsələnin cavabını bilirəm.

Kişini apararlar şahın yanına. Şah deyir:

– Ay kişi, denən görüm, nə olub mənim üzügümə?

Kişi bir üzügə baxar, deyir:

– Qibleyi-aləm sağ olsun, bu dürrün içində bir qurd var. O qurd dürrü içəridən yeyir. Onun üçün dürrə qara xal düşüb.

Şah deyir:

– Səfehləmə, ay kişi. Dürrə necə qurd düşər? Verərəm qaşı sındırarlar, içinnən qurd çıxmasa, verərəm cəllad boynuvu vurar haa!

Kişi deyir:

– Aləm, arxayın olun, bu dürrdə qurd var.

Şah vəzirə deyir:

– Bu dürrü sındırın görüm necə qurd var?

Hər nə, dürrü sındırırlar, görərlər bəli, içində qurd var. Hamı kasıb kişinin ağlına, huşuna heyran qalarlar. Şah kişinin ağlına afərin deyib dəstur verir:

– Aparun aşpazxanaya, bu kişini qəşəhcə yedirdün, içirdün.

Sabah padşah kişini çağırar qulluğuna, deyir:

– Sənin ağlunnan, dirayətünnən çox xoşlanmışam. Gəl sənnən çıxax gəzməğə.

Şah dəstur verir, mehtər atını gətirir, minir ata, kişiyə deyir:

– Bu at mənim lap yaxçı atlarımın biriydi. Nə deyisən bu ata?

Kişi bir az baxar ata deyir:

– Qibleyi-aləm sağ olsun, at yaxçı atdı. Amma su qırağına yetişəndə bir az muğayət olun, sizi suya sala bilər.

Şah deyir:

– Bu necə sözdi, ay kişi? Lap elə indi sürürəm su qırağına. Görüm əgər məni suya salmasa, verəcəğam boynuvu vursunlar.

Sora da atı çapırdar çay qırağına. At dörd nal qaçar, qaçar, amma çay qırağında birdən kişnər, kişnər, girər çayın içinə.

Xədəm, həşəm qaçarlar, şahı sudan çıxardarlar. Şah kişini çağırar deyir:

– Afərin sənə!

Sora da dəstur verir:

– Aparın bu kişini aşpazxanıya, köylü nə istəsə yesin, içsin.

Sabah padşah kişini çağırar qulluğuna, deyir:

– Ay kişi, sən çox ağıllı bir adamsan. Mənim təşkilatımı, bargahımı gördün. Denən görüm, mənim özümə, şahlığıma nə diyirsən?

Kişi başın salar aşağıya, deyir:

– Padşah, məni bu bir dənə sualdan məaf buyur. Ayrı söz nə soruşursan soruş, cavab verim.

Şah gümana düşür, deyir:

– Yox, olmaz. Gərək elə bu sualımın cavabın verəsən. Yoxsa verərəm, öldürərlər.

Kişi labid qalar, deyir:

– Qibleyi-aləm sağ olsun, cavab verəcəğam, amma əvvəl aman istərəm.

Şah deyir:

– Aman verdim. Danış!

Kişi deyir:

– Padşah, sən çox yaxşı bir adamsan, amma əsilzadə deyilsən. Sən indi şahsan, amma şah oğlu deyilsən.

Şah bu sözü eşidib çox qəzəblənir. Cəlladı çağırar kişinin boynun vırdıra. Kişi deyir:

– Qibleyi-aləm, sən mənə aman vermişdin. Olmuya sözünnən dönəsən?

Şah görər bəli da, aman verib. Qaravulları çağırar, dəstur verər, kişini salarlar zindana. Şah kişini atar zindana, amma fikir, xəyaləti başınnan atammaz. Deyir:

– Ay oğlan, bu qabağcan da heç kimin bilmədiği iki məsələnin də cavabın düz demişdi. Bu işdə bir iş var.

Fikir, xəyalət qurd kimi düşür şahın beyninə. Gecə xəyalətdən yatammaz. Gün çıxmaq həmən gedər anasının yanına, deyir:

– Ana, düzün denən görüm, mənim atam kimdir? Mənim əslim hardandı?

Anası deyir:

– Oğul, səfehləmisən? Sənin atan şah idi, sən də onun şahzadəsiydin.

Şah deyir:

– Ana, ya doğrusun deyirsən, ya da burda bu qılıncnan özümü öldürəcəğam.

Anası labid qalar, deyir:

– Oğul, mənim ərim şah idi. Özünə bir şahzadə istəyirdi. Amma mən hər nə boylu olurdum, ölü dünyaya gəlirdi. Son dəfə şah hərbə kəsmişdi, uşaq ölsə, məni də öldürəcağ idi. Qəsrin aşpazının da xanımı mənnən bir boylu idi. Bir-iki gün mənim sancım tutmamışdan qabax səni doğmuşdi. Mənim də uşağım doğanda öldi. Mama ata-anavı razı saldı, səni alıb qoydux ölən uşağın yerinə. Sən aşpaz oğlusan. Amma mənim öz uşağımnan zərrə fərqin yoxdu.

Şah bunu eşidib yollar, kişini zindannan çıxardıb gətirərlər. Deyir:

– Sən düz deyirdin, ay kişi, amma indi denən görüm bu məsələlərin cavabını hardan bildun?

Kişi deyir:

– Qibleyi-aləm sağ olsun, o ki dürriydi, əgər eşikdən bir şey olsaydı üzügə, siz bilərduz. Bəs eşikdən bir şey olmamışdı. Atalarımız yaxçı deyiblər: "Ağacı içinnən qurd yeyər". Bəs bildim dürrü içəridən qurd qaraldıb. O ki at idi, atın qıçlarına baxdım gördüm, qıçlarının tükü uzundu, bildim bu at körpəlixda gamışlarnan bir yerdə böyüyüb. Gamış sütü əmib, onun üçün gamışlara tay suyu sevib. Su görəndə özün də, minəni də suya atacaq. Siz də qurban, məsələlərə cavab verdixcə, hər səfərində mənə ənam, xələt verməк əvəzinə dəstur verduz məni aparalar aşpazxanaya, qarnımı doyuralar. Bir əsalətli şahzadə ənam, xələt verərdi.

Padşah kişinin cavablarına afərin gətirir, sora da deyir:

– Mən əsilzadə bir şah olmuya bilərəm. Amma sənin kimi ağıllı bir vəzirim olsa, yolumdan çaşanda düz yolu mənə

görsədib məmləkət işlərində ağıllı tədbir töksə, adil və yaxçı bir şah ola bilərəm. Nə yaxcı sən mənə vəzir olasan, birlixdə bu məmləkəti dolandırax.

Kişi də deyir:

– Qibleyi-aləmə canım qurban. Hər nə buyursan, gözüm üstə.

Kişi şaha vəzir oldu. İkisi birlixdə məmləkəti dolandırmağa başladılar. Yedi, içdi, yerinə keçdi.

Göydən üç alma düşdü. Birin mən yedim, birin Röya, birin də nağıl deyən.

## ÇİRKİN-GÖYÇƏK BULAQLAR[11]

Bir dənə qızın nənəligi var imiş, bir tüməç yun verir, bir dənə inək verir, deyir:

– Apar bu ineyi yay, bu yunu da əyirginən, axşam olanda gətiginən, inəgin sütün sağaq.

Bu, bir gün gedər inəgi qəytərə gətirə, bunun yununu yel aparar. Yununu yel aparar, aparıb salar qarının pacasına. Qarının pacasına yunu saldı. Yun düşdü. Qarı deyir:

– Gəlginən başıma baxginən... mən sənin yunun verim.

Gedər qarının başına baxanda qarı deyir:

– Mənim başım yaxşıdı, ya nənəligin başı yaxşıdı?

Qız deyir:

– Xeyir, sənin başın yaxşıdı.

Qarı deyir:

– Mənim evim yaxşıdı, ya nənəligin evi yaxşıdır?

Qız deyir:

---

[11] Mətni toplayan şəxs nağılı canlı xalq danışıq dilində, olduğu kimi qeydə aldığını yazıb. O, nağılda farca sözlərin işlənməsinin səbəblərindən bəhs edir, farsca danışmağın bəzi şəxslər tərəfindən üstünlük kimi qiymətləndirilməsini vurğulayıb və Türk ustanlarının (ostanlarının) əhalisinin ancaq türklərdən ibarət olduğunu yazıb. Nağılın yazıya alındığı bölgədə türk əhalinin farslarla deyil, tat və kürdlərlə qonşu olduqlarını qeyd edib.

– Xeyir, sənin evin yaxşıdı.

– Get bulağın ikisini say, üçüncüdə əl-üzün yu, getginən evizə.

Bu gedər ikini sayar, üçü keçəndə əl-üzünü yuyar, bu qız belə olar ay parçası kimin. Gedər evə, nənəlig görər bu belə göyçəkləşib deyir:

– Nəmə olub sənə? Niyə bu cür göyçəkləşmisən?

Qız deyir:

– Vallah, qəziyyə bu cürdür.

Bu qızı salar təndirə, qoyar təndirin ağzına, öz qızına yun verir, deyir, apar sən də inəkləri yay, qoy sən də o cür göyçəkləş geyin. Padışahın oğlu bu nənəsiz qıza aşığımış. Bu da gedər aparar yunu belə belə salar qarının pacasına.

Deyir:

– Qızım, gə başıma baxginən!

Gəlir başına baxa. Deyir:

– Sənin başın yaxşıdı, ya sənin nənən başı yaxşıdı?

Qız deyir:

– Mənim nənəmin başı yaxşıdır.

– Mənim evim yaxşıdı, ya sənin nənən evi yaxşıdı?

– Xeyir, bizim evimiz yaxşıdı.

Qarı deyir:

– Getginən bulağın birin say, ikisində əl-üzünü yuginə, Get evizə.

Bu gedər bir bulağı qoyar, ikisində əl-üzünü yuyanda, üzündən bir dənə eşşək təzəgi çıxar.

Nənə düşər, gələr:

– Vey Allah buynan quyuda Sitarə bəs niyə elə olacaq? (Küçük qızın adı Sitarə imiş.) Bəs o niyə elə oldu, bu niyə belə oldu?

Bu yol Sitarəni saldı təndirə.

Padışahın oğlu gəlir bu qıza elçi, bu qız özünü tutar qeyim-qeyim, bunu verir padışahın oğlu götürür gedir. Padışa-

hın oğlu gedir. Üzün açanda görür xeyir, bu gördügi qız döyür... annan bu padşahın oğlu deyirmiş:

– Aç üzün, görüm üzündə nəmə var?

Deyirmiş:

– Nənəm qurut verib yeyim.

Axırda üzün açar, padışahın oğlu çıxar qaçar. Bu yol gətirib bu qızı təhvil verərlər. Arvad deyir:

Xeyir nəbini Sitarə
Zivərə avarə kərdi,
Məni biçarə kərdi,
Zivərə avarə kərdi.

"O qızın adı Zivər imiş". Padışahın oğlu gətirir verə. Gedər vırar təndirin ağzı açılır, Sitarəni çıxardar, onnan yeddi gün, yeddi gecə toy elər. Onu götürər gedər.

## ZALIM QAYNANA

Qədim zamanlar bir qarı üç oğlu, iki gəlini ilə bir evdə yaşayırdı. Bu qaynana çox insafsız və zalım idi. Yazıq gəlinlərə gün verib, işıq vermirdi. Yağı, düyünü, qaymağı, hər bir şeyi qoyurdu sandığa, qıfılın da boynundan asırdı. Yazıq gəlinlər səhərdən axşama çöldə, pəyədə, evdə işliyirdilər, ama bir doyun qarın yemirdilər. Yedikləri də yavan çörək olurdu. Hələ bu bəs olmurdu. Qaynana bunları oğlanlarına çuğullurdu. Kişilər də analarına inanıb onları döyür, söyürdülər. Evi cəhənnəmə çevirmiş bunlara zalım qaynana...

Bir gün bəxtsiz gəlinləri hamamda bir dostları görür, soruşur:

– Ay bala, bu nə haldır? Niyə bu günə qalmısız?

Bunlar başlarına gələnləri açıb bu qıza tərif edirlər. Deyirlər, dünyadan xoşbəxt həzərat Həvva olub, çünki qaynanası olmayıb!

Qız deyir:

–Evdə subay qaynız var?

Gəlinlər deyir:

–Bəli, var...

Qız deyir:

– Siz bir yol tapıb məni alız qaynıza.

Gəlinlər gəlib evdə bu qızın gözəlligindən tərif edib, qayınların həvəsləndirirlər. O da ananı zora qoyub, xülasə, bu qızı gedib alıb gətirirlər...

Bu kiçik gəlin çox huşu-başlı və zirəng bir qız idi. Qayınxatınlara söz verir ki sizin də intiqamızı bu arvaddan alacağam.

İlk gündən qaynanaya yaxınlaşır, məhəbbətlə deyir:

– Nə çəkmisən bu gəlinlərin əlindən, mən ömrüm boyu sənin qulluğunda olacağam... Sən get gəz dolan. Biz hər işi görəriq. Sən bu bel ağrısı, qıç ağrısı ilə niyə piyada dolanırsan axı! Səni gündə mən dalıma alıb aparıb dolandıraram.

Bala gəlin sabahdan bu qaynanı dalına alıb qohumlarının birinə aparanda sandığın kilidin boynundan açıb, qaynanı yetirib qayıdırdı, qayın xatınlar sandığı açıb hər nə var götürüb pişirib yeyib içirdilər. Axşam qaynana qayıdanda kəlidi yavaş onun boynuna salırdı. Hər gün bu işi təkrar görürdü.. Gəlinnərin üzünə yavaş-yavaş su gəlirdi və toralırdılar. Bir neçə gün keçdi. Balaca gəlin qaynananın ürəgin ələ almışdı. Qaynana da gəlinə güvənib, öz aləmində kef eləyirdi, deyirdi:

– Allah səni mənə yetirdi, yoxsa bu gəlinlər məni öldürəcək idi...

Bir gün balaca gəlin böyük gəlinə deyir:

– Mən qaynananı alıb evdən çıxanda gəl mənə denə: “Ay qız, tez ol gəl, dədən ölüb”, – deyir.

Səhər tapşırdığı kimi böyük gəlin gəlib ona deyir:

– Ay qız, nə durmusan ki, yazıq dədən öldi...

Gəlin qışqırır, “Eyvah, dədə”, – deyə-deyə özün çırpır o divara, bu divara.

Qaynana nə qədər yalvarır, “Məni qoy yerə”, – deyir. O deyir:

– Dəymə, xanım, eləyim, dədəm ölüb..

Bu arvadı qışqıra-qışqıra çırpır qapıya, divara, hər yan gəldi vurur. Axırda da qaynana şil-küt olur. Dalından qoyur yerə, deyir:

– Eyvah, ana, bağışla, ana, sən niyə belə oldun? İndi sənin boğazıva horra pişirib töküm, düzələrsən, yaraların sağalar...

Gedir yağı dağladır, qaynaya-qaynaya tökür qaynananın boğazına... Arvadın bağırsaqlarınacan yanır.. Oğlanları gəlib soruşur:

– Anamıza nolub, niyə bu hala gəlib?

Gəlinlər səs-səsə verib, deyir:

– Birdən-birə bu hala düşüb...

Zalım qaynana ha elir başına gələni desin, dinmir. Neçə gün yorğan döşəkdə qalandan sonra ölür. Oğlanlar da heç bilmir evdə olan keçəni.

Gəlinlər ağ günə çıxıb, rahat hərəsi öz aylələriylə yedilər, içdilər, şad yaşadılar. Siz də yeyib, içib, mətləbizə çatasız.

## TƏNBƏL ƏHMƏD[12]

Biri varıydı, biri yoxıydı. Allahdan sonra heç kəs yoxıydı. Bir padşah varıydı, bu padşahın üç qızı varıydı. Bir gün padşah qızların çağırar yanına xoş beş on beşdən sonra qızlarından soruşar:

– Deyin görüm bir, evi zinədəganlığı arvad evi eylər, ya kişi?

Böyük qız deyər:

– Atacan, kişi olan yerdə arvad nə karədir? Əlbəttə, kişi.

Şah deyər:

– Bərəkalla, qızım.

Və qızına bir xalat verər. Ortancıl qızdan soruşar, o da deyər:

– Atacan, əlbəttə kişi, arvadda o başaracıq nə qeyirir?

[12]Nağılın əvvəlində “Təbriz ağzı ilə” qeydə alındığı yazılıb.

Şah ona da bir xalat verib üzünü tutar balaca qıza, qız nə alar, nə salar, deyər:

– Yox, atacan! Məncə, bir evi arvad ev elər, arvad kirdarsız olsa, kişi nə qədər zəhmət çəksə, kar verməz.

Kiçik qızın cavabı şaha xoş gəlməz, deyər:

– Köpəyin qızı, sənə bir dərs verim, dərs olsun!

Vəzir vəkili çağırar, vəzir şahın öz qardaşı, vəkil də öz qeyini imişlər. Hal-qaziyəni onlara deyib, tədbir eləməklərini istər. Bir az fikirləşəndən sonra qıza ədəb olmağı üçün bir tənbəl oğlanla evləndirmağa qərar verərlər.

Sabah səhər şah dəstur verər şəhərdə nəmənə tənbəl, beyar oğlan var, yığıb gətirərlər, sonra da hamısın itələrlər bir dalana, dalanın dörd dörəsində saman qalayıb odlayarlar, tüstüsünü doldurallar dalanın içinə. Bu heynədə qulluqçular bacalardan tənbəlləri güdərlər. Tənbəllər tüstü çoxalandan sonra yavaş-yavaş başlallar boğulmağa, qışqırıb aman istərlər.

Bu arada oğlanlardan biri tənbəllikdən yanındakı kişiyə deyər:

– İndi ki qışqırısan, denə yoldaşım da boğulur!

Qulluqçular bunu görmək haman deyərlər axtardığımızı tapdıq! Oğlanı tutub apararlar şahın hüzuruna, hal-qaziyəni tərifləələr.

Şah oğlandan soruşar:

– Oğlum, adun nədi?

Oğlan deyir:

– Əhməd.

– Nə iş görəsən, Əhməd?

– Qiblə-aləm sağ olsun, bir iş görmərəm, həyətimizdə bir təndirim var, elə yataram onun içində.

– Bəs sən nə yeyib içirsən?

– Qurban, anam nə versə, yeyib Allaha şükr elərəm.

Şah deyir:

– Axtardığımız adam elə budı, yollar aqid?

Dalıca, kiçik qızı çağırar, sonra qızı ilə Əhmədin kəbinin kəsdirər, əl-ələ verib, cəhazsız, xədəmsiz, həşəmsiz, yola salar. Qızına da deyər:

– Get görüm necə ev yığacaqsan.

Əhməd qızı götürür, düşürlər yola, gedib-gedib yetişirlər Əhmədgilin evinə. Qız baxar görər bir balaca palçıq suvaqdan evdi, atasının qəsri hara, bura hara? Qapını döyərlər, Əhmədin anası gəlib qapını açar, görər ay parçası kimi bir qız, ayan-əşrəfi bir paltar əynində Əhmədinən qapıda. Buyurun-buyurun deyib, keçirdər içəriyə, yavaşca Əhməddən soruşar:

– Ay oğul, bu xanım kimdi? Padşahın qaravulları səni hara apardılar?

Əhməd deyir:

–Ana, mən çox yorqunam! Bu qızdan soruş bax!

Sonra atılar gedər təndirin içinə, təndirin də ağzını çəkib yatar. Qız başlarının qəza və qədərin qəyinanasına nəql elər, ana-qız dərdləşib sonra da başların qoyub yatarlar.

Sabah da, biri gündə, o biri gün də qız görər Əhməd o təndirdən heç eşigə çıxmır. Elə anası hər nə yağlıdan-yavandan pişirir, bir pay da qoyur təndirin pəyəsinə, Əhməd də götürüb yeyib-içib qapını ötürür eşigə, öz-özünə deyir, bu cürluğunan olmaz, gərək bir şey eliyim.

Qız boyun qulağındakıları bir-bir soyub qeynanasına verər, satıb günlərin keçirdərlər, hər vaxt da Əhmədə deyər:

– Ay Əhməd! Dur get bir iş dalınca.

Əhməd təndirin duvaqın çəkib özün verər yuxuya.

Bir gün qız görər üç-beş şahıdan sonra heç bir şeyləri qalmıyıb, pulu verər qeynanasına deyir:

–Get bir-iki kilo qırmızı alma al.

Sonra da Əhməd yemək istəyəndə almaların birin verib, deyir:

– Da bundan sonra yemək üçün heç bir şeyimiz yoxdı.

Almaların qalanlarında dana-dana bir-iki metir fasilə ilə düzür təndirin ağzına, həyətin o başınacan, sonuncusunu da qoyar küçə qapısının eşiginə. Əhməd almanın yeyib doymaz,

başın təndirdən çıxaranda eşigə, bir dana da istiyə, düzülən almaları görər, təndirdən çıxıb bir-bir almaları götürər yığar ətəginə, apara təndirdə yeyə, həminki qapının eşigində olan almanı götürəndə, qız qapını salar işgilə, tənbəl Əhməd qalar küçədə. Nə qədər yalvarar, aç gəlim içəriyə, qız açmayıb deyər:

– Sən bu evin kişisisən, get dolan özünə iş tap, axşam gələndə də əliboş gəlmə!

Tənbəl Əhməd nə qədər qapıya təpik, yumruq döşər, qız qapını açmaz. Labid qalar, düşər yola, deyər, qoy gedim görüm başıma nə daş salacağam?

Bir az yol gedər, yorular, bir ağacın altında uzanar yatar, bir onda gözün açar görər axşam olub. Deyər, nə eləyim nə eləməyim? Əliboş getsəm, arvad məni evə qoymaz, atəgin doldurar daşınan, qeyidər evə, qapını döyər. Qız deyər:

– Kimsən?

Deyər:

– Aç, mənəm, Əhməd.

– Əliboş gəlmisən?

– Yox, əli dolu.

Qız qapını açar, görər Əhməd köynəginin ətəgində beş on dana daş gətirib. Bir fikirləşib deyir:

– Ay sağ ol, mənim ağıllı ərim, duvarlar da yavaş-yavaş baxmaq istir, yoxsa yıxılar. Hardan ağlıva yetişdi daş gətirəsən, duvarlarımızı düzəldək? Buyur-buyur, hətma çox da yorulubsan.

Qızın bu sözləri tənbəl Əhmədə çox xoş gələr, öz-özünə deyir:

– Bu qızı sevindirmək nə rahat işdi!

Sabah səhər qız genə Əhmədi oyadar, bu səfər Əhməd özü durub sazlaşıb evdən çıxar. Gedər, gedər yorulanda genə bir ağacın altında tirlənib yatar, axşam da, ətəgin doldurar çör-çöp, ağac–mağacnan qeyidər evə. Qız çör-çöpü Əhmədin ətəgindən boşaldıb yığar duvar dibinə deyər:

– Ay yaşa, mənim fikirli ərim, qışda yandırmağımıza odun yığıbsan, sağ ol.

Bələliklə, Əhməd hər gün səhər gedib axşam evə qeyidər, gələndə də, əlində bir dərdə dəymiyən, şeyi gətirər, ama şahın qızı heç tənbəl Əhmədin şıqqını sındırmaz, "Bərəkənnah-bərəkənnah (bərəkallah)", – deyib, alıb bir tərəfə qoyar.

Bir gün tənbəl Əhməd əlində bir ilan qabığı gətirər, qız onu da alıb, "Ay yaşa, bu da bir gün dərdə dəyər", – deyib taqçaya qoyar.

Sabahısı gün, qız durar, görər evdə heç bir şeyləri yoxdur bir tikə yemək bişirə, hər nəyi də varıydi qabaqcan satıb xərcləmişlər. Bir az fikirləşər, sonra deyər, Allah kərimdi, qoy hələ durum sil-süpür eləyim. Başlar evi süpürmağa, pəncərələri də açar toz-torpaq çıxsın. Görər bir qarqa pəncərədən girdi evə, dimdigində bir şey var idi, onu atdı, ilan qabığın taqçadan götürüb, uçub getdi. Qız baxar görər qarqanın saldığı bir cüt qızıl bilərzikdi. Allahın işinə heyran qalar, qeynanasını çağırıb, bilərzikləri verib, deyir:

–Apar buları sat, xırım-xırda al gətir.

Beş on gün beləliklə keçir, qız görür bu cür keçinmək olmur, bir gün deyir:

– Əhməd, bu gün get bazara, hər kəs nökər axtardı, denən, mən nökər gedərəm.

Əhməd bir az nəm-nüm elər, ama deyər:

– Yaxcı.

Durar begöyül, gedər bazara. Görər bir covqa tacir yığışıblar nökər axtarırlar, geçər qabağa deyər:

– Aqa, mən nökər gedirəm.

Tacirlərin biri deyər:

– Olsun, gəl danışaq, qərarlaşaq gedək.

Tənbəl Əhməd deyər:

– Yox, belə olmaz! Mən danışanmaram, gərək gəlib mənim xanımımnan danışasan.

Taciri salıb yanına, aparar evlərinə. Qızı çağırar, tacir qızınan danışar. Qız deyər:

– Ərimin muzdunun yarısın indi verəcəksən mənə, yarısın da gedib məqsədə çatıb, dəryanı aşandan sonra, verəsən özünə.

Tacir deyir:

– Qəbul.

Əhmədin muzdunun yarısını sayıb, verər qıza, düşərlər yola Əhmədinən gedərlər, qoşularlar karvana.

Neçə gün yol gedəndən sonra Əhməd yol qırağında bir pişik balası tapar, pişik balanı götürüb, salar xurcununa.

Ustası deyər:

– Oğlan, bunu neynisən?

Deyər:

– Aparacağam evimizə. Xanımım deyib: "Hər yerə getdün, əliboş qeyitmə."

Bir neçə gün də gedəndən sonra, karvan əhli deyərlər: "Ay bala! Suyumuz qurtulub bir quyu tapaq su göturaq". Bir az gedəndən sonra yetişərlər bir quyuya. Dolça salarlar, quyudan su çəksinlər, dolça dolar. Üstə çəkəndə yarı yolda görərlər ip kəsildi, dolça düşdü quyunun təkinə. Bir ayrı dolça salarlar onun da ipi kəsilər. Ancaq hər nə satıl, dolçaları var idi, düşər quyuya. Karvan başı deyər:

– Belə olmaz, biri düşsün quyuya, görsün nə xəbərdi? Bu kimdi bizim ipimizi kəsir?

Heç kəs davtələb olmaz. Birdən Əhməd deyir:

– Mənim qan pulumu verin, mən düşüm.

Hamı deyər:

– Yaxcı, veririk, gəl get.

Əhməd deyir:

– Yoooox! Belə dildə olmaz, bəyə mən quyudan sağ çıxmadım? Ol pulu verin, tapşırım qasidimə, sonra düşüm.

Tacirlər qan pulunu yığıb verirlər Əhmədə. Əhməd pulları yığar dəstmala, dügünlər, pişiginən pulların, dəstmalın qasidinə verib, deyir:

– Dur burda, mən sağ çıxmasam, buları apar ver bizim evə, çıxsam da onda deyərəm.

Sonra da ipi biləyinə bağlayıb, düşər quyuya, ayağı suya yetişmək haman, bir o yan-buyana baxar görər, baba, nə quyusu? Bura özünə görə ayrı bir dünyadı, bir böyük imarət var, imarətin də qabağında bir qoca qarı oturub, boz-boz baxır buna. Əhməd əl-ayağın yığışdırıb, tez salam verər.

Qarı deyər:

– Aleykum salam, oğul, adun nədi?

– Əhməd.

– Nə istirsən, Əhməd? Canınnan doymusan, gəlmisən mənim evimə?

Əhməd deyər:

– Yox, xala, vallah, gedirik səfərə, suyumuz qurtuldu, labid qaldux, yoxsa sizə cəsarət eləməzdik.

Qarı deyir:

– Yox, sən çox ədəb-ərkanlı cavan imişsən, səndən üç söz soruşacağam, əgər düz cavab versən, bütün karvanuva su apar. Ama əgər ğələt versən, oğlanlarımıznan səni yeyəcağıq!

Əl girir Əhmədin ürəginə, ama da görər çarəsi yoxdı, deyər:

–Soruş, xala.

Qarı dev deyər:

– Dünyada hər zaddan güclü nədi?

Əhməd bir fikirləşib deyər:

– Hər zaddan güclü, qüvvəli ilxıdı.

Qarı deyər:

– Necə yəni?

Əhməd deyər:

– Vallah, hər vaqt şahın ilxısı bizim meydandan keçəndə, bizim evin dər-divarı titrər, ondan deyirəm ilxı güclüdi.

Qarı deyər:

– Hum, bu da bir sözdi, denə görüm, dünyada hər zaddan yeyin gedən nədir?

Əhməd deyər:

– Fikir.

Qarı deyər:

– Necə?

Əhməd deyər:

– İndi mən sizinən danışıram, bir anda fikrim getdi şəhrimizə, evimizə, nənəmin, xanımımın yanına, döndü gəldi, nəmənə fikirdən yeyin gedə bilərdi?!

Qarı deyər:

– Huvum gözəl cavab idi, indi denə görüm, dünyada hər zaddan gözəl nədi?

Əhməd qalar nə desin, öz-özünə fikirləşər, axı indi buna hər nə desəm, bəyə bu ayrı şeyi gözəl bilir, nə eləyim? Nə deyim, gözaltı baxar qarıya, görər bir qurbağa suyun qırağında atılır oyan-buyana, qarı necə kefinən baxır ona, deyər:

– Xala, dünyada gönül sevən hərzaddan göyçək olar.

Qarı deyər:

– Ay bərəkannah, oğlum, çox gözəl cavablar verdun, indi karvanuva su apara bilərsən. Al, bu da mənnən xanımıva bir töhfə.

Sonra əlin atar ağacdan 3 dənə nar dərib, verər Əhmədə.

Əhməd qarıya təşəkkür edər, dolçanı bağlayıb ipə doldurar suyunan, yoldaşlarına əlamət verər çəkərlər, mal heyvanlarına su verərlər, özləri də içib, qabların doldurarlar, Əhməd qarıdan xudafizliq eləyib çıxanda, qarı deyər:

– Oğlum, səfərdən mənə bir az saqqızınan zərnıq gətirsən, genə də burdan su götürə bilərsiz. Həm də sənə bir səbəd verim, aparارsan evizə.

Əhməd deyir:

– Gözüm üstə.

Əhməd quyudan çıxar, narları da qasidinə verib, deyər:

– Qan puluynan, pişiginən apar ver bizim evə.

Qasid gedər Əhmədgilin şəhərlərinə sarı, Əhmədgilin karvanı da yetişərlər dəryanın qırağına, malütticarələrin vırarlar gəmiyə, minib gəmiyə gedərlər yetişərlər məqsəd şəhrə.

Elə ayaqları torpaqa yetişmək həmən, tənbəl Əhməd aslanar ustasının yaxasından, deyər:

– Tez ol! Mənim muzdumun qalanın ver.

Usta nə qədər deyər:

– Oğul, niyə tələsisən? Qoy gedək yetişək öz vilayətimizə verim də...

Əhməd deyər:

– Yox ki yox! Necə xanımıma söz veribsən, bu tayda ver mənim muzdumu.

Usta deyər:

– Axı sən neynisən bu tayda pulu? Aparasan korlarsan puluvı!

Əhməd deyir:

– Yox, korlamaram, ver pulumu, qoca qarıya söz vermişəm, gedirəm saqqızınan zərniq alam.

Xülasə, o qədər ustasının beynin yeyər, sonunda usta cana gələr, çıxardar pulları atar Əhmədin üstünə, deyər:

– Götür kö...y oğlu, götür get zərniq al sürt...

Əhməd pulları götürər gedər bazara, pulun hamısın verər bir sandıq saqqız, bir sandıq da zərniq alar, götürər gətirər, verər gəmiyə.

Tacirlər satmaların satarlar, almaların alarlar, işlərin qurtararlar, minərlər gəmiyə qeyidərlər vilayətlərinə.

Gəmi yetişər dəryanın ortasına, birdən hay düşər, hamı dəyər bir birinə, soruşarlar nə olub? Nə xəbərdi?

Gəmiçi deyər:

– Vallah, bu dəryanın bir canavarı var, hərdən bir çıxar gəmilərin birinin qabağın kəsər, bir adam ağzına atmayınca çəkilməz, gəmi keçib getmək istərsə, gəmini batırar.

Əl girər misafirlərin ürəginə, çıxıb baxarlar görərlər ey dili qafil, bir naqqadı dağ yekəlikdə, dayanıb gəminin qabağında.

Misafirlər deyərlər:

– İndi bəs nə eləməliyik?

Gəmiçi deyər:

– Heç zad, gərək püşk ataq, qura hər kimin adına çıxdı, onu ataq naqqanın ağzına, ta yol verə keçək.

Tacirbaşı soruşar:

– Ay qardaş da heç yol yoxdur? Gərək bir çarəsi ola da. Belə olmaz ki.

Gəmiçi deyər:

– Nə yolu olacaq? Genə bir torba zərniqiz olsaydı, bir söz, hansuzda zərqız var? Heç biruzdə!

(O zaman zərniq alış-verişi mənfəətli olmadığına görə tacirlər heç biri zərniq almazımış.)

Birdən Əhmədin ustası deyər:

– Ay oğlan, bizim Əhməd bir sandıq zərniq alıb, nə qədər də dannadım beləsin.

Bu sözü demək haman hamı baxar Əhmədin üzünə!

Əhməd deyər:

– Yalannan belə baxmayın mənə, mən zərniqlərimi vermərəm, qarı xalama söz vermişəm, aparacağam ona, yoxsa qeyidəndə qoymaz su götürəx haaaa.

Tacirlər deyərlər:

– Baba, hələ kim ölə, kim qala? İndi naqqa dayanıb yaxəmızə, bir az zərniq ver ölümdən qurtulaq, qalanın da apar qarıya!

Əhməd deyər:

– Olmaz ki, olmaz.

Nə qədər yalvararlar, yaxararlar, deyər, yox ki, yox.

Ustası Əhmədin dilin tapmışdı, deyər:

– Oğlan, zərniqlərivin pulun veririk da, neçiyə satırsan?

Pul adı gəlmək həman Əhməd bir fikirləşər, deyər:

– Xam xəyaluvuzdı, beş on şahıya zərniqlərimi verəm, indi bu zərniq bir belə adamın qanının pulunadır.

Görürülər düz deyir, deyərlər:

– Hər nə desən, hazırıq.

Əhməd deyər:

– Belə olmaz, hamuz yazun möhürləyün, hər birüz malü ticarələrüzün yarısın keçirdün mənim adıma, zərniqi verim.

Tacirlər görərlər çarə yoxdı, ölüm isi var, yazarlar, möhürlərlər verərlər Əhmədə. Əhməd sənədi alar qoyar qurşağına, torbanı doldurar zərniqinən, verər, atarlar naqqanın ağzına, naqqa çəkilər. Beləliklə, Əhmədin malütticarəsi hamıdan çox olduğuna görə Əhməd olar tüccarbaşı. Amma Əhmədi burda qoyaq gedək şahın qızının sorağına, bir də görək o qasid ki Əhməd yollamışdı evlərinə, nə oldı...

Bəli, Əhmədin qasidi düşər yola gedər Əhmədgilin şəhərlərinə sarı, bir az yol gedəndən sonra da hava qaralar, labid qalar gecəni yol üstündə olan bir kənddə qalar, kəndlilərin birinin evinə qonaq olar. Şam vaqtı qasid görər, süfrə salınandan sonra ev əhli süfrə başına gələndə, hərəsi bir dəstə çırpı qoydular dizlərinin dibinə, soruşdı:

–Ay qardaş, bu çırpılar nədən ötrüdü?

Ev yiyəsi dedi:

– Axı, indi siçanlar tökülər çörəkləri talan elər, da bizə bir şey qalmaz!

Qasid bir baxar görər elə çörəklər dəstərxana salınmaq haman dərədən-duvardan, bacadan siçanlar hücum gətirdi dəstərxana, ev əhli də başladı çırpılarınan siçanları vırıb qovmağa, xülasə, hərə bir iki tikə tut-qaçaqda çörək yeyib başların qoyub yatarlar, səhər çağı ev sahab gətirib qeynaltı (sabahanə) süfrəsin salanda qasid dedi:

– Ay qardaş, çırpıları qoyun kənara, siçanların hesabına mən yetişəcağam.

Ev yiyəsi dedi:

– Bax bir nəfər bunların öhdəsinnən gəlməz haaa, gözüvü yum aç, çörəkləri dağıdarlar!

Qasid deyər:

– Sən ev işi tapşır mənə, otur çörəgivi ye.

Çörəkləri salmaq haman, siçanlar tökülmaq haman qasid əl atar xurcunundan pişigi çıxardar, ötürər evə. Pişik bir anda bütün siçanları dolaşdırar, boğduğun boğar, yedigin yeyər, qalanı da qorxusundan qaçar...

Ev əhli rahatca bir tikə çörək yeyər. Ev sahab deyər:

– Ay qonaq qardaş, sən bu pişigüvi sat bizə da, canımızı qurtardı siçanlardan.

Qasid deyər:

– Yox, bu əmanətdi, satammaram!

Deyərlər:

– On tümən veririk.

Deyər:

– Yox, olmaz.

Deyərlər:

– Yirmi tümənə sat.

Deyər:

– Yox, əmanətdi satammaram.

Sonunda yetişirlər yüz tümənə!

Qasid öz-özünə fikirləşər:

– Olsun, baba, kim bir pişigə yüz tümən verər? Qoy satım pulun aparım da!

Deyər:

– Olsun!

Pişigi verər, yüz tüməni alar, qoyar qan pulunun yanına. Xudafiz, xoş gəldün, düşər yola gedər Əhmədgilin şəhərlərinə. (O zamannar yüz tümənnən bir böyük ev almaq olarmış!)

Qasid gedər Əhmədgilin qapıların döyər, xanım gələr qapıya. Qasid pullarınan, narları verib şahın qızına deyər:

– Xanım, buları Əhməd göndərdi, təhvil sizə, amma mən öz başıma bir iş görmüşəm.

Qız deyər:

– Nə eləmisən?

Qasid pişigin qaziyəsin xanıma nəql elər. Qız deyər:

– Lap yaxcı iş görmüsən! Mən pişigi nə eliyəcağidim?

Qasid gedəndən sonra qız dəstmalı açar, görər balam bir aləm puldı. Deyər, sabah bu evə–eşigə bir üzə salaram inşallah. Qəynanasına da muştuluq verər, gəlin qəynana ikisi oturarlar sevinə-sevinə nəqşə çəkərlər ev eşigin düzəltmağinə.

Birazdan sonra qız deyər:

– Xanım, qoy bu narların birin sındırım, yeyax!

Elə pıçağı qoyar narı kəsər, ikiyə böləndə birdən narın içindən ləl-cəvahirlər tökülər yerə! Gəlin qəynana əvvəl təcüb elərlər, sonra çox sevinərlər. Üç narın üçü də dolu cəvahir çıxar. Sabah qız başlar yeddi qapı oyan, yeddi qapı buyan, yeddi qapı dala evlərdən, yeddi qapı qabaq evlərdən alar, məmər, bənna, fəhlə çağırar, verər yıxıb sonra da bir imarət çəkərlər, ucu-bacğı bəlli olmaz.

Sonra da narların cəvahirlərin xırdalar başlar imarəti döşəmağa.

O yannan Əhmədgilin gəmiləri gələr çıxar quruluğa. Ginə də malütticarələri vırarlar dəvələrə filana. Düşərlər yola, gedərlər şəhərlərinə tərəf. Yolun yarısında yetişərlər qarının quyusunun başına. Əhməd ipi bağlar belinə düşər quyuya yoldaşlarına deyər sandıqların da yollarlar quyuya, geçər qabağa, qarıya salam verər.

– Salam, xala, mən Əhmədəm, yadıva gəlir? Əlvədə vəfa, saqqızınan zərniqi gətirmişəm.

Qarı deyər:

– Bərəkənnah, oğlum, xoş gəlmisən. Ay sağ ol, dur burda, gəlirəm.

Sonra da aparar sandıqları boşaldıb yerinə cəvahir narlardan doldurub, gətirib deyər:

– Buyur, oğlum, bu da mənnən sənin xanımına töhfə.

Əhməd karvana genə su çəkər, sonra qarı ilə halallaşar, xudafiz, xoş gəldün, düşüb yola gedib çatarlar şəhərlərinə.

Əhməd mal əlticarələrin dəvələrin sürər məhlələrinə, gedər evlərinə sarı, amma nə qədər axtarar heç tanıyan bir nişa-

nə görməz, baxar görər hər yer dəyişilib məhlə, evlərinin yerində bir bağ var, imarət var, ucu bucağı bəlli deyil.

Keçər qapını döyər, ev əhlindən nəm-nişan soruşar, nökər gələr qapını açar, Əhməd deyər:

– Qardaş burda bir ev varıydi, indi yoxdı, mən o evi axtarıram.

Nökər deyər:

– Kimin evin axtarısan, aqa?

Əhməd deyər:

– Tənbəl Əhmədin!

Nökər deyər:

– Ağzıvınan danış, kişi, bura Əhməd bəyin evidi. Əhməd bəy səfərdədir, nə işin var?

– Xanım, bir nəfərdi, ağaynan işi var.

– Keçirdin gəlsin içəriyə, görüm kimdi, nə işi var.

Nökər Əhmədi keçirdər içəriyə. Xanım görər piiiiiiiy! Əhməd özüdi, Əhməd də görər, baba, elə düz gəlib. Xülasə, xoş gəldin, moş gəldindən sonra, Əhməd deyər:

– Xanım, axı mən sənə göndərən pul bir belə deyildi, haradan bu dəbdəbə bu kəbkəbəni cürləmisən?

Qız narların qaziyəsini Əhmədə nəql elər, Əhməd deyər:
– Xanım, xəbərün yoxdı, iki sandıq da o narlardan yüklərin içində gətirmişəm!

Sonra da başının qəza və qədərin və nə cür tüccarbaşı olduğunu xanımına nəql elər.

Xanım deyər:

– Bərəkallah, Əhməd, sən çox ağıllı adam imişsən, indi gərək ev-eşigimizə lap çox yetişək, sonra da şahı qoşunuyla qonaq çağırax.

Sabahdan başlarlar evi, ayanı döşəmağa, hər yeri elə çırağanlıq elərlər ki, gecənin gözü yaxandan sancaq düşsün, əl at götür! Sonra da qasid göndərərlər şahın qəsrinə ki:

– Qibleyi-aləm sağ olsun, Əhməd bəy sizi xədəminən, həşəminən, qoşunuzunan qonaq çağırır.

Şah vəzirinən vəkili çağırar hüzuruna, deyər:

– Tədbir tökün görüm, bu Əhməd bəy kimdi, bizi evinə qoşununan qonaq çağırır? Əgər belə bir dövlətli adam bizim vilayətimizdə var, bəs bizim niyə xəbərimiz yoxdı?

Vəzir, vəkil deyərlər:

– Qibleyi-aləm sağ olsun, indi elə yaxcı fürsətdir, qonaq çağırıb, gedib yaxınnan görüşüb tanışarıq.

Sabah səhər şah vəziri, vəkili, xədəmi, xəşəmi, bütün qoşunuyla düşərlər yola, gedərlər Əhməd bəyin qasidinin nəm-nişanın verdığı yerə.

Bir onda görərlər, balam, bir böyük bağın içində bir imarət var, şahın qəsrindən qabaq olmasa, dala deyil. Qapıda duran nökərlər qaçarlar xanımnan Əhməd bəyə xəbər verərlər. Əhməd tez qaçar şahın qabağında qəd əyər, bağır basar, xoş gəlfin elər, sonra da bütün gələnləri içəri keçirdib xətir-hörmətinən qulluq elərlər.

Günorta çağı dəstərxanalar salınar, büllur, gümüş qablar döşənər, şah oturar yuxarı başda, sağında vəzir, solunda vəkil, vəkilin də yanında Əhməd oturar. Sonra da o biri tənəbidə qonaqlar tərtibinən əyləşərlər. Asılan qazanların ağzı açılar, gönlünüzdən geçən yeməklər döşənər süfrəyə, hər zad – bolan, solan, bütün qoşun, xədəm, həşəm yeyərlər, artıq da qalar.

Dəstərxan yığışandan sonra, şah işarə elər qulluqçu su gətirib töksün əllərin yusunlar, nökərlər aftafa-ləgənlərinən qonaqların əlinə su tökmək üçün gələrlər. Şahın qızı qabaqcadan Əhmədə nə deyəcəyini dəsturlamışdı, Əhməd deyər:

– Qibleyi-aləm sağ olsun, icazə versəz, xanımım istəyir özü sizin əlüzə su töksün.

Şah deyər:

– Olsun.

Xanım qızıl aftafa-ləgən əlində, geyinib geçinib, aya deyər çıxma mən çıxım, günə deyər çıxma mən çıxım, girər içəriyə. Şahınan vəzir vəkil görmək hamankı xanım baş açıqdı,

tez başların salarlar aşağıya. Qız gələr dördünün də əllərinə su tökər, qeyidər otaqdan çıxa, şah üzün tutar Əhmədə deyər:

– Əhməd bəy bizə çox gözəl qulluq elədin, hər zad çox, ama heyifdir sənin kimi kişinin xanımısı belə başıaçıq çıxa naməhrəm qabağına.

Qız fövra dönər şaha sarı deyər:

– Şah! Sənə qurban olum, kimnən başımı örtəcək idim? Sən atamsan, vəzir əmim, vəkil dayım, Əhməd də ərim, burda mənə naməhrəm yoxdı.

Şah bunu eşidər başın qaldırıb görər bəliii... xanın elə öz sonbeşik qızıdı, basar bağrına, üzündən öpər.

Qız deyər:

– Atacan, gördün dedim, evi arvad ev elər?

Şah deyər:

– Hən, qızım, gördüm, əlhəq kişi fəhlədi, arvad məmər.

Sonra da əmr elər bütün məmləkətdə yeddi gün, yeddi gecə çırağanlıq eliyib şənlik tutarlar.

Yedi, içdi, yerinə geçdi, göydən üç alma düşdü, birin mən yedim, birin nağıl deyən yedi, birin də Röya yedi.

## QƏRƏXAN

Bir gün var idi, bir gün yox idi. Qərəxan adlı bir tacir varıydı. Qərəxan iki gözündən də koriydi. Onun üç oğlu var idi. Bir gün oğlanlarına deyir:

– Həkim mənə deyib, getmədigin yerin torpağın gözlərinə çəksən, gözlərin açılar.

Böyük oğlan deyir:

– Atacan! Mən gedib, gətirərəm.

Öz dilimiz, gedir bir qonşu mahalına bir ovuc torpaq gətirir. Tacir soruşur:

– Bu torpağı haradan gətirdin?

Oğlu deyir:

– Filan dağdan.

Tacir deyir:

– Mən ticarətə gedəndə ora oturub, nahar yemişəm.

Ortancıl oğlan deyər:

– Ata, qurbanın olum, mən gedib gətirərəm.

Ortancıl oğlan gedib, qonşu məmləkətindən bir ovuc torpaq gətirir. Tacir yerin biləndən sonra, deyir:

– Oğul, mən o məmləkətdə bir gecə yatmışam.

Üçüncü oğlan deyər:

– Ata, mənə bir dəniz atı ver, mən gedim gətirim.

Oğlan atı minib, çapar. Bir qədər yol gedəndən sonra, dəniz qırağına yetişərlər. At oğlana deyər:

– Sən gözlərini yum, mən səni dəryadan keçirdim, mən deyəndə gözlərini aç.

Oğlan atdan yapışıb, gözlərini yumur. Arada öz-özünə deyir, at nə biləcək? Qoy gözlərimi açım görüm nə var? Gözün açanda görər bir lələk suyun üzündə parıldayır. Onu götürüb, cibinə qoyar. Gedib o taya yetişərlər, səs-soraq eliyər, gecəni bir yaxşı yerdə qalsın. Aparıb, vəzirin evin görsədirlər. Vəzir oğlanı öz evində qonaq eləyir.

Şəhərin bir əyyar keçəl gözətçi varimiş. Hamı yatandan sonra, görər vəzirin evində bir çırağ yanır. Yaxında gedib görər taxçada bir balaca zaddan çox işıq törüyüb. Hər yeri işıqlandırıb. Tez gedib şaha xəbər verər. Şah vəziri çağırıb qaziyəni soruşar. O da qonaq oğlandan soruşar. Oğlan lələgi gətirib şaha görsədər. Keçəl şahın qulağına:

– Qurban! Bu lələgin quşu görəsən nə gözəldi?! – dedi.

Şah vəzirə deyər:

– Qonağına de, quşu gətirsin, yoxsa səni öldürərəm.

Oğlan görər, vəzirin canı xətərdədir. Atına deyər:

– Mən sən deyən sözə baxmadım, işə qaldım, de görüm nə etməluyəm?

At deyər:

– Pəh! Evimiz yıxıldı! Vəzirə de, qırx tuluğ şərab, qırx qoyun cəmdəgi, qırx qalıb da duz gətirib, dənizin qırağında

bir hovuz düzəltsin. Şərabları töksünlər hovuzun içinə, duzu cəmdəklərə səpib, hovuzun qırağına düzsünlər. Bir yer də sənin üçün düzəltsinlər. O yerdə sən gizlən. Bir kəs səni görə bilməsin. Ama sən hər nəyi gör. Dəryadan quşlar gələndə, sən ləlәgin sahibi quşu görəndə, tor atıb, quşu tutub, şaha verərsən.

Hər iş at dedigi kimi görülür. Bir parıldayan quş gətirib şaha verəndə, həman keçəl əyar deyər:

– Qurban! O tayda, bu quşun yuvasında görəsən nə var? Nə olar o yuvaya gedib, neçə quş gətirsinlər!

Şah vəzirindən bu quşdan neçəsindən istər. Vəzir qonaq oğlandan, o da atdan istər. At deyər:

– Bu iş müsibət oldu, gəl burdan qaçaq.

Tacirin oğlu deyər:

– Biz getsaq, vəziri öldürərlər, çarə qıl!

At deyər:

– Üç gün mənə yemək versinlər, görüm nə eləməliyik?

Üç gündən sonra oğlan atı minər, at özünü dənizə vırar. O taya yetişəndə, oğlan görər cəngəlin içində bir qapı var. Qapını açıb görər bir gözəl qız içində oturub. Qız oğlanı görmək həmən deyər:

– Namərd! Sən məni yazıq elədin. Kaş toprağı götürüb, qaçeydın.

Oğlan deyər:

– Yox! Vəziri öldürərlər. Oğlan qız ilə toprağı götürüb, atı minib, dənizdən keçib, şahın yanına qayıdarlar. Şah qızı görmək haman ona vırılar. Ama qız deyər:

– Sən çox qocasan, əmr elə bir gülün içinə at sütü töksünlər, orada yuyun, on dörd yaşında kimi ol, onda mən sənə gəlim.

Şah narahat olub, vəzirə dəstur verər, qız istiyənlər olsun. Vəzir oğlandan, o da atdan çarə istər. At deyər:

– Əmr elə qırx metr təlis, qırx dələgə ip və qırx boşaqa qır gətirsinlər. Məni onlar ilə bağla, dola və dənizə sal. Otur bax, əgər dənizin üstünə qırmızı köpük gəldi, bil, mən ölmü-

şəm, torpağı götür, qaç. Əgər ağ köpük gəldi, gör dalısınca nə olacaq?

At dedigini elədilər. Bir azdan sonra gördü, qırmızı köpük gəldi, istədi qaçsın, gördü ağ köpük gəlir. Baxdı gördü atının dalısıca, bir sürü at gəlir. Şahın ğulamları, bir gül düzəldib, atları tutub sağıb, sütlərini gölə tökdülər. Şah soyunub, gölə düşdi. Qız əlini sütə vırıb, şaha sarı tutub dedi:

– Qurbağa ol!

Şah qurbağa oldu və oğlan onu öldürdü. Oğlan vəziri şah eləyib, atları ona bağışladı. Sonra da qız ilə torpağı götürüb, öz vətəninə sarı qayıtdı. Torpağı dədəsinin gözlərinə çəkdi, gözləri açıldı. Dədənin gözləri açılandan sonra oğlu gətirən qızı görüb, onu istədi. Oğlan gecəçağı qızı da götürüb, ordan qaçdı. Yetişdi dəniz qırağında bir gəmiyə. Gəmiçi gördü qız çox gözəldi. İstədi kələk vıra, dedi:

Oğlan naçar dedi:

– Olsun, sən qızı apar.

Qız qayığa mindi. Gəmiçi aparıb dənizin ortasında qızdan istədi ona gəlsin. Qız dedi:

– Belə olmaz ki! Sən get nənə-bacını gətir, məni özləri ilə aparıb, bizə toy tutsunlar.

Gəmiçi inanıb, qızı qayıqda qoyub, şəhərə sarı yola düşər. Qız özün qayıq ilə dənizə vırar. Neçə gecə-gündüz sərgərdan gedər, yetişər bir cəngəlin qırağına.

O gün o məmləkətin şahının oğlu şikara çıxmış imiş. Gözləri sataşar qıza, deyər:

– Mən səni sevdim, gəl səni alım.

Qız deyər:

– Sən məni cəngəldən tapıbsan, olmaz ki, soruşsalar, deyəsən, cəngəldən gətirmişəm, sənə pis olar. Get qırx qız gətir, məni özləri ilə sənin qəsrinə aparsınlar.

Şahın oğlu qırx allı-güllü geyinmiş qızı gəmiyə mindirib, cəzirəyə gətirər.

Sən demə, şahın oğlu gedəndən sonra qırx hərami cəzirəyə gəlib, qızlar cəzirəyə yetişmək haman, qırx hərami onlara həmlə eləyib, qızların hamısını əsir edərlər. Şahın oğlu canın götürüb, öz şəhərlərinə qaçar.

Qırx həramilərin başçısı qıza deyər:

– İndi siz bizimkisiz, biz necə desək, siz elə olacaqsız.

Qız deyər:

– Bəs mənim də sözüm var, dəstur ver, bizə yemək, özüzə də şərab gətirsinlər!

Qırx həramibaşı gedər qız istiyənlərin dalısıca, qız yanında olan qızlara deyər:

– İstiyirsiz canımızı qurtaraq, mən deyənə baxın.

Qırx həramibaşına da deyər:

– Şərab gətirəndən sonra, mən camları dolduracağam, hamız mən deyən zaman, birlikdə başıza çəkəcəksız.

Elə dedigi kimi də olur. Demə, bəs şərabın içinə dava töküb. Qırx həramilər şərabı içəndən sonra huşdan çıxırlar. Qırx qız həramilərin paltarların, geyib, onların atlarına minib, ordan gedirlər.

Bir car yol gedəndən sonra bir məmləkətə yetişib, görürlər o məmləkətin şahı ölüb, adamlar hamısı yığışıb, özlərinə şah seçmək istəyirlər. Tulanbar damından bir quş uçurdurlar, hər kəsin çiynində otursa, o məmləkətin şahı olacaq. Quş uçub, gəlib bu qızın çiyninə qonar. Deyərlər:

– Olmaz, bu ğəribədi.

Bir daha quşu uçurdarlar, yenə də quş kişi paltarında olan qızın çiyninə qonar. Çarəsiz qalıb, onu şah elərlər.

Qız şahlıq taxtına oturandan sonra, əmr edər, əksini şəhərin girəcəyində olan ağaca salsınlar. Ağacın altından su keçirmiş, hər kəs şəhərə girəndə, qızın əksini görərmiş, taza şah deyər:

– Əksi görəndə hər kəs güldü və ya ağladı, mənim yanıma gətirin.

Qırx qıza da əmr edər, sərbaz geyimi geyib, keşikçi dursunlar.

Bir gün şəhərə bir ticarət karvanı girdi. Karvanbaşı əksi görüncə, ğəş eləyib, düşdi. Karvan başını götürüb, şahın yanına gətirdilər. Şah əmr elədi, ona yemək verib, zindana salsınlar. Neçə vaqtdan sonra bir cavan kişi əksi görüb ağlayar. Şaha cərəyanı deyəndə əmr edər, ona da yemək verib, zindana salsınlar. Bir az sonra bir gəmiçi əksi görüb, gülər. Onu da şahın yanına gətirərlər. Şah əmr edər, ona zindan yeməklərindən saxlasınlar. Neçə vaxt keçəndən sonra bir qolçomaq şəhərə girib, qılıncını çəkib, əksin sahibini istər. Şah əmr edər, ona da yemək verib, zindana salsınlar. Bir müddətdən sonra bir qoca kişi şəhərə gəlib, əksi görüb, ağlayandan sonra, şahın əmrilə zindana saldırılır. Şah düşmənlərin hamısını tutandan sonra əmr eliyir, ilk gələn cavanı gətirib, pərdə arxasında oturdsunlar. İkinci cavanı gətirdib soruşur:

– Nədən ağlayırsan?

Cavan deyər:

– Özümə ağlamıram, mən o qıza xatir, qırx qızı xanəvadələrindən ayırdım. O qızı istəmirəm, öz qızlarımı axtarıram, aparam öz məmləkətimə.

Şah əmr edər o qırx qız sərbazlıq paltarların çıxardıb, al-əlvan geyinib, öz məmləkətlərinə qayıtsınlar.

Üçüncü kişidən soruşar:

– Sən nədən gülürsən?

Gəmiçi deyər:

– Öz səfehliglərimə gülürəm. Deyirdim bəs, o qızın ərinin başına börk qoydum. Ama qız özü mənim başıma börk qoyub, əlimdən qaçdı!

Şah əmr edər, bir sınıq qayıq kişiyə verib, onu məmləkətindən eşigə salsınlar.

Dördüncü kişiyə deyər:

– Qolçomaq, nədən o qızdan kin tutubsan?

Kişi deyər:

– Mən bir ömür, yol kəsib, çoxlarını öldürmüşəm, ama o qız mən ilə qırx qoşunumu ölüm yuxusuna verib, qızları ilə qaçıb, istirəm görəm o necə bir adam idi!

Şah əmr edər, o kişinin qulağını kəsib, at və pul verib, şəhərdən eşigə salsınlar. Axırda qoca kişini gətirərlər. Şah soruşar:

– Sən kor idin, necə oldı gözlərin açıldı?

Qoca deyər:

– Oğlum mənim gözlərimin açılmasına torpaq gətiməgə getdi, bir qız ilə qayıtdı. Mənim gözüm o qızı görmək üçün həman açıldı, ama qız mənim oğlumu əlimdən alıb, qaçdı!

Pərdə arxasında oturan oğlan hər zadı eşidib, bildi, bir kəs onun sevdigi qıza əl vıra bilməyib, söz bura çatanda pərdənin arxasından çıxıb deyər:

– Qoca, sən yalan söylədin! Sən qızı görüb öz oğluna xəyanət elədin.

Sonra şahdan istər, bu kişini öldürsün. Şah deyər:

– Sözləri eşitdin, əgər mənə istəkli qalmısan, Qarəxanı öldürəndən sonra, yerində bir kəs yoxdı, birlikdə sənin məmləkətinə gedək.

Qız özü şah olduğu ölkənin vəzirini şah edib, atlarını minib, vilayətlərinə qayıdıb, illər boyu şadlıq ilə ömür sürərlər.

## ATA ÖYÜDÜ

Bir kişi var imiş, bir də atı. Özü də çox dünya görmüş adam imiş. Bunun üç oğlu var imiş. Bir gün bunlara dedi:

– Bu atı aparın verin, üç at alın, üç arvad, üç dənə qılınc. Üç dəst də paltar alın.

Bu sözü deyəndə bir oğlan bu sözləri eşidir. Gecənin gəlib bu atı götürüb aparır. Qardaşlar gəlib birgə danışdılar, dedilər – gəlin görək bu atı aparan necə adamdı. Biri dedi:

– Xırdaraxdı.

O birisi dedi:

– Xırdarax olsa, adı Musadı.
Başqası dedi:
– Bir gözü də kordu.
Bunlar düşdülər yola axtarmağa. Yolnan gedirdilər, gördülər bir dəvə gedib. Biri dedi:
– Bilirsiz bu dəvənin yükü nəmənədi?
Dedilər:
– Nəmənədi?
Cavab verdi:
– Yükünün bir tərəfi doşabdı, bir tərəfi də yağdı. Üstündə də bir buğaz gəlin var. Dəvənin də bir gözü kordu. Özü də qocadı.
Gedirdilər, gördülər bir kişi gəlir. Soruşdular:
– Adın nəmənədi?
Dedi:
– Musadı.
Qardaşlar soruşurlar:
– Bizim atımızı hara aparıbsan?
Dedi:
– Mənim dəvəm itib.
Dedilər:
– Dəvənin bir yükü yağ idi, bir yükü doşab? Üstündə də buğaz gəlin var idi? Dəvənin bir gözü də kordu?
Kişi dedi:
– Mənim dəvəm sizdədi?
Bunlar at istəyir, bu da dəvə. Bu davaynan gedirdilər. Şah Abbas çıxmışdı ov ovlmağa. Gördü bunlar savaşırlar. Soruşdu:
– Niyə sözləşirsiniz?
Musa dedi:
– Mənim dəvəmi aparıblar.
Onlar da dedi:
– Bizim atımızı aparıbdı.
Bunları apardı dərbara. Nahar gəldi. Savaşanlar dedilər:

– Hayıf, Şah Abbas bizi ələ saldı.

Şah Abbas özü də qulaq asırdı, görsün bunlar nə deyir. Biri-birinə dedi:

– Ye, baba, gamış otaranın oğlundan nə umursan!

– Axırda bizə it əti də yedirtdi. – o birisi dedi.

Şah Abbas çobanı çağırdı:

– Çoban, dünənki ət nə əti idi?

– Qoyun əti! Amma bunun nənəsi doğanda yataxdakı it də doğmuşdu. Gedib qançıx südü əmmişdi.

Şah Abbas getdi, nənəsinin üstünə qılıncı çəkdi, dedi:

– Nənə, de görüm, mən kimin oğluyam. Düzün deməsən, öldürəcəm!

Nənəsi cavab verdi:

– Sənin dədən yeddi il cəngə getdi. Gamış otarannan baş bir yastığa qoydum.

Qayıtdı:

– Bunları tez yola salın, getsinlər. Yoxsa açarlar sandığı, tökərlər pambığı.

Onlardan soruşdu:

– Nə istəyirsiz?

Dedilər:

– Üç at, üç arvad, üç qılınc. Üç dəst də paltar.

Şah verib yola saldı. Musa dedi:

– Bə mənim dəvəm?

Dedilər:

– Biz aparmamışıq.

– Bə nə bildiz?

Cavab verdilər:

– Yolun bir tərəfinə milçək yığışmışdı, bir tərəfinə də qarışqa. Bildik ki, bir tərəfdə şirə varıydı, bir tərəfdə də yağ. Bir də dəvə bir tərəfi otdamışdı. Arası da qalmışdı. Bildik ki, həmi kor idi, həm də qoca. Bir də ki, dəvə oturub duranda ağır oturub durmuşdu. Bildik ki, müsafiri buğazıymış. Dəvə buğazı bilir. Get dəvəvi axtar, tap.

## AT TANIYAN OĞLAN

Qədim zamanlarda qul satardılar. Bir tacirin bir oğlu var idi. Bu məktəbə gedirdi. Bir gün tacir dedi:

– Gedim görüm bu oğlan necə dərs oxuyur.

Getdi. Qiraqdan baxırdı. Gördü, bu çox sarsaxdı. Hər kim yetirir, başına bir qapaz salır. Gördü, hər kimin bir zadı düşür, bu yerdən götürür, verir sahibinə. Həm də bir şapalax yeyir.

Deyir:

– Ay Allah, mən səndən bir huşlu-başlı uşaq istədim. Gərək aparam bunu bazarda satam, yoxsa abrımı aparar bu mənim.

Bunu apardı meydanda sata, oğlu dedi:

– Ata, yaxşı oğulam, məni satma.

Kişi cavab verir:

– Çox huşlu-başlıdı, hələ özü də deyir, məni satma!

Oğlan dedi:

– Birdən satırsan da, məni üç tümənə sat.

Onda da adamın biri bir tümən idi. Bu hər bazara apardı, üç tümən dedi, qaçdılar. Bir gün şah ordan keçirdi. Gördü biri var, üç tümən deyirlər.

Dedi:

– Axı, bunda nəmənə var?

Dedilər:

– Həmi at tanıyır, həmi də qızıl tanıyır.

Şah üç tümən verib bunu alıb apardı. Tapşırdı vəzirə. Vəzir apardı buna tazı otartdı, göyərçin uçurtdu. Buna sahib durmadı. Gün o gün oldu, şahın bir dostu buna bir at bağışladı. Hər kim gəldi, baxdı, yaman atdı dedilər. Birdən şahın yadına düşdü, bunların bir dəlisovu var. Çağırıb:

– Bu ata bax.

Dedi:

– Qurban, yaxçı atdı. Amma...

Şah soruşdu:

– Aması nədi?

Dedi:

– Bu suya yatar.

Birinə dedi:

– Bu atı min, çayı atlat.

Mindi. Sudan keçəndə at yatdı, suya durmadı.

– Bu niyə yatır?, – dedi.

– Bunu gamış südüynən əmişdiriblər.

Yolladı o atın sahibin gətirdilər.

– Eyibli atı mənə niyə veribsən? Yatır suya, durmur, – dedi.

– Vallah, yoxsul adamam. Bunun nənəsi öldü. Gamış südüynən yekəliyib.

Şah dedi:

– Biri düz çıxdı.

Ama şah oğlanın huşlu-başlı olduğunu yenə qanmadı. Apardı verdi, vəkilin yanında qalsın. Bu da quş uçurtdu, it otartdı.

Bir gün bir nəfər gümüş gətdi qızılıynan dəyişə. Nə qədər qızıl qoydular. Qızıl göydə qaldı, gümüş yerdə. Bunlar əsir oldular bu gümüşünən. Dedi:

– Bizim bir sarsağımız var. Onu gətirin.

Bu gəldi. O belə ki gümüş var idi, o belə də qızıl qoydu. Gümüşün üstünə bir az da torpaq qoydu. Araba gəldi. Bu bu imtahandan da çıxdı. Yenə şah bunun huşlu, fərasətli olmasını anlamadı. Bunu yenə tapşırdı gizirə. Bu da àpardı yolladı naxıra. Şah bir gün dedi:

– Vəzir, vəkil, tədbir tökün. Bu məmləkətdə bir belə adam var. Hankisi yaxçıdı, hankisi pisdi?

Dedilər:

– Sənin bir sarsağın var. Onu çağır, gəlsin.

Şah əmr elədi, bu gəldi. Oğlana dedi:

– Bunları seç, gör kim yaxşıdı, kim pisdi.

Oğlan dedi:

– Gəl camaatı yığ, şəhərin ortasında meydana, mən seçim.

Camaat yığışdı ora. Qılıncın bir bu yana tutdu, bir o yana tutdu, – tanıdım, – dedi, getdi. Şah dedi:

– Kimdi, de görüm?

Cavab verdi:

– Toyuq deyil ki, tez tükün yolub, cıbrığın çıxardım gedək. Hamı mənə qol çəksin. Şah, vəzir, vəkil, gizir, cəlladlar, hamı gərək mənə imza verə.

Buna imza verdilər.

– Şahın boynun vurun, – dedi.

Şah dedi:

– Mən hardan pis oldum.

Oğlan dedi:

– Bir nəfər, bir nəfəri üç tümənə ala, bir belə iş başara, gətirəsən ona tazı otdadırsan, göyərçin uçurtdurasan, vəzir-vəkilə tapşırasan, elə pis sənsən. Mənə iş verməyin yerinə, yolladın köpək otarmağa, mal-qara otarmağa. Cəllad, bunun başın vurun!

Bunu öldürdülər.

Dedi:

– Gedin, filan taciri gətirin!

Tacir əsə-əsə, üç züməni də əlində gəldi:

– Görəsən sarsax nə eləyib məni çağırdılar.

Tacir gəlir.

Oğlan deyir:

– Məni tanıyırsan? Mən sənin sarsax oğlunam. Mən şahlığı almışam. Sən çıx şahlıx elə, mən də sənə vəzir olum.

## SƏBR İLƏ DƏYANƏTİNİZ OLSUN

Bir şah vardı. Bunun çərxi tərsinə işlədi. Bütün var-dövlətin dağıtdılar. Özünü də taxtdan yerə saldılar. Bunun dörd oğlu var idi. Oğlanların çağırır:

– Bala, tamam mal-dövləti dağıtdılar. Sizə bir tapşırığım var. Bunu qulağıza sırğa eləyin: "Gedib çoban olduz, nökər olduz. Şah qapısında olun, gədə qapısında olmayın. Bir də

səbrinən dəyanətiz olsun. Öz içizdən də birin özüzə biləyən seçin. O biri nəfərin sözünə baxın. İndi sizi suya verər, ya da bir yönə qoyar.”

Bunlar durdular, düşdülər yola. Gedə-gedə danışırdılar. Biri dedi:

– Gedək harda hambal olax?

Biri dedi:

– Filan yerə gedək.

Hərəsi bir söz dedi.

Dedilər:

– Gəlin, birin seçək, onun sözünə baxaq.

Rəy verdilər, xırda qardaş seçildi. O dedi:

– Mənim sözümə baxsaz, yığışdırın gedək şah qapısına.

Bir məktub yazdılar, şah bunları çağırdı. Soruşdu:

– Hardan gəlib, hara gedirsiz?

Dedilər:

– Qibleyi-aləm sağ olsun, biz şah oğluydux. Varımız dağıldı, çarxımız döndü. Dədəmizin tapşırığıdı, şah qapısında olax. Bizə nə iş verirsən, ver. Biz əgər gedib gədə qapısında nökər olsaq, şahların adı batar. Ona görə bura gəlmişik.

Bu söz şahın xoşuna gəldi. Bunları gətirdi, gözətçi qoydu. Ol böyük qardaşa növbə düşdü keşik verə. Keşik verirdi, gördü gecənin bir zamanı bir əjdəha dərbara girdi. Az qalmışdı şahın arvadın uda. Qılıncıynan vurdu, iki şaqqa eylədi. Sonra quyu qazdı, bunu quyuladı. Qanın-zadın silirdi. Şah səhərə yaxın oyandı. Bunu görüb şəhləndi. Öz-özünə dedi:

– Gecənin bu zamanı gözətçi mənim mənzilimnən niyə gərək eşiyə çıxa.

İkinci qardaşın növbəsi yetişdi. Keşik verirdi, şaha dedi:

– Səhər keşik verəndən sonra gedib böyük qardaşıvın başını kəsib gətirərsən mənə.

Bu ol sevindi. Öz-özünə dedi:

– Gedib gətirim, şahın yanında üzüm ağ olar. Mənə də çoxlu ənam verər.

Yetişdi qardaşının başının üstünə. Gördü elə yatıb quzu kimi. Öz-özünə fikirləşdi:

– Bu yatıb, dədəm də mənə tapşırıb "səbrinən dəyanətiz olsun". Necə bunu öldürüm? Gedib deyərəm, "gəl, mənim başımı vur, ikimiz də birik."

Qayıdıb gəldi, şaha dedi:

– Qibleyi-aləm sağ olsun, mənnən onun fərqi yoxdur. Mənim başımı vur.

Şah səslədi:

– Cəllad! Tez ol, bunun başını vur, – dedi.

Cəllad hazırlaşdı, bunun başını vura. Oğlan dedi:

– Qibleyi-aləm sağ olsun. Bir sözüm var, deyim, sonra öldür.

Şah dedi:

– Deginən!

Oğlan dedi:

– Günlərin bir günündə bir cavanla bir qız dost olub evlənirlər. Bunlar bir-birinə deyir, bizim bir zadımız yoxdur. Əl-ələ verib gedirlər bir ayrı ölkəyə. Bir zaman qalandan sonra görürlər keçinə bilmirlər. Oğlan aparıb qızı bir qəsəbəyə qoyur. Özü də baş götürüb gedir bir ayrı mahala. Beş-on il qalır. Bir gün öz-özünə deyir: – Arvad-uşağımdan xəbərim yox. Bir miqdar pul yığmışdı. Qayıdır gəlir arvadının yanına. Pəncərədən baxır, görür, bu arvad başın qoyub bir buğuburmanın qolunun üstünə yatıb. Qayıdıb gedib qazandığı pulu da verir bir qılınc alır. Gələ bunların başın vura. Gəldi, istədi ki, qapıdan içəriyə girə. Öz-özünə fikirləşdi:

– Neçə ildi getmişəm. Öz uşağım olmaya. Üç-dörd ay bundan yaşamışdım. Qoy soruşum görüm nə xəbər.

Hay tələsik girdi içəri. Soruşdu:

– Xanım, tez ol de görüm bu kimdir?

– Öz oğlunuzdur.

– Qibleyi-aləm sağ olsun, əgər bir an səbr eləməsəydi, öz oğlunu öldürmüşdü.

Bunu deyəndə şah cəlladları geri qaytarıb boynun vurmadı. Növbə yetişdi üçüncü qardaşa. Keşik verirdi. Şah ona dedi:

– İşin qurtaranda gedib böyük qardaşının başını kəsib gətirərsən mənə.

Bu lap dəlilərdən idi. Dedi:

– Şah sağ olsun, deyirsən indi gedim vurum?

Şah dedi:

– Yox, qurtarandan sonra.

Dəli qardaş durdu gəldi böyük qardaşın yanına. Gördü bu belə yatıb, kasıbın baxtı yatan kimi. Öz-özünə fikirləşdi:

– Dədəmiz bizə "səbrnən dəyanətiz olsun", – deyib. Gedib deyərəm onun yerinə məni öldür.

Qayıtdı gəldi, şaha dedi:

– Qibleyi-aləm sağ olsun, ondan mənim fərqim yoxdur. Məni öldür.

Şah cəlladı çağırıb istədi ki, boynun üzə. Oğlan dedi:

– Şah sağ olsun, mənim bir sözüm var. Qoy deyim, sonra öldür.

Dedi:

– Bir dədə-oğul var imiş. Bunlar çoxdan bir-birindən ayrılırlar. Çox zaman ötür. Bir gün meşədə bir-birinə urcah gəlirlər. Pəncə-pəncəyə qoyurlar ki, bir-birini öldürsünlər. Oğlanın döşündə dədəsi verən bir nişanəsi var idi. Birdən dədənin gözünə sataşır. Yadına düşür:

– Mənim bir oğlum itmişdi. Olmaya budur?

– Dayan, – deyir.

Oğlanın nişanına baxır, görür özüdü ki var. Öz oğludur. Bir an belə səbr eləməsəydi, öz əlinən öz gözün çıxartmışdı.

Şah deyir:

– Bunu da öldürməyin, görək nə olur.

Növbə çatır xırda qardaşa. Ona da o cür deyir.

– Keşiyini qurtarandan sonra böyük qardaşını öldür, başın gətir mənə.

Xırda qardaş ağıllı idi. Şaha deyir:

– Sən niyə mənə dedin böyük qardaşını öldür?
Şah deyir:
– O keşik verən günü mənim otağımda idi, ona görə.
Oğlan deyir:
– Çağır, ver məhkəməyə. Soruşaq görək o gecə sənin otağında nə iş görürdü. Gedin, qardaşımı çağırın.
Böyük qardaş gəldi, məclis qurdular. Şah soruşdu:
– Sən mənim otağımda nə iş görürdün?
Cavab verdi:
– Şah sağ olsun, keşik verirdim, bir əjdəha içəri girdi. İstəyirdi ki, sizi uda. Vurub öldürmüşəm. Pillənin altında quyulamışam. İnanmırsız, gedin baxın.
Getdilər, çıxartdılar. Şah dedi:
– Az qalmışdı, öz əlimlə öz gözümü çıxardam.
Gətirib onlara böyük məqam verdi.

## YALANÇI QUL

Qədim zamanlar qul satırdılar. Bir hacı getdi gördü bir gözəl qul satırlar. Bunu alanda soruşdu:
– Sən bil, imanın, bu qulun eybi yoxdu?
– Heç eybi yoxdur. Yalnız ildə bir tək yalan danışır. Ona görə satıram. Ayrı bir zadı yoxdur. Huşlu-başlıdı, zirəkdi.
Bunu alıb gətirdi. Bu altı ay işləyir, bir yalan danışmır. Altı aydan sonra gəlir evdə kefsiz oturur. Xanım soruşur:
– Qul, niyə kefsizsən?
Qul dedi:
– Heç, elə-belə.
Xanım dedi:
– Necə elə-belə?
Qul dedi:
– Sənə görə.
Xanım dedi:
– Necə mənə görə?

Qul dedi:
– Hacı gedib filan tacirin qızınan evlənib.
Bu xanım hay-küy saldı, qışqırdı. Bu əlin basdı xanımın ağzına, dedi:
– Hay-küy salma. Tacirin təzə xanımı gəlir, sənin gününü əlindən ala. Çarə elə.
Xanım dedi:
– Neyləyim?
Qul dedi:
– Onun çarəsi mənim əlindədi. İşin olmasın.
Xanım dedi:
– Bəs mən neyləyim?
Qul dedi:
– Ərinin çəkməsindən azca tut gətir mənə. Aparım qara daşdan bir dua yazdırım, tacirin qızı onun gözündən düşsün. Bu yol rahat ol.
Xanım dedi:
– Olarmı heç?
Qul dedi:
– Niyə olmaz?
Xanım dedi:
– Nəmənəyin kəsim?
Qulun çiynində bir bıçağı var idi. Verdi buna. Qul durur gəlir hacının yanına. Kefsiz oturur. Hacı soruşdu:
– Qul, niyə kefsizsən? Sən gündə deyirdin, gülürdün, oxuyurdum.
Qul dedi:
– Heç.
Hacı dedi:
– Yenə!
Qul dedi:
– Nə deyim, hacı?
Hacı dedi:
– Di görək.

Qul dedi:

– Altı ay işləmişəm. Mənim yalanımdan, ədəbsizliyimdən bir zad görübsənmi?

Hacı dedi:

– Yox, səndən yaxçı adam kimdir? De görək nə var?

Qul dedi:

– Sizin küçədən gəlirdim, sizin pəncərə açığıydı. Filan tacirin oğluynan sizin xanımı bir yerdə gördüm. İstəyirdim ikisini də öldürüm. Gördüm sənin yaşayışın dağılar. İcazə versən, ikisini də öldürüm.

Hacı dedi:

– Mənim evimdə bu cür işlər olmaz.

Qul dedi:

– İnanmırsan, getginən, tacirin oğlu bir bıçaq veribdir. Nəm-nəşəni də budur. Qərar qoyublar, sənin başını kəsərlər. O da gedə arvadını öldürə. Gəlib ikisi də evlənələr.

Hacı dedi:

– Yox, baba.

Qul dedi:

– Gözətlə də görək, o bıçaq üstünə gəlmədi, onda deyərsən. Amma ayıq yat.

Hacı gəldi. Yalandan xorhaxornan yatdı. Gecə bir zaman gördü, aha, arvadın əlində bir bıçaq gəldi bunun xirtdəyinə dayadı. Hacı arvadın biləyindən yapışdı. Gördü qul deyən düzdür. Bıçağı əlindən alıb vurdu vurdu arvadının ciyərinə. Arvadın da adamları gəldi hacını öldürdü. Var-yoxuna sahib olurlar.

## ŞAH ABBASLA KEÇƏL

Şah Abbasla Allahverdixan vəzir bir gün görürlər uzaq bir yerdən tək çıraq yanır. Şah deyir:

– Vəzir, orda bir işıq var. Yəqin istəyirlər, mənə bir iş görələr. Ancaq orda bir iş var. Geyin, gedək ora.

Bunlar hərəsi bir dəst köhnə paltar geyinib gedirlər çıraq yanan yerə. Qulaq asırlar. Görürlər burda üç dərviş, bir də bir keçəl var. Bular soruşurlar bir-birindən:

– Nə arzuvuz var?

Dərvişin biri deyir:

– Mənim arzum odur, Şah Abbasın qızıynan evlənəm.

Biri deyir:

– Mən də vəkilin qızınan evlənəm.

Keçəl də deyir:

– Mənə də versə, Allah versin. Şah kimdi.

Şah Abbas vəzirinən ordan qayıdır. Vəzirə deyir:

– Bura gözətçi qoy, sabah bunların üçün də gətir mənim yanıma.

Səhər açılır. Bunların üçünü də gətirillər dərbara. Şah soruşur:

– Dünən gecə nə danışıbsız? Tez olun, deyin.

Bunlar açırlar, nə olmuşdu deyirlər.

Şah bunların dediklərinin yerinə yetirib keçələ də deyir:

– Sən də ki məndən bir zad istəmirsən!

Dusurlər, xanımların da götürüb Türkiyə tərəfə yola düşürlər. Keçəl də gəlib bir əkinçiyə deyir:

– Məni islətginən.

Əkinçi deyir:

– Sən isləyəmməzsən.

Deyir:

– Keçələm də, əlimə-ayağıma nə gəlib. Nə qədər işləyə bilərəm, o qədər də müzd ver.

Əkinçi deyir:

– Olsun, gəl işlə.

Bu başlar işləməyə. Bir-iki bel vırır, bir küpə qızıl çıxar. Qızılı aparıb yarpağın arasında gizlədər. Bir az da isləyəndən sonra görür yer sahibi gəlir. Keçəl başını küpə çıxan yerə qoyar. Qıçın da göyə qavzayar. Əkinçi soruşar:

– Keçəl, nə niyə belə?

Deyir:
– Sən bilmirsən, gün keçəlin başını yandırar.
Deyir:
– Keçəl, neçə verim, gəl xulumnan ol.
Deyir:
– Nə verirsən, ver.
Çoxlu buna pul verir. Deyir:
– Çıx get.
Keçəl deyir:
– İcazə versən, bu möv yarpaqlarını da götürüm aparım.
Deyir:
– Götür, get.
Götürüb gəlir Şah Abbasın dərbarının yanına. Qapıçı qoymaz içəri keçsin. Şah üstdən baxırdı. Qapıçıya deyir:
– Qoy gəlsin.
Qapıçı deyir:
– Get, amma o zibilləri qoy yerə.
Keçəl deyir:
– Olmaz, nə var, elə bunda var.
Şah deyir:
– Qoy gəlsin.
Ot-motu qoyar şahın qabağına, deyir:
– İçinə bax!
Şah baxar, görür bir küpə qızıl var. Deyir:
– Sən ki dedin, mənə Allah özü verər. Götür apar, xəşlə.
Keçəl deyir:
– Yox, mənə bir kağız ver ki, xəşliyə bilim.
Şah özü yazıb möhürün də basar, verər keçələ. Keçəl qızılı götürüb çıxar. Aparıb üç at alar. Birisini isti paltarla yükləyər. Birini də xörəyinnən, o birisini də özü minir, düşür dərvişgilin dalına. Gedir bunları Ərzurum gədiyində tapar. Bunları külək tutmuşdu. Dərvişlər deyir:
– Yaxçı gəlibsən, keçəl, bizə yardım et.
Keçəl deyir:

– Olmaz. Mən sizə yalnız xörək verə bilərəm.

Deyirlər:

– Olsun.

Keçəl deyir:

– Mən sizə xörək verərəm, siz də gərək bu qızılı mənim ixtiyarımda qoyasız.

Onlar deyirlər:

– Olsun.

Onlara bir az xörək verib qızları da yedirdib içirdir. Bir at yükü gətirdiyi isti paltarları tökər daşın dibinə, girər paltarların arasına, qızları da yatırdar yanında. Səhər ayılıb görər dura bilmir. Deyir, bə dərvisgil bunların üstün basdırıblar. Yorğanı üstündən atar o yana, görər yox, baba, o qədər qar yağıb bunların üstünə, dura bilmirlər. Qarları atar o yana görər, dərvişləri külək qurudub. Qızları götürüb aparar Ərzurum şəhərinə. Orda bir qəfə tapib. Qəfəçiyə deyir:

– Gündə neçə gəlirindi?

Deyir:

– Məsələn, on tümən.

Keç, – deyir:

– İyirmi tümən verəciyəm. Bura mənim ixtiyarımda olacax.

Qafaçı deyir:

– Yaxci. Dörd başa şahanə xörək verərsən. Gündə neçə olar.

Deyir:

– Məsələn, əlli tümən.

Keçəl deyir:

– Yüz tümən verəciyəm.

Üç-dörd gün belə soruşar. Bu qəhvəçi maraqlanar. Bunun bir şəyirdi varmış. Şəyirdinə deyir:

– Bu oğlan hardan bu pulları verir, güd gör hara gedib hardan gəlir.

Bu düşür bunun dalına. Görür bunun yanında üç qız var. Biri-birindən gözəldir. Gəlib qafaçıya deyir:

– Bu cür gözəl qızları var. Bir də yaman pulu var. Qəhvəçi deyir:

– Buna bir tələ qurax. Qızların da biri sənin, ikisi mənim. Pulları da yarı bölək. Şəyirdi deyir:

– Yaxçı.

Buranın tilsim olmuş bir bağı varmış. Hər kim bura gedirmiş qayıda bilmirmiş. Qəfəçi deyir:

– Keçəl qardaş, burda gözəl bir bağ var. Gedib ordan bizə ağac kəsib gətirəsən. Bizim vaxtımız yoxdur. Səndən də heç pul almaram. O qulluğu da sənə eyləyəcəyəm.

Keçəl qəbul edir. Gedir bağdan ağacı gətirir. Qafaçı görür, bu ölmədi. Şəyirdə deyir:

– Ayrı fikir qılax. İki kasada ayran qoy, birinə zəhər tök, qoy qabağına. Birinə də tökmə, qoy dalıya. Əvvəl ona tut, qabaxdakın götürüb içəcək. Onda ölər. Şəyirdi ayran gətirib tutar. Qafaçı deyir:

– Qabaxdakı isti olar. Qoy daldakı kasanı içim.

Onu içir, ölür. Keçəl görür bu öldü. Bağı özü götürür. Deyir:

– Bu bağ baba bağımdı. Şəyirdə deyir:

– Sən qafaçı ol. Mən də sənə şəyird olum. Bular bir neçə gün burda keçinirlər. Keçəl başına dəri zad keçirdib başlı olar. Daha kecəlliyi bilinməz. Bir gün buranın şahı ölür. Hamı yıgısar şahın meydanına. Keçəl soruşar:

– Nə xəbərdi? Hamı yığışıb bura.

Deyirlər:

– Şah seçirlər.

Deyir:

– Gedək, biz də baxaq.

Gedirlər. O zaman quş uçurdarmışlar. Kimin çiyninə qonsaymış, o şah olarmış. Quş gələr oturar keçəlin çiynində. Bunu tutub döyürlər. Deyirlər:

– Aparın bunu, gizlədin.

Aparıb qafada gizlədirlər. Yenə quş uçurdular. Quş dolanar, havalanar, genə gələr qafanın bir xırda bacası açığıymış. Ordan girib qonur keçəlin çiyninə. Deyirlər:

– Daha olmaz, bu şah olmalıdır.

Bunu bu şəhərə şah eləyirlər. Bunun şah çıxmağına Şah Abbasgil, vəzir, vəkil gəlirlər görüşünə. Bu görür şahgil gəlib qızlara deyir:

– Ataaz hansı xörəyi sevirsə, onu bişirin. Özüz də üzüzə dəbilqə salacaqsız, tanımasınlar.

Qızlar ataları sevən xörəyi bişirib gətirirlər. Bular görürlər sevdikləri xörək gəldi. Bir-birlərinə pıçıldaşırlar:

– Bu haradan bilir, bu xörəkləri biz sevirik?

Keçəl də deyir:

– Pıçıldaşmayın, səs olmasın.

Şah vəzirin soruşar:

– Görəsən, xidmətçilər niyə üzlərinə dəbilqə salıblar?

Ancaq xörəyi yeyib yatırlar. Keçəl deyir:

– Qızlar, hər kəs dəbilqəli gedib öz atasının kürəyində yatacaq.

Qızlar gedib hər kim öz atasının kürəyində yatarlar. Şah Abbas dözə bilməz.

– Bu nə işdi, – deyir.

Keçəl sirri açar. Qızlar dəbilqəni götürürlər. Şah, vəzir görürlər öz qızlarıdı. Keçəl də başın açar. Şah Abbas görür bu o keçəldi ki, deyirdi: “Adama tanrı versin, Şah Abbas verməginnən heç zad olmaz.”

Keçəl qızların ikisini də alır. Özü də o şəhərdə hakim olub şahlıq edir.

## ÜÇ BACI

Bir kişi var idi. Bunun üç qızı var idi. Arvadı dünyasını dəyişir. Bu gedər bir arvadla evlənər. Yanında da bir qızı vardı. Onu da gətirər. Arvad deyir:

– Kişi, gərək bu qızları aparıb azdırasan.

Kişi deyir:

– Bir az əl çörəyi yap, yığım dagarciga, aparım azdırım.

Arvad deyir:

– Mal təzəyin yığ dağarcığa, apar.

Bir az mal təzəyin yığar dağarcığa, durar qızları da götürür. Qızlara deyir:

– Gedək xalangilə.

Bir az gedib çatırlar qovaxliğa. Burda dağarcığı asırlar ağacdan.

– Baxmayın, gedim su başına gəlim.

Gedir əkilir, onları öz başına buraxar. Qızlar qalar orda. Bir azdan sonra qızlar deyirlər:

– Axı bu cür olmaz! Ac qalıb ölməli deyilik ki. Neyliyək-neyləmiyək, deyirlər:

– Bacı, gəlin oturub..., hankımızınkı yaxın getsə, onu tutaq yeyək.

Xırda qızınki az gedər. Deyirlər:

– Səni tutub yeyəcəyik.

Deyir:

– Məni yeməyin. Gedim görüm nə var, tapım gətirim.

Bu gedər bir azdan sonra bir qapıya yetişər. Görər qapı açıqdır. Keçər içəri. Bir az çörəkdən zaddan tapar gələr. Bunlar deyir:

– Durun, gedək.

Girərlər o evə. Yeyib-içərlər, gizlənərlər. Axşam ev sahibi gələr. Görərlər, bir meymundu. Meymun axşam gələr davarı zadı salar yerinə. Deyir:

– Meymun nə yesin?

Deyirlər:

– Zəhər yesin, çor yesin, bir tikə arpa çörəyi yesin.

Sonra deyir:

– Meymun harda yatsın?

Deyirlər:

– Harda yatsın, zəhərdə, çorda yatsın.

Üstünə bir it çulu atar, bucaqda yatar. Qızlar deyir:

– Bu meymuna neyləyək? Gəlin yumurta bişirək, qoyaq altına.

Yumurta bişirib qoyurlar altına. Səhər meymun ayılar, görər, yançağından yumurta tökülür. Yançagın verir sapalağın ağzına, deyir:

– Məni yuxuya veribsən.

Çörək yeməz, hirsinnən heyvanları açıb aparar otarmağa. Axşam gələr. Bir az arpa çörəyi yeyər, yatar. Qızlar gəlib deyərlər:

– Neyləyək, gəlin tərəh bişirək.

Tərəh bişirib qoyurlar yançağının ağzına.

Meymun yuxudan ayılar. Görər yançağından tərəh tökülür. Yançağını verər sapalağın ağzına.

– Kopoğlunun malı. Məni yuxuya veribsən.

Gedər bir şələ odun gətirər, qoyar təndirə. Qazanı da doldurub qoyar təndirin üstünə. Su qaynayanda yançağını basar qazana ki, təmizlənsin. Tez qızlar gəlib basarlar bunu qazana. Meymun bişər. Atarlar o yana. Böyük qız xırda qıza deyir:

– Sən get quzuya.

Ortancıl qızı da qoyuna yollar. Deyir:

– Mən də bu avadanlığa yetişərəm.

Bu cür dövran sürürlər, keçinirlər. Bir gün bunların dədəsi deyir:

– Qızlardan xəbərim olmadı. Durum gedim görüm bir yanda tapa bilərəm.

Çox axtarandan sonra gələr. Gözü kiçik qıza sataşar. Deyir:

– Məni qonaq eylərsən?

Qız deyir:

– Məndən böyük bacım var.

Gedir onun yanına. O da deyir:

– Evdə məndən böyük bacım var. O bilər.

Bu gedər onun yanına. Böyük bacı deyir:

– Qonaq elərik.

Axşam hamı yığışar evə. Bunlar soruşar:
– Əmi, hardan gəlib hara gedirsən?
Deyir:
– Gəlmişəm qızlarımı tapam.
Deyirlər:
– Bə sən bizi salırdın çölə, deyirdin bə biz öləcəyik. Sən bizi gətirib ötürdün çölə. Gör Allah necə bizə qapı açıb.
Deyir:
– Qızım, mən günah eləmişəm. Məni bağışla. Dur gedək bizə. Deynən gəlmişəm sizi qonaq aparam. Təndiri yandır, su qoy qazanda, qaynasın. Deynən, nənə, gəl gəl yuyun, gedək bizə. Yuvunanda onları bas təndirə. Çıxaq gələk.
Böyük qızı durar gedər dədəsigilə. Deyir:
– Nənə, gəlmişəm sizi qonaq aparam. Gəlin yuyunun, təmizləşin, gedək.
Təndiri yandırar, qazanı qoyar üstünə. Nənəligi çiməndə bunu basar təndirə. Qızın da onun üstündən. Duvağın da qoyar ağzına. Dədəsi deyir:
– Bala, nə mənə götürürsən götür gedək.
Deyir:
– Heç zad istəməz. Bizim hər zadımız var. Dur gedək.

## QIZLA QIRX HƏRAMİLƏR

Bir qarı (küp qarısı) var idi. Bir də bir ayrı qarı var idi. Onun bir qızı var idi, çox gözəl idi. Qırx həramilərin başçısının buna gözü düşmüşdü. Bu qarıya deyir:
– O qızı gətirsən mənə, nə qədər pul istəsən, verəcəm.
– Yaxçı – deyib, gələr bu qızı tovla baş eylər.
– Gedək kufa minək, dolanax.
Qız deyir:
– Qarı nənə, qırx dənə şərab saqi götürəcəyəm.
Qarı deyir:
– Olsun, götür.

Bu qırx dənə saqi götürür. Bu gedə-gedə manşır qoyar, görər bunu apardı qırx həramilərin yanına. Həramibaşı deyir:

– Nənə, gətdin?

Deyir:

– Hən.

Qız görür bu cürdü, işin bilir, deyir:

– Qarı nənə, mən saqi dolandıracağam.

Deyir:

– Yaxçı da, dolandır.

Saqi dolandırar, verər, bunların hamısı içər, özlərindən çıxarlar. Bir-birini budarlar, şapatlar. Qız durar doyunca qızıldan, puldan götürər. Gecəni gəlib yetişər evinə. Nənəsi deyir:

– Hardaydın?

Deyir:

– İşim var idi.

Qırx həramilər ayılarlar, görərlər qız yoxdur. Qırx həramibaşçısı deyir:

– Köpəyin qızı, tutsam, doğrayıb ətivi un torbasında daşıtdıracayam.

Sonra yenə qarıya bir az pul verir, deyir:

– O qızı gətir bizə.

Qarı nənə qıza yalvarar. Qız deyir:

– Qarı nənə, qoy təndiri salım, qızdırım, sən də başını yu, mən də, gedək də.

Qız təndir salar. Suyu qızdırar, sonra qazanı qoyar qırağa. Sabını verər qarıya, – başını yu, – deyir. Qarı başını yuyanda bunun gözünə sabun dolar. Dolanda bunu salar təndirə. Sonra bunun ətini kabab elər, qırx yerə bölər. Yəni qırx dənə kabab eylər. Hambalı çağırar, deyir:

– Get qırx dənə səngək al.

Qırx dənə səngək alar, kababları qoyar səngəklərin arasına. Axırda da bir kağız yazar, qoyar bunların içinə. Hambala deyir:

– Bunları apar ver qırx həramilərə. Amma özün qalma ha, tez qayıt gəl.

Hambal kababları aparar verər qırx həramilərə. Hambal aparar verər, deyir:

– Bunları qız yollayıb.

Qayıdar, qaçar gələr. Qırx həramilər kababları yeyərlər. Axırda görürlər bir kağız var. Oxuyarlar. Deyirlər:

– Köpəyin qızı, qarının da ətin bizə yedirtdin.

Qırx həramibaşı deyir:

– Gəlin gedək, hamımız onu öldürək.

Qız bilər ki, qırx həramilər gələcək. Gedər bir küp doşap qoyar. Öz paltarın geydirər, qoyar otağa. Qırx həramilər gələr dolar bunların evlərinə. Hərami başçısı deyir:

– Heç kimin haqqı yoxdur içəri girə.

Hamı durar həyətdə. Başçı girər, görər qız oturub otaxda. Qılıcı çıxardar, soxar bunun qarnına. Doşab tökülər yerə. Qayıdar doşabı yalamağa. Qəməni ürəyinə soxanda bir hərami gələr, deyir:

– Bə niyə belə?

Deyir:

– Bunun qanı bu cür şirindi. Gör özü nə cür şirin olardı.

Qız o biri otaxdan gələr, deyir:

– Allah səmə lənət eləsin! Niyə belə elədin?

Deyir:

– Bə mən bu 39 həramini neyləyim?

Deyir:

– Sənin işin olmasın.

Hambalı çağırar, 39 dənə sandıq alar, gətirər bunları bir-bir çağırar, uydurar, salar sandığa. Hambala deyir:

– Bir yekə qazan al.

Alar. Deyir:

– Doldur suynan, qızdır.

Qızdırar. Yaxdanları birbəbir salar o isti qaynar suya. Bunların ki içində adam var idi, hamısı ölər. Başçı deyir:

– Bə mən bunları neyləyim?

Qız deyir:

– Onlar mənim ayağıma, sənin işin olmasın.

Hambalı çağırar, bir qədər pul danışar. Deyir:

– Bir ölümüz var, bunu apar at çölə, ya aşqala.

Qırx həraminin də başçısı da evdə. Hambal aparar atar, qayıdar, pulun alar. Başçını nişan verər. Deyir:

– Bə onu hara atırsan? Səndən qabaq gəlib yetişib.

Ancaq hiləynən, ölülərin hamısın aparar atar aşqala. Gələr, pulun alar, gedər. Qız qırx həramilərin başçısınnan evlənər, toy eylər, diyə-gülə yaşarlar.

## XORUZ

Biri var idi, biri yoxudu, bir qarı var idi, bir də bir xoruz var idi. Bu xoruz gedir çölə, gəzir gəlir. Bir gün bir gözəl tikan tapır. Bunu gətirir verir qarı nənəsinə. Deyir:

– Qarı nənə, bu tikanı saxla, havax tikan-tikan oynayanda gəlib alaram.

Qarı nənə deyir:

– Yaxçı.

Bunu qoyur taxçıya. Bir gün qarı nənə gəlir təndir salmağa. Odunlar yaş idi. Salır, təndir yanmır. Əlin salır, yanmır, qolun salır yanmır, qıçın salır, yanmır. Xoruzun bu tikanın salır, yanır. Üç dənə fətir bişirir, deyir:

– Olsun, xoruzun da tikanın saldım. Gələr, ona da bir fətir verərəm, yeyər.

Uşaqlar tikan-tikan oynuyurdu. Xoruz görər, qaçar gələr, deyir:

– Tikanımı alım, gəlim oynuyum.

– Qarı nənə, mənim tikanımı ver, gedirəm tikan-tikan oynamağa.

– Qarı nənənin canı yansın, odun yaş idi. Təzəh saldım yanmadı, əlimi saldım yanmadı, qolumu saldım yanmadı, qıçımı saldım yanmadı, sənin tikanını saldım yandı. Üç dənə fətir bişirmişəm, gəl, birini də sənə verim.

Xoruz deyir:
– Olmaz, mən tikan-tikan oynuyuram. Tez ol, mənim tikanımı ver.
Qarı nənə deyir:
– Yanıbdı.
Xoruz deyir:
– Onda fətirləri mənə verərsən.
Qarı nənə deyir:
– Necə? Vuraram bu oxlovnan, qıçın sınar. Dərivi pişiklərə verərəm.
Xoruz deyir:
– O yana qaçım, qarı nənə, bu yana qaçım, qarı nənə, sənin fətirlərin götürüm qaçım, qarı nənə.
Xoruz o yana qaçar, bu yana qaçar. Fətirləri vırar qoltuğuna, qaçar, düşər yola. Çöllü biyabana. Deyir:
– Axı mən fətiri neynirdim.
Sefillənə-sefillənə yolnan gedirdi. Görür yolun qırağında çobandı, süd sağıb içinə qığ doğruyur. Deyir:
– Çoban qardaş, niyə bə qığ doğruyursan?
Çoban deyir:
– Çörəyim yoxdur, qığ doğruyuram.
Xoruz deyir:
– Məndə fətir var. Gəl mən fətirləri verim sənə.
Bu alar, deyir:
– Sən çör-çöp yığ gətir, südü bişirək. Mən də fətirləri doğruyum, gəl yeyək.
Doğruyanda bir az qoyur ağzına, görür yaman yeməlidi. Yavaş-yavaş yeyir. Xoruz yubanar, bu gəlincən çoban hamısın yeyir qurtarar. Xoruz gələr görər hamısın yeyib. Deyir:
– Bə çoban, niyə belə?
Çoban deyir:
– Vallah, yeməli idi, hamısın yedim.
Xoruz deyir:

– Bu işi məndən gördün, mən də sənin o qara qoyununu götürüb qaçaram.

Çoban deyir:

– Sən öləsən, bir dəyənək vıraram, qıçın sınar.

Xoruz deyir:

– O yana qaçım, çoban, bu yana qaçım, çoban, sənin o qara qoyununu götürüb qaçım, çoban.

Qara qoyunu götürür, qaçar. Çoban qışqıra-qışqıra qalar. Xoruz düşər yola, gedər, gedər, bir yerə yetişər, görər gəlin çıxır. Saz çalırlar. Hay-küy göyə qalxıb. Keçər yaxına, görər bu gəlinin qabağında it kəsirlər. Deyir:

– Bə niyə it kəsirsiniz?

Deyirlər:

– Heç zadımız yoxdur.

Xoruz deyir:

– Gəlin bu qoyunu verim sizə, kəsin.

Alıb kəsirlər. Deyir:

– Əvəzində nə verəcəksiniz?

Deyirlər:

– Heç zadımız yoxdur. Gördün ki, it kəsirdik.

Deyir:

– Gəlini götürüb qaçaram, bəy yaxasın yırtar.

– Budunu kabab elərəm, – deyir.

Xoruz deyir:

– O yana qaçım, bəy, bu yana qaçım, bəy, sənin gəlinini götürüm qaçım, bəy.

Gəlini götürüb qaçar. Yolnan gedirdi, görər bir aşıq daşın üstündə oturub saz çalır. Deyir:

– Aşıq qardaş, sazın verərsən, mən də çallam.

Aşıq deyir:

– Əvəzində nə verərsən?

Deyir:

– Bu gözəl gəlini sənə verərəm.

Aşıq deyir:

– Olsun.
Gəlini verər, sazı alar. Oturar daşın üstündə, deyir:
Bir tikan tapdım, sazım dınqıl-dınqıl.
Tikanı verdim, fətir aldım, sazım dınqıl-dınqıl.
Fətiri verdim, qoyun aldım, sazım dınqıl-dınqıl.
Qoyunu verdim, gəlin aldım, sazım dınqıl-dınqıl.
Gəlin verdim, sazı aldım, sazım dınqıl-dınqıl.

## NOXUD

Biri var idi, biri yoxuydu. Allahdan sonra kimsə yoxuydu. Bir noxud var idi, bir qoca dədəsi. Bir də qarı nənəsi. Bir gün səhər yuxudan oyanır. Fikirləşir öz-özünə. Nənəsindən soruşur:

– Ay nənə, niyə biz belə yoxsuluq?

Nənəsi deyir:

– Bala, biz yoxsul deyilik. Şah gəldi, nəmənəmiz var idi, aldı apardı. Mal-davarımızı, altinlarımızı, at-eşşəyimizi, hər zadımızı aldı, apardı.

Nənəsindən soruşur:

– Şah hardadır, yeri hardadı?

Sonra oturur nənəsinnən, danışır:

– Mən hardan gəlmişəm? Niyə belə cıqqılı qalmışam?

Nənəsi deyir:

– Bala, mal ....., mal təzəyinin altında gördüm bir zad tərpənir, dədən dedi:

– Gör o nəmənədi?

Mən süpürgə çöpüynən qurtddaladım. Götürdük gördük sənsən. Aparıb yuyub elədik, oldun balamız.

İki-üç gün keçir, görürlər noxud yaman fikirləşir. Nənəsi deyir:

– Bala, nə fikirləşirsən?

Deyir:

– Nənə, gedirəm şahdan haqqımızı alam. Gedirəm deyim:

– Altını ver hay, altını ver, altını yeyibsən, üstünü ver, üstünü yeyibsən, altını ver.

Nənəsi deyir:

– Bala, şahın qoşunu var, zoru var. Səni tutub zindana salarlar, öldürərlər. Bala, burda keçinirik də, bizi yazıq eləmə, qalarıq ağlar günə.

Noxud deyir:

– Olmaz, gərək gedəm, şahdan haqqımızı alam.

Durur, bir ağacı var idi, naxıra gedirdi. Mal-heyvanı aparıb otarardı. Ağacın götürür, bir az da çörək bağlayır, salır ağaca, atır çiyninə, düşür yola. Gedir, gedir, yetişir bir çaya. Çaydan atılanda çay soruşur:

– Noxud qardaş, hara gedirsən?

Deyir:

– Gedirəm şahdan haqqımızı alam. Deyim, altını ver hay, altını ver, altını yeyibsən üstünü ver, üstünü yeyibsən, altını ver.

Çay deyir:

– Gedirsən, məni də apar. Şahın qoşunu burdan keçəndə atları mənim baş-gözümü ayaxlayıb, qol-qıçımı, qabırğamı sındırıb. Mən də gedirəm haqqımı alam.

Noxud deyir:

– Gəl gir mənə, gedək.

Çay girir buna, gedirlər, gedirlər, yolda bir tülküyə rast gəlirlər.

Tülkü soruşur:

– Noxud qardaş, hara gedirsən?

Noxud deyir:

– Gedirəm şaha deyim altınımı ver, altınımı ver, altını yeyibsən, üstünü ver, üstünü yeyibsən, altını ver.

Tülkü deyir:

– Mən də gedirəm. Şah tamam toyuq, xoruz, düşəni zadı aparıb mənə heç zad qalmayıb. Mən də hərdən tutub yeyirdim. İndi mənə heş zad qalmayıb. Mən də gedirəm.

Noxud deyir:
– Gəl gedək.
Gedirlər, gedirdilər, qurd gədik başında durmuşdu. Soruşur:
– Noxud qardaş, hara gedirsən?
Deyir:
– Gedirəm şahdan altınımı alam. Deyim altınımı ver, altınımı ver, altınımı yeyibsən, üstünü ver, üstünü yeyibsən altını ver.
Qurd deyir:
– Nəmənə qoyun, quzu var idi, şah alıb aparıb. Heş zad tapammıram, ac qalmışam. Mən də gedirəm haqqımı alam.
Qurd bir az gedir, deyir:
– Yoruldum.
Noxud deyir:
– Gəl gir mənə, gedək.
Tülkü də, qurd da girirlər noxuda, gedir, gedir, meşədə bir ayı görür. Ayı soruşur:
– Noxud qardaş, hara gedirsən?
Deyir:
– Gedirəm şahdan haqqımı alam. Deyim, altınımı ver hay, altınımı ver, altını yeyibsən üstünü ver, üstünü yeyibsən, altını ver.
Ayı deyir:
– Mən də gedirəm. Bizi ovlayırlar. Dərimizi özünə palto qayırıb. Gün görmürük. Mən də gedirəm haqqımı alam.
Noxud deyir:
– Gəl gir mənə, gedək.
Gedir, gedir, yetişir şahın qapısına. Qapını döyür, açırlar, görürlər küncdə bir noxud. Bir az dığırladıb, oynadıb sonra soruşurlar:
– Noxud qardaş, nə deyirsən?
Deyir:

– Şahnan işim var. Gedirəm şaha deyim, altını ver hay, altını ver, altını yeyibsən üstünü ver, üstünü yeyibsən altını ver.

Bunu aparırlar şahın yanına. Şah soruşur:

– Nə istəyirsən?

Noxud deyir:

– Bizim altınımızı ver.

Şah deyir:

– Bunu aparın atın, toyuq-cücə yesin.

Aparıb atırlar toyuq-cücənin içinə. Bura atanda tülkünü çıxardıb ötürür ora. Tülkü bütün toyuq-cücəni qırır, öldürür. Qapını bağlamışdılar. Bacadan çıxır, gedir şahın yanına. Şah soruşur:

– Bə səni toyuq-cücə yemədi?

Noxud deyir:

– Yox.

Şah deyir:

– Bunu aparın atın qoyun-quzunun içinə, ayaxlasın, bu ölsün.

Aparıb atırlar qoyun-quzunun içinə. Qurdu çıxardır ötürür ora. Tamam qoyun-quzunu qırır, öldürür, çıxır gedir.

Noxud yenə gəlir şahın yanına. Şah deyir:

– Yenə gəldin?

Əmr edir:

– Aparın bunu atın mal-qaranın içinə. Qoyun, mal-qara ayaxlasın.

Aparıb atırlar mal-qaranın içinə. Bu da ayını çıxardır ötürür bunların içinə. Tamam mal-qaranı öldürür.

Noxud yenə gəlir şahın yanına. Şah görür, yenə gəldi. Deyir:

– Bunu atın odun içinə, qoyun yansın.

Çoxlu odun yığırlar, yandırırlar. Bunu qaşığa qoyub atırlar odun içinə. Suyu çıxardır ötürür. Su odu söndürüb şahın kaxın da götürüb aparır. Noxud gəlir şahın yanına. Şah deyir:

– Noxud, sən məni oddadun, var-yoxumu dağıtdın. Qoyun-quzunu, mal-qaranı, toyuq-cücəni, kaxımı da uçurtdun. Nə istəyirsən, verim?

Noxud deyir:

– Altınımızı ver hay, altınımızı ver, altınımızı yeyibsən, üstünümüzü ver, üstünümüzü yeyibsən, altınımızı ver.

Şah altınlarını verir. Noxud altınları götürüb gedirlər kəndə yaşayırlar.

## QURU KƏLLƏ

Biri var idi, biri yoxuydu. Keçmiş zamanlarda bir padşah var idi. Bunun heç sonu yoxudu. Həmişə özündəydi. Günlərin bir günü buların qapısına bir dərviş gəldi. Vəzirinə buyurdu:

– Onu aparın, bir boşqab qızıl verin, getsin.

Dərviş dedi:

– Qurban sağ olsun, mən gərək şahın özün görüm.

– Şah naxoşdur, – dedilər. Halı yoxdur, neynirsən şahı. Nə işin var, qoy get.

Dedi:

– Gərək özün görüm.

Bu şahın da üç arvadı var idi. Dərviş gəldi bunun yanına. Şah dedi:

– Dərviş, məndən nə istəyirsən? Payını al, qoy get. Halım yoxdur, məndən sonra bir sonum yoxdur. Onun fikrindəyəm bu malıma, var dövlətimə sahib olsun.

Dərviş dedi:

– Şah sağ olsun. Mən də elə bundan ötrü gəlmişəm.

Şah dedi:

– Dərviş sağ olsun. Bəs elədə buyurginən.

Dərviş buna üç alma verdi:

– Bu üç almanın hərəsin bir xanımıva verəcəksən. Sənin üç oğlun olacaq. Üç oğlunun birin mən seçib aparaciyam. İndidən sənə deyirəm. Birin mən seçəciyəm.

Şah dedi:

– Sən ikisin seç apaginən. Bir uşağım yoxdur, üzündən öpüm. Olsun, birin sən seçib apararsan.

Dərviş bu almaları verdi, qoydu çıxdı getdi. Beş gün, on gün, ancaq doqquz aydan, doqquz gündən, doqquz saatdan sonra bu xanımların hərəsinin bir oğlu oldu. Oğlanların birinin adın qoydular Məlik Məhəmməd, birinin Məlik Cümşüd, birinin də Məlik Əhməd. Bu məktəbə, o məktəbə, dərslərin oxudular. Uşaqların hərəsinin on iki yaşı tamam olub, bir gün dərviş tapıldı. Dərviş gəlib:

– Şah sağ olsun, mənim oğlumu verginən, – dedi.

Şah dedi:

– Get, hakisin seçirsən, seç apar.

Dərviş gedib böyük oğlanı götürüb apardı. Yolda buna bir yerdə xörək verib dedi:

– Bala, sən ye, mən gəlirəm.

Getdi o tərəfdə özün ayı şəklinə salıb gəldi. Bu oğlan qışqırdı:

– Ay dərviş baba, məni ayı yedi.

Ayı qayıtdı dalıya, getdi oldu yenə dərviş. Gətirdi ötürdü dədəsinin qapısına.

– Mən bunu istəmirəm, – dedi.

– Get, o birsini apar.

Getdi ortancıl oğlun apardı. Aparıb həmən yerdə bu yenə oldu bir aslan. Bu uşaq qışqırdı:

– Ay dərviş baba, aslan məni yedi.

Bunu da gətirib ötürdü dədəsinin qapısına. Getdi xırda oğlun apardı. Xırda evdən çıxanda dədəsinin bir sınıx qılıncı var idi. Bunu yavaşcadan cübütdüyüb altdan bağladı belinə. Düşdü bunun yanına. Bir qədər gedəndən sonra dərviş dedi:

– Bala, yeri, mən də gəlirəm.

Dərviş getdi, o yanda bir yekə ayı şəklinə düşüb gəldi bunun üstünə. Bu oğlan gördü, yekə bir ayı gəlir, dedi:

– Sən öləsən, dədəmin qılıncını gətirmişəm, sənin qulağını elə qopardım, verim dərviş kef eləsin.

Qılıncı belindən çəkib yüyürdü bunun üstünə. Dərviş gördü, sən ölmiyəsən, əgər qaçmasa, bunu qılıncıynan biçəcək. Qaşdı getdi, o tərəfdə dərviş olub gəldi. Oğlandan soruşdu:

– Bala, nəmənə gördün?

Oğlan dedi:

– Bir ayı gəlirdi nə yekəlihdə, amma hayıf olsun ki, yetirib öldürəmmədim.

Dərviş:

– Sağ ol oğlum, – dedi, dur gedək.

Dərviş gedir, bu da onun dalıncan. Oğlan çox huşlu, fərasətli idi. Qəbristanlığın yanından keçəndə oğlan dedi:

– Dərviş sağ olsun, babalar deyiblər, hansı qəbristanlığın yanından keçəndə orda bir Fatihə oxuyun.

İstədi yola düşsün, gördü bir quru kəllə bunu iki dönə səslədi:

– Məlih Əhməd, Məlih Əhməd!

Qayıdıb gördü, bir quru kəllədi. Buna salam söylədi.

– Oğul, bu səni aparır öldürsün. Yaxçı qulaq ver mənim sözlərimə. Otuz doqquz qapı açılacaqdı. Qırxımıncı qapının içində bir quyu vardı. Bu sənə deyəcək, götür bu quyunun dörəsin süpürginən, sən süpürməginən. Denən, ağa, sən süpür, mən öyrənim. Bu ki əyildi süpürə, sən itələ, bu getsin quyunun tərkinə. Ondan sonra sən qırxımıncı qapını açacaqsan. Bir ağ at var, bir qara at. Atılıb minəcəksən qara atın üstünə. O da atacaq ağ atın üstünə. Ağ at səni tulluyacaq, gələcəksən işıqlı dünyaya. Yoxsa atılsan ağ atın üstünə, ağ at səni atacaq qara atın üstünə, qara at səni atacaq qaranlıq dünyaya.

– Yaxçı, – dedi, düzləndi yola.

– Oğul, nə yubandın?

– Mən Fatihəni verəndə ağır Fatihə verirəm.

Yola düşüb getdilər. Gördü elə quru kəllə nə cür deyib bi başdan qapı açılır, bu da gedir. Otuz doqquz qapı açıldı,

girdi içəri. Qırxıncı qapı da gördü nə cür deyib o cürdü. Bir quyudu.

– Balamsan, o süpürgəmizi götür, quyumuzun dövrəsin süpür.

Məlih Əhməd dedi:

– Dərviş sağ olsun, mən başarmıram. Sən süpürginən, mən də öyrənim, o cür süpürüm.

Bu süpürgəni götürdü, donbaldı. Süpürgəni elə çəkir, belə çəkir. Məlih Əhməd daldan bir toqqa vırdı, gurultuynan getdi quyunun dibinə. Məlih Əhməd belə baxanda gördü, vay dədə, quyunun tərki doludu adamıynan. Bu evi yıxılmış elə gətirəni itələyib salıb bura.

– Bala, qatilizi yolladım, – dedi.

Biri saqqalın yolur, biri qıçın gəmirir, biri böyrünə döyür, biri başına döyür, vıra-vıra öldürdülər.

Gəlin sizə kimdən deyim, Məlih Əhməddən. Məlih Əhməd bi yol geyindi gəldi, sevindiyindən minəcəkdi qara atın üstünə, mindi ağ atın üstünə. Ağ at bunu atdı qara atın üstünə. Qara at bunu tulazdadı, dığırlan-dığırlana düşdü qaranlıq bir dərənin tərkinə.

– Vay dədə, bə mən niyə belə elədim.

Sonrakı peşmançılıq bərə bitirməz, buna demişdilər. Məlih Əhməd gördü yaman qaranlıq dərənin içindədir. Yaman da susuzdur. Dolana-dolana, ləhliyə-ləhliyə gəldi bir nənənin evinə çatdı. Dedi:

– Nənə, mənə bir içim su ver!

Qarı nənə getdi i……di kasıya, gətdi verdi buna. Bundan bir qurtum içdi, gördü duzludur. Soruşdu:

– Nənə, bə suyuz niyə belə duzludur?

Qarı dedi:

– Qadan-balan alım, bizim suyumuz yoxdur.

Soruşdu:

– Niyə yoxdur?

Qarı dedi:

– Bir əjdəha var, suyumuzun qabağın kəsibdir. Gündə bir uşaq veririk, o yeyir, başı qatışar, yeyincə biz su götürük. Buyün şahın qızının növbəsidir. Gedəcəhdi gətirsin əjdəhanın qarnına. Buyün yeddi mejməyi çörək pişirmişdi aparsın versin ona, yesin, biz su götürək.

Məlih Əhməd dedi:

– Qarı nənə, səbr elə, mən canımdan doymuşam. O qızın çörəklərin yeyib gedərəm əjdəhanın qarnına, bəlkə camaat su götürsün.

Qarı dedi:

– Qadan-balan alım, get də.

Bu getdi gördü, sən ölmiyəsən, elə xörəklər pişiriblər, heç ömründə görməmişdi. Köylündən nəmənə keçsə, burda var. Pişiriblər əjdəhaya.

Əhməd dedi:

– Qarı nənə, dur get qızın yanına.

Qıza dedi:

– Xanım, o xorəklərdən birin ver mən yeyim, canımdan doymuşam. Məni atın əjdəhanın ağzına.

Qarı dedi:

– İkisin yeginən, sən ki özünü qurban verəcəksən əjdəhanın ağzına. Neçəsin yeyirsən, yeginən.

Xörəklərdən doyuncan yedi. Özün doyurandan sonra durdu qılıncın bağladı anlına, özün verdi əjdəhanın qabağına. Əjdəha ki bunu çəkir kamına, çəkdikcə qılınc bu əjdəhanı biçə-biçə gedir. Elə ki yetirdi quyruğuna, əjdəhanın bir şaqqasın o yana atdı, bir şaqqasın da bu yana atdı. Su ortadan şaqqıldadı şəhərə sarı. Qız gördü, oğlan bu əjdəhanı öldürdü. Qız bilənlərdən idi, beş barmağın da batırıb vırdı oğlanın kürəyinə.

– Xoş gəldin, – dedi.

Oğlan gəldi qarı nənəsinin evinə, dedi:

– Qarı nənə, su götürdün?

Qarı dedi:

– Hən, bala, onu apar tök o yana, ayrısın doldur gətirginən. Əjdəha qoymuyacaq ki, bala.

Əhməd dedi:

– Əjdəhanı öldürdüm.

Dünyaya xəbər verdilər, bir oğlan əjdəhanı öldürdü. Gəlib gedən baxırlar görsünlər kim öldürübdü. Vəzirin oğlu deyir, mən öldürmüşəm, vəkilin oğlu deyir, mən öldürmüşəm. Yerindən duran deyir, əjdəhanı mən öldürmüşəm.

Qız deyir:

– O cür deyil, nişanım vardı, əjdəhanı öldürənə nişan qoymuşam.

Gələnin kürəyinə baxıb ötürürlər. Bu qaranlıq şəhərdə heç kim qalmadı. Dedilər:

– Kim var?

– Qarı nənənin evində bir qonaq vardı, – dedilər.

Gəldilər qarının evindən qonağını sürüyə-sürüyə apardılar qızın yanına. Uzaxdan dedi:

– Odu ba!

Vəzir dedi:

– Bir azcana gözəl idi, çəpəlin gözü düşdü?

Qız dedi:

– O cür deyil, qurban. Mənim nişanım var.

Gətirdilər, bunun kürəyinə quvzayıb baxdılar. Gördülər, qız beş barmağın da basıb qana, vırıb oğlanın kürəyinə. Beş barmağının qanının beşi də qalır.

– Bu mənim nişanımdı. Çəpəl-məpəl, yəni nəmənə mənim ayrı şeyinən işim yoxdur.

Hələlik deyib getdi. Şaha deyir:

– Məni istəyən bu oğlana ənam verin.

Əhməd deyir:

– Qurban sağ olsun, mənim ənam dərdimə dəyməz.

– Bəs nəmənə istəyirsən, deginən, yerinə yetirim.

Əhməd deyir:

– Sənin sağlığını, qurban.

Şah deyir:

– Genə nəmənə istəyirsən, de.

– Sağlığını.

– Quru sağlığın faydası olmaz. Nəmənə istəyirsən, deginən.

Əhməd deyir:

– Səndən işıqlı dünyanı.

Şah deyir:

– Cavan, ağır bir iş istədin.

Şah bir az fikirləşdi:

– Əjdəha ki öldürübsən, bir tayı da o taydadır, o da zümrüd quşun balasını yeyir orda. Onu da öldürsən, o zümrüd quşu azad olar, daha balasını gözləməz, səni aparıb yerinə yetirər.

Məlih Əhməd gəldi gördü, sən ölmiyəsən bu əjdəha ağzın açıbdı, anqırıbdı elə, bunun balalarını udsun. Qılıncını bağladı alnına, o biri əjdəhanı öldürdüyü kimi, yarısın verdi balaları yedi, yarısını da saxladı nənələrinə. Getdi bir ağacın altında yıxıldı yatdı. Məlik Əhməd yatıb, şirin yuxunun içindədi, zümrüd quşu gəldi gördü, bir qara şey ağacın dibində yatıb. Dedi:

– Sən ölmiyəsən, mənim ildən ilə balalarımı yeyən budur.

Bu getdi qanadına bir dəyirman daşı qoyub gəldi.

– Köpoylunun malı, salacıyam sənin başınnan, beynin partlasın. Mənim balalarımı sən yeyibsən.

Birdən balaları qışqırdı:

– Ay nənə, amandı!

– Nəmənədi, – dedi.

Dedilər:

– Bizim qatilimizi öldürübdü. Odu baa, yarısın biz yemişik, yarısın saxlayıb sənə.

Bu dəyirman daşını atdı o yana. Gəldi qanadın çevirib açdı Məlik Əhmədin üstünə. Məlik Əhməd doyuncan yatdı. Bir zaman ayıldı gördü, üstünə elə gözəl kölgə düşüb, adamın durmağı gəlmir. Zümrüd quşu enib gəldi:

– Cavan, oyandın? Hən, hardan gəlibsən? Mən zümrüd quşuyam. Sən balalarımı ölümdən qurtarıbsan, əjdəhanı öldürübsən. Hər il mənim balalarımı yeyirdi. Tanrı səni qorusun.

Əhməd dedi:

– Yarısını vermişəm balaların yeyib, yarısın da sənə saxlamışam, götür ye.

Belə olanda quş dedi:

– Məndən nəmənə istəyirsən, istə.

Əhməd dedi:

– Sənin sağlığını.

Quş dedi:

– Bir zad istə.

Əhməd dedi:

– Səndən işıqlı dünyanı.

Quş dedi:

– Yaman çətin şey istədin. Aparacağam, ama bunun xərci vardı.

– Nəmənədi?

– Yeddi tulux su istəyirəm, yeddi dənə də qoyun cəmdəyi. "Yandım" deyəndə sudan verərsən, "qandım" deyəndə ətdən verərsən. Bəlkə səni aparam işıqlı dünyaya.

Əhməd – elərəm – dedi. Getdi padşaha dedi:

– Qurban sağ olsun, mənə yeddi qoyun cəmdəyi, yeddi tulux su!

Gözünü açıb-yumuncan hazırladı. Quş dedi:

– Məlih Əhməd, səndən yalnız istədiyim budur ki, heç yana baxmayacaxsan. Bax, hay salacaqlar. Qayıdıb baxsan, ətdən, sudan oğurladasan, yolda qalarıq, gedib yetirə bilmərik.

Quş bunu aldı qanadına, uçdu. "Yandım" deyəndə su verir, "qandım" da deyəndə ətdən verir. Yolda gördü eşşək anqırır, dəvə buzduyur, at kişnəyir. Bir hay-küydü gəl görəsən. Məlik Əhməd belə baxanda ətin bir cəmdəyin oğurlayırlar. Gedib, gedib, düz işqlı dünyaya yetirəndə ət qurtuldu. Quş dalbadal deyir, "yandım", "yandım", görür Əhməd yu-

bandı. Əhməd görür bir zad tapa bilməyəcək, tez qılıncını çəkib budundan şaqqalayıb verir quşa. Zümrüd quşu gördü, sən ölmiyəsən, bu sonrakı ət belə şirindiki. Süddən ağ, baldan şirindi. Bildi ki, bu yolda ətlərdən itirib. Dedi:

– Özünün bədənindən kəsib mənə verdin? Ancaq getdi düşdü işıqlı dünyada.

Quş dedi:

– Məlih Əhməd, düş get.

Əhməd düşüb oturdu. Quş soruşdu:

– Niyə oturdun? Dur yeriginən.

Əhməd dedi:

– Düzün soruşsan, qıçım yaradı. Ətlərdən birini oğurladılar, budumu kəsib verdim sənə.

Quş dedi:

– Mən bilirəm, əti yeməmişəm, dur qıçını gətir bura.

Əti ağzından çıxarıb qoydu bunun qıçına. Ağzının suyundan verdi, qıçı sağalıb qabaqkı kimi oldu. Dedi:

– Məlih Əhməd, gedəcəksən o bağa. Orda bir aslanın qıçına balta yatıb. O baltanı onun qıçından çıxardacaqsan. Qaçıb gizlənəcəksən, hər zaman and içdi, onda gələcəksən.

Zümrüd quşu tükündən çəkdi, verdi buna:

– Hər zaman darda qalsan, oda tutsan, dadına yetişərəm, – dedi.

Halallaşıb arıldılar. Bu getdi gördü, bir aslanın qıçına balta yatıb. Yaman yaradı, bu necə qışqırır. Əhməd istədi çıxarda:

– Çıxatma, onu çıxardarsan, qaç gizlən, – dedi. O vaxtacan gizlənəcəksən, nənəmə and içənəcən. O zaman ki dedim, nənəmin canına and olsun, işim yoxdur, onda gəlginən. Onnan tez gəlsən, acığım tutsa, çəkib cıracağam.

Balta qırığın çəkdi, qaçıb gizləndi. Bu nə qədər qışqırdı, gəl, neynərəm, nə verərəm, qulaq asmadı. Sonunda nənəsinə and içdi:

– Nənəmin canın and olsun, işim yoxdur, gəldi.

Məlih Əhməd gəldi, aslan soruşdu:

– Məndən nəmənə istəyirsən, istə.

Əhməd dedi:

– Sənin sağlığını.

– Yenə də.

– Məni apar bir şəhərin qırağına.

Aslan bunu aldı boynuna, bir şəhərin yanında qoydu yerə.

– Məlik Əhməd, xoş gəldin, – dedi. Mənim də tükümnən çəkginən. Hər yerdə işin dara düşəndə tut oda, yetişərəm.

Məlik Əhməd gördü bir çoban qoyun otarır. Bundan bir keçi aldı. Keçini kəsib qarnını götürdü. Cəmdəyin də verdi çobana. Keçinin qarnın boşaltdı, yudu, elədi özünə börk, keçirtdi başına. Oldu bir keçəl oğlan. Getdi gördü bağda bir bağban su suvarır. Çay qoyub, yanında oturub çay içdi. Bağban bunu çox şirin qarşıladı.

– Mənə oğul ol, – dedi. Oğlum yoxdur. Bu ömrümün son çağında mənə oğul ol. Şahın bağbanıyam. Bu bağda sən mənə köməklik eylə, kef eyləyək. Mən də ömrümün axırı şad olum.

Əhməd:

– Mənim gözlərim üstə, – dedi.

Bu buna oğul oldu. Gəzirlər, dolanırlar, gedir-gəlirlər. Bu bağda hərdən yuyunur.

Şahın üç qızı var idi. Bu bağa gəlib dolanırlar. Şahın qızlarına dəstə gül bağlayır, hərdən birin də Məlih Əhməd bağlayır. Məlih Əhməd ki, behiştin almasından əmələ gəlmişdi. Başının yarısı qızıl idi, yarısı da gümüşüydü. Bu da bir dəstə gül bağlayıb. Xırda qız həmişə Məlih Əhmədin gülün alardı. Qız dedi:

– Belə deyil, bu oğlanda bir iş var.

Qız bunu güddü, gördü bu keçəl deyil. Bunun bir başı var, nə gözəllikdə. Bunun tükləri gün kimi yanır, gəl dədəni işə sal, deginən bizi ərə ver, evlənirik. Bəlkə mən də bu keçələ gedəm.

Qız getdi, dədəsinə məktub yazdı.
– Dədə, səndən istəyimiz var, bizi ərə ver.
Onda da qızlar quş uçurdardı. Hər kim quşun uçurtsun, hər kimin çiyninə düşsə, verək ona. Qızlar quşu uçurtdu. Yekə qızın quşu düşdü vəzirin oğlunun çiyninə, ortancıl qızın quşu düşdü vəkilin oğlunun çiyninə, xırda qızın quşu da düşdü keçəlin çiyninə. Oğlanı tutdular, bir damda gizlətdilər. Quşu uçurtdular, quş getdi damın cırığından düşdü oğlanın çiyninə. Bunlar toy elədilər. O getdi vəzirin evinə, bu getdi vəkilin evinə, bu da getdi bağbanın evində keçəlin evinə. Hamı buna lağ eləyir, qız deyir:
– Getmişəm də, sizin nə vecizə.
Ağa, dövran sovuşdu, şah bir gün kefsizlədi, həkim gəldi:
– Gərək ov əti yeyəsən.
Vəzirin oğlu bir yaman at mindi, vəkilin oğlu bir at mindi yarlı yaraqlı. Məlih Əhməd də tövlədə bir axsax yabı varıydı, onu cilovlayıb özü də tərsə mindi. Belə baraydı. Hamı güldü. Şah dedi:
– İndi gedib mənə ov əti tapıb gətirəsiz.
Öz-özünə fikirləşirdi, vəzirin, vəkilin oğlu vıracaq, bu da yerə tökülənindən gətirəcəkdi. Bu elə ki getdi dağın dalına, düşüb yerə, yabını ötürdü ora. Zümrüdün tükün tutdu oda, buna qara at hazır oldu. Qara paltar, qara börk, nəmənə heyvan var idi, aslan buna yerini demişdi. Çay qırağında çadır qurmuşdu. Bir-iki ovu yolladı:
– Gedin, o iki atlının çiynindən atılın gəlin bura.
Ovlar getdilər, bunların ikisinin çiynindən hoppuldular, gəldilər. O dedi, sən tut, bu dedi sən tut. Tuta bilmədilər. Qaça-qaça gəldilər bunun yanına. Düşdülər onun dalına, gördülər bir nəfər burda sürüsün saxlayıb.
– Oğlan, bə sizin mənim ovumnan nə işiniz var?
Dedi:

– Qurban sağ olsun, biz ovu ovlamağa gəlmişik, yəni vırmağa gəlmişdik, Vıra bilmədik.

– İndi cəmdəyin istəyirsiniz, yoxsa başın?

Dedilər:

– Biz cəmdəyin istəyirik, başın neynəyirik.

Bu birin kəsdi:

– Tu leşinə, dadı başına.

Leşin verdi bunlara, başın götürdü. Pulun verdilər.

– Mən pulun istəmirəm.

Bir möhür qızdırıb marağa vırdı basdı hərəsinin boynuna.

– Mənimki pul deyil, hər biriz mənə yarım şaqqa ət boşlu olduz, gedin.

Bunlar gedəndən sonra durdu, başı götürdü, gəldi yabını qoyduğu yerə. Əti də ötürdü. Yabını cilovladı, mindi gəldi. Yenə buna güldülər. Onlar cəmdəyin gətirdi. Əhməd də onun başını əlində gətirir. Vəzirin, vəkilin oğlu axtarırdı görsünlər cəmdəyin harasına damğa basılıb.

– Axtarmayın, bi yerimə basıblar.

Onlar cəmdəyin gətirdilər, pişirdilər, hər kəs yedi, ağzında od kimi oldu. Qız da kəlləni soydu, pişirdi, yaxçı yerindən bir kasa doldurdu, aparıp şaha. Qalanın da özləri yedi. Cəmdəyi pişirib gətirdilər, heç kəs yemədi.

– Götürün aparın, – dedilər.

Kiçik qız dedi:

– Dədə, bundan da bir tikə ye də, neyniyəcəkdir.

Şah bi tikə yeyib dedi:

– Ət budur, onlar nəmənədi?

Kasanı çəkdi qabağına, bütünün yedi.

– Bala, daha qalmadı.

Kasanın dibini də siyirdi.

– Bala, yenə olsaydı, bir kasa da yesəydim, toxdardım.

Vəzirin, vəkilin oğluna:

– Oğul, sabah gedin cəmdəyin gətirməyin, başını gətirin, – dedi.

Sabah yenə onlar qabaqkı kimi geyindilər, düşdülər yola. Bu da çolaq yabını minib düşdü yola. Hamı dedi, vəzirin, vəkilin oğlu vıracaqdı, bu da başın gətirəcək. Dedilər, həmən yerdə ov vardı. Getdilər gördülər, Əhməd də bir çadır qurub. Ağ at, ağ paltar geyinib, şahyana əyləşib. Bunlar gəlib dedilər:

– Ağa, büyün də ovun başın istəyirik.

Əhməd əmr eylədi. Tez ovun birinin başın kəsdilər:

– Tuv başına, dadı leşinə.

Genə damğanı basdı bunlara. Bunlar bunu görürüb getdilər. Bu da durdu yığdı, yığışdırdı, gəldi həmən yerdə atı dəyişdi. Çolaq yabını daldan cilovladı, cəmdəyi də götürüb gəldi, verdi xanıma:

– Cəmdəyin qara yerindən doğra, qızart.

Bunlar başı pişirdilər. Hər kəs yedi, yeyə bilmədi. Ceyranın ətindən bi boşqab gətirdi. Qız atasına dedi:

– Keçəl gətiribdi.

Şah dedi:

– Gətir görək, qızım, dünənki olsaydı, yaxçıydı. Onlarınkı yeməli deyildi.

Qız dedi:

– Dədə, bundan bir boşqab ye.

– Qızım, sən Allah, bunun cəmdəyin gətiribsiz, bir boşqab da gətir. Sənin ətin diritdi.

Yedi, sovuşdu, şah toxdadı. Bir zaman keçəndən sonra Urum padşahı gəlib bunlara yürüş eyliyə. Urum padşahı dedi:

– Ya yeddi ilin bac-xəracın verin, ya da vırışmağa hazırlaşın.

Bunlar vırışmağa boyun qoydular. Səhər vəzirin, vəkilin oğlu başlayıblar, getdilər. Bu da çolaq yabını quyruğundan cilovladı. Bunların dalıynan düşdü yola. Hamı dedi:

– Hə, vəzirin, vəkilin oğlu qıracaxdı, bu da ölülərin paltarın gətirəcəkdi.

Keçəl çöndü bir dərəyə. Soyundu, zümrüd quşuynan aslanın tüklərini tutdu oda, hazır oldular.

– Nə istəyirsən? – dedilər.

– Ağ at, ağ paltar, qılınc, bir də mənə yardım edəcəksiz, – dedi.

Zümrüd quşu bir çiynində, aslan da böyründə, düşdü qoşunun canına. Aslan başlarını qopardır, zümrüd quşu gözlərin oyur, Məlih Əhməd də qılıncını çəkir güllə kimi, ağ at da dalda dalını gəmirir, qabaqda qabağını. Padşah baxırdı, gördü sən ölmiyəsən, bir nəfər bunun qoşunundan o biri qoşunu hanki tərəfindən girir, o tərəfindən qıra-qıra çıxır başa. Qırır tökür yerə. Qaçan qaçır, qalan qalır.

Gecə oldu, vırışma dayandı. Səhər yenə vırışma başladı. Məlih Əhməd bu dəfə qara atı, qara paltar geydi, aslan bir tərəfində, zümrüd quşu çiynində, qıra-qıra gedir başa. O qədər qırdı, bunun sağ əli yaralandı. Şah çiynindən ipək dəsmalı çıxartdı, bunun əlinə bağladı.

Genə gecə oldu. Hərə qayıtdı getdi bir tərəfə. Məlih Əhməd atı zadı ötürdü, çolaq yabını mindi, bir az da ölü paltarından, başmağından yığdı qucağına gəldi. Urum ləşkəri şikəst yedi. Qırılan qırıldı, batan batdı. Əlnən sürüldü, başın götürüb qaçdı. Onlar çıxdı getdi, bunlar da gəldi. Padşah xəbər verdi:

– Sabah torpağımda nəmənə var, hamı mənə qonaxdı.

Böyük bir yerdə süfrəni saldılar.

– Naharı çəkin hamının qabağına. Mən deməyincən heç kim başlamıyacax. Hamı da sağ əlinən çörək yeyəcək. Hamı oturcax, tək qalacağam ayaq üstə.

Kölədən vəzirəcən, hamı oturub yerə. Tək şahın özündən sonra. Hamı sağ əlinən yeyir. Gəldi gördü keçəl sol əlli yeyir. Soruşdu:

– Bə niyə belə?

Əhməd dedi:

– Qurban, əlim yaradı.

– Çıxart baxım.

– Qurban, rahatsız olarsız.

– Yox, çıxardasan gərək.

Çıxardanda gördü, ipək dəsmalı bunun əlindədi. Bir də getdi baxdı, dolandı, gəldi. Gördü, düzdü, bunun əlindədir. Şah soruşdu:

– Oğul, sən bu ipək dəsmalı hardan aldın?

– Qurban, vırışmadan qayıdanda əlim yaralanmışdı, siz bağladız.

Şah dedi:

– O qara atlı sənsən, deməli.

Əhməd:

– Hən.

Şah:

– Bə o ağ atlı kimdi?

Əhməd:

– O da mənimdi.

Şah:

– O atların hardadı?

Əhməd:

– Sənin o atlarnan işiz olmasın.

Şah:

– Aslan yanında, o quş çiynində dolanırdı. Onlar hardadı?

Əhməd:

– Sənin onlarnan nə işin var? Mənim əlim yaralanıb, sən də əlimi bağlamısan.

Şah əl elədi, o köhnə qarını Əhmədin başından çıxartdı. Gördü bunun başının bir tərəfi qızıldı, bi tərəfi gümüşdü. Bunun başı nə gözəldi, özü də gözəl. Soruşdu:

– Oğul, bə sən niyə bu cür?

Əhməd:

– Qurban sağ olsun, mən də bir şahın oğluyam. Behişt almasından əmələ gəlmişəm.

Şah yapışdı bunun əlindən:

– Gəl, yuxarı başa.

Əhməd:

– Qurban sağ olsun, mənim iki qulum var. Qullarını da çağır, mən tanıyım.

O zaman vəzirinən vəkilin oğlanların çağırıb:

– Bunların boynuna baxın.

Baxanda gördülər ikisinin də damğası var. Bu təzədən yeddi gün, yeddi gecə toy tutdu. Sonra Məlih Əhməd qızı da götürdü, bir qədər də qəflə-qətir qızıl götürdü. O dərviş ki bunu salmışdı quyuya, tac-taxtına sahib oldu. O, quru kəlləni bir ipək dəsmala bükdü, qoydu taxçaya. Ondan sonra hər nə iş görsəydi, o kəlləynən məsləhət eyləyirdi. Yedi yerə keçdi. Göydən üç alma düşdü. Biri mənim, biri nağıl deyənin, biri də eşidənlərin.

## MİRVARİ

Biri var idi, biri yoxudu. Günlərin bir günündə bir kişi var idi, bir də arvadı. Qoca bir kişi idi. Bu gedərdi, odun yığıb gətirib satardı. Onlan dolanardı.

Bir gün odun yığanda gördü bir gülün dibində bir yumurta var. Yumurtanı götürüb odunu da aparıb satdı, gəldi evinə. Yumurtanı qoydu taxçıya, dedi:

– Arvad, taxçıya bir yumurta qoymuşam. Get gətir, pişirax, yeyax.

Xanım yumurtanı götürəndə:

– Nənə, acıbsız? – dedi. Məni yeyəcəksiz?

Arvad huyuxub salavat çevirib qayıtdı. Bir azdan:

– Arvad, bə demədin o yumurtanı çal, mən yeyim? – kişi dedi.

Arvad dedi:

– İndi gətirərəm.

Öz-özünə düşündü:

– Bəyax yuxu görürdüm.

Durdu getdi bir seridə əl atdı yumurtaya.

– Maman, sənə bəyax dedim acıbsız, məni yeyəcəksiz?

Arvad qayıtdı gəldi. Kişi bir də deyəndə arvad:

– Mənim işim var, özün götür gətir, pişirək, – dedi.

Kişi istədi əlin atsın yumurtanı götürsün, – dədə dedi. Gördü yumurtadan dil açıldı:

– Hən, – dedi, iki seri nənəm gəlib məni apara, indi də sən. Məndən sonra ayrı bir şey yeyə bilmirsiz? – dedi.

Bu dedi:

– Əstəğfirullah.

Yumurta cildindən çıxdı, gözəl oğlan oldu.

– Bir oğlanam, sənin qismətinə çıxmışam. Mən sizə oğul oldum, adım da Mirvaridi.

– Axı, oğul, mən nə bilim sən oğlansan. Dedim bə yumurtasan, aparırdım pişirim.

Bu ki yumurtadan çıxdı, görür gözəl bir oğlandı. Üç-dörd gün qalandan sonra dedi:

– Dədə, mənim üçün padşahın qızına gedərsən elçiliyə?

– Oğul, qız qurtarıb? Dünya doludur bütün gözəl qızlarıynan. Niyə biz gedək sənə şahın qızın alax?

– Mən şahın qızını sevirəm, – dedi. Onu mənə gərək alasan, – dedi.

Xanımısa dedi:

– Kişi, göylünə gələr, get de. Bəyə verdilər.

Qədimdə elçi daşı olardı. Hər kimin qızına elçi getsəydilər, gedərdilər, o elçi daşının üstündə otururdılar. Bilərdilər ki, bu adam elçiliyə gəlib.

Bu getdi oturdu elçi daşının üstündə. Gəldilər:

– Qurban sağ olsun, o odun satan kişi oturub elçi daşının üstündə.

Şah dedi:

– Aparın ona bir ovuc puldan, qızıldan verin, aparsın xəşləsin. Bəlkə pulu yoxdur, gəlibdir.

Apardılar buna pul versinlər, dedi:

– Mən puldan ötrü gəlməmişəm, – dedi.

Dedilər:

– Nəmənədən ötrü gəlmisən?

Dedi:

– Bu daş nəmənədən ötrüdür?

Dedilər:

– Bu daş elçilixdən ötrüdür.

Dedi:

– Mən də elçiliyə gəlmişəm.

Dedilər:

– Kişi, dur qoy getginən. Allaha bax, imana bax.

Dedi:

– Xeyir, olmaz. Şah da adamdı, mən də.

Şah dedi:

– Göylün sindirmənin, onu götürün gətirin bura.

Sah soruşdu:

– Odunçu qardaş, səndən bir qalaça istəyirəm, bir yönü qızıl, bir yönü gümüş. Onu hazırlasan, qızımı sənə verərəm. Ondan sonra bir şərtim var ha hələ.

Kişi dedi:

– Eybi yoxdur.

Kişi sevinə-sevinə getdi.

– Yaxçı oldu, – dedi. Bunun şərtini yerinə yetirəmmərik, qurtular gedər.

Getdi dedi:

– Oğul, bular deyirlər ki, iki qalaça tikdirsən, özü də dərbarın qabağında. Onun da bir kərpiçi qızıldan, biri gümüşdən olsun. Səhərə kimi çıraqları yansın.

Oğlan dedi:

– Baba, bir şey deyil. Məni ha daşın altından tapıbsan, nacağı götürüb gedəcəksən ora. Gedib o daşın üstünə birin vuracaqsan (yadında olsun, birin vır ha, ikisini yox). Denən ki, Ağuz deyir (Mirvarinin bir adı da Ağuz idi) şahın dərbarının qabağında iki qalaça tikilsin. Bir kərpiçi qızıldan, biri də gümüşdən. Nacağı da qoy üstünə, çıx qoy gəl.

Kişi getdi, o daşın üstünə bir nacax vurdu, dedi:

– Ağuz deyir ki, şahın dərbarının qabağında iki qalaça tikilsin, bir kərpiçi qızıldan, biri gümüşdən, – deyib gəldi.

Şah tezdən ayıldı:

– Vəzir, evin yıxılsın, yuxuya qalmışıq, gün çıxıb namazımız qalıb, qəzaya gedib.

– Qurban sağ olsun, səhər işıqlanmayıb, hələ o sənin kürəkənivin saxtumanının işığıdır, – dedi.

Saxatmanlar tikilib, hazırdır. Durdular, gördülər nə cür demişdi, o cürdü. Ağuzun odunçu dədəsi gördü düzdür, tikilibdi. Odunçu yenə odunu gətirib satdı. Getdi oturdu elçi daşının üstündə. Şaha dedi:

– Qurban sağ olsun, saxatmanlar tiklib, dahi nə deyirsən?

Şah dedi:

– Səndən sabah yeddi qatar dəvə istəyirəm. Dəvələrin də üstündə hərəsinin iki məjməyi qızıl, qızılların da üstündə bir xoruz banlıya-banlıya dərbara varid olsun.

Kişi gəldi dedi:

– Oğul, şah belə deyir.

Oğlan dedi:

– Gedirsən o daşa bir nacaq vurarsan, bu sözləri də deyib qoyub gələrsən.

Kişi getdi həmən daşa sözləri dedi. Sonra dəyəl-dəyəl verdi. Bu deyir ikisin vurma, qoy vurum görüm nə olur.

Naçağın birin də vuranda naçaq qayıtdı dəydi kişinin kəlləsindən, başı yarıldı, gəldi evə. Oğlan dedi:

– Mən sənə demədim ikisin vurma?

Səhər açıldı. Padşah gördü bəh-bəh, yeddi qatar dəvə. Dəvələrin üstündə ki məjməyi qızıl. Qızılların da üstündə qırmızı xoruz banlaya-banlaya gəlir. Dedi:

– Vəzir, tədbir tök.

Vəzir dedi:

– Qurban, bundan dövlətli kimə verəcəksən?

Şah dedi:

– Ver elə buna.

Qızı verdilər buna. Ağuz dedi:

– Gedərsən həmən daşa bir nacax vurarsan, deyərsən ki, şahın dərbarının qənşərində mənə bir saxatman, bir kərpiçi qızıldan, bir kərpiçi də gümüşdən tikilsin. Dünyada birinci olsun.

Padşah səhər yuxudan ayılıb gördü, sən ölmiyəsən, xırman yerində bir saxatman salınıb dünyada tayı yoxdur. Qızı verdilər buna. Bunların toyu oldu.

Bunlar bir-birinə yetişsinlər, Ağuz dedi:

– Sirrimi heç kimə deməyəcəksən. Yoxsa sən məni görə bilməyəcəksən. Mənim cildimi yandırıb eləmə. Onda gərək dəmir çarıq geyəsən, dəmir börk qoyasan. Əlinə iki əsa alasan, biri yaş, biri quru. Yaş quruyanda quru da göyərib yaşlananda, dəmir çarıx yırtılanda, dəmir börkün qurtulanda mənə çatarsan, sənə deyərəm.

Bunun bir xalası var idi, bir xalaqızısı var idi. Bunu ki, Ağuz almadı, çox əlləşirdi. Gəlirdi qızın qulağına söz zad deyirdi. Bir gün qızı öyrətdi:

– Ağuza denən, neyləyim sən uçasan göyə, mən baxam.

Bu çox dedi, mənlə işin olmasın. Qəbul eləmədi. Qız əl çəhmədi, məcbur elədi bu duydu. Yenə ürəyində dözmədi.

– Əgər bir batman yumurtanın qabığın, bir batman da soğanın qabığın yandırsan, məni 6 il görə bilməzsən.

Bu getdi bir batman yumurta qabığı aldı, bir batman da soğan qabığı aldı gətirdi. Odu vırdı, bu yandı. Yanandan sonra Mirvari də bir göyərçin oldu, uçdu getdi. Şahın qızı bi yol başına döyür. Düşdü bi yol bunun dalısınca. Bir quru ağac bir əlinə, bir yaş ağac o birisi əlinə aldı. Dəmir çarıq geydi, dəmir börk qoydu başına, düşdü yola. Az getdi, çox getdi, ancaq altı il dolandı. Yeddinci ilə keçəndə getdi oturdu bir bulağın başında. Burda əl-üzün yudu, su içdi, çörək yedi. Belə baxanda gördü çarıq yırtılıbdı. Əlin başına vurdu, gördü börk də qurtulubdu. Quru ağac göyərib, yaş ağac quruyub.

– Mirvarini tapacıyam, – dedi.

Elə bə hayil, qayil də gördü bir gözəl qız suya gəlir.

– Xanım, çəkil dala, Mirvari tələsir, işi vardı.
– Suyu doldurum gedim, – dedi.
– Mirvari hardadı, bizə də de.
– Mirvarinin xalası qızıyam, – dedi.
Suyu doldurdu. Bunun xalası qızı bunu tanımadı.
– Mən də gedə bilərəm buyün sizə? – dedi.
– Nə olcaqdı, gəl gedək.
Bunlar durdu, ikisi də getdilər.
Mirvari də burdadı. – Gəldin dedi.
– Mən sənə dedim ha sirrimi açma. Korrux çəkəcəksən, dəmir çarıq yırtılıbdı, dəmir börkün qurtulubdu. Yaş ağac quruyub, quru ağac göyərib. Bura gəlib çıxıncan dədən yanıb, mənim sirrimi bir daha demə.
– Bilmədim, – dedi. Məni də öyrətdilər.
Bu cür olanda xalası eşidib bir sehr oxudu. Bunu uçurtdu göyə. Mirvarini elədi bir qara qarğa, qızı da elədi bir qarqavul qaçır, bu qaçır. Qız istədi Mirvariyə yetişsin, Mirvarini elədi bulaq. Özünü də elədi qum. Dedi:
– Allah, görəsən sudan içim Mirvaridi, yoxsa qumdan yeyim Mirvaridi.
Bunların heç birisini eləyə bilmədi. Getdi tapdadı. Bunun xalası Mirvarini götürdü qaçdı. Bu da bunun dalısınca getdi bir yerdə, Mirvarini elədi xiyarça. Özün də elədi qarpızın tağı. Dedi:
– Allah, görəsən, tağdan yeyim Mirvaridi, yoxsa xiyarçadan yeyim Mirvaridi.
Xiyarçadan dıqqax ucundan dişlədi. Mirvarinin culu barmağının birini yedi. Qayıtdılar getdilər, Mirvarinin xalasıgilə. Oturmuşdular. Xalası qıza dedi:
– Gedəcəksən, mənə filan yerdən tar gətirəcəhsən. O yolladığı yer də xalanın bacısıdı.
Ona da öyrətmişdi ki, hər zaman bu qızı yolladım saza.
– Bunu orda sehr-cadu eyləyib işlədəcəksən.
Qız istədi yavaş çıxsın, Mirvari dedi:

– Hara gedirsən?

– Xalan deyir, filan yerdən saz gətir mənə.

Dedi:

– Gedirsən, birinci örtülü fərşləri aç, açıq fərşləri ört. Örtülü qapıları aç, açıq qapıları ört. İtin qabağına sümük tök, atın da qabağına arpanı. Elə ki keçdin, bir qapıdı, açılacaxdı. Ordan sazı götür, qoy gəl işin yoxdur.

Qız getdi örtülü fərşləri açdı, açıq fərşləri örtdü. Örtülü qapıları açdı, açıq qapıları örtdü. İtin qabağına sümük tökdü, atın qabağına arpanı. Keçdi bir yol sazı götürüb qaçdı. Daldan bu xanım dedi:

– At, tutgunan!

– Niyə tutum, sən mənim qabağıma sümük qoymuşdun, o, arpa qoydu.

– İt, tutgunan!

– Niyə tutum, – dedi, sən mənim qabağıma arpa qoymuşdun, o sümük qoydu.

– Ay fərş, tut.

– Niyə tutum, sən məni neçə ildi bağlamışdın, o açdı.

– Ay qapı, tut.

– Niyə tutum, sən neçə ildi məni örtülü qoyubsan, o açıb, hava gəlir.

Qız gətirib verdi xalasına.

– Bunlar hamısı Mirvarinin felidi, – dedi. Səhər gedərsən, mənə iki çuval qarğa tükü gətirərsən, – dedi.

– Ay Allah, mən qarğanın tükünü hardan alım, hardan gətirim?

Genə getdi Mirvarinin üstünə.

Dedi:

– Mirvari, xalan məndən iki çuval qarğa tükü istəyir, neynəyim?

Dedi:

– Neyniyəcəksən, yerin deyim, get gətir də.

– Gedəcəksən, Ağrı dağının ətəyində oturacaxsan, çəpik çalıb oynuyacaxsan, qarğalar töküləcək başına. Deyəcəksən, – gəlin, Mirvarinin toyudur. Elə ki qarğalar yığışdı başına, qır-qır vuranda birdən çarğatını qoyacaxsan yerə, başını yolacaxsan. Soruşanda diyəcəksən, Mirvari öldü. Onda onlar daraşıb bütün tüklərini yolacaxlar. Onda iki çuval doldur, götür gəl.

Bu gedib dağın ətəyində qaqqa çalıb gülür.

– Gəlin, Mirvarinin toyudur.

Nəmənə qarğa var idi, töküldü gəldi. Oynuyan kim, oxuyan kim. Birdən bu örpəyin saldı yerə, başını yoldu. Soruşdular:

– Bə niyə belə eləyirsən, xanım?

– Mirvari öldü, – dedi.

Qarqalar qarıldayıb başladı çırpınmağa. Canlarında tük qoymadılar qala. Durdu, iki çuval doldurdu gəldi. Gətirdi verdi xalasına.

– Götür get, neynirəm qarqanın tükün. Bunlar hamısı Mirvarinin işidi.

Qız dedi:

– Tufağın dağılsın, məni niyə incidirsən?

– Mirvari mənim qızıma deyikli idi, sən Mirvarini mənim əlimdən aldın.

– Mən almadım, Mirvari dədəsin yolladı elçiliyə. Ondan sonra mənlə evləndi. İstəyirsən, yenə mən gedim.

Mirvari dedi:

– Xala, nə iş dedin, hamısını gördü. O, mənim xanımımdı, niyə getsin.

Mirvari qızı xalasının yanından götürüb gəldi evlərinə. Gəldi, şəhərin qırağında bir qalaça tihdirdi. Oldu şaha vəzir. Getdi o qoca dədəsini, qoca nənəsini də gətirdi. Gözəl məxmərə büküb saxladı. Onu daha qoymadı oduna getsin.

– Mənim dədəm sənsən, məni bura yetirən sənsən. Mənim elçiliyimə getdin, toyumu elədin.

Bi yol başladılar yemağa. Yedi, yerə keçdi, göydən üç alma düşdü. Biri mənim, biri sənin, biri də eşidənlərin.

# OVÇU PİRİM

Ovçu Pirim qədim zamanda adlı-sanlı biriydi. Ovun, quşun, ins və cinin, tamam heyvanların dilini bilirdi. Xanımı bir gün dedi:

– Buyün gedək ağamgilə.

Ağasınan bular həmkövşən idilər. Bunlar durdular iki at mindilər. Ovçu Pirimin xanımısa boyluydu. Mindiyi at da buğaz idi. İki uşaq da arvadın yanında var idi. Bunların hamısı minmişdi bu buğaz ata. Ovçu Pirim də minmişdi o biri ata, gedirdilər.

Bu at ki xanım minmişdi, altında da bir balaca balası var idi, dalısıncan gəlirdi. Heyvanlar bir-birinin dilin bilirdi. Atın balası nənəsinə dedi:

– Nənə, sən gedirsən evincən, mən yoruldum axı. Məni də gözlə!

Nənəsi dedi:

– Bax, Ovçu Pirimin arvadı, qarnında uşaq, ikisi də arvadın tərkindədi. Biri də qarnımdadı. Mən beş nəfəri yeridirəm, sən tək özünü yeridəmmirsən.

Bu cür deyəndə Ovçu Pirim gülümsədi. Güləndə xanım soruşdu:

– Öz-özünə nəmənəyə gülürsən, mən gülməliyəm?

Ovçu Pirim sirrin xanıma açdı. Qərarda belə idi, sirrin heç kimə açmasın. Ancaq deyəndən sonra getdilər. Yolda bir dəstə qoyun yatmışdı. Qoyun qoçdaydı. Bir qoç var idi, qoyunu sürürdü. Qoyun arxadan hoppuldu o taya. Qoçu səslədi:

– Tez gəl, mən atdadım.

– Atladın?

– Niyə gəlirəm, – dedi.

– Niyə gəlmirsən?

– Ovçu Pirimə baxma, arvadın sözünə baxdı, sirrin açdı arvadına. Sən olmazsan, o birisi olar. Qaç get hoppulmağının dalısınca.

– Heş vaxt sənin dalıncan bu suyu atlamaram.

Ovçu Pirim gördü, ay baba, yaman uduzub.

– Niyə sirrimi xanıma açdım. Qərar idi, sirrimi heç kimə açmayam.

Yaman peşmanladı. Ancaq Ovçu Pirim bu səfərdən qayıtdı. Yavaş-yavaş dalıladılar.

Bir gün axşam çağıdı, gördülər itləri uluyur. Bunlar bir-birinə deyirlər:

– Niyə uluyursan?

– Sabah Ovçu Pirimin qoyunlarından öləcəhdi, ətin yeyəcəyik.

Ovçu Pirim gecənin apardı qoyunlarını bütün satdı. Səhər gördü yenə itlər hürür. Bir-birindən soruşdu:

– Niyə hu çəkirsən?

– Sabah Ovçu Pirimin dəvələri öləcəhdi, daraşıb yeyəcəyik, – dedi.

Ovçu Pirim dəvələri də gecənin aparıb satdı. Dəvəni, atı, nəmənəsi var idi, aparıb satdı. İtlər uladıqcan bu da aparıb satdı. Qoymadı itlər bunun heyvanlarının ətini yesinlər. Hər zadı qurtardı, heç zadı qalmadı. Gördü itlər yenə uluyurlar. Biri-birinə deyir:

– Heç zad qalmadı, nəyə uluyursan?

– Sabah Ovçu Pirim özü öləcəhdi. Bunun qohumları, arvadı qoyundan, heyvandan kəsəcəhdi, biz də sür-sümüyün yeyəcəyik.

Ovçu Pirim dedi:

– Sən öləsən. Gör ölməmişdim.

Gətirdi dəmirdən bir qalaça qayırdı. Nə qapısı, nə bacası, nə pəncərəsi. Yumurta kimi hər tərəfdən ağzın tutdurdu. İçəriyə bir cin çırağı qoydu (piltədən olardı, arasında piltə olardı. Ağzından neftdən, yağdan töküb yandırırdılar. O, cadu çırağı kimi olardı) Bunu qoydu yanına. Çırağ yandı-yandı, Ovçu Pirim də baxırdı, gördü bu çırağdan bir qara düşdü yerə. Bu oldu qarışqa. Qarışqadan sonra oldu pispisdə, sonra oldu siçan, sonra dovşan, sonra tülkü, sonra it, sonra öz-özünə oldu

ayı. Ayı olanda bu Ovçu Pirimə daraşdı yedi. Səhər gəldilər görələr Ovçu Pirim necədi. Gördülər bir ayı var, yerində Ovçu Pirimi yeyibdi. Bunlar başladılar qoyundan, dəvədən kəsib xərac verdilər. Bu itlər də daraşdı, bunun sümüyündən, tör-töküntüsündən yedilər. Daha ulamadılar.

## TORÇU SƏYYAD

Torçu Səyyad bir kişi idi, nənəsinən yaşardı. Gedərdi, tülküdən, ovdan, qurd-quşdan vırıb gətirərdi, dərisindən-durusundan satardı. O zaman Misir şəhərində nənə-bala keçinərdilər.

Bir gün dolanırdı, gördü sən ölmiyəsən, bir yerdə bir yumurta var. Çox gözəl yumurtadı. Heç yumurtaya oxşamır. Götürdü gətirdi evə. Nənəsi bunu gətirdi, bazarda bir tacirə satdı. Vəzir bazarda dolanırdı, bu yumurtanı gördü. Gördü əcaib bir yumurtadı. O birisi yumurtalara bənzəmir. Taciri apardılar şahın yanına. Şah soruşdu:

– Bu yumurta nəmənədi?

Dedi:

– Qurban sağ olsun, bu qızıl quşun yumurtasıdı.

– Bunu kimdən alıbsan?

– Torçu Səyyaddan.

Gəldilər ovçunu apardılar. Soruşdular:

– Bu yumurtanı hardan tapmısan? Gərək quşun da tapıb gətirəsən.

Səyyad dedi:

– Olmaz axı, hardan tapım. İncidirsiz məni. Bu yumurta mənim şansıma çıxmışdı! Mən nə bilim bunun quşun tuta biləcəyəm.

Şah dedi:

– Gedib quşun tapıb gətirməsən, meydanda boynunu vurduracağam.

Səyyada bir qədər pul verdilər. Səyyad da çıxdı, gələ evlərinə.

Şahın da bir çuğul vəziri var idi. Torçu Səyyad dedi:

– Ondan bir az da ver, biz xəşləyək.

Səyyad dedi:

– On şahı da verməram gözünə qoyasan.

Vəzir dedi:

– Sənə bir aş pişirim, üstündə bir qarış bağ dursun.

Səyyad:

– Get, əlindən gələni əsirgəmə.

Torçu Səyyad getdi. Günlərnən, aylarnan əlləşdi, əlləşdi, ancaq bir gün bu quş gəldi toruna düşdü. Sevincək quşu tutub şahın qulluğuna apardı. Şah da buna çoxlu ənam verdi. Yenə bu qapıdan çıxanda bu çuğul vəzir gəldi bunun qabağına dedi:

– Torçu Səyyad, ondan beş-üç qıran da ver, mən xəşləyim.

Səyyad dedi:

– On şayi də verməram, gözünə qoyasan.

Vəzir:

– Olsun, sən get, sənə bir turp əkim başın yekəlixdə.

Torçu Səyyad gedəndən sonra vəzir gəldi:

– Qurban sağ olsun, qızıl quşun yumurtası. O da qızıl quş. Kaş gedəydi, sənə cin padşahının qızını da gətirəydi. Torçu Səyyad eyliyə bilər.

Şah:

– Vəzir, belə bir iş olarmı?

Vəzir:

– Niyə olmasın, qızıl quş tutan cin padşahının qızını da gətirə bilər.

Torçu Səyyadı çağırdılar dərbara. Torçu Səyyad dedi:

– Vay, dədə, yenə görəsən nə oldu?

Şah dedi:

– Gedəcəksən, cin padşahının qızın mənə gətirəcəksən.

Səyyad dedi:

– Mən torçuyam.

Şah dedi:

– Olmaz, gərək gətirəsən.

Bu bil yol getdi. Məlul-müşkül oturmuşdu, ağlaya-ağlaya nənəsinə qarqış eyləyirdi.

– Nənə, sən o yumurtanı aparıb satmasaydın, mənim başıma bu oyun gəlməzdi.

Nənəsi dedi:

– Olub, oğul, da neyləyim.

Bunun bir dayısı var idi. Çox bilən adam idi. Bacı oğlusun da çox sevirdi. Gördü, bacı oğlusuna çox iş açılıbdı. Neyniyax, necə eləmiyax?

– Oğul, düş yola get, – dedi.

Səyyad:

– Hara gedim, dayı.

Dayı:

– Gedərsən cinlər padşahının şəhərinə. Orda bir hovuz vardı. O hovuzun dibində gizlənərsən, hürü, pəri gələcək, orda suda yuyunsunlar. Olar suda yuyunanda, götür onlardan birinin paltarlarını gizlənginən. Hamısı paltarını geyinəcəhdi, o birisi qalacahdı lüt. Lüt qalanda səni and verəcəkdi, sən də onun paltarını ver. Denən, səndən cin padşahının qızını istəyirəm. Olardan sonra heç kim onu gedib gətirə bilməz. O hürülər, o pərilər bir-birindən köməhləşəllər, gedib o qızı sənə gətirələr.

Bu düşdü yola. Yazıx min bir mənzil, ti mənzil yol getməyində olsun, neçə gün ayınan, ilinən, burda müxtəsəri dilinən, yorğun-arğın gedib çıxdı cinlər şəhərinə. Dayısı ki, o yolnan demişdi, o yolnan getdi, orda gizləndi. Gördü, günortanın gijju istisində pərilər töküldülər suya, yuyunmağa. Bunlar suda yuyunurdu, bunlardan birinin paltarını götürüb gizləndi. Bunlar yuyundular, dedilər, güldülər, çıxdılar. Hamı geyindi, birinin paltarı olmadı. Hamıdan soruşdu:

– Paltarıma nə gəldi?

Bir az həndəvəri gəzdilər, tapammadılar. Bu qız dedi:

– İnsisən, cinsisən, adamsan, mənim paltarımı gətirginən gətirginən. Dünyada nəmənə desən, sənin sözünə baxaram.

Səyyd bunun paltarını gətirdi. Qız soruşdu:

– Sən mənim paltarımı niyə götürübsən?

Səyyad dedi:

– Mən cin padşahının qızını səndən istəyiəm.

Qız dedi:

– Qərib, bizi bərkə qoydu, Torçu Səyyad.

Səyyad dedi:

– Məndən istəyirlər, mən də səndən istəyirm.

Dedilər:

– Yaxçı.

Bunun paltarların verdi, geyindi. Bunlar hamısı yığışdılar gəldilər, köməkləşdilər, getsinlər qızı gətirsinlər. Bunlar getdilər, həftənin ayınan, ilinən dolandılar, ancaq bir gün qızı yuxudan götürüb gətirdilər. Torçu Səyyadın xidmətində qoydular.

– Götür, getginən, – dedilər.

Dayısı öyrətmişdi, onlar qızı sənə verdilər, gətirə bilməzsən ha, onlara deyəcəksən, öz torpağımızacan qızı da, məni də siz aparasız dənə.

Bunlar mindirdilər qanadlarına, götürdülər getdilər. Torçu Səyyadın torpağında ordakı tor atardı, quş tutardı, qoydular yerə.

Dedilər:

– Torçu Səyyad, get, bir də bizim dalımızcan gəlmə!

Torçu Səyyad bu qızı gətirdi verdi padşaha.

– Qurban sağ olsun, – dedi. Cinlər padşahının qızı.

Padşah dedi:

– Mənə hər kəs istəyir Torçu Səyyad ənam versin.

Torçu Səyyada o qədər pul verdilər ki, çuvalıynan yığa bilmirdi. Qapıdan çıxanda yenə də bu çuğul vəzir qabağını kəsdi dedi:

– Torçu Səyyad, ondan bir-iki qıran da mənə ver xəşləyim.

Səyyad dedi:

– Sən öləsən, on şayi də verməərəm gözünə qoyasan.

Vəzir dedi:

– Get, sənə bir tor toxuyum, çıxa bilməyəsən.

Bu gəldi nənəsinin yanına. Elə istirahət eləyirdi, yeyirdi, içirdi, kefə baxırdı. Çuğul vəzir yenə gəldi şahın yanına dedi:

– Bəh, bəh, şah sağ olsun, o qızıl quşun, o da yumurtası, bu da cin padşahının qızı. Nəmənə qaldı? Dənizin qırağında sümük qalaçası, o da olsa nə olar? Bir qalaça tihdir, bir tərəfi fil sümüyü, bir tərəfi də aslan sümüyü, çox gözəl olar. Gecəsi çıraq kimi yanar.

Şah soruşdu:

– Çuğul, o kimin işidi?

Vəzir:

– Torçu Səyyadın, qurban.

Şah əmr elədi, yazıq Torçu Səyyadı gətirdilər. Səyyad öz-özünə dedi:

– Ay Allah, bu məndən niyə əl çəkmir?

Şah dedi:

– Torçu Səyyad, səndən bir qalaça istəyirəm, dənizin qırağında. Bir tərəfi fil sümüyü, bir tərəfi də aslan sümüyü.

Səyyad:

– Axı, onlar mənim işim deyil. Mən quş tutanam, quşdan sonra mənim əlimdən heç iş gəlməz. Sən mənə elə işlər deyirsən ki, bir qoşun bu işləri görə bilməz.

Şah:

– Mən bilmirəm, ya bunları hazır eləyəcəksən, ya da ölümə hazır ol!

Səyyad:

– Vay, dədə!

Torçu yenə gəldi, məlul-müşkül oturdu. Ağlayırdı.

– Dayı, başına dolanım, dayı, yenə işə düşdüm, – dedi.

Dayısı:

– Bacı oğlu, darıxma. Hər zad düzələr. Sən gedəcəksən, düz dənizin qırağında padşaha deyəcəksən, bir yekə hovuz qazsınlar. Elə ki oranı qazdılar, oranı dolduracaqsan bütün neftinən. Çün ora duzlu dənizdi. Heyvanlar ordan su içə bilmirlər.

Sən ki oranı hovuz elədin, heyvanlar gəlib ordan su içəndə qırılacaqlar. Ondan sonra götür, qalaça tik. Əsla, müşkülü yoxdur.

Səyyad:

– Dayı, sənin başına dolanım, bəlkə sən olmayaydın, bə mən neyniyəcağ idim.

Dayı:

– Mən sənin hər nə varınam da, – dedi.

Səyyad getdi şaha dedi:

– Düz dənizin qırağında bir hovuz qazdır.

Şah dəstur verdi, tamam işçiləri töhdü ora. Yekə hovuz elədilər. Buranı gətirdilər doldurdular neftinən. Fillər, aslanlar duz dənizindən su içə bilmirdilər. Töküldülər yazıqlar bu hövuzdan içdilər, qırıldılar. O qədər fildən, aslandan, pələhdən qırıldı ki, dünyanı sümük götürdü. Bu götürüb düzgün qalaça tihdirdi, əcaib saxatman elədilər. Şah qızı qoydu bura. Qızıl quşu bir tərəfdə, yumurta bir tərəfdə, cin padşahının qızı da bir tərəfdə. O qədər pul alıb şahdan, vəzirdən ki, gəl görəsən. Qapıdan çıxanda çuğul vəzir dedi:

– Torçu Səyyad, məni də gör!

Səyyad:

– Sənə elə çuğulluq qalacaq, – dedi.

Vəzir:

– Get, – dedi, sənə gör neynirəm. Bu səri elə bir söz taparam ki, heç vaxt eyliyə bilməzsən.

Çıxdı, qoydu getdi evində öz işinə başı qarışdı. Çuğul vəzir gəldi:

– Maşallah, maşallah, padşah, qərib gözəl yerdi, amma!

Şah:

– Vəzir, amması nəmənədi?

Vəzir:

– Kaş sənin dədən gəlib bu qalaçanı görəydi.

Şah:

– Çuğul vəzir, mənim dədəm, əlli ildi ölübdü. Hardan gəlib bura baxacaq idi. Elə söz deyirsən, olmayan kimi, – dedi.

Vəzir:

– O daha bə Torçu Səyyada desən, gedib sənin dədəni gətirər, gəlib buna baxar.

Torçu Səyyadı çağırdılar. Şah dedi:

– Torçu Səyyad, hər yandandı, gedib mənim dədəmi gətirəcəhsən, mənim bu təşkilatımı görsün.

Səyyad:

– Qurban sağ olsun, sənin dədən hardadı?

Şah:

– Mənim dədəm əlli ildi ölübdü.

Səyyad:

– Evin tikilsin, sənin dədən əlli ildi ölübdü, mən hardan gedim gətirim.

Şah:

– Mən bilmərəm, get hardan gətirirsən gətir.

Yenə də Torçu Səyyad məlul-müşkül ağlaya-ağlaya gəldi. Getdi dayısının başına. Oturdu, ağladı. Dayısı dedi:

– Qorxmaginən, bu səri gün səninkidi. Onların günü bitdi. Verəcəhsən qəlaçədən qəbristanlığa, kimin yerin altın götürəcəhlər, tunel vıracaxlar, için dolduracaxlar pambığınan, gətirəcəksən odunu da yığacaxsan böyrünə. Gedib deyəcəhsən, padşah sağ olsun, dədən dedi, gəlsin mənim qulluğuma. Nəmənə vəzir zad var, doldur tunelin içinə. Bu başdan od vuracaxsan, o başdan çıxsın. Hamısı qalacaxdı sənin özünə. Daha bu səri qorxmaginən, Allahın veribdi.

Səyyad gəldi, dayısı deyənləri padşaha dedi. Şah işçi verdi, apardı yerin altın qazdırdı. Altın, üstün, böyrün pambığıynan suvatdırdı. Bir tunel eləyiblər, nə gözəlliyə. Getdi buranı odunla doldurdu. Gəldi padşahın qulluğuna. Şah soruşdu:

– Torçu Səyyad, mənim dədəm hanı?

Səyyad:

– Dədəni qəbristanlıxda çıxartmışam, gəlibdi, dedi, gərək oğlum gələ mənim qulluğuma.

Şah nə qədər dərbarında vəzir, vəkil. Böyük baş var idi, topladı başına. Dedi:

– Gərək hamı dədəmin qulluğuna gedə.

Çuğul vəzir lap qabaxda gedir. Şahın dalıncan hamını doldurdu bura. Bu başdan od vurdu, hamısının cızqalası çıxdı. Torpağı da basdı üstünə, qalanı da orada öldürdü. Gəldi bi yol cin padşahının qızına dedi:

– Zəhmətini mən çəhmişəm, el mənim olacaxsan.

Qız dedi:

– Mən elə bilirdim, sənə gəlmişəm.

Səyyad cin padşahının qızını aldı, özünə toy elədi. Özü də oldu şah. Dayısın elədi vəzir. Qızıl quş bir tərəfdən oxuyur, qızıl yumurta hər tərəfə işıq verir, qalaça da dünyaya cavab verir. Oturub bulağın başında yeyir, içir, gedir ovdan, heyvandan, qurd-quşdan ovlayır, kefə baxır. Yeddi yerə keşdi. Göydən üç alma düşdü. Biri mənim, biri nağıl deyənin, biri də eşidənlərin.

## CILFACAN ƏHMƏD

Qədim zamanlarda bir ağa var imiş, bir xanım. Bunların bir oğlanları varimiş Cılfacan Əhməd adında. Bu yaman tülküdən qorxardı. Tülküdən qorxan Cilfacan Əhməd deyirdilər. Bir gün arvad dedi:

– Kişi, sən qazanırsan, gətirirsən, bu uşaq yeyir.

– Neyləyim bə arvad, – dedi.

Arvad:

– Bir iş görək, bunu ötürək çölə.

Bi gün dedilər:

– Cılfacan Əhməd, səni qapıda çağırırlar.

Bu ayağın qapıdan eşiyə qoyanda çəkib qapını örtürlər. Bu nə qədər qışqırdı:

– Ay nənə, məni tülkü yedi! Ay dədə, məni tülkü yedi!

Qulaq asan olmadı.

– Tülkü adam yeməz, qaç get oynamağının dalısıcan, – dedilər.

Bu hay saldı, qışqırdı, bağırdı, qulaq verən olmadı. Axırda dedi:

– Nənə, mən gedirəm. Çomağımı ver. Bi dənə çatı ver, bi dənə də yumurta. Bi büküm də çörək ver.

Bunun çomağın verdilər, çatısını verdilər, yumurtaynan bi büküm çörək də verdilər. Bu durdu düzləndi yola. Az getdi, çox getdi, gedib bir yurd yerinə yetişdi. Yurd yerində gördü bi dənə cəhrə qalıbdı. Cəhrəyə bir çomaq vurdu, cəhrə tikə-tikə oldu. Götürdü çomağının başına yazdı: "Fələyin çarxın üzüqoylu çevirən Cılfacan Əhməd". Düşdü yola, çox gedəndən sonra yoruldu, bulağın başında oturdu bi tikə çörək yesin. Çomağı belə vurdu, vuranda yeddi milçək öldürdü. Götürdü yazdı çomağının başına: "Bi yumruğa yeddi dev öldürən Cılfacan Əhməd". Durdu bi yol az getdi, çox getdi, gördü bi yerdə bi qapı açıqdı. Keçdi içəri, gördü bəh, bəh, burda dörd dev var, nə yekəlihdə. Bunlar yetişən, həmən gözləri sataşdı bunun çomaqqasına. Yazıxlar şalvarı islatdılar, bi yol dedilər:

– Qurban, sən də gəl qal biznən.

Bu bunlarnan yoldaş oldu. Yeyirlər, içirlər, bunlar gedirdilər sudan-zaddan gətirirdilər, gündə biri. Bir gün bu Cılfacan Əhmədə dedilər:

– Bala, buyün su gətirmək sənin növbəndi.

Bunların bi tuluxları var idi. Çəki daşınan 20 batmandı. Bunu dev götürə bilirdi. Tuluğu verdilər Cılfacan Əhmədin çiyninə. Tuluğun yarısı yerinən sürünür. Bu yazıx sürüyə-sürüyə apardı, suyun başına. Öz-özünə düşündü:

– Mən bunu götürə bilmirəm.

Oturdu tuluğu pilədi-pilədi, tuluq dağdan yekə oldu. Fəqət dörd kasa su töhdü. Axı tuluğu piləyəndə bir az da yüngülləşir. Bunlar biri-birinsən soruşdular:

– Cılfacan Əhməd gəlmir.

Durdular gördülər, eviz tikilsin, Əhməd gəlir, dəryanın suyun doldurub tuluğa, nə yekəlihdə gətirir, dağ kimi. Dedilər:

– Day, işimiz çıxdı.

Bu gətirdi gördü, tulux qapıdan keçən deyil.

Əhməd:

– Siz məni bir aydı susuzdan öldürübsüz, – dedi.

Ağa, bu tuluğun ağzın alıb ağzına qurthaqurt, qurthaqurt tuluğun yelin alandan sonra dörd kasa suyu qalmışdı. Bunların hərəsinə bi kasa su verdi.

Dedilər:

– Sən öləsən, bu bizim dədəmizi yandıracaq.

Bunlar yığışdılar bir yerə, dedilər:

– Gəlin görək, kimin biti yekədi.

Hərəsi bir bit tapdılar, noxud yekəlihdə. Cılfacan Əhməd də yurd yerində bir qara buynuzlu pispislə aralığa düşəndə, bunların gözü bərəldi:

– Bunun biti nə yekəlihdədi!

Ondan sonra dedilər:

– Gəlin görək kimin qoltuğunun tükü uzundu?

Bunlar qoltuqlarının tükün çıxartdı, məsələn, bir qarıc. Bu da belinə bağladığı çatını açıb çəkdikcən, çatı uzandı.

– Vay, dədə! – dedilər.

Sonra dedilər:

– Yaxçı, gəlin görək, kim daşdan su çıxardar?

Bunlar hərəsi daş sıxır, iki damcı su çıxır, ya çıxmır. Cılfacan Əhməd yumurtanı əlində əzdi, gurultuynan əlin küpsədi daşa. Gördülər oğla Cılfacan Əhməd yumruğuynan daşdan su çıxartı.

Dedilər:

– Səs eləmiyin, eviz yıxılsın, bu olmadı.

Bunlar çıxdılar eşiyə, fikirləşib qayıdsınlar ki, nə iş görək. Bunların nəfəsi Cılfacan Əhmədi vırır o duvara, bu duvara.

Soruşdular:

– Cılfacan Əhməd, bə göydə nə qayırırsan?

Dedi:

– Bu dam mənim babamınkıdır. Burda bir odlu kösöv var. Onu çıxardıram, sizinən işim var.

Bunlar – gəlin qaçaq! – dedilər. Yolu qaçırdılar, qabaqlarına bir tülkü çıxdı:

– Hara qaçırsız? – tülkü dedi.

– Hara qaçacüyük. Cılfacan Əhməd başımıza bəla olub, – dedilər.

Tülkü:

– O tülküdən qorxar. Gij məmuvlar!

Dedilər:

– Yox, baba!?

Tülkü:

– İnanmırsız, məni aparın, bir baxın görün, nə cür olur.

Bunlar tülküynən qayıdırlar. Cılfacan Əhməd baxdı gördü, devlər tülküynən gəlirlər.

– Neyləyim, necə eyləyim? – dedi.

Devlərin böyükləri dedi:

– Gəlin, tülkünü bağlayaq qıçımıza, tülkü qaçmasın. Birdən bu yalan deyər, bizi işə qoyar.

Tülkünü bağladılar qıçlarına, gəldilər. Cılfacan Əhməd gördü ki, bunlar tülkünü gətirir. Çıxdı dedi:

– Tülkü, nə deyirsən, sənin dədən mənə yeddi dev borcluydu. Bə niyə dördün gətirirsən?

Devlər dedilər:

– Bu bizi aparır, dədəsinin köhnə borcuna verə.

Qayıtdılar, qaçdılar, tülkü də bunların qıçında ora dəydi, bura dəydi, tikə-tikə oldu. Gözdən ilim-ilim itdilər.

Bu söz şaha yetdi ki, burda bir Cılfacan Əhməd var, bir yumruğa yeddi dev öldürür. Fələyin çərxin çevirir.

Bir şah car çəkmişdi, bunun şəhərinə yürüş eyləyə. Şah dedi:

– Gedin, Cılfacan Əhmədi gətirin, getsin vırışmağa.

Gəldilər bi yol Cılfacan Əhmədi apardılar. Cılfacan Əhməd dedi:

– Baba, sözün düzün soruşsaz, mənim atın üstündə durmaz. Gərək atın üstünə qırsaqqız salasız, məni yapışdırasız atın üstünə.

Bu deyən kimi atın üstünə yapışdırdılar. Buna bir at gətiriblər, at yerdə, göydə durmur. Kölgədə buna o qədər arpa veriblər, yerdə, göydə durmur, qamçısın gəmirir. Cılfacan Əhmədi ötürdülər yürüş meydanına sarı. At atların həvəsinə belə gedir. Buna bir qılış vuracaqlar, qol-bud olacaqdı. Yolda bir çinar ağacı var idi. Sanki əlin atdı qala çinar ağacında, çinar ağacı kötüyündən çıxdı, gəldi bunun əlində. Ağac ki bunun əlinə girib, meydana birdən yüz nəfəri yatırdır. Belə çəkəndə qoşunun yarısın yatırdır. Bunlar gördülər, hər kim qurtulub qaçsa, onun canı qurutlacaqdı. Qorxudan bunların üstünə gələn şah qoşunu dalıya çəkdilər. Belə qaçırlar, nə cür. Cılfacan Əhməd nəmənə var idi bu qoşunda uçan-qaçan, dost-düşmən tanımadı, hamını yatırtdı yerə. Padşah üstdən baxırdı, gördü Cılfacan Əhməd qoşundan bir nəfər qoymadı qala. At da bir az qaçandan sonra yoruldu. Qoşun qaçdı. Atın başın çevirdi şəhərə sarı. Ağacı atıb yerə qoydu gəldi. Padşah bunun qabağına, pişvazına çıxdı. Cılfacan Əhmədi bi yol gətdilər endirdilər. Buna yaxçı pal-paltar verdilər, üzündən-gözündən öpdülər, dedilər:

– Nə istəsən, sənə verəcüyük. Nəmənə istəyirsən, deginən!

Əhməd:

– Qurban sağ olsun! – dedi. Sizin sağlığızı istəyirəm. Amma mən neçə ildi həsrətdəyəm, sənin kürəkənin olam.

Şah dedi:

– Kaş mənim kürəkənim sən olasan.

Cılfacan Əhmədi gətirib özünə vəzir elədi. Həm də kürəkəni oldu şahın. O tarixdən o torpağa quş da dolana bilmirdi. Dillər əzbəri olmuşdu: "Burda Cılfacan Əhməd var, çinar ağacını kötüyündən çıxardar".

# RƏVAYƏTLƏR

## ŞAH ABBAS İLƏ FİLOSOF

Günlərin bir günündə Şah Abbas yolunu salar bir filosofun evinə. Filosofla danışmağa başlar. Şah Abbas filosofa soruşar:

– Nəcabət yaxşıdı, yoxsa tərbiyət?

Filosof deyir:

– Nəcabət!

Şah qəbul eləməz. Söz uzanar. Şah filosofa deyir:

– Elədə sabah mənim sarayıma qonaq gəl. Gözlərinlə gör ki, tərbiyət nəcabətdən yaxşıdı.

Sabah filosof şahın sarayına sarı yola düşür. Gəlib yetişir saraya. Şah bunu oturdar yanında, deyir:

– İndi gör, tərbiyət yaxşıdı, yoxsa nəcabət!

Tərbiyət etdiyi iki pişiyi göndərir. Pişiklər gedib əllərində yanar mumu gətirib qoyurlar sürfənin ortasına. Uzun sözün qısası, bu pişiklərə nə deyir, pişiklər yerinə yetirirlər. Şah əlin çalar filosofun kürəyinə deyir:

– Gördün tərbiyət nəcabətdən yaxşıdı?!

Filosof deyir:

– Şah sağ olsun! Əgər bu pişiklər sabah da sizin dediklərinizi yerinə yetirsələr, onda sizin sözünüzü qəbul eylərəm.

Şah qürurla deyir:

– Olsun!

Filosof qayıdar, iki corab tayı tapar, iki dənə də siçan tutub salar corab taylarına. Sabah gələr şahın sarayına. Oturar şahın yanında. Süfrə döşənər. Şah pişikləri yollar, mumları gətirsinlər. Filosof yavaşca siçanları buraxar. Pişiklər mumları atıb qaçarlar siçanların dalınca. Filosof əlin vurar şahın kürəyinə deyər:

– Şah sağ olsun! Gördün, nəcabət yaxşıdı. Pişik hər nə qədər tərbiyət olsa da, onun işi siçan tutmaqdır!

## BİLDİM, DİNMƏDİM

Bir arvadın oynaşı var imiş. Elə bilirmiş kişisi bilmir. Bir gün arvad öz-özünə deyir:

– Qoy ərimi yoxlayım görüm, bir şey bilir, yoxsa genə qulağı tüklüdü. Tutdurur ki:

– Kişi! Gəl bu toyuqlara ad qoyaq.

Kişi deyir:

– Ay arvad, bunu da hardan çıxardın? Toyuğun adı toyuqdu da!

Arvad deyir:

– Yox, olmaz ki, olmaz. Gərək toyuqlara ad qoyaq.

Kişinin əlacı kəsilir deyir:

– Olsun, arvad! Sən deyən olsun, qal yatsın.

Arvad tez toyuqların birini tutub deyir:

– Sənin adın bildin, bilmədin!

Kişinin əlinə duv düşür, toyuqlardan birini də o tutub qulağına deyir:

– Sənin adın bildim, dinmədim!

## QƏNİMƏT GƏTİRMƏYƏN ŞAH[13]

Günlərin bir günündə bir şah var imiş. İki-üç ildən bir öz qonşularının üstünə qoşun çəkərmiş. Hər dönə gedib qayıdanda qoşunundan bir qırılarmış. Bir gün hamı cana gəlir, bu şaha baş qaldırır. Şah çıxır ortaya.

– Nədən baş qaldırıbsınız, – deyə soruşur?

Hamıdan səs ucalır:

– Bu necə işdi? Sən bizim gənclərimizi aparıb ölümə verirsən. Nə torpaq alırsan, nə də qənimət götürürsən.

---

[13] Nağılın söyləyicisi Təbrizin Ravasan kəndindən olsa da, Qaradağ şivəsində danışır. Toplayıcının ehtimalına görə, bu, keçmişdə Qaradağdan xeyli əhalinin gəlib Ravasanda yerləşməsi ilə bağlı ola bilər.

Şah üzün tutur onlara sarı deyir:

– Siz düz deyirsiz! Mən hər dönə qoşun çəkdiyimdə torpaq alıb qənimət gətirmirəm. Ancaq elə bir iş görürəm onların gözü heç bir yeri görmür. Başları özlərinə qarışır.

Bir ağ saqqal soruşur:

– Şah sağ olsun, nə iş görürsən?

Şah deyir:

– Onların uslu başlılarını ortadan qaldırıb yerlərinə axmaqlarını qoyuram.

## ASLAN İLƏ TÜLKÜ

Bir kuvvişəndə bir aslanla tülkü yaşayırmış. Bir gün aslan çox darıxır. Çağırır tülkünü, deyir:

– Ey tülkü, bu kuvvişəndə bir sənsən, bir də mən. Gəl oturaq, bir az danışaq, eynimiz açılsın.

Tülkü baxır aslana, deyir:

– Şah sağ olsun! Mənnən sizin nə danışığınız? Siz bir şah, mən də bir qara yaxa.

Aslan deyir:

– Tülkü, boşla bu sözləri. Bu kuvvişəndə səndən savayı bir kimsə yoxdur.

Tülkü deyir:

– Şah sağ olsun! Olmaz! Birdən sən tutdun məni, yedin. Onda canımı kimə tapşırım?

Aslan deyir:

– Əgər mənə güvənmirsən, sən necə deyirsən, elə eləyək.

Tülkünün əlinə duv düşür. Tez deyir:

– İndi ki sən istəyirsən, icazə ver, əl-qolunu bağlayım, ondan sonra oturaq uzun-uzun danışaq!

Aslan deyir:

– Olsun!

Tülkü tez gedir bir yaş qoyun buğarsağı tapıb gətirir. Aslanın əlin bərk-bərk sarır. Başlarlar danışmağa. Ordan-burdan danışalar. Tülkü göz qoyub görür, buğarsağı gün vurub quruyub. Qalxar yerindən deyir:

– Sağlıqla qal, Aslan qardaş!

Aslan bir az çapalar, görər əl-qolu açılmır, başlayar başına gələn oyunu düşünməyə. Bir də görür başının üstündə bir siçan hərlənir. Siçan soruşar:

– Şah sağ olsun! Bəs belə niyə?

Aslan hər şeyi siçana danışır. Siçan deyir:

– Söz ver ki, məni özünə vəzir seçəsən, mən də sənin əl-qolunu açım...

Aslan olsun deyincə, siçan əl qatıb canına, başlar buğarsağı çeynəməyə. Bir azdan sora aslanın əl-qolu açılar. Əl-qolu açılan kimi aslan durub düzələr yola. Siçan deyir:

– Şah sağ olsun! Bəs hara? Mənim vəzirliyim necə oldu?

Aslan deyir:

– Bir yerdə ki tülkü əl edib şahın əl-qolunu bağlıya, siçan da vəzirlik alıb aça, o yerdə qalmağın dəgəri olmaz!

## MƏKKƏDƏ İT QOVAN DƏRVİŞ

Bir gün bir dərviş mouz eləyirmiş, hamı da ona qulaq asırmış. Birdən-birə deyir:

– İt get, it get!

Hamı dönər baxar, bir şey görməz. Soruşarlar:

– Hanı it, burada it yoxdur ki!

Dərviş deyir:

– Siz görməzsiz. Məkkədə bir it Allahın evinə girirdi. Onu qovurdum.

Hamı inanır. Bir kişi gəlib evdə bu sözü arvadına deyir. Arvadı deyir:

– Ay kişi, sabah kəndin başbilənlərin, bir də bu dərvişi qonaq çağır.

Kişi sabah kəndin başbilən adamlarını, bir də dərvişi qonaq çağırar. Arvad qonaqların hamısına pilov çəkib toyuğu üstünə qoyar. Dərvişin yeməyinin toyuğunu altdan qoyub üstünü pilovla örtər. Dərviş belə görəndə dik durar ayağa, ev yiyəsinə deyir:

– Mən burada qala bilmərəm. Sən mənə tovhin eləyirsən. Arın-qurun gəlsin, ay kişi!

Arvad pərdənin dalından soruşar:

– Dərviş, nə tuhini?

– Nə tuhini olacaq! Hamının pilovunun toyuğu var, mənimki yavandı.

Arvad deyir:

– Ay dərviş, sən ki burda durub itin beytə girməsini görürsən, sən niyə pilovun altında toyuğu görmürsən?!

Kəndin başbilən adamları mat qalar. Dərvişin də ovcu açılıb xit olar.

## ETMƏMİŞƏM, ETMƏZLƏR

Günahsız bir kişini günah işləmiş birinin yerinə tutub gətirirlər şahın qulluğuna. Şah kişiyə deyir:

– Mənim dövrümdə günah işləyən birinin dilin üzdürrəm!

Kişi deyir:

– Etməmişəm, etməzlər!

Şah deyir:

– Dərisini soydураram!

Kişi deyir:

– Etməmişəm, etməzlər!

– Kəlləsini aldıraram!

– Etməmişəm, etməzlər!

Şah çox acıqlanar, deyir:

– G.....nə ağac s.....ram!

Kişi deyir:

– Etmişəm, edərlər!

Şah təəccüb eylər. Soruşar işin əslini, astarını örgənsin. Kişi deyir:

– Şah sağ olsun, günlərin birində çöldə cüt sürürdüm. Bir mözələk hey gedib gəldi, öküzləri sancdı. Axırda cana gəldim, mözələyi tutdum, bir çalı tikanı dərdim, s.....dum g......nə! Mözələk o gediş getdi. Ona görə dedim ki, etmişəm, edərlər.

## SƏDAQƏTLİ ARVAD

Biri var idi, biri yox idi. Bir ər-arvad var idi. Bunlar çox mehriban idilər. Bir-birinə can deyib, can eşidirdilər. Kişi səhər açılandan axşama kimi çöldə əkinçilik eləyirdi. Arvadı da evdə yun əyirib, şal toxuyub, ev işləri görürdü. Arvadın ağlı-bacarığı kənd camaatını heyran eləmişdi. Hamı onu tərifləyirdi. Gün dolandı, ay keçdi, arvadın şöhrəti hər yerə yayıldı.

Günlərin birində bu sorağı kəndxudanın arvadı eşitdi. Az qaldı hirsindən çatlasın ki:

– Onun məndən harası artıqdır? Niyə hamı onu tərifləyir? Ölsəm də, qalsam da, gərək gedim onu görüm.

Kəndxudanın arvadı fürsət axtarırdı ki, kəndxuda bir neçə günlüyə şəhərə gedəsi oldu. Kişi gedən kimi arvad da paltarını dəyişib başladı tərifi göyə çıxan arvadı axtarmağa. Bu qapı mənim, o qapı sənin. Axtara-axtara axırda gəlib tapdı. Kəndxudanın arvadı özünü dilənçi yerinə qoyub, qapını döyüb pay istədi. Adı dillərə düşmüş arvad dilənçiyə bir az şey verdi, sonra gedib yerində oturdu. Kəndxudanın arvadı həyətə baxıb gördü ki, arvad qabağında cəhrə, günün altında yun əyirir. Yanında bir parça quru çörək, bir qab da günün altında isinmiş su var. Arvad dedi:

– Ay bacı, həyətində gözəl ağaclar var. Niyə onların altında oturmursan, gəlib günün altında işləyirsən?

Arvad dedi:

– Çünki, mənin ərim bu saat çöldə günün altında taxıl biçir. Onun kölgələnməyə yeri yoxdur. Mən ondan artıq deyi-

ləm ki. Yanında bir quru çörəklə günün altında isinmiş sudan başqa heç nəyi yoxdur. O nə cür işləyirsə, mən də elə işləyirəm. Mən belə eləməsəm, ərimin çəkdiyi zəhmətin qədrini bilmərəm. Ərim də mənim sədaqətimi görüb məni çox istəyir.

Kəndxudanın arvadı onun əqlini yoxlamaq üçün dedi:

– Bacı, mən nə eyləyim ki, ərim məni də sənin kimi çox istəsin?

Arvad dedi:

– Sən mənə iki-üç şir tükü gətirə bilsən, bu sirri sənə öyrədərəm.

Kəndxudanın arvadı o gündən şir axtarmağa başladı. Axırda gəlib padşahın şirlər saxlanan heyvanxanasına çıxdı. Gördü burda polad qəfəs içində elə şirlər var ki, adam baxanda az qalır bağrı çatlasın. Arvad çox götür-qoy eylədi. Axırda qərara gəldi ki, hər gün şirin yeməyini verib qabağına su qoysun. Onun boynunu oxşayaraq qorxa-qorxa qəfəsin arasından quyruğunu, belini tumarlayırdı. Bir xeyli müddətdən sonra şirin başını sığalladı, onunla xoş rəftar eyləyib özünü ona tanıtdı. Günlərin birində şirin başını sığalladığı yerdə bığlarından üç tük qopardı. Kəndxudanın arvadı gəldi həmin arvadın yanına, tükləri ona göstərdi. Arvad dedi:

– Denən görüm, şir kimi vəhşi heyvanın bığlarını necə qopara bildin?

Kəndxudanın arvadı şirin tüklərini qoparmaq üçün onunla necə rəftar elədiyini başdan ayağacan söylədi. Arvad dedi:

– Bacı, sən şirin tüklərini qoparmaq üçün onunla necə rəftar eylədinsə, get ərinlə də xoş rəftar eylə. Onda o, səni incitməz, çox istəyər.

Kəndxudanın arvadı həmən gündən ərilə arvad deyən kimi rəftar eylədi. Əri ondan çox razı qaldı. Kəndxudanın arvadı inandı ki, həmin arvad doğrudan da çox ağıllı imiş.

## GƏLİN-QAYNANA DAVASI[14]

Qədimlərdə nə dövranlar, nə hikmətlər var imiş. Allah rəhmət eləsin, rəhmətlik nənəm hövsələsi olanda məni çağırardı, deyərdi:

– Gəl otur balam, bir söz yadıma düşüb deyim!

Bir qarı–qocanın tək dənə oğlan varlarıydı. Oğlan biar[15], bidərd, bifikir, bitasib[16], bivay[17]. İşi buydu, tezdən dura, tellərin yağlaya, düşə damdan dama, küçədən küçəyə, vel-veylan. Bibaş gəzmağa, axşam yatmağa gələrdi. Dədə və nənəni də saymazdı. Hər nə dədə-nənə deyirdi, danlardı. Öyüd verirdilər, başa gəlməzdi. Dədə-nənə ölçü–tök[18] ilədilər, dedilər bu oğlana arvad alak. Bəlkəm adam ola! Danışdırıb oğlanı birtəhər yola gətirdilər. Filan bəyiy qızını görüb bəyəndi, toy-tamaşa, gəlini gətirdilər. Sağlıq olsun, gün gündən keçdi, ay aydan. Dörd və beş aylıqda bəlli oldu gəlin gumanlıdır[19]. Payız dolanıb istər qış ola, qədim zamanlar indi kimi döyüldü[20]. Qış elə qış idi, bir çan görərdin, neçə gecə-gündüz qar gələr, gündə on yol dam-bacanın qarın tökürdülər. On gündən bir davamal tövlədən çölə çıxmazdı. Həmən tövlədə su verirdilər malhala[21]. İndi qış havası derəy[22], bahardı, belə xoşdur. Sözüm orda qaldı, qış gəlir, hamı, qonum-qonşu duvarlara suvax çəkirlər. Palçığa bir az saman qatırdılar. Bu qədər ayaxlardılar, palçıx saqqız kimi olardı. Deyirdilər suvax. Bu palçıxdakı saman qoymazdı su bir yerdən girsin. Bəzilər bir az duz tökərdi-

---

[14] Bu rəvayətdə Bağdad Şahsevənlərinin şivə xüsusiyyətləri mümkün qədər qorunmuşdur.

[15] Biar–qeyrətsiz, arsız

[16] Bitasib– təssübsüz, damarsız

[17] Bivay – tənbəl, arsız

[18] Ölçü–tök– ölçüb–biçdilər

[19] Gumanlıdır – iki canlıdır, hamilədir.

[20] Döyüldü – deyildi.

[21] Mal-hal – mal-davar.

[22] Derəy – deyirsən bəs, elə bil

lər, dahı lap asfalt kimi olardı. Damları suvaxlayandan sora gedirdilər odun yığıb gətirərdilər qışda yandırmağa. Hər kimə hər nə lazımdı tədarük görüb hazırlardı. Bir vaxt qış və boran oldu, yollar bağlandı. Külfət və uşağı qışdan çıxarda bilə. Ətlik[23] öldürərdilə. Və bu canım oğlan yatardı səhərəçeyin[24]. Naharda duranda arvada deyirdi:

– Get, nənəmgildən, nənəy gildən gör nə var, al gətir, yeyim.

"Hələ ki, nə tas var, nə hamam. Ortalıxda oynar qız tamam"

Bu aralıx sözünə qulax vermə. Bir gündə hamı işləri görürəm. Dur, dur, qaç get tez min əl– üzümə su vurana gəliməy ha[25].

Arvad benəva özünü salıb ayağı altına qisilə-qisilə öz yanında dedi:

– Gedim gənə elə nənəmgilə. Hər nə olsa nənədi, üzümə söz deməz!

Gəldi, hər nə vardan, yoxdan nənə binəva yığdı verdi, düşdü yola, gəlirdi, qayınnənəsinə[26] tuş gəldi.

– Salam bibi! Sabahıyız xeyr olsun!

–Salamı sal o küncə! Küldən töküm başıya. Böyüməmiş! İndi də işim çıxıb qaraçı qızı? Tezdən qapıları dilənirəy, yarımamış!

İndi oğlan nənəsi dili bir qarış uzanıb istər hamı kasa-kusanı sındıra alnı qara gəlin başına!

– Öz yanımda atılıb düşdüm, dedim dəlicəmə arvad aldım, nə bilirdim baxtı yatmış balama əjdərha alımam görüm ki, bəlkəm nənəy ölsün balam. Kor olaydım bu günləri görmiyeydim. Necə öz əlimnən cigərguşəmi saldım halav[27] içinə. Yeri çəpəlin[28] qarnından çıxan nənəydən artıx p....olmacayay ki. Allah rəhm eləsin qarnındakıya, sizin tir və tinavaya çəksə kül batmanı min tümənə tapam tökəm özümnən boya–başa

---

[23] Bəslənmiş (qoyun) Pərvari (Gusfənd)
[24] Səhərəçeyin – səhərədək, səhərə kimi
[25] Gəliməy – gəlibən, gəlmişsən.
[26] Qayın nənə – qaynana
[27] Halav – alov, od
[28] Çəpəl – pis qadın

gələli, gün görməyən nənəsi ölmüş balamın başına, işim çıxıb gündən-günə qapıları dolan!

Bu dərqəzədə də qız nənəsi, oğlan nənəsinin səsinə gəldi:

– Nədi genə, abrını yeyib, həyanı atıb səsini alımay başıya! Gözüy yumumay, ağzını açıb, hər nə özüyə layiqdi bu ət balaya yukləray! Gərçək derəy o biar, bidərd, bitəsib, saman altından su verən qoduğuya örgət. Bu qarabaxı qapulara göndərməsin. Ələmin külü başıma, gözüm görə-görə, öz əliminən öz gözümü çıxartdım. Bax gör, gül kimi cuvanazən qızı necə qarabaxt elədim. Bilmirəm dilim bağladılar, sizdən hər nə deyələr, əliyizdən gələr. Sən qırx qazanıy damazlığıyay. Kül mənim başıma, ağlım əlimdən aldılar, biçara mən bilərdim qarnında qırx tülkü gəzə, quyruğları bir-birinə deyməz. Necə başım külləndi. Balam bəyəm əlimdə qalmışdı?

Oğlan nənəsi dedi:

–Gec olməyib, çim dala!

Qız nənəsi dedi:

– Onda bu qarnındakı yetim-yesir qalmışı kimə verim, sənə bir zad olmaz! Abrını yeyib, həyanı atan nə bilər nə olub. Hələ dur gözlə, bu sözləri salma qabağa. Hamı səniy qoduğuyu tanır. Mənim külü tökdüy başıma, dilim-gözüm bağlanıb. Cuvanazən balamı əlimdən aldı, indi sən dirri-dirri danışmayay, mən danışacağam! Həvil iləmə[29], qədimkiləri nur içində yatsınlar, deyirdilər: "Əmişəndə məlum olar"[30] Bu məsəli qədimdəkilər deyiblər: Qar gələ, arvad doğa, yev[31] dama, odun tükənə, dəgirman yolu da bağlana. O zaman çal, balayın toyudu. Daha məndən çıxıb qalıb Allaha. Sən də gözlə gör, nə günlərə qalacayay! Havalay verirəm ala gözlü qolsuz Həzrət Abbasa (ə) get, bu binəva qızın günün qara gətirmə!

---

[29] Həvil iləmə – tələsmə

[30] Qoyun bəzən balasını əmizdirməyə qoymazmış. Bəzən deyirlər, filan işləri görsən bəlkə balasın yanına alıb əmizdirər. "Əmişəndə məlum olar" deyimi o deməkdir ki, söz və iddea əməldə öz doğruluğunu göstərir.

[31] Yev – ev

## GƏLİN-QAYNANA DEYİŞMƏLƏRİ

**Azad Məəssələvati:**

Qaynanam çörək yapır,
Üzü qapıya baxır.
Qorxuram bir söz deyim,
İt kimi məni qapır.

Qaynanamın adın qoydum Səkinə,
Naxoşladı, apardılar həkimə.
Qaqışladım, bir daha qayıtmaya.
Həkim dedi, sal quyunun təkinə.

Minirəm ağ maşına,
Çıxaram dağ başına.
Tutaram qaynanamı,
Daşı sallam başına.

**Fatma Səfəri:**

Qaynana, zalım qaynana,
Oğluvu əlindən alım, qaynana.
Özüvü çöllərə salım, qaynana.
Kərdidə mərzə, qaynana,
Danışma hərzə, qaynana.
Oğlun vurub, başım sınıb,
Dir gedək ərzə, qaynana.

**Zəkiyə Zülfiqari:**

Damda dirək qaynana,
Pəyədə kürək qaynana.
Oğlu evə gələndə,
Hamıdan zirək qaynana.

Qaynanamı bağda ilan vuraydı,
Qaynatama Məkkə qismət olaydı.

## TAPMACALAR

Ağac deyil, yarpaqları var,
Köynək deyil, tikilib,
Adam deyil, danışır. – **Kitab**

Ağdır, pənir deyil,
Quyruğu var, siçan deyil. – **Ağ turp**

Əlimlə əkirəm, dilimlə biçirəm. – **Yazı**

Ağ yerdə qara toxum, qamış ilə əkilər, ağzı ilə dərilər. –**Yazı**

Ağzı var, dili olmaz,
Yüz ağac vur, çığırmaz.  – **Balıq**

Ağrısız, qəmsiz ağladar. – **Soğan**

Azan oxur, namaz qılmaz,
Arvad alar, kəbin kəsməz. – **Xoruz**

Axşam çağında ərik bağında,
Uçar bir quş, deyirdi, qarr-qarr.– **Qarğa**

Adası var, canı yox. – **Qəbir**

Ayağ yox, amma yeriyir. – **İlan**

Ağ quş suya töküldü. – **Düyü**

Altı ayda bir qarış, bir ayda altı qarış. – **Taxıl**

Atdım yamaca, düşdü umaca. – **Duz**

Aldım qazan, saldım quyruq,
Əridi qazan, qaldı quyruq. – **Başmaq, ayaqqabı**

Altı aşıq boyu var, hər gecə də toyu var. – **Çıraq, lampa**

Altı dərya, üstü od. – **Qəlyan**

Alçaq damdan qar yağar. – **Ələk**

Anası beşikdə, özü bazarda gəzər. – **Üzüm**

Açaram yatar, bağlaram qaçar. – **Dəyirman**

Axşam baxdım çox idi,
Səhər baxdım yox idi. – **Ulduzlar**

Atam həyətdə yatar,
Kölgəsi uzaqda yatar. – **Tağ**

Aşığın qan ayağı,
Qan ilə qan ayağı,
Aşıq bir zad görübdür,
Üç başı, on ayağı. – **İnək, buzov, sağıcı, südsağan**

Əziziyəm, ay doğar,
Bulut altından ay doğar.
O nədir, atası beşikdə,
Qızı çox uşaq doğar? – **Üzüm**

Əlsiz-ayaqsız şəkil çəkir. – **Şaxta**

Əlsiz, maşınsız toxucu. – **Hörümçək, şeytan toru**

Balaca künbəz, qapısı yox. – **Yumurta**

Babada var, balıqda var,
Meyvədə yoxdur, bağda var. – **“B” hərfi**

Başını kəsdim qanı yox,
Yumurtasının sayı çox. – **Qarışqa**

Başını bulaqdıqca burnu şişir. – **Yumruq**

Başı göy, dalı qırmızı,
Yerlərdə bitər, olmaz da acı. – **Çuğundur**

Başa yapışıq, bir sapsız qaşıq. – **Qulaq**

Balaların yığar başına, cız-cız ağlar. – **Samovar**

Bazardan aldım bir dənə, içində var min dənə. – **Nar**

Bazarda olmaz, tərəzidə qalmaz, ondan şirin olmaz. – **Yuxu**

Bağdan gəlir bağlı xanım, əlləri xınalı xanım. – **Kəklik**

Bazarda qapqara, evdə qıp-qırmızı. – **Kömür**

Babanın bir atı var, dindirmək olmaz,
Bir qamçısı var, endirmək olmaz. – **İldırım**

Başından od tutub yanar,
Nalə edib dibindən qaynar. – **Qəlyan**

Yaş yuvaya bir qapı. – **Əlcək**

Bədəni var, qanı yox. – **Arı**

Bizdəki ha bizdəki, yüz minlərcə qız idik,
Gecə oldu düzüldük, gündüz oldu əzildik. – **Ulduzlar**

Bir ağ otağım var, içinə yol yox. – **Yumurta**

Bizdə bir dərin quyu var, içində sərin suyu var,
Qarnında ilan balası, ağzında gövhər dənəsi. – **Çıraq, neft, piltə, şölə**

Bizim evdə Yusuf yatıb,
Qulaqların qısıb yatıb. – **Qayçı**

Bizim evdə düşüb yatıb,
Qulaqların qısıb yatıb.
Təpik vurdum oyanmadı,
Elə bildim, porsuq yatıb. – **Motal**

Bir atım var dərində,
Arpa yeyir sərində.
Gecə-gündüz yol gedər,
Yerindədi, yerində. – **Dəyirman**

Bir balaca odacıq,
İçi dolu ağ mıncıq. – **Ağız və dişlər**

Bir ağacım var, otuz yarpağı,
Bir üzü ağ, bir üzü qara. – **Gecə-gündüz**

Bir balaca boyu var,
Qırmızı da donu var. – **İydə**

Bir atım var ay eylərəm,
Ölsə minnət eylərəm.
Ətini ataram o yana,
Sümüyün xeyrat eylərəm. – **Çəltik**

Bir bölük atlar, çəməndə otlar.
Vaxtı gələndə dimdiyi çatlar. – **Pambıq**

Bir il əkərlər, yeddi il biçərlər. – **Yonca**

Tap, bu nədir, tapmaca,
Ayaqları yapmaca.
Gözləri var balaca. – **Dəvə**

Tap tapmaca, dalı qıllıca. – **Əzgil dalı (yəni budağı)**

Tap tapmaca, qab altdaca,
Yumru biçə, çit arxalıq. – **Qonşu payı**

Tap nədir, tanış nədir,
Gül bahara gümüş nədir.
Nənəm toxuyar çuxalı kətan. – **Hörümçək, şeytan toru**

Canı qırmızı, başı göy. – **Yerkökü**

Cıqqılı quyu, iki rəng suyu. – **Yumurta**

Cansız gələr gözünə,
Özünü göstərməz özünə. – **Səsin qayıtması**

Cam sındı, xanım qana boyandı. – **Nar**

Həsən ağa xəstədi,
Qolları qəfəsdədi,
Nə yerdədi, nə göydə,
Taxt rəvan üstədi. – **Peç, buxarı**

Həzər-həzər gedər,
Tükan-bazara gedər.
Ata yatıb beşikdə,
Oğlu bazara gedər. – **Üzüm**

Hansı dörddür, beş olmaz? – **İlin fəsilləri**

Hacılar haca gedər,
Cəhd edər gecə gedər.
Bir yumurta içində,
Yüz əlli cücə gedər. – **Nar**

Hansı anadır, öz uşağını əmər? – **Dəniz**

Hamını bəzər, özü lüt gəzər. – **İynə**

Hamıya yedirdər, özü yeməz. – **Dəyirman**

Hansı on ikidir, on üç olmaz? – **Bir ilin ayları**

Hansı heyvandır, həm quruda, həm suda yaşar? – **Qurbağa**

Hay gedər, huy gedər,
Bir qarışca yol gedər. – **Nənni, beşik**

Holalar, ay holalar,
Çöldə dovşan balalar.
Ayağından su içər,
Dimdiyindən balalar. – **Sünbül**

Hansı ikidir, üç olmaz? **– Gecə-gündüz**

Dörd gözülü bir bulaq, suyu ağ. **– İnək əmcəkləri**

Dörd qardaşı bir papaqlı. – **Dördbucaq**

Dörd qardaşı var,
Hər üçü qaçar,
Bir-birinə çatmaz. – **Çarxlar**

Dənizdən bir balıq tutdum,
Qolsuz, qanadsız.
Məclisə gətirdim
Qabsız, qacaqsız
Görənlər dedi: “Bəh-bəh, gözəldir.” – **Yaxşı söz**

Döyərsən, səs salar,
Dolanır, qorxmaz,
İlləri, ayları sayır. – **Saat**

Dizə qədər qar,
Düzüm nar,
Dədəsi Qənbər,
Qızı qiyamət. – **Un, kündə, təndir, çörək**

Dəryadan bir balıq çıxdı, adı yox,
Şirinlikdən yemək olmaz, dadı yox. – **Övlad**

Dam üstündən şırıldar. – **Novdan**

Dərdə dəvası var bunun,
Başda səfası var bunun.
Xənçər ilə dəlik-dəlik,
Gör nə cəfası var bunun. – **Şan, bal**

Dərdə qalxan, üstündə yorğan.
Astaca tərpən, börkünə qurban. – **Nehrə**

Dağdan gəlir yağı xanım,
Əlləri xınalı xanım.
Tafta köynək, çit arxalıq,
Farsi diyir, dil anlamaz. – **Arı**

Dağ-dərəni aşar,
Dünyaları dolaşar.

Anasına çatanda,
Səssiz ona qovuşar. – **Axar çay**

Dalında qalası var. – **Tısbağa**

Damdan düşdü olmadı, suya düşdü oldu. – **Kağız**

Deyə bilməz sözünü, tez yandırar özünü. – **Qurbağa**

Dədə çöldə yatar, ayaqların uzağa atar. – **Tağ**

Xərcləməsən azalar, xərcləsən çoxalar. – **Elm**

Zəng zəng içində,
Zəng firəng içində.
Nə göydə var, nə yerdə,
Əsli firəng içində. – **Saat**

Zərbati var bunun,
Zərdən əbası var bunun.
Bədəni dəlik-dəlik,
Gör nə səfası var bunun. – **Portağal**

Zər zər üstə, zər divar üstə,
Mən gəlincə, qal dilab üstə. – **Qıfıl**

Saqqalı uzun sallanar,
Dama, daşa tullanar. – **Keçi**

Su içində üzərəm,
Sudan çıxsam, ölərəm.
Əynimdə pullu paltar,
Məni torla tutarlar. – **Balıq**

Səhər çağında,
Gilas bağında
Uçardı bir quş,
Deyirdi, çık-çık. – **Sərçə**

Sarıdır, zəfəran deyil,
Yazıdır, Quran deyil.
Girdədir, girdəkan deyil. – **Qızıl**

Səndə var, məndə var,
Mehrdə yox, Şamda var. – **Nöqtə**

Suda gəzər, izi yox,
Dərisi var, tükü yox. – **Balıq**

Dağdan gəlir rəngbərəng,
Başmaqları qırmızı,
Paltarları yeddi rəng. – **Göy qurşağı**

Qalanın dör tərəfi bürc bəndir,
Yaşıl əkrəm qırmızı bitər,
Bəs bu nədəndir? – **Xına, həna**

Qanad vurar bir anda,
Gəzər cümlə-cahanı. – **Fikir**

Qanı var, canı yox. – **Qara tut**

Qanadı var uçmaz, quruda da qaçmaz. – **Balıq**

Qanadı var uçmaz, ayağı yoxdur, qaçmaz – **Balıq**

Qanadlıdır, quş deyil,
Buynuzludur, qoç deyil. – **Kəpənək**

Qırmızıdır, qızıl deyil,
Quyruğu var, siçan deyil. – **Yerkökü**

Qurdurmuş, hay, qurdurmuş,
Çuxurunda su durmuş. – **Su qabı**

Qaradır, qırmızıdır, iki rəngdir,
Xanları-xanimları

Oyatmağa zirəngdir. – **Birə**

Qaşıqda oturub, ayaqların sallayır. – **Əriştə**

Qara kişi, ağ papaq. – **Sac**

Qara toyuq, qarnı yarıq. – **Buxarı**

Qara toyuq qırmızı yumurta üstə oturmuş. – **Qazan od üstə**

Qoca baba hallandı,
Qırmızıları sallandı. – **İydə ağacı**

Qırmızı divar üstə ağ incilər düzülüb. – **Dişlər**

Qəlbi qara, yarıq başı,
Gedər gələr, tökər yaşı. – **Qələm**

Quru ağacı oyarlar,
Üstünə sim qoyarlar.
Ağlama, simim, ağlama,
Qulağını burarlar. – **Kamança və tar**

Kim göbəksiz doğulub? **– Yumurta**

Gah tərpənər, qaşınar,
Dağdan şələ aşırar. – **Tük, ülgüc**

Gedən lək-lək, gələn lək-lək,
Bir ayaq üstə duran lək-lək. – **Qapı**

Gündüzlər dolanar,
Gecələr ağzı açıq yatar. – **Başmaq**

Meşədə böyümüş,
Divardan asılmış,
Əldə ağlar,
Eşidəni qıdıqlar. – **Tar, kamança**

Görüşür aslan kimi,
Duruşur qaflan kimi.
Yayılır həsir kimi,
Sürünür əsir kimi. – **Pişik**

Gözü yox, qulağı yox, korları aparır. – **Çəlik, əsa**

Gözü bənzər ceyrana,
Xidmət edər insana.
Adam çıxsa üstünə,
Baş əyməz heç sultana. – **At**

Gəldik adam ilə,
Bir başmaq badam ilə.
Nə dili var, nə ağzı,
Danışır adam ilə. – **Kitab**

Gedər-gedər yerində,
Qızıl kəhər belində
Gecə-gündüz yol gedər,
Genə durar yerində. – **Dəyirman**

Gecə çağında, gül qırağında,
Deyin görək, nə eyliyər qur-qur. – **Qurbağa**

Dağdan gəlir dağ kimi,
Qolları budağ kimi.
Əyilər su içməyə,
Anqırar ulağ kimi. – **Sel**

Mən gedirəm, o qalır. – **Ayaq yeri**

Meşələr, çölləri gəzər,
Yetişmiş, yetişməmiş meyvələri üzər. – **Ölüm**

Mən aşiq budaq atar,
Bu dağı o dağ atar.
Torpaqsız yerdə bitər,
Yarpaqsız budaq atar. – **Maral buynuzu**

Mən gedirəm, o gedir,
Qolumda çıq-çıq edir. – **Saat**

Məni tək yeməzlər,
Mənsiz heç nə yeməzlər. – **Duz**

Mənim dörd gəlinim var,
Dördü də bir boydadı. – **Evin dörd bucaqları**

Məcnunda yoxdu, Leyli də var,
Yusifdə yoxdu, Züleyxada var. – **"L" hərfi**

Mindirdilər ağaca,
Çıxartdılar yamaca.
Apardılar qoydular,
Nə qapı var, nə baca. – **Qəbir**

Mən gedirəm, o gedir. – **Kölgə**

Nar dənəsi, nur dənəsi,
Yer üzünün bir dənəsi. – **Quran**

Nənəyə dəyməz, babaya dəyər,
Xalaya dəyməz, bibiyə dəyər.
Dədəyə dəyməz, dəyməzə dəyər,

Allaha dəyməz, billaha dəyər. – **Dodaq**

Nə ağzı var, nə başı,
Nə gözü var, nə qaşı.
Yeyər, gülər, şad yaşar,
Zinət eylər yar başı. – **Muncuq**

Nə nəqqaşam, rəngim var,
Nə nəccaram, taxtam var.
Nə dəyirmançıyam, unum var. – **İydə**

Nə heyvandır, torpaqlarda yaşar,
Nə heyvandır, görməz, amma gözü var. – **Kor siçan**

Nə heyvandır, o su içər döşündən,
Gecə gəzər, gündüz qorxar o gündən. – **Gecə quşu**

Odda yanmaz, suda batmaz. – **Buz**

Oda qoyanda əriyər,
Suya qoyanda donar. – **Mum**

Odsuz yanar, qanadsız uçar, ayaqsız qaçar. – **Gün, yel, su**

O yanı qaya, bu yanı qaya,
İçində sarı maya. – **Yumurta**

O yan pərçin, bu yan pərçin,
İçində var güvərçin. – **Göz**

O yanı daş, bu yanı daş,
İçində qırx-əlli baş. – **Hamam**

O yanı mərmər, bu yanı mərmər,
İçində bülbül oynar. – **Dişlər və dil**

Özü bir zərrə misri,
Hamı onun əsiri. – **Pul**

Öz-özünə qəbir qazır. – **Buğda**.

Hansı üçdür, dörd olmaz? – **Fəslin ayları**

Üstü zəmi biçərlər,
Altı bulaq biçərlər. – **Qoyun**

Ustalar, ha ustalar,
Şəfa tapsın xəstələr.
O necə quşdur ki,
Öz buğarsağın dəstələr. – **Cəhrə**

Uca dağdan alçaq dama un ələnər. – **Qar**

Uzun boyu var, sarı saqqalı var. – **Qamış**

Uzun-uzun uzanır, kölgəsi yox. – **Axar çay**

Odsuz-ocaqsız qazanda bişən nədir? – **Pənir**

İynə gözündən baxıram,
Cümlə-cahanı yaxıram. – **Tüfəng**

İlim-ilim düyməsi,
İlim xatın düyməsi.
Hər kəs onu tapmasa,
Yeddi ilin xəstəsi. – **Üzərlik**

İçi qırmızı, şirin,
Paltarları yaşıl, qalın. – **Qarpız**

İş görəndə bağırar, toz-torpağı təmizlər. – **Bərqi süpürgə**

İçində buz, şaxta var, nə qoysan, tazə saxlar. – **Soyuducu**

Yoldan gələn hacıdır,
Başmağı narıncıdır.
Qolu var, yaprağı yox,
Əgər bulsan, nə ağacıdır? – **Maral buynuzu**

Yol üstə yorğun qatır,
Heç durmaz, hər gün yatır. – **Körpü**

Yol üstə qazan qaynar. – **Qarışqa**

Yonduqca yonulur, getdikcə uzanır. – **Quyu**

Yonca yeyib Məşrutəni alanlar kimdir? – **Təbrizlilər**

Yeri o yana, gəl bu yana,
Otuz iki dənçi, bir dəyirmançı. – **Dişlər**

Yatanda yumru yatır,
Ətin dərmana qatır.
Hər kəs istər onu tuta,
Tikanları əlinə batır. – **Kirpi**

Yerə vurdum baltanı,
Ağır gümüş xaltanı. – **Buğda**

Yer altında qanlı küpə. – **Çuğundur**

Yer altında evləri,
Əyri-əyri yolları.
Nə incədir belləri. – **Qarışqa**

Yer altında yağlı-yağlı qamış. – **İlan**

Yer altında yağlı böyrək. – **Siçan**

Həyətdə dağdır, pambıqdan ağdır,
Yağar, suya dönər. – **Qar**

Söylə nə vaxt əriyir qar,
Baş qaldırır yaşıl otlar? – **Yaz-bahar**

Bir otax, min bir otax,
Qırx pilləkən, min bir otax. – **Kələm**

Qırmızı xaş, atılıb-düşən. – **Buğda**

Deyir mənə dən gəldi,
Gələn ona bənd oldu.
Həştad ayaq, qırx buynuz,
Bir mismara bənd oldu. – **Kotan, qayış, öküzlər, on baş öküz**

Dilim-dilim nar,
Dizimcə qar.
Uçdu bir kəklik,
Qondu bir dilbərə. – **Dəryaz, xırman, saman, buğda**

Ərəb atdan, dəmir qatdan,
Quş buruldi, quyruq buladi. – **Qazan və içindəki xörək**

Yastıca yatar, yumurta tökər. – **Kündə**

Yer altında yan gedər. – **Gavahın**

Mücürü, hay mücürü,
Alışdırır ovcunu.
Yeddi qatar mal gedər,
Çəkər onun gücünü. – **Kotan**

Yerişi tappır-tuppur,
Dırnağı həştad para. – **Kotan**

Özü əyri, yolu düz. – **Kotan, cüt**

Cıxar ağaca sallanar, dərin dama tullanar. – **Əriştə**

Həm dərili, yaz əkili, ya dərili. – **Pambıq**

Alaca məzar, obanı gəzər. – **Ələk**

Alçaq damdan qar yağar. – **Ələk**

Yer dərədə durmuş,
Diş-dişə vurmuş.
Aləmi yemiş,
Acgöz oturmuş. – **Dəyirman**

Bulud bulud içində,
Ay da bulud içində.
Göydən yerə od yağdı,
Biz də yandıq içində. – **Günəş**

Ağ sandığım açıldı, içində nur saçıldı. – **Sabah çağı**

Ağzın açıb zəhər saçar,
Hamı görüb iraq qaçar. – **İlan**

Babamın bir donu var,
İçi dolu abbası.
Gündüz girər kisəyə,
Gecə çıxar eşiyə. – **Ulduzlar**

Bir atım var, sakit durmaz,
Hey yol gedər, yorulmaz. – **Axar çay**

İynəsi yox, tikanı var,
Əti dərman, özü heyvan. – **Kirpi**

Əgdən kişi, əklən kişi,
Papağı yekə, ayağı təkcə. – **Göbələk**

Adam deyil, əl-ayağı, dişi var,
Əcəb şeydi, qara vəli işi var. – **Meymun**

Bir kilimim var, min bir naxışı,
Yel baba süpürər, payız, qışı. – **Yel**

O, görmür səhər çağı,
Çox itidir caynağı.
Gecələr qırıb-çatır,
Gündüzlər düşüb yatır. – **Bayquş**

O hansı canlıdır, heç səsi yoxdur,
Qurbağa çıxmağa həvəsi yoxdur. – **Balıq**

Başında var budağı, gəzər meşəni dağı. – **Maral**

Bostanda top kimidir,
Ağappaq qar kimidir.

Üst-üstə geyib donu,
Soyuq kəsməsin onu. – **Kələm**

O ağacda yaşayır, qozla fındıq daşıyır.
Qoy qonaq gəlsin hər qış ona dostu, yoldaşı,
Çox yaxşıdır yaddaşı. – **Dələ**

Bir atım var dərində,
Bağlamışam sərində.
Gecə-gündüz yol gedər,
Yerindədir, yerində. – **Saat**

Rənbərəngdir, çələng deyil,
Zolaqlıdır, pələng deyil.
Göylər geyir mavi donu,
Öz belinə dolanar. – **Göy qurşağı, qarı nənənin işi**

Özü burada, saqqalı damda. – **Tüstü**

Göy üzü damar-damar,
Göydən yerə nur yağar. – **Yağış**

Qatarlanıb gedirlər, bizə salam edirlər. – **Durnalar**

Əl ilə tutmaq olmaz, göz ilə görmək olmaz. – **Külək, yel**

Min bir oğul, bir ata,
Hamısı minib bir ata. – **Qarğıdalı**

Balacayam, sarıyam,
Deməyin ki, darıyam.
Sizə çörək olaram,
Zəmilərin yarıyam. – **Buğda**

Alaca, ha balaca,
Sərilmişəm yamaca.
Düz dırmaşaq ağaca. – **Lobya**

Nədəndi, ay nədəndi,
Demə nazik bədəndi.
Pilov üstə məskəni,
Görən rəngi nədəndi? – **Zəfəran**

Göydən gələr millənər,
Yerə dəyər dillənər. – **Girdəkan**

Özü taxta, yeri qara,
Para-para, köksü qara. – **Lalə**

Altı taxta, üstü taxta,
İçində yaşıl paxla. – **Püstə**

Gün çıxar gülər, axşam mürgülər – **Günəbaxan**

Bir balaca boyu var, qırmızı donu var. – **Zoğal**

Uzun hacı, kök hacı,
Duman başının tacı. – **Dağ**

Dağdan-daşdan qan gəlir,
Qıvrılmış ilan gəlir.
Qabağında durmayın,
Qudurmuş aslan gəlir. – **Sel**

Lalələr, ay lalələr, lalədən piyalələr,
Qol-budağı çiçəklər, kökdən balalar. – **Yer alması**

Çoxlu tağ atar, torpaqda yaşar.
Qoyma yetişsin, kal-kal dər apar. – **Xiyar**

Halalar, ay halalar, dağda kəklik balalar,
Nə kiçiyi böyüyər, nə böyüyü balalar. – **Daş**

Sapsarıca yemişəm,
Mən ərəbdən gəlmişəm.
Baldan şirin dadım var,
Adda sanda adım var. – **Xurma**

Salxım-salxım sallanar,
Çox qaldıqca ballanr.
Göydə nərdivan olsa,
Çıxar, ordan sallanar. – **Üzüm**

Aldım bir dənə, açdım min dənə. – **Nar**

Gecə yumular, səhər açılar. – **Sarmaşıq gülü**

O nədir, uzandıqca qısalar. – **Ömür**

O nədir ki, özünə nisbət işləndikcə qısalar – **Siqar (cığara)**

Yayda at oynadar, qışda düşər dilənməyə. – **Qarışqa**

Ərəblər, ay ərəblər, ayağında corablar,
Yuxarı başa qoymayın, yuxarı başı xarablar. – **Toyuq**

O yanı kələk, bu yanı kələk,
İçində bir çərxi-fələk. – **Dişlər, dil**

Tap bu nədi, tapış nədi,
Çatlğı var, yapış nədi.
Ustam toxur gözəl kətan,
Gəlin görək, bu iş nədi? – **Yanaq**

Nə yerdədi, nə göydə,
Qəndildədi, qəndildə. – **Dam bacası**

Zülfün ucu gümüşdü,
Sal boynuna, ilişdir.
Yemişlər də yarpaqsız,
Tap gör necə yemişdir. – **Danbalan**

Dərya qırağı buzdu,
Sana, gör neçə yüzdü.
Oğlu bazara gedir,
Anası evdə qızdı. – **Çinar ağacı**

Sürü-sürü qızlar, sürməli qızlar,
Ona toxunsan, əllərin sızlar. – **Girdəkan, qoz**

Suda Süleymanı gördüm,
Dağda duleymanı gördüm.
Yatar-gövşər daş gördüm,
Duzsuz pişmiş aş gördüm. – **Səməni**

Yaşıl taxta üstündə oturub pəri,
Yaquta, mərcana bənzər ləbləri.
Uzaqdan baxanda üzün gizlətməz,
Əlini uzatsan, vurar xəncəri. – **Qızılgül**

Həstədi ay, həstədi,
Əlim Quran üstədi.
Meyvələrdən meyvə var,
Hamı onu istədi. – **Çiyələk, firəngi tut**

Uzaqda gördüm qara-qara,
Yaxına getdim həzar para.
Ağzıma qoydum, qondu şəkər,
Ətəgimdən tutub çəkər. – **Qoz, girdəkan**

Ağacın tutmaq olmaz, ətrindən yatmaq olmaz. – **Qızılgül**

Uzun-uzun uzanar, özünə saqqal qazanar. – **Qamış**

Uzunca qız uzanar, həftədə bir bəzənər. – **Sarmaşıq**

Çatı su içər, dana köpər. – **Göbələk**

Hələ-hələ, arxan dolaşdı külə. – **Sarmaşıq**

Çəpər üstə çal xoruz. – **Boranı**

Ağac başında tüklü yumaq. – **Şaftalı**

Ağac başında qırmızı yumaq. – **Alma**

Ağac başında gözü palçıqlı qarı. – **Əzgil**

Ağac başında bir torba un. – **İydə**

Üstü buz, içi qırmızı. – **Şaftalı**

Babam atdan düşdü, donu bənddən düşdü. – **Göy qoz**

Atası evdə oturar, oğlu bazarda gəzər. – **Üzüm**

Ammaz, ummaz, yerə düşsə, sınmaz. – **Yarpaq**

O yanı taxta, bu yanı taxta,
İçində yaşayır tafta. – **Fındıq**

Nə zər dindi, nə bafta,
İçində yaşayır tafta. – **Püstə**

Göydən bənir-bənir,
Yerə düşür diyirlənir,
Vur başına, otur gəmir. – **Qoz, girdəkan**

Ətindən kabab olmaz,
Qanından kasa dolmaz. – **Nar**

Əyri anam, görçək bacım, dəli qardaşım – **Üzüm ağacı, üzüm, sərçə**

Deyir, mənə dən gəlir,
Durun görün kim gəlir?
Toxunmasın çuvala,
Daratılmamış un gəlir. – **İydə**

Bircə damcı unu var, qırmızıdan donu var. – **İydə**

Qırmızı xoruz bağda, dimdiyi torpaqda. – **Turp**

Qırx, qırx bir otaq, içində tək bir otaq. **– Kələm**

Qara toyuq qaqqıldadı, qanadları şaqqıldadı. – **Şah palıd**

Dağdan salıram, sınmır,
Daşdan salıram, sınmır.
Bir yumruq vururam, sınır. – **Soğan**

Gündüzlər gülər, gecə mürgülər. – **Günəbaxan**

Mən aşıq ikisinə,
İki dal, iki sinə.
Bir ağacdan beş alma,
Gün düşüb ikisinə. – **Dombalan**

Nə qapısı var, nə bacası,
İçində sərçə balası. – **Qarpız, barama, yemiş**

Hallanar, hallanar, qızıllar sallanar. – **Zoğal**

Ağac başında qarğa, ağzı dolu qorğa. – **Xaş-xaş**

Bir balaca boyu var, yamanca bir odu var. – **İstiot**

Sarı-sarı sandıqlar, içi dolu fındıqlar. – **Qabaq, boranı**

Salam ay qəssab başı,
Məni göndərib yüz başı.
İki girvənkə ət istərəm,
Nə yazı olsun, nə qışı. – **Göbələk**

Bir evim var, bir dirəkli. – **Göbələk**

Ay gedir, il gedir, gecə-gündüz yol gedir. – **Su**

At deyil qaçır, meşə deyil səs salır. – **Axar çay**

Biri deyir gəl gedək, biriysə başını bular. – **Su, qum. Yaxud: daş, qamış**

Qara atlas, əyinə batmaz,
And içər, peyda getməz. – **Sinək, bardaq**

Qaya dibində qaz gedər,
Qaqqıldaşar, tez gedər. – **Su**

Qara nər çökdü yerə, qanımı tökdü yerə. – **Qara aftafa**

Dağda gəlir ərəblər,
Kəndimizə qoymayın,
Kəndimizi xarablar. – **Sel**

Yol üstə bir gəlin oturub
Gələn gedəni suvarır. – **Bulaq**

O tayda durub bir kişi,
Əlində dəmir şişi.
Deyir, mənə bir at göndər,
Nə erkək olsun, nə dişi. – **Gəmi**

Baxaram uzaqdan, görünər yaxında. – **Dağ**

Bir quşum var, qolsuz-qanadsız,
Mən onu vurdum topsuz-tüfəngsiz.
Mən onu pişirdim odsuz-ocaqsız,
Mən onu yedim dilsiz-doqaqsız. – **Hava**

Zər kilim, zəncir kilim,
Gücüm çatmaz, ağır gəlim. – **Yel**

O hansı dağdı ki, qarı olmaz. – **Ağrı dağı**

Üçü bizə yağıdır, üçü cənnət bağıdır,
Üçü yığıb gətirər, üçü vurar dağıdar. – **İlin fəsilləri**

Bir ağacım var, on iki budağı,
Hər budağın dörd zoğu.
Üç yüz altmış altı yarpağı,
Hər yarpağın bir üzü ağ, bir üzü qara. – **İl, aylar, həftələr, günlər, gecə-gündüz**

Bir çırağı var, bəzəyər dağı-daşı. – **Günəş**

Bir səbətdə iki toyuq,
Biri isti, biri soyuq. – **Günəş, Ay**

Bir səbətdə iki aləm,
Birini tapırsan, birini itirirsən. – **Günəş, Ay**

Bir tabaq almaz, sanamaq olmaz. – **Ulduzlar**

Bu gələn necə xandı,
Yaxşı bax, necə xandı.
Qırx səkkiz qızı var, on iki oğlu. – **Həftə, ay, il**

Qumu qazdım, qara çıxdı,
Qumdan minarə çıxdı.
Anadan olan oğlan,
Səhər bazara çıxdı – **Gecə-gündüz**

Göydən bir ağac düşdü,
Barsız, budaqsız.
Bunu bir quş yaladı,
Dilsiz, dodaqsız. – **Qar, günəş**

Min minarə, dibi qara,
Yüz min çiçək, min yarpaq. – **Göy, yer, ulduzlar, ay**

Yaxşı gözəl hamıya baxır,
Üzünə baxanı yandırır, yaxır. – **Günəş**

Yemir, işmir, gecə-gündüz işləyir. – **Saat**

O nədir ki, dayanıbdır dayaqsız,
O nədir ki, boyanıbdır boyaqsız.
O nədir ki, ildə doğar ayaqsız. – **Göy, ilan**

Pambıq pambıq içində,
Pambıq sandıq içində.
Göydən yerə od düşdü,
Biz də yandıq içində. – **Günəş**

Hürü hürünü dindirmir,
Hürü birini dindirmir.
Ağacın üç armudu var,
Bir-birini dindirmir. – **Göy, günəş, ay**

Bir balaca boyu var, dam dolusu toyu var. – **Çıraq**

Biri gedər, gəlməz, biri yatar, durmaz. – **Tüstü, yel**

Bu gün çəhrşənbədi,
Qəlbimə düşən nədi.
Dəryadan tüstü qalxır,
İçində pişən nədi? – **Qəlyan**

Yanları su, ortası od. – **Samovar**

Altı cəhənnəm, üstü su. – **Samovar**

Nədəndi ha, nədəndi,
Ağ gümüşdən bədəndi.
Ortasına od düşüb,
Gedin görün nədəndi? – **Samovar**

Göydə gedər, gəlməz. – **Tüstü**

Əyri-üyrü, hara gedirsən?
Təpəsi dəlik, sən nə deyirsən? – **Tüstü, baca**

Buxarı ha, buxarı,
Buxarıdan yuxarı.
Buxarıdan bir oğlan çıxdı,
Çıxan olan yuxarı. – **Tüstü**

Dördü yerdə, dördü göydə. – **Heyvanın dörd ayağı, iki buynuzu, iki qulağı**

Ayağı qanad açar,
İnsan görəndə qaçar,
Torpaqsız yerdə bitər,
Yarpaqsız budaq açar. – **Maral buynuzu**

Atdan uca, itdən alçaq. – **Yəhər**

Bağda sürünər gəzər,
Az-az görünər, gəzər.
Oxşayar bir yumağa,
Qorxuram əl vurmağa. – **Kirpi**

Əkdim palıd, bitdi şabalıd,
İçindən bir zoğ çıxdı,
Nə palıddı, nə şabalıd. – **Qatır**

Dörd dərviş bir quruya su tökər. – **İnək əmcəyi, süd**

Bir qamçım var, vura bilmərəm. – **İlan**

Körpü altında dörd bulaq. – **İnək əmcəyi**

Əhmədi atda gördüm,
Əcəb saftada gördüm.
İyirmi dörd ulduzu,
Dörd atın altında gördüm. – **Atın altındakı nal və mıx**

Kəhliyin qan ayağı,
Qan ilə qan ayağı.
Aşıq bir heybət görüb,
Üç başı, on ayağı. – **İnək, buzov, süd sağan**

Maral, maral inəyim,
Qarnı xaral inəyim.
Qarnı ac olanda,
Çəpər yaran inəyim. – **Tısbağa**

Taxçadan düşdü, tap elədi,
Gülsənəm onu happ elədi. – **Siçan, pişik**

Ocaqsız bişən nədir? – **Pənir**

Hər kəs tutmaq istəsə, tikanı əlinə batar. – **Kirpi**

Yük altında ağıllı yumaq. – **Pişik**

Hind hindicə, diş əyricə,
Hara gedirsən, bu yarı gecə? – **Qaban**

A quş, hardan gəlirsən?
Qanlı qaya dibindən.
Qanın niyə quruyub?
Tanrı belə buyurub. – **Kəsilmiş qoyun quyruğu**

A quş, hardan gəlirsən?
Qan bulağından.
Qana niyə bulanmısan?
Öz əməlimdən. – **Süd, quyruq**

Qanadlıdır, quş deyil,
Ölər, başı kəsilməz.
Əti murdar, leş deyil. – **Balıq**

Bağda tappıdar, suda şaqqıldar. – **Balta, balıq**

Yol üstə qazan qaynar. – **Qarışqa**

Erkək də, dişi də balalar. – **Arı**

Aşıq eldən yuxarı,
Şana teldən yuxarı.
Quşlarda necə quşdu,
Dizi beldən yuxarı. – **Çəkilgə (Çəyirtgə)**

Bu dərədən qaz gedər,
Taqqıldaşar, tez gedər.
Qızlar içində qız var,
Yeddi il boğaz gedər. – **Arı**

Bir tapmaca deyim, tapmasan genə deyim. – **Genə**

Qaradır, qarğa deyil,
Qanadı var, quş deyil.
İy bilir, it deyil. – **Milçək**

Qoyun deyil, otlayır,
Quş deyil, yumurtlayır. – **Qarışqa, ilan**

Qatmadan ipək. – **Hörümçək**

Yayda oynayar, qışda düşər qapılar dilənməyə. – **Qarışqa**

Tap bu nədi, tapış nədi,
Çatlağı var, yapış nədi?
Ustam toxur ləli kətan,
Gəlin görək bu iş nədi? – **Yamaq**

Bir çobanım var, min qoyunu otarar. – **Ülgüc**

Əlləməsən durmaz, yaşlamasan girməz. – **İynə, sap**

Sarı qaya üstə ağ quş oturub. – **Samovar, çaydan**

Ğeybdə ğeyb olar, nə əti var, nə qanı. – **Gün**

Dolu gedər, boş gələr. – **Əzrayıl**

Yayda gələr, qışda gedər. – **Bubbu**

O nədir ki, öz başına dolanar. – **Dəyirman**

Tapmaca, tapdım baca.
Məşədi Əli, saqqallı qoca. – **Keçi**

Bir canlı var, eni, boyu bir olar, qolları açıq halda. – **Adam**

İkisi bir ağacın meyvəsi, biri acı, biri şirin. – **Üzüm, şərab**

Dolu gedər, boş gələr. – **Qələm**

Vaxtın nə vaxt gəlsə, gələr. – **Yel, yağış**

Oturmuşdum səkidə,
Ürəyim şəkkidə,
Göydən bir alma gəldi,
Bir qızıl nəlbəkidə. – **Gün**

Dünya onun içindədi. – **Göz**

Suda oturar, yumurta tökər. – **Düyü**

İyirmi dəlik bu yanda, iyirmi dəlik bu yanda. – **Çarıq**

Dağlar, mənə qar göndər,
Əsirgəmə, var göndər.

Əl dəyməmiş dəsmalda,
Gün görməmiş nar göndər. – **Böyrək**

Yer altda çullu yatar. – **Soğan**

Dədəsi müslüm qoca,
Nənəsi lavaşa xatun.
Bacısı el zəyi,
Qardaşı ellər qəmi. – **Üzüm ağacı, üzüm şərabı**

Yerə vurdum baltanı,
Kəsdi qızıl xaltanı.
Yerdən bir oğlan çıxdı,
Yerin-göyün sultanı. – **Buğda**

Bir fındıq arasında bir ümman gördüm. – **Göz**

Əziziyəm əmirdəndi,
Keçən gün ömürdəndi.
Aşıq bir yemiş yeyib
Saçağı dəmirdəndi. – **Kabab, şiş**

Bazarda meyvə gördüm, çərdəyi dəmirdəndi. – **Kabab, şiş**

İkini üç eyləmişəm,
Otuz ikini heç eyləmişəm.
Uzağı yaxın eyləmişəm. – **Qocalıq**

Dağdan gəlir banu xanım,
Əlləri xınalı xanım.
Dindirsən, farsi deyir,
Dindirməsən, ərəbi xanım. – **Kəklik**

Bir heyvan var oymalı,
Üstü qızıl döyməli.

Hər kim onu tapmasa,
Bir cüt öpüş verməli. – **Balıq**

Göydən gəlir hənir-hənir,
Yer düşür həlqə, dəmir,
Daşıyla sındır, dişiylə gəmir. – **Qoz, girdəkan**

Ağac başında ağca yumaq. – **Qar**

Adam deyil, hey qaçır,
Teşə deyil, səs salır.
Torpağa o can verir,
Adamlara can verir. – **Su**

Ayağı yoxdur qaça, qanadı yoxdur uça. – **Bulud**

Alçacıq quyu, dambıldar suyu. – **Damcı**

Ata minibdir, donu var,
Qatlamaq olmaz,
İçi dolu əşrəfidir,
Heç saymaq olmaz. – **Göy və ulduzlar**

Atamın yeddi oğlu var,
Yeddisi də bir boyda.
Bir üzləri ağdır, bir üzləri qara. – **Həftə və günlər**

Atdım atana, dəydi kotana,
Suda balığa, düzdə ceyrana. – **İldırım**

Eşikdə sağdı, pambıqdan ağdı,
Evimizə gələndə suya dönər. – **Qar**

Balaca çaxmaq daşı, yandırar dağı, daşı. – **Günəş**

Balta vurdum nimçəyə, səsi getdi Gəncəyə. – **Göy gurultusu**

Basdırmışam iki toyuq, biri isti, biri soyuq. – **Yay, qış**

Bir ağac yıxılıb qolsuz, budaqsız,
Bir quş onu yeyir, dilsiz, dodaqsız. – **Qar, Günəş**

Bir atım var, cilovda durmaz,
Gecə gedər, gündüz yorulmaz. – **Ay**

Bir tabaq alma, sabaha qalma. – **Ulduz**

Bir çatım var, hey yığıram, qurtarmır. – **Yol**

Bir çobanım var, bir sürü qoyunu
Gündüzlər yatar, gecə otarar. – **Ay, ulduzlar**

Qara toyuq qaqqıldar, qanadları şaqqıldar. – **Bulud**

Dağdan gələr, daşdan gələr,
Bir qudurmuş aslan gələr. – **Külək, yel**

Dam dambıldar, heyva çalar, nar oynadar. – **Göy gurultusu və dolu**

Dam üstə dana dingildər. – **Dolu**

Əlamət, ay əlamət,
İşi yaman qiyamət.
Əli yox, şəkil çəkir,
Dişi yox, dişləyir. – **Şaxta**

Əmim oğlu ustadır,
Əli kitab üstədir.

Su üstə körpü çəkir,
Gəl gör necə ustadır. – **Su**

Əlsiz-ayaqsız qapını açır. – **Külək, yel**

Yer üzünün ağaclarının anası. – **Torpaq**

Yerə vurdum baltanı,
Ağzı gümüş xaltanı.
Yerdən bir oğlan çıxdı,
Cümlə-aləm sultanı. – **Su, bulaq**

Göy üzü damar-damar,
Göydən yerə nur yağar. – **Yağış**

Göydən düşdüm ağappaq,
Oldum ağ şal, ağ papaq.
Meyvələri düşürtdüm
Vurdu birdən-birə,
Əriyib keçdim yerə. – **Qar**

Göydən yerə dürr yağır,
Görün necə duz yağır.
Qoz boyda, görmədim qarpız boyda. – **Dolu**

Göydən gələ-gələ,
Düşür girdə-girdə.
Bunun adı nədir?
O qədər oyanmışlar.
Xurd-xəmir olmuşlar. – **Qar**

Göydən gəlir yel kimi,
Yerə dəyir tel kimi. – **Günəş işığı**

Gün çıxanda yox olur,
Gün batanda çox olur. – **Ulduzlar**

Mavi atlas, əyinə batmaz,
Qayçı kəsməz, tərəzi çəkməz. – **Göy, səma**

Min minarə, dibi qarə,
Yüz min çiçək, bircə yarpaq. – **Göy, yer, ulduzlar, ay**

Nə otu var, nə torpağı,
Başı göydə, dibi yerdə
Keçi gəzər hər yerində. – **Qaya, təpə**

O nədir ki, dayanıbdır dayaqsız,
Boyanıbdır boyaqsız. – **Göy və yer**

O nədir ki, silahı yox atışar,
Atışanda bir-birinə qarışar. – **Bulud**

Suda batar, suda itər. – **Buz**

Uzaqdan baxar ağarar,
Yaxın gedərəm, bağırar. – **Dəniz, dərya**

Çəpərə düşdü, səs salmadı. – **Ay işığı**

Uzaqdan baxıram yaman çox,
Yaxına gəlirəm heç nə yox. – **Çən, duman, meh**

Ağ qıza əl uzatdım, saçı yumuşaq. – **Pambıq**

Ağacın tutmaq olmaz,
Ətrini duymaq olmaz. – **Gül**

Acı yarpaq doğrandı,
Urbalara qablandı.
Bazarlara yollandı. – **Tütün**

Bağrım başı zədələndi,
Zədələndi, zərbələndi.
Yaşıl əkdim, al-qırmızı tökdü,
Görən əsli nədəndir? – **Sumaq**

Bahalıdır qiyməti,
Hamı çəkir minnətin. – **Zəfəran**

Ənbər havası var bunun,
Təhfə əzası var bunun.
İynə ilə dəlik-deşik,
Gör nə səfası var bunun. – **Limon**

Yaşıl əkdim, al-qırmızı bitdi,
Saçım-saqqalım içdi. – **Xına**

Nədir ki, boyanıbdır, boyaqsız. – **Qızılgül**

Rəngi qardan da ağdır,
İpək kimi yumşaqdır. – **Pambıq**

Sarı əbası var bunun,
Büzmə yaxası var bunun.
Üstü çopur, içi dilim-dilim,
Gör nə səfası var bunun. – **Portağal**

Aşmaz, uçmaz,
Yerə düşəndə beli sınmaz. – **Yarpaq**

Əynində yaşıl donu,
Damarları görsənir. – **Yarpaq**

Əynim var, eşikdədi,
İl-ay eşikdədi.
İldə bir yol sayılar,
Özü yenə eşikdədi. – **Bağ**

Yağış yağanda çimər, yuyunar,
Yazda geyinər, qışda soyunar. – **Ağac**

Əlaca ha bulaca,
Səpdirmişəm yamaca.
Düz dırmaşar ağaca. – **Lobya**

Bağda bitər, tağı yox,
Nə qədər sıxsan, yağı yox. – **Bibər**

Bədəni yerdə, saqqalı göydə. – **Turp**

Bir qar əcayıl daşı,
Yandırar dağı, daşı. – **İstiot**

Bir quşum var alaca,
Getdi qondu ağaca.
Özünə bir yuva tikdi,
Nə qapı qoydu, nə baca. – **Balqabaq**

Bostanda var ağa arvad,
Paltar geyib qatbaqat. – **Kələm**

Bir küpüm var, yaşıl zolaq,
Qar içində qara oğlan.
Bıçaq vursan, çatlar.
Yesən, canın rahat olar. – **Qarpız**

Bir qədər inəyim var, hamısı qaşqa. – **Lobya dənəsi**

Bostanda var gombul kosa,
Üstü buzdur, içi ala qırmızı.
Əzsən, dolar qanla kasa. – **Çuğundur**

Qırmızı toyuq bağda,
Dimdiyi var torpaqda. – **Qırmızı turp**

Qırx paltarlı yumurta,
Dağdan düşsə, qırılmaz,
Bir yumruğa əzilər. – **Soğan**

Əziziyəm, qəssab ağlar,
Sarı don, qəssab ağlar.
Ölən qoyun ağlamaz,
Öldürən qəssab ağlar. – **Soğan**

Yer altında sarı biz. – **Yerkökü**

Ləyəndə, ay ləyəndə,
Güllər boyun əyəndə.
Yeyilər kal vaxtında,
Yemək olmaz dəyəndə. – **Xiyar**

Nə qapısı var, nə bacası,
İçi dolu sərçə balası. – **Qarpız toxumu**

O nədir ki, başı yerdən nəm çəkər,
Qol-qanadı havada əsər. – **Ağ turp**

Uzunsovdu yumurta,
Xoşlanır sayında.
Yay ayında yol olar. – **Qovun, yemiş**

Çatı ipi su içər, dana köpər. – **Boranı**

Çoxlu tağ atar, torpaqda yatar,
Qoyma yetişsin, kal-kal dər apar. – **Xiyar**

Qəlbim al-qırmızı yastığım,
Ortasında uzun dirək,
İçində un basdığım. – **İydə**

Ağac başında bir torba un. – **İydə**

Ağac başında bığlı qoca. – **Əzgil**

Ağac başında qırmızı qız. – **Zoğal**

Ağac başında sarı torba, içi dolu qurusu. – **Əncir**

Ağac başında qırmızı yumaq. – **Alma**

Ağac başında darı qurusu,
Dağar çıxdı sözün doğrusu
İçi dolu bal qurusu. – **Əncir**

Ağac başında sarı yemiş. – **Xurma**

Ağac başında tüklü yumaq,
Bir üzü ağ, bir üzü sarı. – **Şaftalı**

Ağzı yağlı bir təndirim var,
İçi iki çörək tutar. – **Qoz, girdəkan**

Altı taxta, içində yaşıl paxla. – **Püstə**

Anası yaman xatın,
Atası həprim qoca.
Qızı ellər gözəli,
Oğlu evlər dəlisi. – **Üzüm, yarpağı və şərabı**

Dağda bitər, tağı yox.
Nə qədər sıxsan, qanı yox. – **Şabalıd**

Biz biz idik, yüz qız idik,
Bizi büzdülər, ipə düzdülər. – **İpə düzülmüş əncir qurusu**

Bir ağacım var dam boyda,
Meyvəsi gavalı boyda. – **Qoz ağacı**

Bir balaca boyu var,
Al qırmızı atlasdan donu var.
Qu tükündən yüngüldür. – **İnnab**

Bir balaca boyu var, qırmızıdan donu var. – **Zoğal**

Vay, dədə, papağım ağacda qaldı. – **Ağacda quruyub qalan qoz qabığı**

Qutu-qutu içində
Fatmanın ağ pambığı,
O da qutu içində. – **Şah palıd**

Dağ başında bir damcı qan,
Hər tərəfi yaşıl orman. – **Şah tut**

Ətindən kabab olmaz,
Qanından kasa dolmaz. – **Nar**

Yaşıldır əbası, sarıdır libası. – **Badam**

Göydən bir şirin dənə düşdü,
Toyuqlar ora yığışdı. – **Tut**

Məhəmməd Bağır bağında,
Gül budağında.

Yel vurar yelləndirər,
Guşvara qulağında. – **Gilas, gilənar**

Nə zərindir, nə bafta,
İçində yaşıl tafta. – **Püstə**

O yanı sarı taxta,
Bu yanı sarı taxta.
Ortası uzun, yeməli. – **Badam**

O nədir ki, əl vurarsan, qanı tökülər – **Qırmızı tut**

Həzər-həzər gedər,
Mehdi bazara gedər.
Anası üç yaşında,
Oğlu bazara gedər. – **Üzüm**

Hacılar haca gedər,
Cəhd edər, gecə gedər.
Bir yumurtanın içində cücə gedər. – **Nar**

Həstədi ay, həstədi,
Şəki Şirvan üstədi.
Eşiyi qızıl kərpic,
İçi badam üstədi. – **Fındıq**

Ağac başında darı qutusu. – **Xaşxaş**

Aşıq ağladı getdi,
Ciyər dağladı getdi.
Əlli dəvə yük qatır,
Bir sıxa bağlı getdi. – **Qarğıdalı**

Balacayam, sarıyam,
Deməyin ki darıyam.

Sizə çörək oluram,
Zəmilərin barıyam. – **Buğda**

Başını kəsdim, qanı yox,
Cücələrinin sayı yox. – **Darı**

Bir il əkərlər, yeddi il biçərlər. – **Yonca**

Evimizdə bir kişi var,
Bir şələ saqqalı var. – **Süpürgə**

Zülfün ucu gümüşdür,
Sal boynuva, ilişdir.
Yemişlərin içində
Yarpaqsız nə yemişdir? – **Yer alması, danbalan**

İlim-ilim xəstəsi,
İçi xatun dəstəsi.
Hər kəs onu tapmasa,
Yeddi ilin xəstəsi. – **Üzərlik**

Məşədi kişi, nə erkəkdi, nə dişi,
Papağı yekə, ayağı təkcə. – **Göbələk**

Meşədi, çəməndi otağım mənim,
Özümdən yekədir papağım mənim. – **Göbələk**

Özü al, ala,
Yeridir tala.
Paradır, para,
Qəlbi qapqara. – **Lalə**

Uzun qız uzanar,
Özünə köynək qazanar. – **Qamış**

Uzun qız uzanır,
Hər səhərlər bəzənir. – **Sarmaşıq**

Uşaqlıqda ağ saqqal,
Cavanlıqda al-qırmızı saqqal,
Qocalıqda qara saqqal. – **Böyürtkən**

Halalar, ay halalar,
Dağda dovşan balalar.
Ayağından su içər,
Dimdiyindən balalar. – **Çəltik**

Ağ atım axmaz,
Qayadan qopmaz atım. – **Kərtənkələ**

Ağ saqqal bəydirəm,
Buynuzlaırm əydirəm.
Mən keçdiyim yollardan
Qoyun-quzu gətirrəm. – **Keçi**

Ağanəzər, dağlar gəzər,
Adı dağları bəzər.
Başında ağac gəzər. – **Maral**

Ağzın açar,
Zəhər saçar,
Arvad, uşaq ondan qaçar. – **İlan**

Adam deyil, əl-ayağı, dişi var.
Əcəb şeydi, qaravəlli işi var. – **Meymun**

Alaca arğa, ləpləri yorğa. – **Qurbağa**

Alaca mənzər, qapılar gəzər. – **İt**

Altı bulaq içərlər, üstü zəmi biçərlər. – **Qoyun**

Altı taxta, üstü taxta,
Oturub bir ağ otaqda.
Qoyun deyil, otlayır = ot otlayır,
Toyuq deyil, yumurtlayır. – **Tısbağa**

Aralıqda heyvan gəzər,
Mal-qaraya olar nəzər,
Səs-səmiri kəndi bəzər. – **İt**

Asta gəlir izi yox,
Şıllaq atır, izi yox. – **Balıq**

Bağda sürünər gəzər,
Az-az görünər, gəzər,
Oxşayar bir yumağa,
Qorxuram əl vurmağa. – **Kirpi**

Bir atım var, minə bilmirəm,
Ağzın açsa, qaça bilmirəm. – **Şir**

Bir bağlı böyrək, çuvaldan çıxdı,
Xorhaxor kişi, ağzına tıxtı. – **Siçan, pişik**

Boyu bənzər əriyə,
Qaçar girər dəliyə. – **Siçan**

Bir öküzüm var, iylənmiş ət yeyə. – **Ayı**

Qanadı var, uça bilməz,
Quruda da = quru yerdə qaça bilməz. – **Balıq**

Qatar-qatar söyüdlər,
Başı bağlı igidlər. – **Dəvə**

Qulaqları şəkk olur,
Əlləri gödək olur.
Ayaqları çox uzun,
Çox sevir bostandakı qarpızı.
Qorxaqdır ancaq,
Səs gəldi, qaçacaq. – **Pişik**

İynəsi çoxdur, sap yeri yoxdur. – **Kirpi iynəsi**

Yer altında qızıl qamçı. – **İlan**

Yer altında ağıllı küt. – **Porsuq**

Yol üstə yoğun oxlov. – **Koramal**

Kolları gəzər pusa-pusa,
Qıçları uzun, qolları qısa. – **Dovşan**

Gecə çağında, gül qırağında,
Görək neyləyir qur-qur. – **Qurbağa**

Gözlərində çırağı var,
Dişlərində qarmağı var. – **Qurd, Canavar**

Məşədi, bir qız gördüm, gözləri şəhla,
Düşdüm onun evində qaldım, tək-tənha. – **Ceyran**

Seydili seydi üzlücə,
Seydili siçan üzlücə,
Seydili, hara gedirsən?
Yüz min cida üstünə. – **Kirpi**

Nağaraçı hey nağara çalır,
Nə nağarası var, nə çubuğu. – **Ağacdələn**

O yanı taxta, bu yanı taxta, şaqqulu bir otaqda.
=Altı taxta, üstü taxta, şaqqulu bəy otaqda. – **Tısbağa**

O nədi ki, evimizə gəlməz, sədaqəti evdə gəzər? – **İt**

O nədir ki, anası gedər qabaqda, balası qalar dalda? – **At və balası**

Ovun alsan mırıldar, sığallasan xoruldar. – **Pişik**

Saqqalı uzun bəyzadə, qabaqda gedər haramzadə. – **Keçi**

Talalar ha talalar, talaya yol salallar,
Nə erkəyi, nə dişisi balalar. – **Qatır**

Hini hinnicə,
Əyriçə, yumruca,
Tükü iynəcə. – **Çöl donuzu**

Ağ otun arasında, od düşdü talasında,
Hansı quşdu, süd verər balasında? – **Gecə quşu, şəbpərə**

Altı-üstü keçi şabalıd, quyruğu qayçı. – **Qaranquş**

Axşam yığılar səssizcə, gecə dağılar köylücə. – **Toyuq, cücə**

Axşam çağında, ərik bağında,
Uçardı bir quş, edərdi qar-qar. – **Qarğa**

Balaca bir quşam mən, hər tərəfə qar yağıb,
Soyuqdan donmuşam mən.
Dən gəzirəm cik-cik, görməsin məstan pişik. – **Sərçə**

Başı daraq, quyruğu oraq,
Tezdən durar, sürünü vurar. – **Xoruz**

Bu quşa bax, qapqara, səsi düşüb dağlara,
Bircə sözü var-var, hey danışar qar-qar. – **Qarğa**

Dağdan gəlir banu xanım, əlləri xınalı xanım. – **Kəklik**

Dili də var, ağzı da, heç danışmır adamla. – **Quş**

Əyri boyun, sarı dimdik,
Gödək ayaq, yaşıl papaq,
Suda gəzər yastı yapalaq. – **Ördək**

Yumru-yumru sarıydı.
Yumru gözü darıydı.
Gəzir bizim bağçada
Üç həftənin barıydı. – **Cücə**

Gəlirdim kənddən, səs veri bərkdən,
Ağzı sümükdən, saqqalı ətdən. – **Xoruz**

Gündüz yatar yuvada, gecə gəzər obada. – **Gecə quşu, şəppərə**

Səhər çağında, gilas bağında,
Uçurdu bir quş, edirdi cik-cik. – **Gecə quşu, şəppərə**

Tap-tapmaca, gül yapmaca,
Məməli xatun, dişləri yox. – **Toyuq**

Ayağı var, səkkis ədəd,
İn vursanız ilcək,
Havadadır, qanadı yox,
İpək toxur, cəhrəsi yox. – **Hörümçək, tor atan**

Araba gedər tozu yox,
Suda üzər izi yox
Zirzəmidə qışlamış dəri var, tükü yox. – **Zəli**

Aşağı gedərəm ley-ley,
Yuxarı gedərəm ley-ley,
Nə sümüyü var, nə iliyi. – **Kəpənək**

Başı yerdə, dalı göydə. – **Yer qurdu**

Aşıq eldən yuxarı,
Cida teldən yuxarı,
Quşlarda hansı quşdu,
Dizi beldən yuxarı. – **Çəkikkə (Çəyirtgə)**

Bir balaca xallı şey,
Üstü qızıl, allı şey.
Qoydu bizim dolçaya
Şirin, sarı, dadlı şey. – **Bal arısı**

Bir balaca mil daşı, yandırdı yanın qaşı. – **Birə**

Bir quşum var alaca,
Uçar, qonar ağaca.
Ağacda bir ev tikər,
Nə qapı qoyar, nə baca. – **Baramaqurdu**

Bir quşum var dıqqana,
Gecə çıxar tavana.
Ürəyi şir ürəyi,
Özün yıxar oddana. – **Pərvanə**

Bir çanaq üzüm, yollara düzüm,
Boğazı, beli büzüm, ha büzüm. – **Qarışqa**

Bu quş necə quşdu,
Qanadı qırılan quşdu,
Ot otlar qoyun kimi,
Su içər, necə quşdu? – **İpək qurdu**

Buynuzu var, qoç deyil,
Qanadlıdır, quş deyil.
Qanadında xalı var,
Qanı yox, cəsədi var. – **Kəpənək**

Qanadı var uçmağa,
İynəsi var sancmağa.
Sevir işi, zəhməti,
Hər yerdə var hörməti. – **Bal arısı**

Dağdan gəlir halahal,
Ayağında tasma tal.
Toxur ipək parçalar,
Satılmır ki alalar. – **Tor atan**

Dağlarda lalə gəzir,
Əldə piyalə gəzir.
Nə doğmur, yumurtlamır,
Dalınca bala gəzir. – **Arı**

Əlsizdi, həm ayaqsız,
Dirmanır nərdivansız. – **İncə qurd**

Ətini qoyar, sümüyünü yeyər. – **Diş qurdu**

İlim yuvası var bunun,
Səbzi libası var bunun.
İynə ilə dəlik-deşik,
Gör nə libası var bunun. – **Arı və pətək**

Yazda yığar yeməyini,
Çox sevir öz əməyini.
Yeyib yatar baharadək,
Nədir adı, tapın görək? – **Qarışqa**

Görən deyir cansızam,
Mən qan soran qansızam.
Gölməçələr məskənim,
Tapın hansı biz-bizəm. – **Ağcaqanad**

O nədir ki, bədəni var, başı yox. – **Yer qurdu**

Su dibində yatan,
Qara palçığa batan,
Həkim dərmana satan,
Ağzı qara, gözü yox. – **Zəli**

Ağ atı altda gördüm,
Qızı siratda gördüm.
Altı ulduz bir atın altda gördüm. – **At nalı və onun mıxları**

Ağ quş, hardan gəlirsən?
Qan bulağından.
Qana niyə batmayıbsan?
Öz əməlindən. – **Süd**

Ağ dəryanın suyun qızdır,
Özü tamam ağca buzdur. – **Südün qaymağı**

Ağacım budaq açar,
Meşədə budaq açar.
Torpaqsız yerdə bitər,
Yarpaqsız budaq açar. – **Maral buynuzu**

Ağac motal ağzı yox,
İçində ağ, sarı çox. – **Yumurta**

Əlini atda gördüm,
Əyin suratda gördüm,
Ayparanı, bir atı, ayağı altda gördüm. – **Nal**

Atdan uca,
İtdən alçaq.
İçi yundu,
Üstü saçaq. – **At yəhəri**

Bizdən sizə yol gedər,
Tük bədənə qol gedər.
Bir ovucdan çox yesən,
Gözlərindən sel gələr. – **Motal**

Bir quşum var üzər suda,
Dura bilməz heç quruda.
Dərisində pulları var,
Saqqalı yox, bığları var. – **Bığlı balıq**

Bir daşım var yumru,
Suya salsam əriyir,
Torbada bərkiyir. – **Qurut**

Bir çiçək mil daşı,
İçində bilər aşı.
Bişirsən aş olar,
Bişirməsən, quş olar. – **Yumurta**

Bir usta var, bəz toxuyar,
Heç kim onu geyə bilməz. – **Hörümçək toru, yaxud torçunun toru**

Bu gün şənbədi,
Könlümə düşən nədi?
Odsuz-ocaqsız ağ quş,
Qazanda bişən nədi? – **Dələmə**

Bu gün şənbədi,
Könlümə düşən nədi?
Nə odu var, nə közü,
Ğeybdən bişən nədi? – **Pənir**

Vızhavızla uçan quşum,
Çiçək üstə uçan quşum,
Öz-özünə xəlbir toxur,
İçərisi şərbət qoxur. – **Arı pətəyi və bal**

Qapqaradı o qatmış,
Qılıncını uzatmış.
Qılınc sümük üstədir,
Sümük dirək üstədir. – **İnək və buynuzları**

Qaranlıqda qan uyuşar. – **Qatıq**

Dostum mənə nar göndərdi,
Yox demədi, var, göndərdi.
Çalxamış süd-qatıqdan,
Çalxanmamış yağ göndərdi. – **Qoyun quyruğu**

Dörd dərviş bir quyuya su tökür. – **İnəyin əmciyi, süd sağmaq**

Əl-əlşə qarğalar dar ayaqda qarıldar. – **At ayağının vurulan mıxları**

Əlim ətdə.
Gözüm güldə.

Qulağım səsdə. – **Qoyun sağanın durumu**

İki təndirdə bir kösöv. – **İnəyin dilini burnunun bacasna soxması**

İlim-ilim düyməsi,
İlim xatun düyməsi,
Həştad səkkiz düyündə
Doxsan doqquz düyməsi. – **Balıq toru**

Yayda donar, qışda əriyər. – **Qurud**

Mən aşiqəm, düz bağlar,
Əyri çəkər, düz bağlar.
Aşiq bir hikmət görüb
Od içində buz bağlar. – **Qaymaq**

O yanı qaya,
Bu yanı qaya.
İçində atlı çapar. – **Yumurta**

O yanı taxta,
Bu yanı taxta.
İçində ağca maya. – **Nehrə yağı**

O yanı çəpər,
Bu yanı çəpər.
İçində atlı çapar. **– Tuluq içində ayran**

O nədir ki, iynəsiz, sapsız çətir toxuyur,
Çətirə düşən hey segah zabul oxuyur. – **Şeytan toruna düşən milçək**

Rəcəbi kənddə gördüm,
Yaman səftədə gördüm.

İyirmi dörd ulduzu,
Dörd atın altında gördüm. – **At nalı və mıxları**

Suya çıxar lillənər,
Sudan çıxar dillənər. – **Buxov**

Suya girdi, dağıldı,
Sudan çıxdı, yığıldı. – **At quyruğu**

Çil toyuq, çilmə toyuq,
Başını kəsdim, qanı yox,
Yumurtasını sayı çox. – **Balıq və toxumu**

Ala qapı, zəncir sapı,
Beş budağı, bir yarpağı. – **Əl**

Altı mərmər,
Üstü mərmər.
İçində bir bülbül oynar. – **Dil**

Altı çəpər,
Üstü çəpər.
İçində qara quş oynar. – **Göz**

Ataya dəyməz, babaya dəyər,
Xalaya dəyməz, əmiyə dəyər.
Dəriyə dəyməz, dəyməzə dəyər. – **Dodaq**

Aşağı əyərəm tökülməz,
Qırağı çəpərdi sökülməz.
Yerində sarımsaq əkilməz. – **Göz**

Balaca baqqal, nə versəm udar. – **Ağız**

Bal sapı,
Bala sapı.
Bir budağı,
Beş yarpağı. – **Əl**

Beş dərviş bir quyuya su atır. – **Ağız və barmaqlar**

Bizə qonaq gəlibdi,
Ona quzu kəsmişik.
Nə qonağın dişi var,
Nə quzunun sümüyü. – **Uşaq və ana döşü**

Biz idik, bizlər idik,
Otuz iki qız idik.
Gah əzildik, üzüldük,
Bir taqçaya düzüldük. **– İnsan dişləri**

Bilmədik hardan gəldi,
Ətdən, sümükdən gəldi.
Oraqla ha doğradıq,
Təzədən, birdən gəldi. – **Saqqal**

Bir ağacım var, beş budağı,
Hər budağda beş sədəf. – **Bilək, barmaqlar və dırnaqlar**

Bir tayada yeddi bulağım var,
İkisi şurdu, ikisi şura yaxındı,
Biri şirindi, ikisi zəhər. – **Göz, burun, ağız və qulaq suyu**

Bir qıllıca yumağım var,
Yeddi dəlik-deşiyi var. – **Kəllə**

Bir quyum var, qıraqları tük çəpər. – **Kirpik**

Bir qutum var, özü açılır, özü yumulur. – **Ürək**

Bir damım var, içi dolu ağ yarmaca. – **Ağız və dişlər**

Bir donum var, tikişi yox. – **İnsan dərisi**

Bir evdə iki qardaş var,
Ha gedirlər, bir-birini keçə bilmirlər. – **Ayaqlar**

Bir dəyirmanım var, hər nə töksən dartar. – **Ağız**

Bir qapım var, içi dolu ağ yarmaca,
Nə salsan, orda olar parça-parça. – **Ağız, dişlər**

Bir kişi var, əlində kələnti,
Meşəli dağdan ilxı endirir. – **Başın qırxılması**

Bir küpüm var saçaqlı,
Yeddi bacası var,
Üçü cütdü, biri tək. – **Göz, burun, qulaq bacası və ağız**

Bir körpü var, altında iki yol. – **Burun**

Bir tabaq təzəbətəzə,
Yaşdır, qurumaz,
Nəmdir, çürüməz. – **Dil**

Bir təndirim var, bir çörək tutur. – **Ağız və dil**

Bu yanı taxta,
O yanı taxta.
Şaqqulu bəy otaxda. – **Beşikdə uşaq**

Bu gün adınadı,
İşlər avandınadı.

Qaradan ağ bu yandı,
Tapın görək adı nədi? – **Baş tükünün ağarması**

Qalın qamış içində oturmuşdu bir cüt quş,
Qapıbir qonşudular bir-birini görmürlər. – **Gözlər**

Qalxdım təpəyə,
Düşdüm küpəyə. – **Ayaqlar və çəkmə**

Dağdan yerə sallanır,
Hər nə versən, allanır. – **Uşaq**

Dam üstə çatı qırığı. – **Qaş**

Dedi-dedi deyirəm dəyməz,
Dəymə deyirəm deyir. – **Dodaq**

Əzəli durdu ayaqlı,
Sonra iki ayaqlı.
Aylar keçir, il keçir
Dolaşır üç ayaqlı. – **Uşaqlıq, cavanlıq, qocalıq**

Əziziyəm, biri iki,
Sağı, solu biri-iki
Bir əlamət görmüşəm,
Durdu uçdu biri iki. – **Əlin barmaqları və bükükləri**

Əziziyəm, doqquz günə,
Doqquz ay, doqquz günə.
Qaranlıqdan kim çıxar,
Doqquz ay, doqquz günə. – **Təzə doğulmuş uşaq**

Əkilməz biçilər, biçilməz yeyilər. – **Baş tükləri**

Ətlə sümük balta sapı,
Beş yarpağı, bir budağı.
Al deyəndə açılar,
Ver deyəndə yumular. – **Əl**

Gecə ölü, gündüz diri. **– Adam**

Mən baxıram, o yan qaçır. – **Qulaq**

Mənim beş qardaşım var,
Biri hər gün danışar.
İkisi qulaq asar,
İkisi durub baxar. – **Ağız, qulaq, göz**

O yanı çəpər,
Bu yanı çəpər.
İçində altı çapar. – **Göz**

O kimdir, yeyər, içər, gözə görünməz. – **Ana bətnində uşaq**

O nədir ki, adamda var, adı yox. – **Burun altı**

On inəyim var, onu təpəl. – **Dırnaq**

Sarı təpə, qarı meşə. – **Baş və tüklər**

Tərəzidə çəkilməz,
Bazarlarda satılmaz.
Baldan şirin dadı var,
Yemək olmaz, canı var. – **Körpə uşaq**

Üç bulağım var.
Biri şirin,
Biri acı,
O biri şor. – **Ağız, qulaq, göz**

Fil işlər,
Filban işlər,
Susuz dəyirman işlər. – **Ağızda dişlər**

Haça üstə küp,
Küpün üstə tüp. – **Qıçlar, bədən, baş, can**

Hər həftə başın kəsərəm,
Nə qanı çıxar, nə canı. – **Dırnaq**

Cavanlıqda olar qara,
Qocalıqda oxşar qara. – **Saqqal**

Ağzın aşağı tutaram, dolar,
Yuxarı tutaram, boşalar. – **Papaq**

Aldım qazan,
Saldım quyruq.
Əridi qazan,
Qaldı quyruq. – **Başmaq**

Altı qamış,
Üstü keçi. – **Çust, başmaq**

Vəznidə yüngül,
Qiymətdə ağır. – **Cəvahir**

Qapı-qapı,
Zəncir sapı.
Dörd budağı,
Beş yarpağı. – **Güşvara**

Qıllı çuval,
Qılça girər. **– Corab**

Qoyun dərisi,
Düzüldü tərsi.
Yumru küpəsi,
Başı təpədi. – **Papaq**

Qıllı torba, ət lülə. – **Corab və ayaq**

Qolu var, qıçı yoxdur,
Adı var, sanı yoxdur,
Qarnı yırtıq, canı yoxdur. – **Köynək**

Qulaq üstə yumru quş. – **Güşvarə**

Dağdan gəlir bir buzov,
Bir burnu var, qıx gözü. – **Çarıq**

İyməz küpə, yeriməz küpə,
Yüz il qalsa da, çürüməz küpə. – **Qızıl**

Ətdən şiş, qızıldan kabab. – **Üzük**

Yumru təkər, barmağa keçər. – **Üzük**

Mən aşıq, bəyi keçdim,
Kasıbı, bəyi keçdim.
Altı qamış, yüz keçi,
Əlimdə çayı keçdim – **Çarığın altı, gamış otu, keçi dərisi**

Səhər durdum, haçaya mindim. – **Şalvar**

Çəkisi bircə misqal,
Qiymətı var mincə dinar. – **Brilyant**

Ağdır donu, yoxdur canı,

Uzun çadır dırnaqları,
Yerə batır barmaqları. – **Çadır**

Ay doğdu, axtalandı,
Doğduqca axtalandı.
Bazara bir nər gəldi,
Yüz yerdə nuxtalandı. – **Dəyə**

Biz biz idik,
Yüz qız idik.
Bizi üzdülər,
İpə düzdülər. – **Çətən**

Bizdə bircə kişi var,
Hər gələnə əl verir. – **Qapı dəstəsi**

Bizdə bir kişi var,
Təpəsində dəliyi.
Ayağında od yanar. – **Buxarı**

Bizdə dörd gəlin var,
Dördü də bir boy-buxunda. – **Evin divarları**

Bir quşum var, iki qanadlı,
Ha uçar, yerində qalar. – **Qapı**

Bir öküzüm var,
Çulun götürsən,
Qabırğaları sayılar. – **Dəyənin çubuqları**

Bir xalı toxumuşam,
Nə işi, arğacı var.
Aranda qala bilməz,
Dağlarda ağacı var. – **Gecə**

Qara toyuq ələdi,
Qanadları şaq elədi. – **Qapının tayları**

Arşınca əpə,
Gümüşdən təpə.
Dərədə çiçək,
Dəyirman təpə. – **Dəyə**

Gedən leylək, gələn leylək,
Daban üstə duran leylək,
Həm taxtadı, həm dirək. – **Qapı**

Gecə boşalar, gündüzlər dolar. – **Yorğan-döşək üçün yük yeri**

Ləkləmişəm, əkləmişəm. – **Evdəki dirəklərin arası**

Minarə ha, minarə,
Hayçı tamam qapqara.
Təpəsi açıq olur,
Dibində həm qara. – **Baca**

Tıqqı-tıqqır ləzgilər,
Bizə qonaq gəldilər.
Qoyun-keçi yunundan
Evə palaz sərdilər. – **Keçi palazı**

Ha gedər,
Hu gedər.
Bir qarışca yol gedər. – **Qapı**

Evdə oxlov yağlıdı,
Başı qatma bağlıdı. – **Şəm**

Ağac için oydular,
Kəndə koxa qoydular. – **Təknə**

Ağacdan əti,
Dəmirdən qatı insan illəti,
Əmək qüdrəti. – **Ayna**

Ağacdan asılıdı,
Təkəri ayaqlıdı.
Adamların əlindən,
Quyruqları belində. – **Tərəzi**

Ağzı poladdan,
Saqqalı sapdan. – **İynə və sap**

Az gedər, ha çox gedər,
Gecə-gündüz yol gedər,
Bir qarışca yol gedər. – **Beşik**

Aləmi bəzər,
Özü lüt gəzər. – **İynə**

Alçaq damdan qar yağar,
Qırağı taxta-taxta – **Ələk-qəlbir**

Axşam açılar, səhər yığılar. – **Yorğan-döşək**

Balaca quyu, tıqqıldar suyu. – **Samavar**

Balaca kişi,
Ağzında dişi.
Hər çəpər hürür. – **Biz**

Balaca naqağalar,
Bizdə sizə yorğalar.

Qovurğadan, fətirdən
Nə istəsən, balalar. – **Sac**

Baldırı bacaq,
Altı bir ocaq. – **Cəhrə**

Barmağı soxdum gözünə,
Ağzını açdı üzümə.
İki qıçı var çarpazı,
Sıxsan, parçalar atlası. – **Qayçı**

Baxsan onun üzünə,
Görünərsən gözünə. – **Ayna**

Başına kələm bağlayar,
Ürəyi vərəm bağlayar.
Oğul-uşağını yığıb
Dəsmal alıb hey ağlayar. – **Samovar**

Bizdə bir kişi var,
Ağzında iki dişi var. – **Maşa**

Bizdə bir kişi var,
Qırx iki dişi var. – **Daraq**

Bizdə bir kişi var,
Qırx-əlli dişi var,
Taxtayla işi var. – **Ərə**

Bizdə bir kişi var,
Dəmirdən dişi var. – **Yun ağacı**

Bizim evdə bir quyu,
İçində ağca suyu.

Suyun içində ilan,
İlanın gözü gövhər,
Gecələr bizə göndər. – **Lampa**

Bizim evdə bir kişi var,
Ağzında üççə dişi var. – **Sac ayağı**

Bir balaca dolçamın gözü var. – **Üskük**

Bir balaca sandıqca,
İçi dolu ağ mıxca. – **Kibrit**

Bir quşum var firəngi,
Talvarda vurar zəngi.
Gecə-gündüz yol gedər,
Yerindədi, yerində. – **Saat**

Bir damım var dəmirdən,
Altı od, içi bədən. – **Qazan**

Bir damım var əl üstə,
Əlini vurar əl üstə.
Alçaq daşın altından
Xırda qar istər. – **Ələk, un**

Bir itim var,
Hürər, hürər,
Burnu şişər. – **Cəhrə**

Bir yumru üzü var,
Quyruqlamasan, dama girməz. – **Qaşıq**

Burdan girər,
Ordan çıxar.

Quyruğunda ipliyi var. – **İynə**

Qapı dalında kilkəli baş. – **Süpürgə**

Qaya üstündə qaraca qul,
Əlini vurma, dalında dur. – **Qıfıl**

Qara eşşək,
Ağ palan.
Qapı-qapı dolan. – **Sac**

Daşı daşlara çaxdım,
Pambığı oda yaxdım. – **Çaxmaq, qov**

El yatdı,
Oba yatdı.
Ölü ayağın uzatdı. – **Cəftə**

Ət dirəyin başında dəmir deşikli papaq. – **Üskük**

Zər zərə yapışdı,
Zər divara yapışdı.
Zərgər oğlu gəlməmiş,
Zər divardan qopmadı. – **Qıfıl, açar**

İki evin düyülər nağarası. – **Xına**

İki kürküm var,
On qardaşa çatar.
Bunu kim tapar? – **Əlcək**

İki halqa, iki uc,
Ortasında bircə puç. – **Qayçı**

Yağını yalar, ağlar,
Quyruğu bular, ağlar. – **Lampa**

Yol içində yoğun əpəy,
İçində cəhənnəm yanar.
Yaş vurar, quru çıxar,
Uşaqlar tabağa yığar. – **Təndir, çörək**

Yumru qız uca gəzər. – **Tərəzi daşları**

Gecə qulluqçu,
Gündüz xanım.
Gecə əzilər,
Gündüz düzələr. – **Yorğan, döşək**

Gecə bağlanır,
Gündüz sallanır. – **Qapı çüftəsi**

Lək-lək, nə soğan ək, nə sarımsaq. – **Nərdivan**

Məşədi ha, məşədi,
Beşi də bir peşədi. – **Corab iynələri**

Nədəndi ha, nədəndi,
Bağrın başı zədəndi.
Qırağı su, içi od,
Gedin görün nədəndi? – **Samovar**

O yanı qaç,
Bu yanı qaç.
İçində odlu ocaq. – **Təndir**

O yanı qaya,
Bu yanı qaya.
İçində ağca maya. – **Nehrə**

O yanı yastı,
Bu yanı yastı.
Dörd ayağını yerə basdı. – **Satur**

O necə ilandır atəşpərəst,
Kimə vursan deşər, eylər şikəst. – **Şiş**

Özü bir barmaq,
Saqqalı qırx barmaq.
Özü dəmirdən,
Saqqalı kəndirdən. – **İynə**

Sarı atlas, iynə batmaz,
And içər, piyada getməz. – **Sinək**

Səhərdən durum, çiynimə mindi,
Boş aparmışdım, dolu gətirdim. – **Göyüm**

Suda balıq, başı yanıq. – **Piltə**
Tərəzi var, təngi var,
Hər bir rəngdən rəngi var.
Salıb üstə oturaram,
Yığıb farmaşa vuraram. – **Gəbə**

Uzun uzun uzanar,
Özünə köynək qazanar. – **Oxlov**

Üç bacı, bir birini qovar. – **Corab iynələri**

Hədiyə banı, hudiyə banı,
Altı ayağı, iki dabanı. – **Tərəzi**

Hini hinnicə, burnu əyricə,
Hər nəyə vursan, bölər ikicə. – **Dəhrə**

Çil toyuq, çilim toyuq,
Başını kəsdim, qanı yox. – **Qalı, xalça**

Ağzı var, dibi bağlı,
Dərisi var, tükü yox. – **Xənçərin qabı**

Altı taxta, üstü taxta,
Arasında dəmir balta. – **Qılınc**

Anası qundaqda yatır,
Oğlu bazara gedir. – **Fişəng**

Atdım atana, dəydi adama,
Ucu şiş, şişpər, uzunca təhər. – **Nizə**

Bir balaca boyu var,
İldıırımdan suyu var.
Əl vursan qudurar,
Hər bir yerə od vurar. – **Tapança**

Bir quşum var, balası özündən tez uçar. – **Fişəng**
Bir quşum var, taxta dəmir,
Yumurtası adam dəlir. – **Tüfəng**

Qara atı yağladım,
Qaya dibinə bağladım. – **Tapança**

Qara toyuq qaqqıldar,
Qanadları şaqqıldar.
Uca ildırım çaxar,
Dumanı dağa qalxar. – **Tüfəng**

Quru qovaq içində yatar qudurmuş ilə. – **Qılınc**

Dar küçədə qulun mələr,
Qabaqdakın yerə sərər. – **Tüfəng və fişəng**

Ərəb əlində, dizi belində,
Bir ucu yerdə, bir ucu göydə. – **Nizə**

İynə gözündən baxaram,
Cümlə cahanı yaxaram. – **Tüfəng**

Para ayı əydilər, uclarını düydülər,
Nizə qoyub içinə, şeytanı əydilər. – **Ox**

Taxta dəmir, gah əyilir, gah düzəlir. – **Bıçaq**

Atsam irəli, qayıtmaz geri.
Desəm ay, ay, əhsən,
Tərsin oğlu tərsəm. – **İradə**

Axşam oldu, qırıldıq.
Səhər oldu, dirildik. – **Yuxu**

Aşıq deyər, paşam ay,
Sultanım ay, paşam ay
İnsan onsuz dolanmaz,
O insansız dolanar. – **Əql**

Bir quş uçurtdum, tuta bilmədim,
Bir kürk geydim, çıxara bilmədim. – **Nəfəsin çıxması**

Bir göz qırpımında min ağaclıq yol gedər. – **Fikir**

Quş yuvasından çıxdı,
Daha dönə bilmədi. – **Söz**

Dona bürünməz,
Gözə görünməz.
Dildən üzülməz,
Mən qalaram, o, gedər.– **Səs-səda**

Əyə-əyə, hər şeyə dəyər. – **Ah-ah**

Yalan ipə sarılmaz,
Ayaq tutsa, yeriməz.
Min il min ilə qalsa,
Yaxşı, yaman çürüməz. – **Yaxşı və pis**

Yeriyər küpə, yeriməz küpə,
Min il qalsa, çürüməz küpə. – **Yaxşı ad**

Gedər-gedər, izi yox,
Dönər gələr, tozu yox.
Nə dərd bilər, nə kədər,
Mən gedərəm, o gələr. – **Kölgə**

Mən gedərəm, o qalar. – **Ləpir izi**

Narda var, narda var,
Nardan şirin harda var.
Əl tutmaz, bıçaq kəsməz,
Ondan şirin harda var. – **Məhəbbət**

Nə əli var, nə ayağı,
Nə başı var, nə qulağı.
Gah ağladar, gah güldürər,
Qılınc deyil, yarı bölər. – **Söz**

O nədir ki, dərya kimi bulanmaz,
O olmasa bütün dünya dolanmaz? – **Məhəbbət**

O nədir ki, uzağı yaxın eylər. – **Fikir, xəyal**

Şappur-şuppur çaylar keçdim, şappırına batmadım.
Qırmızıdan don geydim, nişanəsin tapmadım. – **Yuxu**

Bir ilikdir, bir sümükür, bir dəri.
Aləm onun ləzzətinə müştəri. – **Kəllə-paça**

Bu dərə kömürdəndi,
Keçən gün ömürdəndi.
Bəyə bir yemiş gəldi,
Özəyi dəmirdəndi. – **Kabab**

Qaşığa minər, ayağın sallar,
Ağzın açsan, o atılar. – **Əriştə**

Dərvişlər ay, dərvişlər,
Gecə bizə gəlmişlər.
O qədər oynamışlar,
Xurd-xəmir olmuşlar. – **Xəngər (xəmirin arasına ət qoyub suda bişirirlər)**

Əmirdən ay, əmirdən,
Gündü keçən ömürdən.
Yemişlərdən nə yemişdir,
Ağacı var dəmirdən. – **Kabab**

Arpa içində qoyun,
Onu qazana qoyun. – **Yarpaq dolması**

Dərdi-qəmdən, təni zədən,
Əlin vursan, edər fəğan. – **Ney**

O nədir, yetmiş iki dil bilir. – **Saz**

Sağsağanlar şaqqıldar, başı mənim əlimdə.
Doqquz quvan dillənir, tacı mənim əlimdə. – **Tar**

Tut ağacı özü pərdə,
Barmaq gəzər pərdə-pərdə.
Gah dərində, gah zilində,
Ağlar ah-zar dilində. – **Tar**

Uzun qamış, ağzıyla yapış,
Üstü deşik, dalı eşik. – **Tütək**

Hürü hürünü dindirər,
Hürü pərini dindirər.
Bizim evdə üç dilsiz var,
Bir-birini dindirər. – **Kamança, qaval, tar**

Çömçə başı məftilli,
Belində var kəndiri.
Milçək qonsa, vızıldar,
Əl dəyəndə sızıldar. – **Saz**

A kişi, kişi, dəmirdən dişi.
Yeyər bu ədaləti, qalar küləşi. – **Çin, oraq**

Ağac başın ovdular, kəndə koxa qoydular. – **Çanaq**

Bay ola, bayuş ola, bayqu dayanmış ola,
Ayaq-buynuz, o nə cürə quş ola. – **Kotan**

Bizdə bir kişi var,
Buynuzunda dörd dişi var. – **Yaba**

Bizdə bir kişi var,
Qırx dənə dişi var. – **Biçin**

Bir atım var dərində,
Bağlamışam sərində.
Gecə-gündüz yol gedir,
Yerindədi, yerində. – **Yel dəyirmanı**

Daş xırıldar, su şırıldar.
Taxta çalar, dən oynar. – **Dəyirman**

Bu dərədə qurd durmuş,
Dişin dişinə vurmuş.
Dünyanın malın yemiş,
Heç özünə qalmamış. – **Dəyirman**

Əlimə alaram, uzanar,
Yerə qoyaram, yığılar. – **Kotan zənciri**

Əlində oraq, qolları daraq.
Üstünə xırman, altı dəyirman. – **Kombayn**

Mücürü, ay mücürü,
İlişdirdim ucunu.
Yeddi qatır nər gərək,
Çəkə onun gücünü. – **Kotan**

Nə əli var, nə ağzı,
Eşir-tökür torpağı. – **Traktor**

Suya girər, dillənər,
Sudan çıxar, dillənər. – **Kotan zənciri**

Sağsağan səkər, bildirçin ötər,
Qazlar qaqqıldar, iliyin tökər. – **Dəyirman**

Uzunca qız uzanar,
Özünə paltar qazanar. – **Yaba**

Ağ üstündə qalar,
Bir-birini qovalar. – **Yazı**

Ağ çöldə qara toxum. – **Vərəq və yazı**

Ağac kötüyü oymaq, içinə heç su dolmaz,
Dərya özü məskəni, hamı ona küsgəni. – **Gəmi**

Ağaca çıxar adamla,
Bir nəlbəki badamla.
Nə dili var, nə ağzı,
Hey danışar adamla. – **Kitab**

Ağız birdi, dil mindi,
Gah elədi, gah belədi. – **Qələm**

Ada bax, axtalanıb, qapılar taxtalanıb,
Meydana bir at gəlib, on yerdən nuxtalanıb. **– Gəmi**

Ayağı yoxdur qaçır,
Qanadı yoxdur uçur. – **Peyk**
Ağca atı nalladım, səmərə yolladım. – **Məktub**

Altı dəmir, üstü dəmir, ayağına geyir. – **Avtomobil**

Anada var, atada yox,
Narıncda var, limuda yox. – **"N" hərfi**

Araqçınım var atlas,
Ataram suya, batmaz. – **Kağız**

Bir balaca fanaram,
Kibritsiz də yanaram,
Nə yerdiyux, nə göydə,
Havadan sallanaram. – **Bərqi lampa (Elektrik Lampası)**

Bir quşum var nəhani,
Gəzər cümlə-cəhani.
İstərəm kəsib yeyim,
Nə əti var, nə qanı. – **Təyyarə**

Bir quşum var, səsi düşüb dünyaya,
O quş məni aparacaqdır aya. – **Peyk**

Bir balaca evim var, nə istəsən onda var,
İçində qışdır, eşiyində bahar – **Soyuducu**

Qara toyuq qaqqıldar,
Qanadları şaqqıldar.
Bir qutunun içində,
Sabun suyu şaqqıldar. – **Paltaryuyan maşın**

Dağdan saldım, sınmadı,
Daşdan saldım, sınmadı,
Körpüdən saldım, sındı. – **Kağız**

Danışıram dəmirdən,
Cavab gəlir kəndirdən. – **Telefon**

Dəryada bir ev gördüm,
Üstündə var dam, baca.
Yeriyir yavaş-yavaş,
Tapmacadır, tapmaca. – **Gəmi**

Dili yoxdur, dilləndirir,
İnsanı elmləndirir. – **Kitab**

İnsan deyil, nəfəsi var.
Pələng deyil, nərəsi var.
Yeriyir dəmir üstə,
Gah yeyin, gah da yavaş. – **Qatır**

İçdiyim benzindir, ayağım rezindir. – **Avtomibil**

Yaşıldır və qaradır daim,
Tökülür gözün yaşı,
Dalında iki qardaşı,
Qabağında al qumaşı. – **Mürəkkəb, qələm, iki barmaq və kağız**

Gücü alır nazik teldən,
Xəbər verir hər bir yerdən.
Adam deyil, danışır,
Atəş deyil, alışır. – **Radio**

Mən aşiqəm, xam durmuş,
Bişməmişdən xam durmuş.
Yerlə göy arasında
Gördüm bircə dam durmuş. – **Helikopter**

Nə dili var, nə ağzı,
Nə tarı var, nə sazı.
Hər yerdən xəbər verir,
Oxuyur xoş avazı.
= Oxuyar xoş nəğmələr. – **Radio**

O nədir ki, başını kəsmədən yeriməz. – **Qələm**

Özü yoxdur yanımda, sandığı var evimdə.
Baxıram o sandığa, eşidirəm, görürəm lap özünü. – **Televizyon**

Sulu yerdə kişnər, susuz yerdə qışlar. – **Gəmi**

Hüvəng hüvəng içində,
Hüvəng zəngi içində.

Nə yerdədi, nə göydə,
Əsli firəng içində. – **Telefon**

Bir qara quşum var,
Havada uçar, qanadı yox. – **Bulud**

Bir qoca kişi var, qazır. – **Damcı**

Bir quşum var, qanadının biri ağdır, biri qara. – **Gecə-gündüz**

Bir kişinin dörd evi var,
Bir yaşıl, biri al,
Biri sarı, biri ağ. – **Fəsillər**
Bir nəlbəki nar danəsi,
Ələ gəlməz bir dənəsi. – **Manqalda od, qor**

Bir palazım var, çırpa bilmirəm,
Daşları xırdadır, saya bilmirəm. – **Yer və üstündəkilər**

Biri gedər, gəlməz.
Biri yatar, durmaz. – **Tüstü, kül**

Biri gedir, biri durur, biri yatır. – **Yağış, od, torpaq**

Burda vurdum qılıncı,
Dəhnədə oyanar ucu. – **İldırım**

Qanadı yoxdur, uçar.
Ayağı yoxdur, qaçar. – **Bulaq**

Qəndə bənzər, dadı yox,
Göydə uçar, qanadı yox. – **Qar**

Qırmızı nar, hər evdə var. – **Od**

Dağlarda qara aydı,
Ayaq tutub yeridi.
Dərə görüb çığırdı,
Dərya görüb kiridi. – **Axar çay**

Dam üstə daylaq oynar,
Yerdə yer oyular. – **Dolu**

Dam üstə yağlı fətir,
Gücün çatır, get gətir. – **Ay**
Dayım uzun, qurşağı qısa. – **Çay, körpü**

Dam gumbuldar, su şappıldar,
Heyva çalar, nar oynar – **Göy gurultusu, yağış, külək, dolu**

Deyin nə vaxt sular donar,
Yerdə ağ-ağ quşlar qonar? – **Qış**

İşim-işim işıldar, yarpaq kimi xışıldar. – **Qar, çay**

Yer altında gümüş kəmər. – **Yer altında axan kəhriz suyu**

Körpü altdan saz gedər,
Qaqqıldaşar, qaz gedər. – **Su**

Gecə düzülər, gündüz büzülər. – **Ulduzlar**

Mal alsa malın olar,
Şanıda balın olar.
Yazda, yayda çullanar,
Qış fəsli yalın olar. – **Torpaq**

Mən aşiqəm, yüz yerdə,
O göydədi, biz yerdə.

O yer olmaz keçməsin,
Salmaz bircə iz yerdə. – **Ay və bulud**

Nə əli var, nə ağzı, qapı açar dəli sayağı. – **Yel, külək**

Odda yanmaz, suda batmaz,
Yayda ölər, qışda gələr. – **Buz**

O nədir ki, özü var, kölgəsi yoxdur. – **Su**
O hansı rəssamdır ki, fırçası yox, rəngi yox,
Qorxmaz qardan, küləkdən,
Qış günü pəncərəyə vurar, gözəl naxışlar. – **Şaxta, soyuq**

Üçü bizə yağıdı,
Üçü cənnət bağıdı.
Üçü yığar, gətirər,
Üçü vurar, dağıdar. – **İlin fəsilləri**

Acı yarpaq odda yanar,
Gözünü yandırıb yaxar,
Bir ucundan duman qalxar,
Bir ucundan atəş baxar. – **Tütün**

Nədəndir, ay nədəndir,
Bağrım zədən-zədəndir.
Ağacında od yanar,
Yarpağı göy, nədəndir? – **Qızılgül**

Özü ala, yeri tala,
Para-para, qəlbi qara. – **Lalə**

Kalın yemək olar,
Dəymişin yemək olmaz. – **Xiyar**

Bir quşum var, dimdiyi yarpaq üstə. – **Badımcan**

Bir toyuğum var, yer altında yumurtlar. – **Yer alması**

Zülfün ucu gümüşdür,
Sal boynuma ilişdir.
Yemişlərin içində
Çiçəksiz nə yemişdir? – **Yer alması**
Yaşıl tağım var,
Al-qırmızı otağım var.
Boz paltarımda
Göy qurşağım var. – **Qarpız**

Sarı-sarı sandıqlar,
İçi şirin, şəkərdir. – **Boranı**

Üstü sarı məxmərdir,
İçi şirin, şəkərdir. – **Şamama**

Ağac başında düzülər,
Əl vursan, qanı süzülər. – **Qara tut**

Ağacda yaqut dənəsi. – **Gilas**

Ağac başında sarı yumaq,
Üstünə səpilib ağ sumaq. – **Heyva**

Ağacım var, dəvədən böyük,
Meyvəsi var, sərçədən kiçik,
Qabığı var, zəhərdən acı. – **Qoz, girdəkan**

Altı dəri, üstü dəri,
İçində bir ovuc darı. – **Əncir**

Bazardan aldım bir dənə,
Evdə açdım min dənə. – **Nar**

Bir çuval unum var, dəyirman görməyib.
İçində odun var, balta görməyib.
Sarınıb atlasa, qayçı görməyib. – **İydə**

Dağdan bir qab aş yumaladım,
Bir dənəsi də yerə tökülmədi. – **Nar**

Əyri atası, düz anası,
Göyçək bacısı, dəli qardaşı. – **Üzüm ağacı, yarpağı, üzüm, şərab**

İçi qırmızı, eşiyi boz,
Üstü yemiş, altı qoz. – **Şaftalı**

İçi darı, eşiyi sarı. – **Əncir**

Yumru yemiş, çərdəyi naxış,
İçi qırmızı, eşiyi boz. – **Şaftalı**

Yupyumru fındıqca,
İçi dolu mərcan. – **Nar**

Gülsüz olar meyvəsi,
Şirin-şəkər dənəsi. – **Şah tut**

Püstədir ha, püstədir,
Dil-dodağı üstədir.
O necə yemişdir ki,
Çərdəyi üstədir. – **Fındıq**

Sapsarıca yemişəm,
Ərəbidən gəlmişəm.

Baldan şirin dadım var,
Adda-sanda adım var. – **Xurma**

Üstü məxmər, içi şəkər,
Sarı paltar, ortadan yar. – **Ərik**

Ağaclardan seçilir,
Ayda bir gün biçilir.
Bircə il səpiləndə
Yeddicə il biçilir. – **Yonca**

Bizdə bir kişi var,
Boyu bir qarış,
Saqqalı iki qarış. – **Kiçik süpürgə**

Bir at aldım, yox yerişi,
Nə erkəkdir, nə də dişi.
Nə yayı görür, nə qışı. – **Göbələk**

Bir damı var, tək dirəkli. – **Göbələk**

Qat-qat qalası, qan piyaləsi,
Uçdu anası, qaldı balası. – **Buğda və saman**

Qırmızı xəşəm, atılıb düşən,
Dəyirmanlardan təndirə düşən. – **Buğda**

Köynəyi göy, özü sarı,
Nə buğdadır, nə də darı. – **Məkə (qarğıdalı)**

Gündüz gəzər obanı,
Gecə sancar dabanı. – **Süpürgə**

Min bir oğul, bir ata,
Hamısı minib bir ata. – **Məkə (qarğıdalı)**

O nədir ki, toxumsuz bitir? – **Yer alması**

Saqqalı var bir qucaq,
Belində üç-dörd qurşaq. – **Süpürgə**

Uzun hoqqal, sarı saqqal. – **Məkə (qarğıdalı)**

Hala ha, hala,
Örkən dolaşdı, ağaca, qola. – **Sarımsaq**

Humay, çıxma, yoxuşdur,
Humay qanadlı quşdur.
Humaydan xəbər aldım,
Çiçəksiz nə yemişdir? – **Yer alması**

Çil toyuq, çil-çil toyuq,
Başını kəsdim, qanı yox.
Cücələrinin səsi yox. – **Xaşxaş**

Ağzı hinncə, burnu əyricə,
Hara gedirsən bu yarı gecə? – **Qaban**

Altı daşdı, daş deyil,
Üstü daşdı, daş deyil.
Heyvan kimi otlayır,
Heyvana yoldaş deyil. – **Tısbağa**

Bəd-bəd ayaqlı, iymə dodaqlı,
Belində var dağ, ayağında yağ. – **Dəvə**

Bir öküzüm var, mıx yüklü. – **Kirpi**

Dağdan gələr dağ gamışı,
Hənirin var sağ qamışı.

Alma, armud, əzgil yeyir,
Dağda sultan mənəm deyir. – **Ayı**

Dərisi zolaq-zolaq,
Meşələr ona oylaq.
Yaxın getsən, mırıldar,
Nə ulaqdır, nə oğlaq. – **Pələng**

Diki çıxanda ildırım,
Diki yenəndə yıxılar. – **Dovşan**

Arşın ayaq, bənövşə dodaq. – **Siçan**

İynə çox, tikanı yox,
Əti dərman, özü heyvan. – **Kirpi**

İzləri var atadan,
Gözləri var anadan.
İstər qız, istər oğlan,
Bitli olar anadan. – **Pişik balası**

Yatanda yumru yatır,
Ətinə dərman qatır.
Kim istəsə tutmağa,
Tikanı əlinə batır. – **Kirpi**

Yeddi öküzüm var,
Dərilərindən bir cüt çarıq çıxmaz. – **Qurbağa**

Kəhər atın yor-yorğası,
Görünür qabırğası.
O necə heyvandır ki,
Boynunda var boyunbağısı. – **Zınqırovlu qoç**

Gedər gəzər, ayağı yox,
Adam vurar, əlləri yox. – **İlan**

Gözləri var, başı var,
Nə tükü, nə qaşı var.
Ayağı yox, dili yox,
Dərisində pulu var. – **Balıq**

Maral-maral öküzüm,
Qarnı xaral öküzüm.  yarar
Düz yerdə gəzə bilməz,
Çapar yarar öküzüm. – **Tısbağa**

O nədir ki, dizlərindən asılar? – **Qoyun**

O tayda yusan nədi,
Quyruğun qısan nədi?
Bir qoyunu yeyəmməz,
Qırxını qıran nədir? – **Qurd, canavar**

Saqqalı uzun, sallanır,
Dağa, daşa dırmanır. – **Keçi**

Suya girər, lillənər,
Sudan çıxar, dillənər. – **Qurbağa**

Üstü palım-paltarım.
Altı suyum, bulağım.
İçi yerim, yeməyim. – **Qoyun**

Hənini ha, hənini,
Bıçaq kəsməz gönünü. – **Tısbağa**

Alaca-bulaca,
Uçdu, qondu ağaca. – **Sağsağan**

Axşam doğular,
Səhər yer oynar.
Axşam yığılar,
Səhər dağılar. – **Cücə**

Bağda uçar səhər-səhər,
Verər bizə yazdan xəbər. – **Qaranquş**

Başına sancıb daraq,
Başı daranmır ancaq. – **Hop-hop, bubbu**

Buxarı, ay buxarı,
Tüstü qalxır yuxarı.
Kənddə bir oğlan gördüm,
Əyni əlvan çuxalı. – **Xoruz**

Gedən karvan oyandı,
Göylər al-qırmızıya boyandı.
Azançı azan verdi,
El yuxudan oyandı. – **Xoruz**

Günduz yatar, gecə uçar,
Çox quşlardan yeyin qaçar. – **Gecə quşu**

Nağaraçı nağara çalır,
Nə nağarası var, nə çubuğu. – **Sığırçın**

Uyumamış dələmə,
Düşüb cəmi aləmə.
Üç həftənin içində
Diri düşər aləmə. – **Cücə**

Atılanda cüt-cüt atar,
Alacası var qıçında.

Ağ yeri dələmə kimi,
Qara yeri kömür kimi. – **Sağsağan**

Halalar ha halalar,
Dağda ceyran balalar.
Quşlardan hansı quşdur,
Yumurtasız balalar. – **Tovuzquşu**

Ağ göl, qırağı duzdu.
Sayı əllidir, yüzdür.
Şah küsdü, oba köçdü,
Əlin bağçadan üzdü. – **Arı**

Ağ otun alasına,
Gün düşdü talasına.
Elə də quş olarmı,
Yem verməz balasına. – **Çəkikgə (Çəyirtkə)**

Ayağı beldən uçar,
Hoppanar uça-uça.
Ziyan verər əlinə,
Deyin görək adı nə? – **Çəkikgə(Çəyirtkə)**

Ayağı var, qaçmayır,
Qanadı var, uçmayır. – **Xərçəng**

Alaca hay, alaca,
Çıxıb qondu ağaca.
Alaca bir ev tikdi,
Nə qapı qoydu, nə baca. – **Barama qurdu**

Araba gedər, izi yox.
Yonqar yanar, tozu yox.
Deyir, məndə qışlamış,
Dərisi var, tükü yox. – **Zəli**

Bir tabaq qara üzüm,
Bir-bir yollara düzüm. – **Qarışqa**

Qanadı var, quş deyil,
Buynuzu var, qoç deyil. – **Kəpənək**

Qanadı var uçmağa,
İynəsi var sancmağa. – **Arı**

Dağdan gəlir buz tək,
Dodaqları təkə.
Daylağım yük aparır
Yükü özündən yekə. – **Qarışqa**

Əziziyəm, bir anası,
Hərənin bir anası.
Quşlardan hansıdır o,
Yüz bala, bir anası. – **Arı**

Yol üstə qazan qaynar. – **Qarışqa yuvası**

O nədir ki, qanadında xalı var. – **Kəpənək**

Püstədi ha, püstədi,
Taxtı-rəvan üstədi.
Gamış kimi ot otlar,
Su içməyə xəstədi. – **Baramaqurdu**

Rəngbərəngdir gül kimi,
Qanadı var, tül kimi.
Uçur bağda, çəməndə,
Çox yüngüldür tük kimi. – **Bal arısı**

Ağca motal, ağzı yox.
Tikişi yox, qatı yox. – **Yumurta**

Ay nənə, bizə yağ göndər,
İnəkləri sağ göndər.
Çalxanmamış nehrədən
Ərinməmiş yağ göndər. – **Bal**

Atdan uca, itdən alçaq. – **Nehrə**

Atlar, ay atlar, havada otlar,
O hansı quşdur, beldən yumurtlar? – **Nehrə yağı, kərə**

Aşığam, bu dağ açar,
Meşədə budaq açar.
Torpaqsız yerdə bitər,
Yarpaqsız budaq açar. – **Maral buynuzu**

Bir bardaqda iki rəng su. – **Yumurtanın ağı və sarısı**

Damım var, iki dirəkli. – **Qoyun əmciyi**
Bura gələn hacıdır,
Aş bişirən bacıdır.
Zoğ atar yarpaqlanmaz,
Görək nə ağacıdır? – **Keçi buynuzu**

Evimin dalı külmədi,
Xana-xana bölmədi.
Bircə rəngdə qalım var,
Həştad səkkiz ilmədi. – **Arı şanı, bal**

Körpü altda dörd barmaq,
Tökülür süd, yağ, qaymaq. – **İnək əmciyi**

O nədir ki, özü ağ, balası sarı? – **Süd və yağ**

Süd nədir, süzgəc nədir,
Süzdüm süzgəcdən, nədir.
Dünən sağdım bişirdim,
Süd olmadı, bəs nədir? – **Kətməz**

Çöl var göl var çölmək var,
Xanaların bölmək var.
Həştad səkkiz düyündən,
Doxsan doqquz ilmək var. – **Balıq toru**

Ağzı aşağı tökülməz,
Qırağı çəpər, sökülməz. – **Göz**

Altı inci, mirvari,
Üstü inci, mirvari.
Arasında bir yarpaq. – **Dil**

Babam məndən nar istər,
Yox bilməz, var istər.
Sancılmamış çilikdən
Dərilməmiş bar istər. – **Övlad**

Beş-beş anası, beş-beş balası.
Onu bilməyən çəpəl balası. – **Əl və barmaqlar**

Bir dərədə bir parça ət. – **Dil**
Bir anam var qapaqlı,
Dörd tərəfi saçaqlı. – **Göz**

Bir meşəm var,
Mən kəsdikcə o uzanır. – **Saqqal**

Boyu uzun sayaqdır,
Sahibinə dayaqdır. – **Qıçlar**

Bu yanı çəpər,
O yanı çəpər.
İçində atlı çapar. – **Göz**

Qapı bir qonşudurlar,
Bir-birini görmürlər. – **Gözlər**

Qutu qutu içində,
Nərgiz qutu içində.
Babamın bir quşu var,
O da qutu içində. – **Ağız və dil**

Əzəl vardı, yeyirdim,
Yeməsəydim, ölərdim.
İndi də var, yemərik,
Yeməsək də, ölmərik. – **Ana südü**

Ətdən iyirmi ağacım var,
Hamısının ucu sədəfdir. – **Barmaqlar və dırnaqlar**

Yekə zağada otuz iki qoşunun bir sərkərdəsi var. – **Ağız, diş və dil**

Məndə bir şey var,
Gəl deyirəm, gəlmir.
Gəlmə deyirəm, gəlir. – **Dırnaqlar**

O nədir ki, ikisi eşidir,
İkisi keşik çəkir,
İkisi danışır. – **Qulaqlar, gözlər, dodaqlar**

Aşıq gördü bir yüzü,
Həm altı var, həm üzü.
O necə karədir ki,
Bir burnu var, qırx gözü. – **Çarıq**

O nədir ki, baldan şirin, zəhərdən acı. – **Dil**

Bir özüdür, dörd gözü. – **Düymə**

Qulaq üstə qızıl quş yatar. – **Güşvarə**

Əl işidir, əl işi,
Geydi onu bir kişi.
O necə çuxadır ki,
Yoxdur bircə tikişi. – **Yapıncı**

İki kürküm var,
On qardaş bürünür. – **Əlcək**

Yağış yağsa, süzülər,
Gün çıxanda büzülər,
Çəksəm, bağı üzülər. – **Çarıq**

Bir kişik məzar, dünyanı gəzər. – **Çarıq**

Çəkisi bircə misqal,
Qiyməti mincə dinar. – **Brilyant**

Açarsan, dəvə boyda,
Yumarsan, həvə boyda – **Miçətkən**

Bizdə bir kişi var, təpəsi dəlik. – **Buxarı**

Qara toyuq, qarnı yarıq. – **Baca**

Dam üstə at kişnər. – **Novdan**

Dörd qardaşım var,
Dördü də bir boyda. – **Dörd divar**

Evimizdə iki gəlin var,
İkisi də bir boyda. – **Qapının tayları**

Əl ağacı dəstədi,
Qolları qəfəsdədi.
Nə yerdədi, nə göydə,
Çərxi-fələk üstədi. – **Pəncərə**

Çal quşum, çardaq quşum,
Qanadı yarıq quşum.
Ayaqları çarmıxda,
Qarnı torpaq quşum. – **Çadır**

Cərgə-cərgə söyüdlər,
Beli bağlı igidlər. – **Dəyə**

A kişi, kişi, əlində işi,
Mənə bir at al,
Nə erkək olsun, nə də ki dişi. – **Pişik**

Ağ qul qapıları gəzər. – **Nərdivan**

Ağacdan yuvası var,
Daşdan yumurtası var. – **Tərəzi**

Altı haça, üstü haça,
İki özək, iki qılça. – **Qayçı**

Ataram, yatmaz,
Palçığa batmaz.
And içibdir ki,
Piyada getməz. – **Səhəng, su qabı**

Badiyə başı,
Gəzər o başı.
Altı qıçı var,
İki dabanı. – **Tərəzi**

Baxarsan düz üzünə,
Görünərsən gözünə. – **Ayna**

Bizdə bir kişi var,
Dörd dənə qıçı var. – **Miz**

Bizim evdə bir quyu var,
İçində sərin suyu var,
Suyu içilməz, barı biçilməz. – **Lampa**

Bir qara öküzüm var,
Hər yetən çullayar. – **Sac**

Qara bəy atdan endi,
Arvad-uşaq sevindi. – **Qazan**
Qara qatır qapıda yatır,
Gəlib gedənə şıllaq atır. – **Qıfıl**

Qara toyuq qaqan edər,
Qanadları şaqan edər.
Dəmir vurub hürkütmüş,
Qapısını bərkitmiş. – **Sandıq**

Dümdüz idi meşədə,
Evdə başqa peşədə.
Üstə ilan uzanar,
Özünə köynək qazanar. – **Üstündə xəmir açan taxta**

Evdə durub bir kişi,
Nənə malədir hər işi. – **Cəhrə**

Evimizdə bir kişi var,
Ağzında yüz dişi var. – **Sini**

O meşədə idi, bircə peşədə idi,
İndi yarpaq oldu, babama dayaq oldu. – **Əl ağacı, əsa**

Əynində atlas, dənizdə batmaz. – **Nemət**

Ələk boyda üzü var,
Yüz əllicə gözü var.

Ağzı yuxarı baxar,
Altında yağış yağar. – **Sumaqpalan, abkeş (Aşsüzən)**

Kəhər at enib gedər,
Səssizcə sinib gedər.
Çeşmədən su içməyə
Qızları minib gedər. – **Sənək, saxsı, su qabı**

Gecə dağılar,
Gündüz yığılar. – **Ulduzlar**

Gəlinə bax, gəlinə,
Əlini qoyub belinə. – **Samovar**

O nədir ki, üstü ocaq, altı su. – **Qəlyan**

Səhər durar, dalıma minər. – **Kot**

Tap tapı, dəmir qapı,
On iki budaq, iki yarpaq. – **Saat**

Çayxanada işləyir,
Hərdən şəkər dişləyir. – **Qənd qıçası**

Atdım atana, dəydi kotana,
Dəryada balığa, çöldə ceyrana. – **Tüfəng**

Bir ağacım var, başsız-budaqsız,
Ona çıxan qalar əlsiz-ayaqsız. – **Qılınc**

Bir balaca midili, vurdu yıxdı igidi. – **Güllə**

Qaranlıq damda qulun mələr. – **Tüfəng**

Quru quyuda, qulaqları bayırda, eşikdə. – **Xəncər**

İynə dibindən baxaram, istədiyimi tıxaram. – **Tapança**

Kor öküz koldan baxar. – **Silah**

Uzun ağacı ovarlar, başına papaq qoyarlar. – **Nizə**

Ağac başında qora,
Bilmədim, düşdüm tora.
Hər kəs bunu tapmasa,
Sorğusuz getsin gora. – **Böhtan**

Adı var, özü yox. – **Söz**

Bazarlarda satılmaz,
Tərəzidə çəkilməz,
Baldan şirin dadı var. – **Yuxu**

Bir quşum var, cəld uçar. – **Xəyal**

Bircə qardaşım var, getdi, qayıtmadı. – **Nəfəs**

Qapıdan girdim, hay elədim,
Yükümü yükünə tay elədim.
Bir almanı qırx kişiyə pay elədim. – **Salam**

Əzilməz, üzülməz,
Min ilə çürüməz. – **Yaxşı ad-san**

Əyə ha, əyə, hamıya dəyə. – **Ad**

Göydən düşən simnaz,
Oda düşər, yanmaz.
Suya düşər, batmaz. – **Kölgə**

Gündüz gedər, dolanar,
Gecə gələr salama. – **Yuxu**

Mən qalıram, o gedir. – **Səs**

Mən gedirəm, o da gedir,
Mən dururam, o da durur. – **Kölgə**

Nə baltadır, nə kərki,
Hamı kəsərdən iti. – **Əql**

Nə dərd bilər, nə kədər,
Mən gedirəm, o gedər. – **Kölgə**

O nədir ki, gedər, gedər görünməz. – **Fikir**

Ağac təpə, başı günə nə küpədi, nə də təpə. – **Pilov**

Ala allandı, başı çullandı,
Qaşığa mindi, qıçı sallandı. – **Əriştə**

Əmirdən ay, əmirdən,
Gündü keçən ömürdən.
Yemişlərdən hansıdı,
Özəyi var dəmirdən. – **Şiş kabab**

Toyda-düyündə gəzər,
Səsi aləmi bəzər.
Qabırğası qatbaqat,
Gah yavaş, gah da bərk.– **Qarmon**

O nədir ki, qulağından kəsilir. – **İt balası**

Şirin olur, bal deyil,
Bağ kimidir, bağ deyil.
Rəngi ağdır, qara da deyil. – **Qaymaq**

# ATALAR SÖZLƏRİ VƏ DEYİMLƏR

## A

At almamış, palanın qurmazlar.
Atı almamış, axurun axtarma.
At almamış, nal axtarır.
At töylə mıxın çıxardar, ikisin özünə vırar, birin yerə.
Atlı atın çapar, kölə dayça deyər, mən də, mən də.
At mənim altımda axsamasın.
At miniş örgədər, don yeriş.
Atın arığına quyruq da yükdür. (Yaxud: Arıq ata quyruq da yükdür.)
Atın atın yanında bağlasun, rəngi dəyişilməsə, xuyi dəyişilər.
Atın təpigi ata neylər.
Arıq at, pis arvad ömrü qarət edər.
Atana atallar.
Atmasan, tutmaq olmaz.
Ac toyuq yatar, yuxuda darı görər.
Ac qarnım, dinc qulağım.
Acın imanı olmaz.
Acınnan köpük qusey.
Açaruq sandığı, tökəruğ pambığı.
Açıb-ağartmaq olmayır.
Axa-axa sel olar, dama-dama göl.
Axtaran tapar.
Adam gedər, ad qalar.
Adam yorğanına baxar, ta yorğanına qədər qıçın uzadar.
Adamın öz pənir-çörəyi özgənin plovundan yaxşıdır.
Ad Əlinin oldu, süfrə Vəlinin.
Adı mənim, dadı sənin.
Adımı sənə qoyum, səni yana-yana qoyum.
Adın tut, qulağın bur.
Adın nədir, Rəşid, Birin de, birin eşid! (Yaxud: Adını qoydun Rəşid, Birin dedun, birin də eşid!)

Ara qatışıb, məssəb (məzhəb) itib.
Arvad vardı, arvadların nəqşidi, Arvad vardı, dindirməsön, yaxşıdı.
Arvadı əri saxlar, peniri (pendiri) dəri saxlar.
Aza qane olmayan çoxdan da qalar.
Azanda babam öyünə, bəzəndə babam öyünə, danamızu götürüb, o da babam öyünə.
Az olsun, naz olsun.
Az bilən az çəkər.
Az yaşa, azad yaşa, insan yaşa.
Az danış, naz danış.
Az gül, naz gül.
Az varidi ac adam, biri də düşdi bacadan.
Az idi arıq-uruq, biri də gəldi dabanı cırıq.
Aşağada əyləşənmir, yuxarıda yeri yox.
Aş paylıyana aş çatmaz.
Aş, qapıya yoldaş.
Aşın suluğu dənin çoxluğunnandı.
Ağac qapının işi dəmir qapıya da düşər.
Ağaca bax, yerin tərif elə.
Ağacda almani iki görməsə, ağac atmaz.
Ağac almanı nə qədər çox gətirsə, başın aşağa salar.
Ağacı qurd içinnən yeyər.
Ağacı əlüvə götürsün, oğru pişik özün bilindirər.
Ağacınan qabuğun, uşağınan qadının arasına girmək olmaz.
Ağrımayan başa dəstmal bağlamazlar.
Ağzuyun suyu getsin (Yaxud: ağzının suyu gediy).
Ağzı süd (süt) iyi veriy.
Ağzı gülməkdən yığışmaz.
Ağlasa, anam ağlar, qalanı yalan ağlar.
Ağlamağın bilməyən ölüsün gorbagor salar.
Ağlamıyana pəpə yoxdur.
Ağır əyləş, batman gəl (Yaxud: Ağır otı, batman dur).
Ağır daş götürən başına salar.
Ağı qaradan seçmir.

Ağı qaradan yaxçı seçir.
Alabaş-külbaş elədim, qurtardı.
Ala qarğa balasın çox istər.
Ala qarğa bu məhlədə bala çıxartmaz.
Ala qarğa hər nəyə tamarzıdır.
Alan görün nə alır, bir satan görün nə satır.
Altmış ilin qarısı indi başa düşübdi.
Alovu olmasa, pilovu olmaz.
Allah eşşəgi tanıdı, ona buynız vermədi.
Allah bu əli o ələ möhtac eləməsin.
Allah dağına baxar, qarını tökər.
Allah dərd verib dərman da verib.
Allah hamıdan sonra məni öldürsün.
Allah hər yerdən bağlasa, bir yerdən açar.
Alma almaya bənzər.
Annamıyan bannamaz.
Ayda, ildə bir namaz, onu da şeytan qoymaz.
Ayıdan bir çimdik qopartmaq qənimətdir.
Ayı qandı, qurd qanmadı.
Ayı yatar daşın kölgəsində, deyər, öz kölgəmdi.

**B**

Babam öldü vəlvələdən, ya zəlzələdən.
Barmağuvi nişan versən, bilənguvi tutarlar.
Baş ərşə də çatdırsa, Sərab Ərdəbil olmaz.
Başlı başın saxlasın.
Başuva kül töksön, ucadan tök.
Başuvı yareyi, əngüvə qoz doldureyi.
Bağa baxarsan bağ olar, baxmazsan dağ olar.
Bağda ərik var idi, salam-əleyk var idi, Bağdan ərik qurtardı, salam-əleyk qurtardı.
Bağda gülə baxarlar.
Balıq tutan gərək özün suya vıra.
Börki başa qoyan gərək börkinə də.

Boğulan əlin köpügə də atar.
Belə bilirdim ki, çörək içində halva var.
Belə dig, belə çuğundur.
Belə söz danışeysən, pişmiş toyuğun gülməgi gəliy.
Belə keçəl döy ki qatmağı yerə düşə.
Beş gün düya, Xoş gün dünya.
Beş barmağın beşi də bir olmaz.
Burda mənəm, Bağdadda kor xəlifə.
Bununun tuşıynan gedey.
Bulardan Fatıya tuman olmaz. (Yaxud: Bunnan Fatıya tuman çıxmaz).
Büyünki cücə dünənki toyuğa cik-cik örgədir.
Bir il siçan yedi, bir il uçan yedi, bir il də böyrün qucan yedi.
Bəy verən atın dişin saymazlar.
Bir günün şahlığı da şahlıqdı.
Bir naxırı bir qoturru dana batırar.
Biri ölməsə, biri dirilməz.

## C

Calanan su bir də kuzəyə dolmaz.
Canuvi təmiz saxla, naqafil ölüm gələr.
Can vereysən quşa ver, qaranquş gəlib gedəndi.
Can yorğanı kənd içrə, məsəldir, mitil olmaz.
Canımın malı gedər, kənizin canı.
Cücəni payızda sayallar.
Cəfa çəkdim gül əkdim, onu da şaxta vurdu.
Cuhuddan əmələ gələn.

## Ç

Çaqqal bağdan küssə, bağban börkün göyə atar.
Çanağı mənim başımda sınacaq.
Çobanın göylü olsa, təkədən penir tutar.
Çox bilib az danışmaq igidin yaraşığıdı.
Çox yaşıyan çox bilməz, çox gəzən çox bilər.
Çörəgin qədrin ac bilər.
Çölməg uçar, tabağın tapar.

Çörəgi ver çörəkçiyə, birin də artıq ver.
Çömçə tutan sənə tərəfdi.
Çırağ öz dibinə işığ salmaz.
Çuvala girmiyən başım dağarcığa lapdan girey.
Çekişməsön, bərkişməssən.

## D

Dadanıbsan dolmaya, yoxsa bir gün olmaya.
Dadsız şorbaya duz neylər (nə eylər).
Dağ uçar, dərə dolar.
Dağ dağa dayanar.
Dağdan gəlmiş, bal görməmiş.
Dağdan hey götürüb deyəsən, çoxdı, Bir də görərsən, dağ özi yoxdı.
Danışıram, his olur, Danışmıram, pis olur.
Daldan atılan topuğa dəyər.
Daldan baxeysan Firəngizdi, Qabaxdan baxeysan Çingiz.
Dana oynıyar, öz mıxın bərk edər.
Davanın (dəvanın) satın aley.
Dörtdə alacağun yox, beşdə verəcağun yox.
Dört divar içində söz olar.
Dostunla düşməni dara düşəndə tanı.
Dost tapmaq rahatdı, saxlamaq çətin.
Dost başa baxar, düşmən əyağa.
Dostı dostdan nə eylər? – Çiy sövda.
Dosta mürvət etməli, düşmənlə keçinməli.
Doşab olsun, nəğd olsun.
Doşabsız xəşil olmaz.
Doşana deynən, qaç, Tülküyə deynən, tut. (Yaxud: Doşana deyir qaç, tazıya deyir tut).
Döymə taxta qapımı, döyərəm dəmir qapıyı.
Dəryayə baxar bəllidi çayların axarı.
Duvar (Divar) da qulaqsız deyil.
Duvar (Divar) yıxılanda toz qalxar.
Duvarın (Divarın) bir tərəfin yıxson, bir tərəfin özüyə pərdə saxla.

Doymacı xatın yeyər, yumruğı yetim.
Dünyanın işi bərəks olar.
Dünya bir pəncərədi, hər gələn baxar, keçər.
Dünya yalan dünyadı.
Dədəm bi gün dəli kündəni saya, Nənəm bi gün dəli kündədən kəsə.
Dədə getdi iməci gətirdi, Bala getdi çini gizzətdi.
Dədəm mənə kor deyibdi, Hər gələni vur deyibdi.
Dərin quyu qazan özü düşər. (Yaxud: Özgəsinə quyu qazan özü düşər).
Dəli dəliyə rast gəlsə, çomağın gizlədər.
Dəliyə yol ver, əlinə pul ver.
Dəli müsəlmanın sonrakı ağlı.
Dəvədən böyük fil də var.
Dəvə kimi.
Dəvənin quyruğu yerə dəyəndə.
Dəvə nə qədər öli olsa, on eşşəgin yükün götürər.
Dəvəsi ölmüş ərəb.
Dəvəni çömçəynən suvarmazlar.
Dəvə oynıyanda qar yağar.
Dəvəni dənginən yeyərlər, keçini zənginən.
Dəvəni dənginən yeyib, ovsar icün gəzey.
Dəvədən bir çimdik qopartmaq qənimətdir.
Dəvəyə bir çimdik nə eylər.
Dəvəyə dedilər, boynun əyridi, Dedi, haram düzdü ki, boynum da düz ola.
Dişün ağreyi, çək qutar, Qonşun pisdi, köç qutar.
Dəyirman (dəgirman) dənin dartar, Çox-çox başın ağrıdar.
Dilotu yeməyibsən ki…
Dil başa bəladı.

## E

Eylə (helə) bil zəkat keçisidi.
Elin köçi, selin köçi.
Elin gəzən yorulmaz.

Eldən ayrı düşən gorbagor olar.
Eşşək anqırar, tayın tapar.
Eşşək işlər, at yeyər.
Eşşəkdən qatır əmələ gələr.
Eşşəklər arpa yeyir, at həsrətdir samana.
Eşşək minduq, təzək dərduq.
Eşşəgə dedilər, ədəbün hardadı, getdi küllükdə ağnadı.
Eşşəgim ölüb başı qızıldan.
Eşşəgim, ölmə, yonca bitincək, Yonca, saralma, torba tikincək.
Eşşəgə güci çatmey, palanın tapdey.
Eşşəgin ölməgi itin ərə getməgidi.
Eşşəgin qulağına yasin oxey.

## Ə

Əbləh odur bu dünyada qəm yeyə, Taarı bilər kim qazana, kim yeyə.
Ət almaz, küftə istər.
Ət almaz, küftənin yekəsin qapar.
Əti dırnaxdan ayırmaq olmaz.
Ədəbli ol, padşah ol, Ədəbsiz ol, hər nə eləsən elə.
Əsli bədəldən təşxis verən olsa, bu qədər zir-zibil olmaz.
Əsil əsilligin itirməz.
Əgər sevsə el məni, yıxa bilməz sel məni.
Əl əli yuvar, əl də dönər üzü yuvar.
Əldən qalan əlli il qalar.
Əldən gedəni Həzrət Əbbas malı edərlər.
Əlün çatmıyan armudu dədüvə ehsan elirsən.
Əlün yağlıdu, öz başuva çək.
Əli ələ vırson səs gələr, tək əlin səsi olmaz.
Əlli qapunın yolçusudı.
Əlin ağdan qəriyə (qaraya) vırmaz.
Əvvəl salam, sonra kəlam.
Əvvəl ölç, sonra biç.
Əvvəl məscidin içi, sonra çölü.
Əyri ağac qoysa, iş düzələr.

Əyri oraq düz olmaz, köhnə pambıq bez olmaz.
Əyilən başı qılınc kəsməz.
Əşığın sözi qurtarar, “yarım-yarım” çağırar.
Əgil yaşınan döy, başınandı.
Əgilli fikir eləyincə, dəli vırar çaydan keçər.
Əgillisi hansıdı? Qabaxda gedən zəncirli.
Əğlə gəlməyən başa gələr.
Əyibli əyibin bilsə, başına palaz örtər.

**F**

Füzuli dərd əlinnən dağa çıxdı, Dedilər, bəxtəvər yaylağa çıxdi.
Fil dedi, güləşmək istiyirəm, Qarışqa dedi, gəl qabağa.

**G**

Gah nala vereysan, gah mıxa.
Getdi saqqal gətirə, bığın da qoydı gəldi.
Getməli qonağın getməyi yaxçıdı.
Gec tutar, karrı tutar, axrı günahkarı tutar.
Gecə qərə (qara), cücə qərə.
Gedər bostan xırası, qalar üzün qarası.
Gedən malundı, qalan yadundı.
Gedənə qardaş, gələnə yoldaş.
Gördün yemək, day nə demək.
Gorum var ki, kəfənim də ola? (Yaxud: Goru var ki, kəfəni də ola?)
Gör quzularınan gedən var ki, çəpişi ona qoşaq?
Görməmişin bir oğlı oldi,
Vırdı, onun da gözün çıxartdı.
Göz gözü seçmir (yaxud: seçmədi).
Gəzən əyağa daş dəyər.
Göz yaşları hər yerdən axarsa, məni tuşlar.
Göz yaşına baxan olsa, qan axmaz.
Gözəl ağa çox gözəliydi, vırdı çiçək də çıxardı.
Gəlin oynıyammaz, deyər, otaq əyridi.
Gəlin gələr, ocağa gələr.

Gəmidə əyləşib gəmiçiynən savaşır.
Göydən tutmuş.
Göyül (könül) sevən göyçək olar.
Gədadan nə gədalıq?
Gəl bu daşları ətəginnən tök.
Gəl bu küllügün daşın at.
Gəldi əcəl, vermədi macal.
Gülməz, gülməz, gələr teşt qabağında gülər.
Gülmə qonşuna, gələr başına.
Gəl məni gör, dərdimnən öl.
Gülün ömrü az olar.
Gündüz gediy naxura,
Gecə gəliy axura.
Gündüzün şəri gecənin xeyrinnən yaxçıdı.

**Ğ**

Ğulam kimi işlə, ağa kimi yaşa.

**H**

Halva iyi veriyi.
Hacı ağa qapuyacan kəlbəli dabağ, Qapudan girəndə Ağa mir Əbülfəzl.
Hazır aşın dik qaşığı.
Həsən keçəl, keçəl Həsən.
Həyasıza salam ver, süyüş.
Həyət iti iyi verir.
Hammıya it hürər, bizə quyruqsuz çaqqal.
Hamını bəzər, özi lüt gəzər.
Hay-hayda, keçəl toyda.
Haynan gələn huynan gedər.
Heç kəs öz ayranına turş deməz.
Heç kimin bağına yersiz daş atmamuşuq.
Hər sarı köynək qızıl olmaz.
Hər aşığın bir dövranı var.

Hər kəs öz nəslin büruzə verər.
Hər gözəlin bir əyibi var.
Hər nəyin təzəsi, dostun köhnəsi.
Hərə öz dəvəsin axtareyi.
Hər yerdə aşdı, filani orda başdı.
Hər yumuruya girdəkan deməzlər.
Hər yolun axırı olar.
Həftə səkkiz, mən doqquz…

## X

Xaliqə kisəsinnən bağışdeyi.
Xoruz olmasa, səhər açılmaz. (Yaxud: xoruz yoxudı, sabah açılmeydi).
Xərməni saqqıza verdik.

## İ

İp qırıldı, cirə dağıldı.
İpəkdən qızıl olmaz.
İpi üstünə odun yığmaq olmaz.
İpin qırmış dana.
İt iti görəndə quyruğun buduna qısar.
İt itinən boğuşdı, oğruya girəvə düşdi.
İt itinən savaşdı, yolçı aradan çıxdı.
İt tuladan mındar.
İt getdi, ip də getdi, at da getdi.
İt motaldan (yaxud dəridən) əl çəkdi, motal itdən əl çəkmədi.
İtim də var, g…üm də var.
İtin quyruğun kəsməginən qoyun olmaz.
İt hürər, karvan keçər.
İt yiyəsin tanımeyi.
İçim özümi yandıreyi, çölüm özgəni.
İstədi qaş qoya, vırdı gözün də çıxartdı.
İsti kürsünün başı hökmi-rəvandı, arvad nə bileyi dağda börandı.
İş bərəks gələndə, xəşil diş sındırar.
İş bitdi, xatir itdi.

İştəmiyən diştəməz.
İgidi cavan saxlıyan yaxşı arvad, yaxşı at.
İgid əmək itirməz.
İlanın quyruğun ayağlamason, qəyidib səni çalmaz.
İlan vıran ala çatıdan qorxar.
İlan heç vaqt buzosun əyaqlamaz.
İndi olanlar olub, keçənlər keçib.
İnsan olan xəncər belinə taxmaz.

**K**

Katdanı gör, kəndi çap.
Kasıbın sözi, motilin gözi (közi).
Kasıbın barmağı xəşildə sınar.
Köpək bileyi dağarcıqda nə var.
Köpəgin yuxusı gələndə teşt qabağında yatar.
Keçəl baxar güzgiyə, adın qoya özgiyə.
Keçən günə gün çatmaz.
Keçmə namərd körpüsündən, qoy aparsın sel səni, Yatma tü-
lək daldasında, qoy yesin aslan səni.
Keçi can hayında, qəssab piy axtarey.
Keçinin əcəli gələndə özün çobanın ağacına sürtər.
Kor Allahdan nə istər? – İki göz – bir əyri, biri düz.
Kor tutduğun bıraxmaz.
Kor quşun yuvasın Allah düzəldər.
Korunan çörək ye, Allahı arada gör.
Kosa getdi saqqal gətirə, Saqqalı da qoydı gəldi.
Kərə, kərə, hammıya kərə, mənə də kərə.
Kəssəg durub daşın dalında ağlıyi.
Kəl hürgücünə baxar, nərillər.
Kələfcənin başın itirmişəm.
Kənddən (kətdən) gələn mən, xəbər verən sən.
Küsuli qardaş, gəl yükümüzi çataq,
Səninki səndə, mənimki məndə.
Külli könbə səhərə qaldı, nazik çörək öldi.

Kiçikdən xəta, böyükdən əta.
Kişilik ayrı şeydir, buğ-saqqal hamuda var.

### Q

Qarışqa nədir, onun kəlləpaçası nə ola.
Qarın başa bəladı, olmasa Kərbəladı.
Qarın başdan aşağadı.
Qarın doyıran aşı göz tanıyar.
Qazan deyi, dibim qızıldı, Çömçə deyi, bulanmışam, çıxmışam.
Qazan dəlik, tas dəlik, Biri də gəldi üstəlik.
Qazan qazana dey, üzün qara.
Qazan, qoy Nurcahan yesin, Dilində yaman desin.
Qazannan dağılan çömçəyə dağılar.
Qatır alan sovuşdi.
Qalan işə qar yağar.
Qocalıqda at çapmayı örgənən qiyamətdə örgənər.
Qoç igid dayısına çəkər, xanım qız xalasına.
Qoçun buynuzı qoça neylər?
Qoturlu keçi bulağın gözündən su içər.
Qoltuğuna qarpuz vereyi.
Qonaq bir olsa, ev yiyəsi öküz kəsər.
Qonağın qonaqdan acığı gələr, Ev yiyəsinin hər ikisinnən.
Qonşuya umud olan şamsız qalar.
Qonşum qonşı olsa, kor qız ərə gedər.
Qoyun quzusun basmaz.
Qoyun keçdi, indi gəl keçini çaydan keçirt.
Qoyunı qurda tapşırdı.
Qurbağa gölünə daş atmaq.
Qurı yerdə yeriyə bilməyi, şuxumda şıllaq ateyi (Yaxud: Hamarda yeriyə..)
Quş var, ətin yeyərlər, Quş var, ət yedirdəllər.
Qu vırasan, qulax tutular.
Quyruğum qapı arasında qalıb.
Qız evində toydı, Oğlan evində xəbər yox.

Qızım, sənə deyim, gəlinim, sən eşid.
Qızınmadıx istisinə, Kor oldux tüstüsünə.
Qış qutarar, üzüqaralıq qazana qalar. (Yaxud: Kömürə qalar).

**L**

Lalın dilin anası bilər.
Lotunun qazandığı ənniknən kirşana gedər.

**M**

Maluyi yaxçı saxla, qonşuyı oğrı tutma.
Mama iki olsa, uşaq tərsə gələr.
Meşələrin qarğası mənim olsun, Yumurtdamadı, nə faydası?
Meşə çaqqalsız olmaz.
Mərdlə daş daşı, namərdlə bal yemə.
Mərvəynən səfanın arasında avaradı.
Mən dağdan danışıyam, sən bağdan.
Məndəki məndə, səndəki səndə.
Mən deyəm, xədiməm, Sən deysən, neçə oğlun var?
Müftə sirkə baldan şirin olar.
Min dənə dost azdı, bir dənə dost çox.
Min dənə yiyənun olsun, Bir dənə deyənun olmasın.
Mən istərəm bəlanı, çox istər bəla məni.

**N**

Naşı tütəkçi tütəgin gen yerinnən çalar.
Nəccarın qapısı olmaz.
Nərgiz bildi, Təbriz bildi.
Nə cür tutsan, o cür də keçər.
Nə tökərsən aşuva, o çıxar qaşığuva.
Nə qoydular danışax, nə kəsdilər dilimi.
Nə qoyubsan, nə axtareysən.
Nə qədər (gedir) bağdan gedir, bağbannan getmir.
Nənəm çoxbilmişdi, kündəni balaca tutardı, Dədəm çoxbilmişdi, doymayancax əyağa durmazdı.
Nənə gəzən ağacı balaca uzun xovların gəzər.

Nənə yanmaqdan bibi yandı.
Nə yeyibsən, nə biləsən? Nənön ölsün, Əbulhəsən.
Nisyə girməz kisəyə.

## O

O arvad ağlasın ki, yerində dul bacısı olmasın.
Otunan (odınan) külsin ki (külinki) tutmaz.
O ölməsin, bu ölsün.
O buppbudi, yazda gəzər.
Ortada yeyər, ucada gəzər.
Oğlum oğul olsa, kol dibində zindəgi eylərəm.
Oğul doğan, dərdə salan dünyadı.
O qədər başlar börksüz qalsın ki.
Olacağa çarə yoxdı.
Olan olub, keçənlər keçib.
Onda ki nənəm sancılanar, zəncəfil olmaz.
Onun da burni oğunar.

## Ö

Örtülü bazar dostluğu pozar.
Ördək istər qaz yerişin gedə, çinəkdanı partlar.
Örkən nə qədər uzun olsa, axır doğanaxdan keçər.
Örgənən at özünə qəmçi vırdırmaz.
Öz başin bağlıyanmey, toyda gəlin başı bağley.
Öz gözündə tiri görmey, özgə gözündə tüki göreyi.
Özgə atına minən qıçın əyri tutar.
Özgə atına minənin bir ayağı gərək yerdə qala.
Özgə atına minən tez düşər.
Özünə övmac ova bilməyən özgəyə əriştə kəsey.
Öküz öziçün körüşnə əkəndə bası ağrey.
Öküzün böyügi töylədədi.
Öküz dama çıxartmeysən ki?
Ölü atın naliyçün gəzey.
Ölü durup mirdəşiri yuvey.
Ölülər heylə bileylər dirilər halva yeyillər.

Ölüm ölümdi, xırıllamaq neyçündi.
Ölünün dalınca (ölü dalıycax) pisdəməzlər.
Ölü qəbristannan qəyitməz.
Ölü qəbirdən xortdiyib (helə bil ölü qəbirdən xortdiyib)
Övüni təmiz saxla, naqafıl qonaq gələr, canıvı təmiz saxla, naqafıl ölüm gələr.
Öynaşa umud olan ərsiz qalar.
Övündə yox urfalıq, köylünnən keçiy koxalıq (kattalıq).

**P**

Palaza bürün, elnən sürün.
Payız gəldi quleybanı tapıldı.
Pulun var, giriş, pulun yox, sürüş.
Pul əlin çirkidi, gələr, gedər.
Pişigin qanadı olsaydı, sərçənin nəslin kəsərdi.
Pişigin ağzı ətə çatmaz, deyər, iy veriyi.
Pis günün ömrü az olar.

**R**

Razı oldum qaza (yaxud: daza), Qaz (yaxud: daz) da özün qoydu naza.
Rütəb verib təzək aldıq.
Ruzidan artıq yeməg olmaz.

**S**

Savab eləməkdən kəbab elədi.
Sarala-sarala yaşamaqdan qızara-qızara ölmək yaxçıdı.
Sağ olsun, gəlinin qədəminə gəlməmiş öldürdü məni.
Saz mənimdi, dilin yaxşı billəm (bilərəm).
Saqqalım yoxdı, sözüm yola getmeyi.
Seçən seçilməliğə düşər. (Yaxud: Seçmə, seçilməliğə düşərsən).
Söz at, yiyəsi özü götürər.
Söz söz gətirər.
Sözün var, söz danış, halvaya duz qatmazlar.
Sözü ağzında pişir, sonra danış.

Soğan yeməyibsən, için niyə göynəyi.
Seldi, gələr axar keçər, amma gərək aşıb-daşa.
Serçə dey, palut ağacı, qeyim qal, atdanıyam.
Soydun-soydun, quyruğunda qoydun.
Söymə diri babamı, söyərəm ölü babayı.
Söyən-döyən ərün yox, yel aparan öyün yox.
Səbr ilə halva pişər, ay qora səndən, Bəsləsön, ətlas olar tut yarpağınnan.
Sən hara, mən hara.
Sən ha deynən "mən xanımam", gərək el desün "sən xanımsan".
Sən öz daş-tərəzıvınan danışeysan. (Yaxud: Sən öz arşunun-nan ölçeysan).
Sən əyirəni (əgirəni) mən toxumuşam.
Sən əkəni mən biçmişəm.
Sənnən (səndən) hərəkət, Allahdan bərəkət.
Su axar (gələr), yolun tapar.
Su aydınlıqdı.
Suyun əvvəli hara getsə, axırı da ora gedər.
Su olan yerdə təyəmmüm caiz döy (deyil).
Siçan öz yuvasına girə bilməyi, Quyruğuna da bir süpürgə bağleyi.

### Ş

Şərti şuxumda kəsəg, xərməndə dava olmasın.
Şir acınnan ölsə də, tülkiyə göz tikməz.
Şəhərin dərvazasın bağlamaq, adamın ağzın bağlamaq olmaz.

### T

Tayfa tayfanın ətin yesə, sümügün çölə atmaz.
Toydan sonra nə nağara?
Toyuq fala üstə yumurtdar.
Təzə gəldi bazardan, köhnə düşdü nəzərdən.
Tələsən tələyə düşər.
Tənbəllikdən ərməniyə "dayı" deyi.
Tüstüsü öz gözünə gedər.

Tülki tülkiyə buyurdı, tülki də quyruğuna.
Tikan olub əyağa batınca, gül ol, yaxaya sancıl.
Tiyançiyə verə-verə çıxar qazan qiymətinə.

**U**

Ucuz ətin şorbası olmaz.
Uzaxdan baxana döyüş çox asan (rahand) gələr.
Uzax yerin halvasın hövləynən (ya həvəgdəstədə) döyəllər.
Uzun adam axmaq olar, güdə adam çaxmaq olar.
Uzun adamın ağlı dabanında (topuğunda) olar.
Uzunda ağıl olmaz.
Uşaq (uşax) ağladı, kökəm azdı, it gəldi, onu da apardı.
Uşaq başı alladeysan.

**V**

Varını verən utanmaz.
Varlığa nə darlıq.
Ver yesin, ört yatsın.
Vırdım daşa, çıxdı başa.
Vıreysan getmeyi, kişleysən getmiy.

**Y**

Yaxçı yoldaş pis gündə tanınar.
Yaxçı qoyun sürüdən çıxmaz. (Yaxud: Süddi qoyun sürüdən çıxmaz).
Yaxçılıq elə at dənizə, Balıq bilməsə də, xalıq bilər.
Yaxçılığı o birisində, pisligi özündə gör.
Yaranı isti-isti bağlarlar.
Yazan belə yazıb.
Yaş da qurunun oduna yanar.
Yağmasa da, guruldeyi.
Yağmamış guruldama.
Yağış yağır, damcı damır, Arvad doğur, qonaq gəlir.
Yağışdan çıxdım, damcıya düşdüm.
Yalançının ipiynən quyuya girmək olmaz.

Yaman günə dözən yaxçı günə tez çıxar.
Yaman yerdə gün döndi, axşam oldı.
Yanan da mən, yaman da mən.
Yanan yerdə ot bitməz.
Yanmadı qəhramanın ocağı.
Yansun çırağı, gəlsün sorağı.
Yetənə yetiy, yetmiyənə daş atey.
Yer atdan yasa gedən.
Yaxın qonşu uzaq qohumdan yaxşı olar.
Yemiyənin malın yeyərlər.
Yoldaş yoldaşıynan gəzər, it qarabaşnan.
Yemişin yaxçısın çaqqal yeyər. (Yaxud: Yaxçı meyvəni çaqqal yeyər)
Yel gətirəni yel aparar.
Yeməyibsən qaz ətini, bilmeysən ləzzətini.
Yetimin çörəgin əlinnən al, nəyi qalar? (Yaxud: Yetimi nə döy, nə söy, çörəgin əlinnən al).
Yetimin başı bəlalı olar.
Yetim quzu qoç olmaz.
Yetimin payı dəvəlidən də çox olar.
Yuyulamamış qaşıq kimi özüyi arıya atma.
Yuxarıda yeri yox, aşağıda da əyləşəmeyi.
Yüz igirmi dört peyğəmbərə yalvarana, bir Allaha yalvar.
Yumurtadan yun qırxeyi.
Yıxılana balta çalmazlar. (Yaxud: Yıxılanı vırmazlar).
Yeməyinən doymayan yalamayınan doymaz.

## Z

Zəhməti məşatə çəkir, Ləzzəti damad aparır.
Zər qədrin zərgər bilər.
Zərərin yarısınnan qəyitmaq (qayıtmaq) mənfəətdi.
Zülmün axırı olmaz.
Zulumat daşıdı, götürən də peşmandı, qoyan da.
Zimistan çəkmiyən bülbül baharın qədrini bilməz.

## BAYATILAR

1. Narınca bax, narınca,
Əl vurma saralınca.
Məndə ürək qalmadı,
Yar göylünü alınca.

2. Nəfs var can durunca,
Ürəkdə qan durunca.
Yorulub cana gəldim,
Qanmaza qandırınca.

3. Narınca bax, narınca,
Saxlaram saralınca.
Noleydım qurtuleydım
Bu günlərə qalınca.

4. Bu bağda bar olunca,
Heyvalar nar olunca.
Dil açar dəli göylüm,
Sən mənə yar olunca.

5. Mən aşığam narınca,
İstərəm saralınca.
Sonam sallandı gəldi,
Laçın onun yanınca.

6. Tut ağacı boyunca,
Tut yemədim doyunca.
Yarı xəlvətdə gördüm,
Danışmadım doyunca.

7. Sular durulmayınca
Aşiq yorulmayınca
Yara deməm dərdimi
Yar mənim olmayınca.

8. Armud ağacı haça,
Əlim dolaşdı saça.
Bir mərd oğlan istərəm
Məni götürüb qaça.

9. Bu dağlar uca-uca,
Yuxu gördüm bu gecə.
Göydə uçan durnalar
Yarımın halı necə?

10. Arxalığı cüt yaxa,
Yaxasına gül taxa.
Baş qoyum dizin üstə,
Can verim baxa-baxa.

11. Qalanın başı uca,
İstəklim halın necə,
Miskin göylüm şad olmaz
Camalın görməyincə.

12. Su gəlir qalxa-qalxa,
Tökülür bizim arxa.
Gizlində yar sevmişəm,
Anamdan qorxa-qorxa.

13. Dağları en piyada,
Yola gir piyada,
Gedirik haqqı tapaq,
Sən atlı, mən piyada.

14. Al çuxa, qara çuxa,
Yaraşır yara çuxa.
Sənə yaman baxanın,
Gözünə yara çıxa.

15. Əzizinəm, dəryada,
Gəmim qaldı dəryada,
Ağladım göz yaşımdan,
Gördü daşdı dərya da.

16. Əzizim Ordubadda,
Salmasdan, Ordubaddan,
Sərkərdə qoçaq olsa,
Heç verməz ordu bada.

17. Xəbər getsin o yada,
O düşmənə, o yada,
Bivəfaya sirr vermə,
Gedər açar o yada.

18. Sayada bax, sayada,
Torun qurub qayada,
Toruna tərlan düşüb,
Adamı yox oyada.

19. Aşığam can burada,
Ləl-mərcan burada,
Mən yarı burda gördüm,
Qoy verim can burada.

20. Ördək burda, qaz burda,
Gəlin burda, qız burda,
Hara gedək sevgilim,
Bahar burda, yaz burda.

21. Əzizinəm gül bağda,
Bülbül bağda, gül bağda,
Sənsiz bağa girmərəm,
Xəzan olsa gül bağda.

22. Mən aşiq ahu-zarda,
Canım ğəmdə, azarda,
O gündən ki, qul oldum,
Satıldım hər bazarda.

23. Oturmuşdum otaqda,
Nə halda, nə damaqda,
Bil nağafil yel əsdi,
Gül qoymadı budaqda.

24. Gözüm qaldı o qaşda,
O kirpikdə, o qaşda.
Məcnun tək dəli göylüm,
Gəzir dağda-daşda.

25. Əzizim bu damaqda,
El olmaz bu damaqda.
Saxlasın xudam səni,
Həmişə bu damaqda.

26. Mən aşığam yaz bağda,
Bülbül ötər yaz bağda,
Yara qonaq olardım,
Qış otaqda, yaz bağda.

27. Kətanım var daraqda,
Bir yar sevdim İraqda;
İraqda olur olsun,
Sevgisi var ürəkdə.

28. Əzizim yarı yolda,
Kim gördi, yarı yolda?
Xəyalın olmasaydı,
Qalırdım yarı yolda.

29. Əzizim qız aranda,
Dan yeri qızaranda.
Qalsa da oğlan qalsın,
Qalmasın qız aranda.

30. Gün çəkilib batanda,
Gündüzə şər qatanda.
Ovçı, əlin qurusun,
Marala ox atanda.

31. Arı bal salı şanda,
Baldan kam alı şanda,
Çətin olur ayrılıq,
Göz-gözə alışanda.

32. Ulduz kimi axanda,
Yandıranda, yaxanda,
Nə olar bir güləsən,
Mən üzünə baxanda.

33. Ay gədikdən doğanda,
Soğan qabıq qoyanda,
Mən alnına yazıldım
Sən anadan olanda.

34. Əzizim yaz aranda,
Ya dağda, yaz aranda,
Bircə kəlmə sözüm var,
Yarınan öz aramda.

35. Gül əkdim, gül məkanda,
Yerin bil gül məkanda.
Sən güldün, mən də güldüm
Mən handa, gülmək handa?!

36. Əzizim gül alanda,
Saça sünbül alanda,
Yarım yadıma düşər,
Əlimə gül alanda.

37. Qolbağısı qolunda,
Gəzir bulaq yolunda,
Sən nə qədər gözəlsən,
Mələk varmı soyunda?!

38. Oturmuşdu dalanda,
Od yanar ocağında,
Qoy məni öldürsünlər,
Yarımın qucağında.

39. Dağda payız olanda,
Sarı sünbül olanda,
Yara elçi göndərərəm,
On beş yaşa dolanda.

40. Aşiq bağ arasında,
Duman dağ arasında,
Şam kimi alovlandım,
Yandım yağ arasında.

41. Ala dağın başında,
Sirr var hər bir daşında,
Sən özünə dost qazan,
Düşmən ocaq başında.

42. Durma qapı dalında,
Gözüm qaldı xalında,
Gedim anama deyim,
Gəlim qalım yanında.

43. Əzizim yar bağında,
Pərvanə yanar odda,
Dərdimi dağa desəm,
Od tutub yanar o da.

44. Gecənin ocağında,
Şam yanır ocağında,
Allah muradın versin,
Mərd oğlan ocağında.

45. Əzizim para-para,
Ürəgim para-para,
Göylümdəki arzımı,
Sən etdin para-para.

46. Şirvanın bucağında,
Od yanar ocağında,
Başın qoy sinəm üstə,
Can verim qucağında.

47. Biçarəyəm, biçarə,
Biçarəyə nə çarə?!
Qapım haqdan bağlanıb,
Kimə gedib açara?

48. Mən aşiq bağda ara,
Bülbülü bağda ara.
Bağbanın göylü olsa,
Nə gəlib bağda nara?

49. Əzizim dağda ara,
Gün düşüb dağda qara.
Leylisi itən Məcnun,
Çölləri dağ-dağ ara.

50. Mən aşiq göylü xara,
Yaylığın göylü xara.
Dedilər bülbül ölüb,
Verdilər göylü xara.

51. Aşiq qarabaqara,
Xalın qarabaqara.
Yarın itirmiş aşiq,
Gəzər qarabaqara.

52. Əzizim bağda dara,
Zülfünü bağda dara,
Bülbülü güldən ötrü,
Çəkdilər bağda dara.

53. Şalını alma qara,
Başına salma qara.
Gedirdim yar sevməyə,
Tuş gəldim qalmaqala.

54. Əzizim gündə dara,
Zülfünü gündə dara.
Əlim səndən üzmərəm,
Çəksələr gündə dara.

55. Əzizim, alma qara,
Geyməgə alma qara.
Gizlində bir yar sevdim,
Saldılar qalmaqala.

56. Əzizim üzü qara,
Qaranın üzü qara.
Gedirəm yar yanına,
Əliboş, üzü qara.

57. Dağların başı qara,
Dibinin daşı qara,
Burda bir qız görmüşəm,
Gözü şux, qaşı qara.

58. Mən aşiq gözdə qara,
Çək sürmə, göz də qara,
Yar yolun gözləməkdən,
Qalmadı gözdə qara.

59. Sözün demə aşkara,
Dərdə tapılmaz çara.
Dindirmə qan ağlaram,
Ürəgimdə var yara.

60. Dağlar batıbdır qara,
Ovcu düşündi dara,
Dil ilə dost olanın,
Qəlbini darda ara.

61. Bulud endi dağlara,
Xəzan gəldi bağlara.
Fələkin gərdişindən,
Ömür-gün keçdi qara.

62. Eləmə bağrı qara,
Bir quş var bağrı qara.
Lalə kimi gül olmaz,
Onun da bağrı qara.

63. Mən aşiq işıqlara,
Zülfi dolaşıqlara.
Əlimə bir saz alam,
Qoşullam aşıqlara.

64. Alma atdım qızlara,
Dığırlandı düzlərə.
Bir gün peşman olarsan,
Danışdığın sözlərə.

65. Biz hara, bura hara,
Saldılar bizi tora,
Bizi tora salanı,
İmansız getsin gora.

66. Çıxdım uca divara,
Baxdım o nazlı yara,
Mən baxdım, o baxmadı,
Qəlbimə vurdu yara.

67. Qohum hara, yad hara,
Bel bağlama ağyara,
Qonşun hayasız çıxsa,
Tez köç, canın qurtara.

68. Gülü taxdım divara,
Bülbül gələ suvara,
Oxu, bülbülüm, oxu,
Bəlkə yarım oyana.

69. Yar gəldi bu diyara,
Göylümə etdi çara,
Bir gözəl qız sevmişəm,
Özü ağ, gözü qara.

70. Gül saçaram divara,
Elçi göndərrəm yara,
Elçiyə zaval yoxdı,
Özüm elçiyəm yara.

71. Aşiq itgin diyara,
Xalın itgindi yara,
Səni məndən edəni,
Düşsün itgin diyara.

72. Mən aşiq yaman yara,
Yaman dərd, yaman yara.
Yamanlar yaxşı oldı,
Biz olduq yaman yara.

73. Əziziyəm, dil yara,
Dodaq yara, dil yara,
Oturardım üz-üzə,
Yetirərdim dil yara.

74. Mən aşığam min yara,
Sinəmdə var yüz yara;
Sər verərəm, sirr
verməərəm,
Get, bunu söylə yara.

75. Əziziyəm, bu yara,
Gedər, qalmaz bu yara.
Yada dost demək olmaz,
Dost hara, düşmən hara?

76. Əzizim, oxu yara,
Aç kitab, oxu yara.
Yaramı neştər deşməz,
Məgər yara, oxu yara.

77. Dilimin üstə yara,
Altı qan, üstü yara,
Dilim, səni kəsərəm,
Nə dedin, küsdi, yara?

78. Əziziyəm, yar yara.
Qara bağrım yar yara.
Ürək sınar, qan sızlar,
Naz eləsən yar yara.

79. Əzizim dəgdi yara,
Su gəldi dəgdi yara.
Lal olsun mənim dilim,
Nə dedim dəgdi yara?

80. Mən aşiq üzümüm yox.
Bağım var, üzümüm yox.
Sən ki belə tez getdin
Fəraqa dözümüm yox.

81. Əzizim canı yara,
Qıyaram canı yara,
Tutum, qoyum qəfəsə,
Göndərim canı yara.

82. Əziziyəm Salmasa,
Xoydan gedər salmasa,
Bəndə bəndəyə neylər,
Tarı gözdən salmasa?

83. Ağac başında qora,
Bilmədim düşdüm tora,
Səni məndən edəni,
İmansız getsin gora.

84. Gedərəm gedən olsa,
Yolu ürəgdən olsa,
Yara namə yazmışam,
Yanına gedən olsa.

85. Gərdənbəndim üç qoza,
Vermişdim zərgər poza,
Evim onda yıxıldı,
Vuruldum qumarbaza.

86. Taxçada bülbül kasa,
Kasa döndi almasa,
Mənim günahım olsa,
Gedərəm altamasa.

87. Əzizim gülən olsa,
Göz yaşın silən olsa.
Cavanlıq yaxşı şeydir,
Qədrini bilən olsa.

88. Su gəlir daşa-daşa,
Dağlardan aşa-aşa.
Arada salam gətir,
Bütün qohum qardaşa.

89. Əziziyəm, ay ağa,
Salma məni ayağa,
Dost baxsa, başa baxar,
Düşmən baxar ayağa.

90. Qərənfil əkdim daşa,
Bitmədi, qaldı qışa.
Həvəs etdim, yar sevdim,
Əməgim getdi boşa.

91. Gəl gedək bizim bağa,
Qoyaq dodaq-dodağa.
Bülbül olaq oxuyaq,
Qonaq budaq-budağa.

92. Eyləmə qarqamışa,
Qar yağıb qar-qamışa,
Yüz dil, ağız neyləsin,
Bir fələk qarqamışa?

93. Tərlan gəlib bu bağa,
Qonub budaq-budağa.
Ölmüş olsam dirilləm,
Dəysə dodaq-dodağa.

94. Atı vurdum yoqquşa,
At getdi qoşa-qoşa.
Muradım yoqquş degil,
Yar mənimlə toqquşa.

95. Əziziyəm, bu bağa,
Bu bağçaya, bu bağa,
Dünyada bir canım var,
O da yara sadağa.

96. Bülbül girdi bağa,
Qonub güllü budağa.
Sayana qul olginən,
Saymayana ol ağa.

97. Mən aşiqəm bu dala,
Bülbül qonar, bu dala.
Bu dala qonan düşüb
Gəl sən qonma bu dala.

98. Atladım bağdan-bağa,
Alnım dəgdi çardağa.
Dünyadan kam almamış,
Necə girim torpağa?

99. Təbriz üstü Marağa,
Zülfün gəlmir darağa.
Axtarıram yarımı,
Yox taqətim fərağa.

100. Əzizim qara dağa,
Gün doğar Qaradağa,
Mən Qaradağ əhliyəm,
Yaz məni qara dağa.

101. Gəl gedək daş bulağa,
Suyu sərxoş bulağa,
İkimiz həmdərd olaq,
Tökək qan, yaş bulağa.

102. Əziziyəm bu dağa,
Ellər köçər bu dağa.
Elə ki mən dözürəm,
Kimsə dözməz bu dağa.

103. Ay dolanır batmağa,
Yuxum gəlmir yatmağa,
Əllərim öyrənibdir,
Şux məmə oynatmağa.

104. Ulduz sultan, ay ağa,
Zülm eyləmə ayağa.
Dövlətim yox, malım yox,
Gəldim düşmən ayağa.

105. Əzizim alma qala,
Boşqaba alma qala.
Namərd ilə dost olma,
Düşərsən qalmaqala.

106. Marala bax, marala,
Dağlar başın qar ala,
Bir yanan kimsəm ola,
Çəkə dərdim, sarala.

107. Əzizim qala-qala,
Qar yağdı qala-qala.
Cavan ömrüm çürüdi,
Qürbətdə qala, qala.

108. Bağlarında çağala,
Dövrəsin yarpaq ala.
Allah bir iş işləyə,
Sevgi sevgisin ala.

109. Əzizim alma qala,
Boşqaba alma qala.
Mən səni gizlin sevdim,
Saldılar qalmaqala.

110. Dağın başında qala,
Heyranam üzdə xala.
Bir nazlı yar görmüşəm,
Buxax büllur, göz qara.

111. Ucadır bizim qala,
Dərd getməz yüz il qala.
Bəd əsil, əsil olmaz,
Boyunca qızıl qala.

112. Ocağa odun qala,
Od gətir, odun qala.
Qorxuram düşəm öləm,
Canımda odun qala.

113. Odun gətir, qoy qala.
Doldur qəlyan, qoy qala,
Sözün ötməyən yerdə,
Ürəgində qoy qala.

114. Ocağı yaxşı qala,
Od gətir, yaxşı qala,
Nə olar bu dünyada,
Pis ölə, yaxşı qala?

115. Əzizim dağda lalə,
Bənzər gül üzdə xalə.
Aşıqda himmət olsa,
Çox tez yetər visala.

116. Əzizim daşlı qala,
Görünür daşlı qala.
Necəsən salım gedim?
Gözlərim yaşlı qala?

117. Dağlara əkdim lalə,
Ələ aldım piyalə.
Heç görünüb dünyada,
Zülm evi abad qala?

118. Bu qala, daşlı qala,
Yolları daşlı qala.
Qorxuram düşəm öləm,
Yar gözü yaşlı qala.

119. Ay dönübdü hilala,
Haram düşməz halala,
Namərdin bağçasında,
Nə gül yetişsin, nə lala.

120. Mən aşiq ay camala,
Yar aldan ay cam ala!
Götür üzdən örtüyün,
Baxım bir ay camala!

121. Əzizim bahar ola,
Gül açça, bahar ola.
Çəməndə su yanında,
Qədəh ola, yar ola.

122. Kaman bəla, ox bəla,
El gələli yox bəla.
Namərdlə dost olanın,
Başı çəkər çox bəla.

123. Qapı döyən kim ola,
Aç gəlsin hər kim ola.
Göydən gələn bu dərdə,
Bəlkə bir həkim ola.

124. Al kəməri, bel bağla,
Saçlarına tel bağla,
Nə yada sirrini ver,
Nə namərdə bel bağla.

125. Bu dağ gəvənin ola,
Gəvən dəvənin ola;
Şəriət hökm eyləyə,
Sevən sevənin ola!

126. Xəncəri işlə, yolla,
Üstün gümüşlə, yolla.
Mənə beş alma göndər,
Birini dişlə, yolla.

127. Yarı göndərdim yola,
Gözləri dola-dola.
Xudam, bir bulud göndər,
Yarıma kölgə sala!

128. Yolladım yarı yola,
Gözlədim dola-dola.
Buluda çox yalvardım,
Üstünə kölgə ola.

129. Əlimdə var bağlama,
Mən gedirəm, ağlama,
Gedib gələ bilməsəm,
Namərdə bel bağlama.

130. Əziz, xəraba dama,
Girmə, xəraba dama.
Yar özü bostançıdır,
Məndən istir şamama.

131. Mən aşiq gül əndama,
Çıxıbdır gəlin dama.
Ollam bir ipək köynək,
Yaraşam gül əndama.

132. Dedim, sonam ağlama,
Qara çarqəd bağlama,
Öz dərdim mənə bəsdi,
Sən ürəgim dağlama!

133. Aşiq, naçar ağlama!
Pis gün keçər, ağlama!
Fələk bağlı qapını,
Bir gün açar, ağlama!

134. Ağ xoruzum banlama,
Ana, məni danlama,
Mən gedirəm vəzifə,
Sən məni nişanlama.

135. Gəl məni bəndə atma,
Xoydan Mərəndə atma.
Hamı üz döndəribdir,
Rəhm eylə sən də atma.

136. Tüfənfim dolu saçma,
İstəklim, məndən qaçma.
Mənim yaram dərindi,
Bir yara da sən açma.

137. Əlində var şamama,
Dur gəl gedək hamama.
Dolanaram başına,
Gəlin olsan anama.

138. Saatı tərsə taxma,
Dönüb dalıya baxma,
Özün gör, özün bəyən,
Ellər sözünə baxma.

139. Mən gedirəm hamama,
Deməyin qayınanama.
Özü bostançı qızı,
Mənnən istir şamama.

140. Çeşmə başında durma,
Çeşməni bulandırma.
Sənin ki gözaltın var,
Deyib məni yandırma.

141. Anama bax, anama,
Anam baxmır yarama.
Özüm məlhəm qayırdım,
Özün qoydum yarama.

142. Mən aşıq istər alma,
Yar məndən istər alma,
Can verdim, alma aldım,
İstər al, istər alma.

143. Mən aşiq yalqız alma,
Ağacda yalqız alma.
Yardan öpüş alanda
Cüt-cüt al, yalqız alma.

144. Gedirəm Ərzuruma,
Dözürəm hər zuluma.
Yazaram göz yaşımla,
Göndərrəm Araza, Ruma.

145. Ağ alma, qızıl alma,
Nimçəyə düzül, alma,
Çərkin al, nəcib olsun,
Bədəsil gözəl alma.

146. Gör nə gəldi başıma,
Ağı qatdı aşıma.
Ömrümün bu çağında,
Külü tökdü başıma.

147. Ağ alma, qızıl alma,
Taqçaya düzül alma,
Bilseydim, yar göndərib
Saxlardım yüz il, alma.

148. Fələk vurdu başıma,
Qan axıtdı qaşıma.
Yarı dost, yarı düşman,
Yığılıbdır başıma.

149. Mən aşıq gün batana,
Ay gedir gün batana.
Gözləyirəm yolunu
Dolan gəl gün batana.

150. Ay qız, adın Məstana,
Girmə bizim bostana.
Qorxuram yağış yağa,
Tər şamama islana.

151. Bıçaq qoydum yanıma,
Ucu girdi canıma.
Sən ki məni sevməzdin,
Neçün girdin qanıma?

152. Əziziyəm mərd ana,
Sözünü de mərdana.
Qorxağa oğul deməz
Qoçaq ata, mərd ana.

153. Aşıq, qaralı qoyma.
Ovçu, maralı qoyma.
Ovcün sinəmdə qaldı
Öldür, yaralı qoyma.

154. Əziziyəm dürdanə,
Sədəf danə, dürr danə.
Dünyada gözəl çoxdı,
Mən sevdigim bir danə.

155. Əzizim gülüstana,
Şeh düşüb gülüstana.
Qorxuram göz yaşımdan,
Qoynunda gül islana.

156. Üç bacıydıq, bir ana,
Gəzirdik yana-yana.
Fələk vurdu, dağıtdı,
Hərə düşdü bir yana.

157. Günləri bir-bir sana,
Qoy verim bir sirr sana.
Bir elm, bir də sənət,
Xəzinədir insana.

158. Arif odu söz qana,
Söz anlaya, söz qana.
Sənə süd verən ana
Olsun mənə qaynana.

159. Günləri bir-bir sana,
Od düşüb şirin cana.
Danışırıq baxışla
Dil qalır yana-yana.

160. Əzizim məməqana,
Təbrizdən Məməqana.
Başım kəs sinən üstə,
Qoy batsın məmə qana.

161. Mən aşiq oxusana.
Dərs alıb oxusana.
Sən bir gözəl maralsan,
Kim vurdu oxu sana?

162. Əzizim dərd alana,
Gəl gedək dərd alana.
Həkim-təbib neyləsin,
Ürəgin dərd alana?

163. Arif odu söz qana,
Söz anlaya, söz qana.
Mən bir badam içiyəm,
Qədər-qismət qılana.

164. Ay zamana-zamana,
Oxu qoydum kamana.
Eşşəklər apra yeyər,
At həsrətdi samana.

165. Ay düşdü nərdivana,
Məni etdün divana.
Heç ürəgin yanmadı
Mənim kimi cavana.

166. Pis keçəndə zamana,
Baxmaz yaxşı-yamana.
Aclıq əyər yoxsulı,
Qədi dönər kamana.

167. İşim düşdi divana,
Axəri gəldim cana.
Heç zaman bel bağlama,
Bir nadana, bir xana.

168. Mən aşiq bir canana,
Bir cana, bir canana,
Hər yetənə can vermə,
Canı ver bir canana.

169. Əzizim yana-yana,
Şamı qaldı yana-yana.
Necəsən qoyum gedim,
Qalasan yana-yana!

170. Əzizim nərdivana,
Bir-bir çıx nərdivana.
Zər qədrin zərgər bilər,
Nə bilər hər divana?

171. Aşiq gedər hər yana,
Sözün deyər mərdana,
İgidə ürək verər
Bərk ayaqda mərd ana.

172. Əziziyəm bir yana,
Bir alışa, bir yana.
Camalın aşığıyam,
Qoyub getmə bir yana.

173. Yar deməz söz yarına,
Dəgməsin göz yarına.
Sağalar xəstə gönül
Yetəndə öz yarına.

174. Təbriz üsti miyana,
Gül sünbülə dayana.
Oxı, bülbülüm, oxı,
Bəlkə yarım oyana.

175. Əzizim daldasına,
Mərd igit daldasına.
Namərd aslan olsa da,
Sığınma daldasına.

176. Əziziyəm sal yana,
Dara zülfün, sal yana.
Necəsən bir ah çəkəm,
Kür quruya, sal yana!

177. Dağların daldasına
Gün gedər daldasına.
Bir dala daldalandım,
Qorxuram dal da sına.

178. Əzizim nədən yana,
Pərvanə nədən yana?
Yaxşı dost yaman gündə,
Çəkilir nədən yana?

179. Əzizim qarasına,
Qaşların qarasına.
Qoy anan qurban olsun,
Ürəgin yarısına.

180. Gözlərin qarasına,
Xal qoyum arasına.
Yar yaxşı dərmandır,
Aşığın yarasına.

181. Çıxdım dağlar başına,
Yazı yazdım daşına.
Gələn-gedən oxusun,
Nələr gəldi başıma!

182. Dəstmalın qarasına,
Gül tikdim arasına.
Gözəllər covqa vurub,
Yar düşüb arasına.

183. Çıxdım çinar başına,
Baxdım evlər tuşuna.
Bir nişanlı qız gördüm,
Oxşur cənnət quşuna.

184. Bülbülün yuvasına,
Gül girər röyasına,
Bülbül gülə aşiqdir,
Məcnun da Leylasına.

185. Gün getdi dağ başına,
Yar ağ örtüb başına.
Göylün şamama istər,
Dolan gəl tağ başına.

186. Mən aşiq, oxu sına,
Al yayı, oxu sına.
Mən bura gəlməz idim,
Gəldim gül qoxusuna.

187. Bu dağların başına,
Bülbül qonub daşına.
Mahir ovçu düz vurar.
Atmaz oxu daşına.

188. Qaradağın başına,
Qurban olub daşına.
Qırmızı döşlük olub,
Sarılaydım döşünə.

189. Mən aşığam ayına,
Bəndəm qaşın yanına.
Qorxuram kirpik alam,
Özündən göz yanına.

190. Bu dərənin başına,
Yağış yağar daşına.
Bivəfa yar yolunda,
Nələr gəldi başına.

191. Çıxdım balaxanaya,
Baxdım xəlvətxanaya.
Yel vırdı, tel ayrıldı,
Qorxdum yarım tanıya.

192. Vurulmuşam qaşına,
Gözlərinin yaşına.
Baş götürüb qaçaram,
Uca dağlar başına.

193. Ay doğdı düşdü çaya,
Camalın bənzər aya.
Cavan ömrüm çürüdi,
Günləri saya-saya.

194. Mən aşığam halına,
Üzdə qoşa xalına.
Lalə-bənövşə yetməz,
Yarın gül camalına.

195. Xırmana vurdum taya,
Camalın bənzər aya.
Can qoydum, cəfa çəkdim,
Əməgim getdi zaya.

196. Dağların başı qaya,
Üzün bənzəyir aya.
Səni gözləyəcəgəm,
Günləri saya-saya.

197. Əzizim gözəl maya,
Gözəl nər, gözəl maya.
Yolunda ağlamaqdan
Dönübdür göz almaya.

198. Bulud yox, bax səmaya,
Ulduztək ax səmaya.
Zərrəcə üzün görsəm,
Kafərəm baxsam aya!

199. Mən aşığam nəvaya,
Bir qulaq as nəvaya.
Nə namərdə yoldaş ol,
Nə aha düş, nə vaya!

200. Bir daş atdım almaya,
Almada gül qalmaya.
Allah qızı yaradıb
Oğlan yalqız qalmaya!

201. Bahasız daşdı dünya,
Çürük ağaşdı dünya.
Kimə deyim dərdimi,
Bütün qan-yaşdı dünya.

202. Toy eylə, gəlim toya.
Qurbanam belə boya.
Bir gün gördüyüm yarı,
Bir də görsəmmi ola?

203. Ovçu bərədə durub.
Torun bərədə qurub.
Yardan neçə yaram var,
Hər birin bir xal vurub.

204. Dağ başını qar alıb,
Bağçaları bar alıb.
Namərd, alma canımı,
Bir canım var, yar alıb.

205. Aşığam işim ğərib,
İşim, yoldaşım ğərib.
Heç bilməm haralıyam,
Torpağım-daşım ğərib.

206. Əziziyəm, yaxşı at,
Nişan götür, yaxşı at.
İgidi yaxşı saxlar,
Yaxşı arvad, yaxşı at.

207. Bulud dağdan oğranıb,
Para-para doğranıb.
Qoca kötük üstündə
Çoxlu budaq doğranıb.

208. Mən aşığam xarabat,
Abad olmaz xarabat.
İgidi başdan eylər
Yaman yoldaş, xarab at.

209. Sərraf kimi sözü seç,
Pisə məhəl qoyma heç.
Sayana hörmət eylə,
Saymayanı sayma heç.

210. Göydən gedən quşa bax,
Qanadı sınmışa bax.
Hər yerdə yaz açıldı,
Bizdə qalan qışa bax!

211. Narıncı soymadım heç,
Boşqaba qoymadım heç.
Sevgimdən kağız gəlib,
Üstündə qan-yaşa bax!

212. Aya bax, ulduza bax,
Damda yatan qıza bax.
Qız Allahı sevirsən,
Üzün döndər bizə bax!

213. Əlimdə yayıma bax!
Gül üzlü ayıma bax!
Çəkdigim zəhmətimə,
Aldığım payıma bax.

214. Bağa bax, bostana bax,
Dilə bax, dastana bax.
Yaxşılar od vuran,
Gözləri məstana bax!

215. Qalanın daşına bax,
Gözümün yaşına bax,
İstəklim qoydu getdi,
Talesiz başıma bax!

216. Dağların başına bax,
Dibinin daşına bax.
Mən sevdim, yad apardı,
Dünyanın işinə bax!

217. Kağızın ağına bax,
Sinəmin dağına bax.
Göylün gözəl istəsə,
Şəkinin bağına bax.

218. Bulağın başına bax,
Dibinin daşına bax,
Mən sevdigim gözəlin,
Gözünə, qaşına bax!

219. Gəncənin dağına bax,
Soluna, sağına bax.
Dərdimə inanmırsan,
Gözümün ağına bax!

220. Bu dağın başına bax.
Qar, yağış, qışına bax.
Mən sevdim, ellər aldı,
Fələkin işinə bax!

221. Gəncənin ayına bax,
Ulduzun sayına bax.
Yar yolunda can qoydum,
Verdigim payına bax.

222. Ağcada xəzələ bax,
Dibində gözlərə bax.
Ayaq yalın, baş açıq,
Sərgərdən gəzənə bax!

223. Kababçıyam, şişim yox.
Qocalmışam, dişim yox.
Bu dünyada kef çəkdim,
O dünyayla işim yox.

224. Dağlardan enənə bax,
Evinə dönənə bax.
Muradına çatmayıb
Çırağı sönənə bax.

225. Dərdliyəm, dərmanım yox.
Yoxsulam, xərmanım yox.
Gedirəm yar yanına
Əlimdə fərmanım yox.

226. Manqal oldum, külüm yox.
Bülbül oldum, dikim yox.
Səndən ayrı düşəli
Ağlamamış günüm yox.

227. Baharıydı, yazıydı,
Göldə ördək-qazıydı.
Gəldim bir namə yazam,
Mürəkkəbim azıydı.

228. Təpə başı toz olur,
Dəstə-dəstə qız olur.
Əgil, dəsmalıyı götür,
Mən götürsəm, söz olur.

229. Dəgirman astı (üstü) çiçək,
Gedək orda gül dərək.
Yığılın gedək çölə,
Oturaq şərab içək.

230. Təpə başı badamça
Yel vura, pərin aça.
Qurban olum qardaşa,
Dolanıb qapum aça.

231. Gög at biçində gəzər,
Buxov qıçında gəzər,
Mən qurbanam o yara,
Xanlar içində gəzər.

232. Pəncərədə üzüm var,
Qilləsində (giləsində) gözüm var.
Bir kişinin beş oğlu,
Mirzasıynan sözüm var.
= Pəncərədə üzüm var,
Qəlləsində gözüm var.
Bir övdə bir cüt bacı,
Küçügündə gözüm var.

233. Əmim oğlu mayana,
Malı yoxdı, dayana.
Qoy aparsun yad oğlu,
Sən qalay yana-yana.

234. Aftafa dolu Nildən,
Sən dodaxdan, mən dildən.
Bu ikkisi bir olar,
Necə ayrulak bir-birdən?

235. Ağ çərqətin bağlama,
Gözim qurban, ağlama.
Gedərəm, genə gəlləm,
Yadlara bel bağlama.
=Ağ çərqətin bağlama,
Gözüy qurban, ağlama.
Gedsəm, özüm gələrəm,
Yadlara bel bağlama.
= Ağ çərqətin bağlama,

Gözüyi qurban, ağlama.
Gedərəm, özüm gəlləm,
Yadlara bel bağlama.

236. Həyətdə gül ağacı,
Gülün başunda tacı.
Günüm bir gün olaydı,
Yara disinlər Hacı.

237. Ay dolana-dolana,
Düşdi bizim dalana.
And içmişəm Qurana,
Gedəm xoşgəl oğlana.

238. Ağ köynəgi yumuşam,
Üstünə gül vurmuşam.
Qorxma, sevdigim oğlan,
Yolunda mən durmuşam.
=Yolıynan mən durmuşam.
=Ağ köynəgü yumuşam,
Üstünə gül vurmuşam.
Sən xidmətini elə, gəl,
Mən sözümdə durmuşam.

239. Köynəgi yaşıl oğlan,
Əcəb yaraşır, oğlan,
Az gəl küçəmizdən keç,
Anam savaşır, oğlan.

240. Qızılgülü dərəllər,
Məxməl üstə sərəllər.
Xoş o qızın haluna.
Sevdiginə verəllər.

241. Dərvişəm, kəşkülüm var,
Hər bağda bir gülüm var.
Çağurram, “Ya Əbülfəzl”,
Sən açan müşkülüm var.

242. Gəlirdim çay içinnə,
Səs gəldi bağ içinnə.
Xudam verə mətləbim,
Açulan ay içinnə.
=Gəlirdim çay içinnə,
Qəlbim ax-vay içinnə,
Xudam verə mətləbim,
Açulan ay içinnə.

243. Yol üstünnə var çinar,
Yarpağı dinar-dinar.
Çox giriftar olmuşam,
Çatdursun pərvərdigar.

244. Gedirəm, genə gəlləm,
Kafərəm, dinə gəlləm.
Yüz il zindanda qalsam,
Çıxanda yenə gəlləm.

245. Əsgəriyəm, kişmişəm,
Cibdən-cibə düşmüşəm.
Xudam, nətər zülm olub,
Yardan cüda düşmüşəm.

246. Qızıl iynənin sapı,
Görsənməz bizim qapı.
Yarı yarda eliyən
Dilənsin qapı-qapı.

247. İlana bax, ilana,
İlan getdi dolana.
Səni mənnən ayuran
Bala deyib dolana.
=İlana bax, ilana,
İlan girdi dalana.
Səni mənnən ayuran
"Bala" diyə dolana.

248. Su görmüşəm, Ya Əli,
Yuxu görmüşəm, Ya Əli.
Müşkül işim düşübdür,
Müşkül açan, Ya Əli.

249. Qərənfil oyum-oyum,
Dərim qoynuma qoyum.
Yağış yağar, yer doymaz,
Mən səndən necə doyum.

250. Qərənfil qutudadı,
Xumar göz yuxudadı.
Qəm yemə, qəmxar köylüm,
Mətləb verən Xudadı.

251. Oturmuşdum səkidə,
Ürəgim səksəkədə.
Üç qızıl alma gəldi,
Bir gümüş nəlbəkidə.

252. Anası yanar, ağlar,
Hərifi qanar, ağlar.
Ana deyər, göyərçin
Tabuta qonar ağlar.

253. Əzizim, Vətən yaxşı,
Köynəgin kətan yaxşı.
Qürbət yer cənnət olsa,
Yenə də Vətən yaxşı.

254. Can qardaş, canım qardaş,
Ağladır canım, qardaş.
Baş qoyum dizin üstə,
Qoy çıxsın canım, qardaş.

255. Apardı tatar məni,
Qul eylər, satar məni.
Vəfalı yarım olsa,
= Yarum vəfalı olsa,
Axtarıb tapar məni.

256. Əmim oğlu yad oğlu,
Evinə girsin oğru.
Sən ki məni almadın,
Qoy aparsun yad oğlu.

257. Kossa gəlib havadan,
Börküdür yel qovandan.
Kossanın payun vərəy,
Eviviz olsun abadan.

258. Şasənəm, ölmə mənəm,
Öpərəm, dişləmənəm.
Şasənəm, qorxma mənəm,
Öpərəm, dişləmənəm.

259. Ay kosa, kosa, gəlsənə,
Gəlib salam versənə.
Çömçəni doldursana,
Kosanı yola salsana.

260. Əl-əl əpənək,
Əldən çıxdı kəpənək.
Sayım, soyum saxsağan,
Çillə dedi, bunu kəs.

261. Saxsağanum, şaqqullama,
Hər nə desəm, doqqullama.
Qurban olum fal ağzuya,
Qəndi sınnır, sal ağzıya.

262. Bu dağların gözünə,
Ceyran gəzər dizinnə,
Mən yarumı tanuram,
İkki xal var üzünnə.

263. Aşşuq gəliy, sazı var,
Qəmzəsi var, hazı var.
Hər baharıyı bir qışı,
Hər qışıy bir yazı var.

264. Oyat-butay bizimni,
Həqiq düzüm-düzümni.
Xuda qismət eyləsə,
Əmim qızı bizimdi.

265. Qızılgül ərsin-ərsin,
Qızılgüli kim dərsin.
Allahdan mətləb istə,
Allah mətləbin versin.

266. Qızılgüləm, bitərəm,
Yollar üstə tutaram.
Mən bivəfa degiləm,
Hal və soraq tutaram.

267. Çıxdım dam arasuna,
Baxdum ay parasuna.
Qızıgül cərgə vurdı,
Yar girdi arasuna.

268. Bu dağda ceyran gəzər,
Əl-əyağın daş əzər.
Mən yara neyləmişəm,
Yar mənnən ayrı gəzər.

269. Çıxma dama, dam batar,
Əyağına xar batar.
Mən yara neyləmişəm,
Yar mənnən kənar yatar.

270. Damda duran üç gözəl,
Damıyı qırağun əzər.
Biri mənim yarımdı,
İkkisi veylan gəzər.

271. Damda duran ağ çadur,
Həyətimiz bağçadur.
Gəlmişiy gül aparay,
Açulmuyub qunçadur.

272. Bu gələn bizə gələ,
Təppəni, düzə gələ.
Abı çitdən arxaluq,
Qorxuram gözə gələ.

273. Dalan astı dərinniy,
İçdim suyı, sərinniy.
Məni bu dərdə salan,
Bir balaca gəlinniy.

274. Gəlinə bax, gəlinə,
Tilfun alıb əlinə.
Şirin-şirin danışıy,
Mən qurbanam dilinə.

275. Ağlaram ağlar təkin,
Dərdim var dağlar təkin.
Xəzan olub tökülləm,
Virana bağlar təkin.

276. Fələgin dad əlinnən,
Olmadun şad əlinnən.
Yaman yerdə yıxıldım,
Tutmadı yad əlimnən.

277. Fələgin bir güni var,
Gününün dügüni var.
Bu güni ye, şükr eylə,
Bunnan betər güni var.

278. Qəribəm, yoxdu arxam,
Qənətim yoxdu qalxam.
Çıxam uca dağlara,
Vətənə sarı baxam.

279. Mən bir ovuc yumağam,
Yatmamuşam, oyağam.
"Ged" desələr gedərəm,
"Qal" desələr, qalaram.

280. Gedərəm, gələn olsa,
Göz yaşum silən olsa.
Məhəbbət yaxçu zaddur,
Qədrini bilən olsa.

281. Suda baluq yan gedər,
Kəsmə bağrum, qan gedər.
Üzüyi dedim bir görəm,
Çaddı əzəl, can gedər.

282. Su gələr, axar gedər,
Ürgəni yıxar gedər.
Dünya bir pəncərədir,
Hər gələn baxar gedər.

283. Apardı çaylar məni,
Həftələr, aylar məni.
Yüküm qurquşum yükü,
Yordu bu taylar məni.

284. Yağuş açar, qar başlar,
Feyzə çatar dağ-daşlar.
Bacunın pis gününnə
Dada çatar qardaşlar.

285. Bir quş gəliy o başdan,
Xəbər verər qardaşdan.
Qardaş bacudan doysa,
Bacı doymaz qardaşdan

286. Sizin bağda üzüm var,
Gedmə, dayan, sözüm var.
Gözləriynən qorxuram,
Qaşlarıyna gözüm var.

287. Bu dağda əkdim əkin,
Aldular əlimnəkin.
Heç kafər, heç müsəlman
Olmasun mənim təkin.

288. Bu dağlar qar olaydı,
Baharı var olaydı.
Gözüm çoxdan yoldadı,
O gələn yar olaydı.

289. Qar tökən körük istər,
Acuxa çörək istər.
Zalum övünü yıxmək
Bir böyük urəg istər.

290. Əzizim, kimi gözlər,
Tar çalan simi gözlər.
Qaşıy təkin qaş olmaz,
Gözləriy kimi gözlər.

291. Bu gələn özün bilməz,
Danuşur, sözün bilməz.
Hər gəlib su dolduran
Çeşməniy gözün bilməz.

292. Qızılgül ərsin-ərsin,
Qızılgülü kim dərsin.
Qızılgüli dərənə,
Xuda mətləbin versin.

293. Qızılgüləm, dəstəyəm,
Bülbüləm, qəfəsdəyəm.
Gecəniy yornuğuna
Yatmamuşam xəstəyəm.

294. Bu gün ayıy üçüdü,
Girmə bustan içidi.
Dudaqlarıy xam şəkər,
Dilin badam içidi.

295. Açuq qoy pəncərəni,
Gözüm görsün gələni.
Necə qəbrə qoyallar
Yar dərdinnən öləni?

296. Ağac atdum almıya,
Alma gözdə qalmıya.
Xuda məni qoç qoyub,
Qızlar qısır qalmıya.

297. Dəryaya vurdum kəşti,
Xırıllamadı, geşdi.
Əliy qoy sinəm üstə,
Tərpəd, ürəgim keşdi.

298. Dalan astı, düz gedər,
Gəlin gələr, qız gedər.
Bir əlində şam-kabab,
Bir əlinnə duz gedər.

299. Ulduz gəlib, ay olmaz,
Bahar gəlib, yay olmaz.
Nəcibləriyi içinnə
Heç kəs sənə tay olmaz.

300. Kömür yanar, köz ağlar,
Dil alışar, söz ağlar.
Dost dostdan ayrılanda,
Ürək yanar, göz ağlar.

301. Çıxdım dama, boylandum,
Dəsmal götdüm, oynadum.
Gördüm ki, yar gəliri,
Yar yoluna urğaladum.

302. Səmavəri səsdədi,
Göynüm çox həvəsdədi.
Dilin şirin yarumıy
Dudağları püstədi.

303. İmamzada bağları,
Yaşuldı yarpağları.
Xuda mətləbim versə,
Yannurram çırağları.

304. Əmim qızı, yad qızı,
Evinizə girsin quzı.
Sən ki mənə gəlmədin,
Qoy gəlsin bir it qızı.

305. Dəgirman astı bazar,
Yel vurar ipək azar.
Mənim bu nazlu yarım
Mənə xətbəxət yazar.

306. O taydan gül atdılar,
Bu taydan gül tutdular.
Qoz içi, badam içi,
Yara sovqat qatallar.

307. Bulaq başunna durma,
Bulağı bulannurma.
Mən səniyim, sən mənim,
Gözləriyi dolannurma.

308. Ərəqçinin çin-çini,
Öpdüm ağzıy içini.
Niyə gəlib gedmiri,
Mələmiz (məhləmiz) göyərçini.

309. Yazı güli, ov güli,
Ətəgində möv güli.
O vaxtdan qonşu idik.
İndi olmuşik sövgili.

310. Qızıl qazan qırağı,
Yannur, gətir çırağı.
Yara bir çadur allam,
Zər və zərbağ qırağı.
= Bir axşam gəl, bir tezdən,
Bir də günorta çağı.

311. Dəgirman astı çiçək,
Orağ gətir, gül biçək.
Mənim bu nazlı yaruma
Alagöz dəstə biçək.

312. Dama atdum gök kuzə,
Gök kuzə suyun süzə.
Yarıyı sovğatı siziyi,
Özün gönnərin bizə.

313. Su gələr, həllənnirir,
Bağçanı güllənnirir.
Yarımıy göykəligi
Dilsizi dilləndirir.

314. Dam damadur damumuz,
Ucadur eyvanumuz.
Müntəzirəm yar gələ,
Gəlibdir mehmanımız.

315. Ağacda püstə mənəm,
Dibində xəstə mənəm.

Versələr öz yarumı,
Behişti istəmənəm.

316. Qoz ağacı degiləm,
Hər gələnə əgiləm.
Əgil uzunnən öpüm
Mən özgəsi degiləm.

317. Qızıl üzük nəhannı,
Durmaz burmağım qanı.
Günnə gördügüm yarı,
Pəs bu günnəri hanı?

318. Dağdan bağa gəlmişəm,
Gül dərmağa gəlmişəm.
Bir bala yarum itib,
Axtarmağa gəlmişəm.

319. Su gələr burux-burux,
Doldurram tulux-tulıux.
Disələr yarıy gəliy,
Boymaq verrəm muştuluq.

320. Su gələr lülə-lülə,
Yar gələr gülə-gülə.
Səfərdən gələn oğlan
Geç gedək yarıgilə.

321. Alma bənde, nar bənde,
Su gəlde ləpələnde.
Dəryalar ləpələnniy.
Xuda verə mətləbim,
Sindirrəm kəllə qəndə.

322. Aftafanı doldurdum,
Çəkildim dalda durdum.
Didilər yarıy gəliy,
Eşqinnən ləngə durdum.

323. Bu boydan mələk olmaz,
Dəmirdən ələk olmaz.
"Xoş gəldiy" gözüm üstə,
Küçədə hənək olmaz.

324. Qızıl üzük firuzə,
Gedəy deyəy xoruza.
Bu gecə baynamasun,
Yarum mehmannu bizə.

325. Bu əkin əkin olmaz,
Bildirki təkin olmaz.
Külli-aləm yığılsa,
Öz yarum təkin olmaz.

326. Səmavariyi şiriyim,
Eşqiy qoymaz yeriyim.
Sən göhər axtarura,
Mən göhəriy biriyim.

327. Qoz ağacı degiləm,
Hər keçənə əgiləm.
And içmişəm Qurana,
Sənnən dönən degiləm.

328. Suya gedən çit tumman,
Göynümə saldıy güman.
Elə getdiy, gəldiy ki,
Nə din qaldı, nə iman.

329. Ay çıxar peşmək-peşmək,
Gün çala, yola düşək.
Nə ləzzət var o yerdə,
Yardan su alub içək.

330. Qardaş gəl, ay qardaş, gəl,
Qarlı dağları aş, gəl,
Qürbətdə bir bacıy var,
Dolangunan, birbaş gəl.

331. Damna ulduz xudadı,
Canum sənə fədadı.
Qəm yemə, qüssə yemə,
Mətləb verən xudadı.

332. Su gələr lülə-lülə,
Yar gələr gülə-gülə.
İpək dəsmal əlinnə,
Tərini silə-silə.

333. Dəryada dəryaluqlar,
Suda oynar bulaxlar.
Qoluyı sal boynuma,
Ölüm var, ayrılıx var.

334. Pəncərədən daş gələr,
Ala gözdən yaş gələr.
Səni mənə verələr,
Allaha çox xoş gələr.

335. Hasarumuz bağçadı,
Dövrədə gül tağçadı.
Gəlmiş idim gül dərəm,
Açulmamuş qonçadı.

336. Dəryada dəryaluqlar,
Suda oynar bulaxlar.
Qoluyı sal boynuma,
Ölüm var, ayrılıx var.

337. Ağac atdum kəkligə,
Dağuldı vərkəligə,
Qardaşıy adaxdı gördüm,
Çəkildi xəlvətligə.

338. Damnan dama gəlmişəm,
Yer salmağa gəlmişəm.
Bir cüt maralım itib,
Axtarmağa gəlmişəm.

339. Gül açmaz, qara bağlar,
Göy bağlar, qara bağlar,
Bağda bülbül öləndə
Qızılgül qara bağlar.

340. Eləmə naşı ağlar,
Sinəmin başı ağlar.
Burda bir ğərib ölüb,
Ocağın daşı ağlar.

341. Əzizim qara bağlar,
Ağ üstdən qara bağlar.
Yaramı yar bağlasın,
O yaxşı yara bağlar.

342. Yar başa xara bağlar,
Şal bağlar, xara bağlar.
Bir gün səni görməsəm,
Ürəgim yara bağlar.

343. Mən aşiq nübar bağlar,
Gül tökər, nübar bağlar.
Günlərim belə keçsə,
Ürəgim ğübar bağlar.

344. Gül açıb ara bağlar,
Bəzənib bara bağlar.
Eşq yüz söz qoşsa da,
Axrın yara bağlar.

345. Savalanım buz bağlar,
Dörd yanı yarpız bağlar.
Qaşın, gözün şəninə,
Aşiq gələr söz bağlar.

346. Sonam göldə baş bağlar,
Zülfün yuyar, yaş bağlar.
Gah gülər, gah danışar,
Gah bağrına daş bağlar.

347. Dolan gəl belə bağlar,
Kəmərin belə bağlar.
Bülbül ötməz, gül yetməz,
Çöl olsun belə bağlar.

348. Yar bağçada baş bağlar,
Darar zülfün, yaş bağlar.
Gözləri yolda qalan,
Ürəginə daş bağlar.

349. Qızıl iynənin sapı,
Bağlanmaz bizim qapı.
Yarı-yardan eyləyən
Dilənsin qapı-qapı.

350. Damda duran üç bəndə,
Üç gündi göynüm səndə,
Heyva təki saratdıy,
Bildim, vəfa yox səndə.

351. Ağ alma, qızıl alma,
Yollara dizil alma.
Ya yarı qəytərginən,
Ya yoldan izil alma.

352. Bulağ başunna durma,
Bulağı bulandurma.
Məni sənə verməzlər,
Başıyı dolandurma.

353. Damına su yığınağdı,
Yel vurub dağınağdı.
Mənim bu qəmni göynüm,
Beş gün sizə qonağdı.

354. Su üzünnə hənayam,
Əl vurma, pərvanayam.
Yarum gedib səfərə,
Dəliyəm, divanayam.

355. Təpə başı gül-qonça,
Yel vura, qənət aça.
Qurbanam o qardaşa,
Örtülü qapun aça.

356. Dalan astı dərindi,
Su səpmişəm, sərindi.
Məni bur dərdə salan.
Bir balaca gəlindi.

357. Tehranın yolı daşdı,
Quşları yaşul başdı.
Mən yarume tanuram,
Uca boy, çatma qaşdı.
=Ala göz, qələm qaşdı.

358. Tehran yolun sökərəm,
Hel və mixək əkərəm.
Desələr, yariy gəlde,
Yolboyu gül tökərəm.

359. Məçiddə yatdan oğlan,
Qırmızı qəytan oğlan.
Nişannıy apardular,
Xəbərsiz yatan oğlan.

360. Güli vurdum duvara,
Bülbül gələ suvara.
Nə yar gəldi, nə bülbül,
Qocaldım yolda avara.

361. Endim gəldim cacıxdan[32],
Yol saldum yonacalıxdan.
Dilim, ağzım yanırdı,
Bir söz dedim acuxdan.

362. Bu dərənin uzunu,
Oğlan, qəytər quzunu.
Ged babaya deginən,
Versin mənə qızını.

363. İmam Rza bağları,
Tökülər yarpaxları,
İmam verə mətləbim,
Yanmıram çırağları.

364. Qalı üstunnə güci var,
Güciniy qırx ucu var.
Qız sevə, oğlan sevə,
Kimin ona güci var.

365. Çömçədə yağ olaydım,
Qaşuqda dağ olaydım,
Yarum gələn yollara,
Açulan bağ olaydım.

366. Qızlar, gəley dəst olak,
Şərab içək məst olak.
Bu ayı biz burdayık,
Gələn ay mərxəst olak.

367. Ağac ağaca bəddi,
Tərzlabad yaxçı kənddi.
Təzlabad qızın sevən,
Ya qənddi, ya nabatdı.

368. Göydə ulduz cüdadı,
Canum sənə fədadı.
Qəm yemə, qüssə yemə,
Mətləb verən xudadı.

369. Məçiddə tut ağacı,
Başunna vardi tacı,
Günüm bir gün olaydı,
Yara desinlər hacı.

[32] Cacıx-bitki növü

370. Qızılgül ərsin-ərsin,
Qızılgülü kim dərsin.
Qızılgülü dərəniy
Mətləbin Allah versin.

371. Dağdan gələr biz quzı,
Əl-əyağı qırmızı.
Açey cənnət qapusun,
Gələr imamlar qızı.

372. Çay qırağı cəfəri,
Tərk elə bu səfəri.
Bir dana qız sevmişəm,
Yox anamıy xəbəri.

373. Çıx dama, yeriy salum,
Salıyı beliynə alım.
Gedənnə incidmişəm,
Gələnnə göylün alum.

374. Damda gəzən üç gözəl,
Damıy qırağun əzər.
Biri mənim yarımdı,
İkisi veylan gəzər.

375. Qızılgül qutudadı,
Yar yatub yuxudadı.
Qəm yemə, qüssə yemə,
Mətləb verən Xudadı.

376. Baluna bax, baluna,
Gümüş vurub yanuna.
Balun nə qədr istiri,
Aparay ya yanuna.

377. Ağ almanı dişlədim,
Dövrəsin gümüşlədim.
Qardaş gəldi, vermədim,
Yar gəldi, bağışladım.

378. Ğəribəm vətənim yox,
Bu yoldan ötənim yox.
Düşdüm dərin dəryaya,
Əlimdən tutanım yox.

379. Ağlaram, gülənim yox,
Göz yaşım silənim yox.
Mən gedərgi olmuşam,
“Gəl getmə” deyənim yox.

380. Bir at mindim başı yox,
Bir çay keçdim daşı yox.
Burda bir ğərib ölüb,
Qohumı-qardaşı yox.

381. Alma dərdim, yeyən yox,
Halın necə deyən yox.
Ayrılıq köynəgini,
Məndən başqa geyən yox.

382. Qovun kəsdim, yeyən yox,
Heç dərdimi bilən yox!
Yarımdan ayrı düşdüm,
Heç “vay yazıq” deyən yox!

383. Yaxamın ilməsi yox,
Qırılıb düyməsi yox!
Mənim qoyub gedəli,
Üzümün gülməsi yox!

384. Çağırdım xuda mədəd,
Gördüm yuxuda mədəd,
Qara yer ağzın açmış,
Qorxuram, o da mədəd.

385. Getsən, qiyamət qopar,
Getmə məni də apar.
Aparmasan göz yaşım,
Axtarar səni tapar.

386. Göydə qaralan bulud,
Rəngi qaralan bulud.
Mən eldən ayrı düşdüm,
Sən də aralan, bulud.

387. Əgnində sarı paltar,
Gördükçə dərdim artar.
Uca boylu nazlı yar,
Gəl məni dərddən qurtar.

388. Əzizim məni tapar,
Dərd gəlib məni tapar.
Göydən hər bəla gəlsə,
Axtarar məni tapar.

389. Qaşların qara-qara,
Kirpigin oxlar atar,
Uca boylu nazlı yar,
Dodaqların bal satar.

390. Dağ başından yar aşar,
Yar dolanar, yar aşar.
İşvə-ğəmzə, bir də naz,
Bircə sənə yaraşar.

391. Dağ başına düşdü qar,
Qondu tərlan, uçdu sar.
Ürək ki var şişədi,
Sındırsalar, kim yamar?

392. Ay ordan tək-tək doğar,
Gün burdan tək-tək doğar.
Sənin kimi oğlanı,
Analar tək-tək doğar.

393. Uca dağa yağdı qar,
Amandı pərvərdigar.
Bir yandan el tənəsi,
Bir yandan ayrıldı yar.

394. Bu dağların üstü qar,
Mən nə dedim küsdü yar?
Sənlə mənim aramda
Soyuq yellər əsdi yar.

395. Əzizim daşa çalar,
Su üzün daşa çalar.
Yemə namərd çörəgin,
Qayıdar başa çalar.

396. Dağlar başı dolu qar,
Rəngim sarı, xulqum dar.
Hər gələn rəngim sorar,
Bilməz göylümdə nə var.

397. Əzizim badam çalar,
Bar verməz badamçalar,
Zülfünü qoy qoynuna,
Qayıdar adam çalar.

398. Əziziyəm yaralar,
Yar göylünü yar alar.
Fələk qəlbimə vurub,
Sağalmayan yaralar.

399. Əziziyəm sac qalar,
Ocaq sönər, sac qalar.
Acın qarnı doysa da,
Gözü doymaz, ac qalar.

400. Mən aşiq yüz yaralar,
Bir xəncər yüz yaralar.
Dost məni belə görsə,
Zülf yolar, üz yaralar.

401. Dağ üstə duman qalar,
Yağışa guman qalar.
Yağ-yağ üstə tökülər,
Yarmalar yavan qalar.

402. Göllərdə var bağalar,
Ürəkdə dağdağalar.
Yarın vurduğu yerə,
Məhşər günü sağalar.

403. Əzizim adı qalar,
Meyvənin dadı qalar.
İgit özü getsə də,
Yurdunda adı qalar.

404. Əzizim yolda qalar,
Bilərzik qolda qalar.
Getsəm, yarımın gözü,
Ölüncə yolda qalar.

405. Qalalar, ay qalalar,
Laçın orda balalar.
Ana baladan olmaz,
Bəlkə zorla alalar.

406. Əziziyəm dəryalar,
Nə dərindir dəryalar.
Xoş o zülfün halına,
Ağ buxaqdan tər ala.

407. Ağ almanı soyarlar,
Ağ boşqaba qoyarlar.
Çağrılmamış qonağı,
Qaş-gözünən qovarlar.

408. Qaş cəllad, kirpik oxlar,
Dərdindən ölər çoxlar.
Gözüm səni görməsə,
Göylüm min yerə yoxlar.

409. Narıncı doğramazlar,
Dəsmala bağlamazlar.
Bivəfa yar yolunda,
Bir belə ağlamazlar.

410. Göydə qara buludlar,
Para-para buludlar.
Mənim arz-halımı,
Apar yara, buludlar.

411. Əzizim ağlamazlar,
Güləllər, ağlamazlar.
Ğəriblikdə ölənin,
Gözlərin bağlamazlar.

412. Eyləmə yar azarlar,
Toxtamaz yara, zarlar.
Bir yandan el sitəmi,
Bir yandan yar azalar.

413. Ürəkdə yara sızlar,
Dərd sızlar, yara sızlar.
Yaralının dərdini,
Nə bilir yarasızlar?

414. Qardaşlar, ay qardaşlar,
Yağış yağar, qar başlar.
Ölsə bacılar ölsün,
Heç ölməsin qardaşlar.

415. Analar yanar, ağlar,
Dərdini sanar, ağlar.
Dönər göy göyərçinə,
Yollara qonar, ağlar.

416. Əzizim yaman qaşlar,
Vermədi aman qaşlar.
Səf çəkən kirpiklərə,
Kölgədir kaman qaşlar.

417. Ulduzlar yatmaz, ağlar,
Yarı oyatmaz, ağlar.
Yar yardan ayrı düşsə,
Gecələr yatmaz, ağlar.

418. Əzizim nə bağışlar,
Dost dosta nə bağışlar?
Başım cəllad əlində,
Nə kəsər, nə bağışlar!

419. Kabab yanar, köz ağlar,
Dil alışar, söz ağlar.
Yar yardan ayrı düşsə,
Ürək yanar, göz ağlar.

420. Ğərib yerdə daş ağlar,
Qələm altda qaş ağlar.
Sevgisi gedən qızlar,
Hamıdan yavaş ağlar.

421. Bostanda tağım ağlar,
Ğəmdən yarpızım ağlar.
Sağam özüm ağlaram,
Ölsəm, torpağım ağlar.

422. Ağacda xəzəl ağlar,
Dibində gözəl ağlar.
Yar yardan ayrı düşsə,
Sərgərdan gəzər, ağlar.

423. Xoruz durar, dan ağlar,
Hər gün çəkər ban, ağlar.
Yar yardan ayrılanda
Gecə-gündüz qan ağlar.

424. Xar əlində gül ağlar,
Gül ağlar, bülbül ağlar.
Bağlara xəzan gəlsə,
Yaş tökər, sünbül ağlar.

425. Gecə ağlar, dan ağlar,
Bu dərdə hər yan ağlar.
Yar yadıma düşəndə
Dərdli göylüm qan ağlar.

426. Tufan qopar, yel ağlar,
Çaylar daşar, sel ağlar.
Ğəriblikdə ölənin
Yasın tutan el ağlar.

427. Ağlayan başdan ağlar,
Kirpikdən, qaşdan ağlar.
Qardaşı ölən bacı,
Durar obaşdan ağlar.

428. Əzizim qazan ağlar,
Od yanar, qazan ağlar.
Burda bir ğərib ölüb,
Qəbrini qazan ağlar.

429. Ğəribəm, vətən ağlar,
Halıma ötən ağlar.
Ğürbətdə can verənin
Halına vətən ağlar.

430. Aşiq oyanan ağlar,
Ğəmə boyanan ağlar.
İki baş bir yastıqda,
Əvvəl oyanan ağlar.

431. Mən aşiq yüz gün ağlar,
Qaş-gözü süzgün ağlar,
Yarı əlindən gedən,
Bir gülsə, bir gün ağlar.

432. Mən aşiq yanan ağlar,
Dərdə boyanan ağlar.
İki baş bir yastıqda,
Əzəl oyanan ağlar.

433. Göydə göyərçin ağlar,
Yuvada laçın ağlar.
Sən yadıma düşəndə
Başımda saçım ağlar.

434. Mən aşiq düşən ağlar,
Yıxılıb düşən ağlar.
Düşsün rəqib gözünə,
Zülfünə düşən ağlar.

435. Ğərib çəkər ah, ağlar,
Gah sevinər, gah ağlar,
Səndən ayrı gözlərim,
Durar hər sabah ağlar.

436. Mən aşiq yazı ağlar,
Kağızda yazı ağlar.
Aşiq ğəmdən oxuyar,
Sinəmdə sazı ağlar.

437. Səmavəriy miliyəm,
Eşqiy qoymur yeriyəm.
Sən gözəl axtaruray,
Mən gözəllər güliyəm.

438. Su üzünnə qablama,
Gözün qurban, ağlama.
Gedirəy, tez qəyid gəl,
Yadlara bel bağlama.

439. Dam qırağe nəmnide,
Qız sən üziy ğəmnide.
Öziynən küçük bacıy
Sənnən çəmne-xəmnide.

440. Axşam olur, vəqt olur,
Günnən-günə səxt olur.
Evli evinnə yatar,
Qəriblərə səxt olur.

441. Qalma qape dalunna,
Gözüm qalub xallunna.
Gedim anama deyim,
Gəlim qalum yanınna.

442. Maşın gəlir barıde,
Toplare murvarıdı.
Başıy qoy dizim üstə,
Görən disin, yarıde.

443. Sərbaz xananıy daşe,
Mən yeyim sərbaz aşe.
Yarum orda məşq gedər,
Mən tökərəm göz yaşe.

444. Əskəriyəm, xaram mən,
Dilim yoxdu, lalam mən,
Nə mülküm var, nə bağum,
Satam səne, alam mən.

445. Əskəriyəm, kişmişəm,
Cibdən-cibə düşmüşəm.
Xudam nətər zülm olub,
Yardan cüda düşmüşəm.

446. Qızıl inəniy sape,
Görsənir siziy qape.
Səne mənnən eyliyən,
Dilənə qape-qape.

447. Səmavəriy qəfəse,
Çoxdur yarıy həvəse.
Xannuk malum dağuddum,
Oldum Tehran fəhləse.

448. Sudan gələn ərdə qız,
Derdi gəlin, derdi qız,
Xərab qala su yole,
Genə gezim gerde qız.

449. Pəncərənin millərə,
Açulmuyub güllərə.
Lal olsay dillənnirər,
Qızın şirin dillərə.
= Yare yardan eliyən,
Yarıyı şirin dilləri.

450. Çeşmədə gördüm yare,
Çərqəte dövre sare.
Həvəsiynən sevmişdim,
Apardular icbare.

451. Yolıya qoymuşam cecim,
Mən bu çaydan necə geçim.
Min dana sərbaz içinnə
Mən sevgilim necə seçim.

452. Başmaqlarum günəkdəde,
Arzularum ürəkdəde.
Nə vədə şənbə olacək,
Xanca görək nə ləkdəde.

453. Dalan aste dərvaza,
Bəglər durub namaza.
Sən ki mənə gəlmirdiy,
Niyə saldıy avaza.

454. Su gəlir axar gedər,
Bağları yıxar gedər.
Dünya bir pəncərədir,
Gələn bir baxar gedər.

455. Su içərəm çanaqdan,
Bal tökülər dodaqdan.
Yanıya gələ bilməm,
Salamım var uzaqdan.

456. Qəyə məne, qu məne (?)
Nə qədər istər bu məne.
Ağ şalıye kəfən eylə,
Göz yaşıynan yu məne.

457. Qəyədən qu tökülər,
Çəkmə saçum sökülər.
Dəsmal gətir, gül apar,
Gül xurdade, tökülər.

458. Xərməndə yatan oğlan,
Ağ Köynək kətan, oğlan.
Apardılar yarıye,
Bixəbər yatan oğlan.

459. Xərmənnə mən yatmuşam,
Keynəgime atmuşam.
Yarume aparsalar,
Mən bixəbər yatmuşam.

460. Dar küçənin dar-dare,
Məhəlləmiz sərdare.
Emmizə gələ bilmiyən,
Gəl küçəmizə sarı.

461. Bağlar içinnə gəzər,
Kələş qiçinnə gəzər.
Mən tanuram yarume,
Xannar içinnə gəzər.

462. Əlinnə vardur bayda,
Xoş idik bildir yayda.
Göynüm istər, əl çatmaz,
Xudam qoymur, nə fayda.

463. Aftafanıy ləgəne,
Qızıy nədir dəgəne.
Kişine cavan şaxlar,
Arvadıy güləgəne.

464. Həkim dame ucade,
Üstü paça-pacade.
Kişe səqqəlin qırxı,
Arvad deyir, qocade.

465. İdarə qabağunna,
Siqare dudağınna,
İnne harda olaydum,
Nazle yar qucağuna.

466. Apardular gülüme,
Eylədilər zülüme.
Nə qoydular danuşam,
Nə kəsdilər dilime.

467. Xiyabannan geşde yar,
Ağ corab germişde yar.
Gəldim salam vermağa,
Bir quş olub uşde yar.

468. Aşiqəm, qana-qana,
Ayaq qoy nərdivana.
Zər qədrin zərgər bilər,
Nə bilər hər divana.

469. Səmavare açmaram,
Açaram dolaşmaram.
Sən darayay, mən yoxsul,
Mən sənə yaraşmaram.

470. Dəryada çıraq yanar,
Gedikcə iraq yanar.
Bu necə şərbət idi,
İçdikcə ürək yanar.

471. Bu gələn yar səside,
Çıxıy göriy nəside.
Pənc tır tüfəng çeyninnə
Yanunna kölgəsidi.

472. Bu gələn yar olayde,
Əlinnə nar olayde.
İkimizə bir köynəg,
Yəxase dar olayde.

473. Qarqalan qare neylər,
Ağ köynək xale neylər.
Yare qəşəng olanıy
Dünyada male neylər.

474. Qarqalanda qar yatub,
Ağ köynəkdə xal yatub.
Məxməl döşək içinnə,
Ala gözle yar yatub.

475. Bu bulax qəmiş bulax,
Dörd dövre qəmiş bulax.
Yar gəlib burdan geçə,
Bir gül, bir danuş, bulax

476. Çömçə xatun nə istər,
Allahdan yağış istər.
Əli xəmirdə qalmış
Bircə qaşıq su istər.

477. Ala dağın buludu,
Yetimlərin umudu.
Allah, sən yağış eylə,
Arpa, buğda qurudu.

478. Qızlar, bağa gedərik,
Gül dərmağa gedərik,
Sən yağış ol, mən bulut,
Yağa-yağa gedərik.

479. Yağışım, yağ-yağ,
Kəkilim uzansın.
Anamın bir donu var,
Yağışa boyansın.

# MAHNILAR

## ÖLÜRƏM DƏRDİNDƏN DÜKANDAR QIZI

İdarədən gəlir mənim aylığım,
İcazə ver yayluğumı bağlıyım.
Nə vəqtəcək "yar-yar" deyim, ağlıyım,
Ölürəm dərdindən, dükandar qızı.

Gətir görüm dəsmalının nəyi var?
Mən saymuşam, ön dörd danə narı var.
Mənə mənnən savay ayrı yarı var?
Ölürəm ha, ceyran, ha, ceyran bala.

Çıxma damə, damnan səni görəllər,
Boyı qonçə güllənməmiş dərəllər,
Məni qoyub özgəsinə verəllər,
Ölürəm ha, ceyran, ha, ceyran bala.

Ay qara qaş, gətir öpüm qaşıynan,
Çadureyi yaraşmır, götür başıynan.
Mən səni isdərdim ön dörd yaşıynan,
Ölürəm dərdinnən, dükandar qızı.

## GÖR BACIN GÖYÇƏKDİ, YA DA MƏN OĞLAN?

Bir dam tikdirmişəm tamam buxarı,
Bir usta istərəm çəkə yuxarı,
Bir oğlan sevmişəm mahut çuxalı.

Yasəmən, yasəmən, yasəmən oğlan,
Gör bacın göyçəkdi, ya da mən oğlan?

Bir köynək tikdirdim yarın adına,
Baxa yaxasına sala yadına,
(Bir oğlan sevmişəm düşüb ardıma).

Yasəmən, yasəmən, yasəmən oğlan,
Gör bacın göyçəkdi, ya da mən oğlan?

Yar mənə alıbdı qüvvə çırağı,
Aləmə düşübdü onun sorağı,
Mən istərəm sənin təki qonağı.

Yasəmən, yasəmən, yasəmən oğlan,
Gör bacın göyçəkdi, ya da mən oğlan?

## QURBAN MƏN OLUM

Bağçanız gül-çiçəkdir,
Gülünüzə qurban mən olum.
Özü güldən göyçəkdir,
Elinizə qurban mən olum.

Gülünüzə qurban mən olum,
Dilinizə qurban mən olum.

## MÜBARƏK OLSUN!

Dağlardan aşdım gəldim,
Suyundan işdim gəldim.
Gözəllərin içində
Tək səni seşdim gəldim.

Deyin, mübarək olsun, toyun mübarək olsun!
Gəlinin gələn yolu, gül olsun, çiçək olsun!

Su gəlir arxa-arxa,
Tökülür bizim çarxa.
Qonşudan bir qız sevdim,
Anamdan qorxa-qorxa.

Ulduz gəlin, Ay gəlin, yoxdur sənə tay gəlun,
Bu gün sənin toyundur, dur telini düz gəlin.
Deyin, mübarək olsun, toyun mübarək olsun!
Gəlinin gələn yolu, gül olsun, çiçək olsun!

## ŞİRİN DİLLİ LEYLA

Getsən bağdan əgər,
Güllər boynun əyər.
Bülbül qan-yaş tökər,
Ağzı şirin, şəkər.

Ay qız, ay qız Leyla, şirin dilli Leyla,
Ay qız Leyla, ölürəm hey, hey, hey, hey, hey!
Qaşın, gözün qarə,
Çəkmə məni darə,
Üzündəki xalə,
Canım qurban yarə.
Ay qız, ay qız Leyla, şirin dilli Leyla,
Ay qız Leyla, ölürəm hey, hey, hey, hey, hey!

## OTAĞUVA SALLAM KİLİM

Otağuva sallam səndəl,
Yar üzüvü bəri döndər.
Döndərməsən, nişan göndər!

Nişanuva gül bəzərəm,
Sən gəlincə xar gəzərəm.
Otağuva sallam kilim,
Lal olasan mənim dilim.
Gedəndə küstürdüm getdi,

Gələndə necə dindirim?
Nişanuva gül bəzərəm,
Sən gəlincə xar gəzərəm.

## ATMA MƏNİ YAD ELLƏRƏ!

Savalanın ətəyində,
Arı oynar pətəyində.
Qardaş, əlim ətəyində.

Atma məni yad ellərə!
Ölkəsi bərbad ellərə!

Qardaş mənə alıb əsmə,
Telimin arası kəsmə,
Qəribəm mənnən küsmə!

Atma məni yad ellərə!
Ölkəsi bərbad ellərə!

Qardaş, getmə Ərdəbilə,
Bacın təkdi, tək səbirə,
Qayıt bacun qoy qəbirə!

Atma bacun yad ellərə!
Ölkəsi bərbad ellərə!

## KƏRBƏLA YOLUNDA SALDIRIM GÜNBƏZ

Kərbəla yolunda saldırım günbəz,
Oxudum Quranı, dedilər bilməz.
Sənə qurban olum gözə görünməz,
Mənim ərzəmi yaz yara, yaz yara!
Yara yazmasan yaz qara, yaz qara!

Kərbəla yolunda saldırdım hamam,
Oxudum Quranı, eylədim tamam,
Sənə qurban olum on iki imam.
Mənim ərzəmi yaz yara, yaz yara!
Yara yazmasan yaz qara, yaz qara!

***

Ay qız, adın Xamşəkər,
Dədən şamama əkər.
Səni mənə versələr,
Ollam dədəvə nökər.

Ay qız, adın Mamandı,
Belindəki lağandı.
İçinə güllə qoyub,
Vurma məni amandı!

Ay qız, adın Hürüdü,
Dağı duman bürüdü.
Sənə zəhmət çəkməkdən
Cavan ömrüm çürüdü.

***

Bu gələn yar oleydi,
Əlində nar oleydi.
İkimiz bir köynəkdə,
Yaxası dar oleydi.

Yaxası dar oleydi, balam, yaxası dar oleydi!
Yaxası dar oleydi, balam, yaxası dar oleydi!

Bu gələn yarə bənzər, ay balam,
Əlində narə bənzər.
Nə qəşəng nazənindir,
Sevdigim yarə bənzər.

***

Dağlar maralı, ay aman!
Gəzmə aralı,
Firqətindən qəlbim olmuş
Dağlar yaralı, ay aman!
Dağlar yaralı, ay aman!

***

Bir xanım al, qoy görən heyran olsun,
Qaçaq yerin həmişə Tehran olsun!
Asta yeri, alma mənim canımı,
Hardan alım, sənin təki xanımı?
(Başdan alıb ağlımı, imanımı).
Axtar qız tap gözləri ceyran olsun!
Bir xanım al qoy görən heyran olsun,
Qaçaq yerin həmişə Tehran olsun.

***

Mənim yarım qayış bağlar,
Bacısı dalınca ağlar,
Geri durun qarlı dağlar!
Görüm yarım harda qaldı,
Allah, gözüm yolda qaldı.

***

Yoldan gəlib yorulmusan,
Niyə durub soyunmursan?
Olum gözlərin qurbanı
Sərvan, niyə soyunmursan?
Taxçada pənir var sərvan,
Nə gözəl gərdənin var sərvan.

***

Mən aşiq nə qarası,
Tellərin nə qarası.
Könül sevən gözəlin,
Nə ağı, nə qarası.

Bağçamızın çiçəyi,
Elimizin göyçəyi.
Mən ki, səni sevirəm,
Budur sözün gerçəyi.

Mən aşiq, dolan bağı,
Gəl gəzək, dolan bağı.
Pərvanədən öyrəndim,
Başına dolanmağı.

## LÜĞƏT

### A

Alışuğ – odun, çırpı
Aleybanı – qulyabanı
Amadə (f) – hazır
Annan – ondan sonra
Arğac – xalı toxunan zaman işlədilən alətlərdən biri
Arın-qurun gəlsin – utan, xəcalət çək
Aşğal – zibil
Aşqal (d) – kirli

### B

Bala (d) – balaca
Bafta – parça növü
Başına börk qoymaq – kələk gəlmək
Begöyül (d) – könülsüz
Be-name (f) – adında
Bərə bitirməz – fayda verməz
Bərəks – əksinə, tərsinə
Bəyə – bəyəm, məgər
Biləmizə – özümüzə
Bivay(d) – tənbəl, arsız
Boz-boz baxır(d) – tərs-tərs, əsəbi halda baxır
Bubbu – şanapipik

### C

Caiz (ə) – icrasına yol verilən, icazə verilmiş
Cəhazsız – cehizsiz
Cəngəlin qırağı – meşə ətrafı
Cəngəl (f) – meşə
Cəzirə (ə) – ada

### Ç

Çaxmaq – çaxnaq
Çəkikgə – çəyirtgə
Çəpəl – pis

Çığat (d) – çıxar
Çilik – göyərməsi üçün basdırılan kiçik budaq
Çomaq – əl ağacı

**D**

Dadıq-cacıq (d) – bitki növü
Damən (f) – ətək
Dana – dənə
Dana-dana – dənə-dənə
Danbalan – yer altında bitən göbələk növü
Dalıya – dal tərəfinə
Derəy–deyirsən bəs, elə bil
Dərbar (f) – saray
Dıqqax (d) – azca
Dig(f) – qazan
Dila (f) – ey ürək, ey qəlb
Dilab (d) – divar içərisində yemək və ya qab saxlamaq üçün qapalı yer
Dirayət (ə) – məlumat, elm, bilik
Doyun qarın – doyunca
Dovtələb – könüllü

**E**

Ey – ev

**Ə**

Əcaib (ə) – qəribə, əcayib şeylər
Əl-ayağı züyər – əl-ayağı sürüşər
Əlahi – başqa
Əlhəq (ə) – doğrusu, həqiqətən
Ərz (ə) – bildirmə
Əyyar (ə) – hiyləgər, kələkbaz

**G**

Gecə quşu, şəppərə – yarasa
Gə – gəl
Gəvən – çöldə bitən ot növü

Gəvikisən – döyükürsən
Girdə (d) – yuvarlaq
Girdəkan (d) – qoz
Gij(d)–ağılsız
Göyül (d) – könül
Göylünə gələr – ürəyin istəyər
Gözəmək – burada bağlamaq anlamında işlədilib
Gumanlıdır(d) – ikicanlıdır, hamilədir
Guşə-bacə – künc-bucaq
Guşvara(f) – sırğa
Gül burnu – itburnu
Güzar (f) – qoyan, qoyma

**H**

Halav – alov, od
Heykəl (ə) – vücut
Hən – hə
Hərbə biçmək – hərbə-zorba gəlmək
Həşəm (ə) – qulluqçu, nökər
Həvil eyləmə – tələsmə
Hokka (d) – hiylə
Hövə (ə) – o (işarə əvəzliyi)
Huyuxub – şübhələnib, təəccüb edib

**X**

Xanəvadə(f) – ailə
Xədəm (ə) – xidmətçilər
Xədəmə(ə)– xidmətçi (xidmətçi qadın)
Xırdarax – daha xırda, daha cılız

**İ**

İneyi yay – inəyi otar

**K**

Kax (d) – qəsr, saray
Kələk vıra – kələk vura, kələk gələ, hiylə işlədə
Kərdi (f) – əkinçilikdə suvarmaq üçün bölünmüş zəmilər

Kirdar (f) – üslub
Kot – şalvar
Köyül (d) – mağara
Kuf(d) – yelləncək
Kuf uçmaq– yellənmək
Küsgəni (d) – küsəyən

**Q**

Qaqqa çalıb gülür – şaqqanaq çəkib gülür
Qeyim(d) – möhkəm, bərk
Qeynaltı (subhanə) – səhər yeməyi
Qəfə (d) – qəhvəxana
Qəfəçi – qəhvəxana sahibi
Qəlaçə – qalaça
Qəlbir – xəlbir
Qərənquluq – qaranlıq
Qıran – pul vahidi

**L**

Lağan– bir növ tapança

**M**

Malütticarələr – matahlar, alıb-satmaq üçün olan əsnas
Məaf – azad
Məkə (d) – qarğıdalı
Mərz (f) – sərhəd, hüdud
Möv yarpaqları – üzüm yarpaqları
Mözələk – arıya bənzər böcəkdir
Muvzi (ə) – əziyyət verən, incidən olmaq
Mücürü – balaca sandıqca

**N**

Naharacəy – nahara kimi
Nəmə eliyək? – Nə edək?
Nəqşə çəkərlər – plan qurarlar
Nacağ(d) – böyük bıçaq
Nəhani(nihan) (f) – gizli

Nəccar – ağacdan müxtəlif əşyalar düzəldən şəxs, dülgər
Novdan (d) – yağış suyunu küçəyə axıdan boru

**O**

Ot – od, ocaq
Onna – onunla

**Ö**

Ölçü–tök ilədilər– ölçüb biçdilər, salıb çıxdılar

**S**

Satur – qəssabların sümüyü sındırmaq üçün istifadə etdikləri alət
Səngək (f) – yastı, uzun çörək növü
Siqar (cığara) – siqaret
Saxtuman (d) – bina, imarət
Sinn (ə) – yaş
Səhərəçeyin–səhərədək, səhərə kimi

**Ş**

Şuxlux (d) – zarafat

**T**

Tafta– parça növü
Tovhiş (ə) – hürkütmə
Teşə – bir şeyi deşmək üçün istifadə olunan alət. Bir növ kiçik külüng
Tənsib(ə)– təyin olma, nəsib olma
Təlis (d) – çuval
Tənab (ə) – ip, örkən

**U**

Uslu başlı – ağıllı başlı

**V**

Vəsail (ə) – əşya

**Y**

Yekkə(d) – yekə, iri

Yeyərəy yuğunlayaray – yeyərək kökələrsən
Yoğunnə – kökəl
Yəxçal – soyuducu

## Z

Zirəklənər – qoçaqlaşar
Zora qoyub – məcbur edib
Zindəganlıq (f) – dirilik, yaşayış, həyat
Zərnıq, zərnix (d) – daş növü
Züyüldəmək (d) – sürüşmək
Zədən(f) – zədəli, yaralı, qopuq

## SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

1. Məsumə Həqsereşt 1352-ci ildə anadan olub. Səhnəd şəhərində yaşayır. Söylədiyi mətnlər: "Ruzinin bolluğu", "Şeytanın nağılı". Toplayan: Zəhra Abdar

2. Səfiyyə Qədirinin 74 yaşı var. Qaraqanın Razqan kəndində doğulub, orada yaşayır. Təhsilsiz olduğu üçün yazıb-oxuya bilmir. Söylədiyi mətn: "Qulyabanı". Toplayan: İlyas Əmir Həsəni.

3. Bəyim Bamşad 1297-ci ildə Gəncədə anadan olub, 1361-ci ildə dünyasını dəyişib. İrana köçəndən sonra burada ibtidai mədrəsəni qurtarıb. Nağıl 1339-cu ildə toplanıb. Söylədiyi mətn: "Gəvənçi və qızılquş". Toplayan: Mələkə Nəlbəndi.

5. Kərim Gülbazi Mehdipur 1319-cu ildə Bostanavaya bağlı olan Alana kəndində anadan olub. Savadsızdır. Təbrizdə yaşayır. Nağıl 05.09.86 tarixində Təbrizdə qeydə alınmışdır. Söylədiyi mətn: "Keçəlin nağılı". Toplayan: Əhəd Fərhəməndi.

6. Raziyə xanım Behcətpur 27.06.1329 Marağa şəhərində anadan olub. 6 sinif oxuyub. "El bilimi" redaksiya heyətinin qeydinə görə, qızı Röya xanım bu mətnləri uşaqlıqda anasından eşidib, yadında qalanları kağıza yazıb. Nağıllar Təbriz dialekti ilə yazılmışdır. Söylədiyi mətnlər: "Qarı nənə ilə qarğalar", "Qarı ilə pişik", "Əsalət nağılı".

7. Məsumə Dadaşi, Zəngan Həcəri, Çayırlı kəndindən. Təqribən 65 yaşındadır. Söylədiyi mətn: "Çirkin-göyçək bulaqların nağılı". Toplayan: Musa Museyi

8. Əşrəf xanım Əli Hüseyni 1305-ci ildə Vərzəqanın Şərəfə kəndində doğulub, 1385-ci ildə Mərənddə dünyasını dəyişib. Savadsız idi. Söylədiyi mətn: "Zalım qaynana". Toplayan: Zəkiyə Zülfüqari

9. Rüqəyyə xanım Qurbani Nəminin Nünəkəran kəndindəndir. Söylədiyi mətnlər: "Keçəl".

10. Roya Rak. Topladığı mətn: "Tənbəl Əhməd"

11. Həmid Bəradəran. Söylədiyi mətn: "Qərəxan nağılı". Toplayan: Zivər Abbasi

12. Beytullah Quli Nejad Tikabin (Tikan Təpənin) Arpa çayı kəndindəndir. Savadsızdır. Söylədiyi mətnlər: "Ata öyüdü",

“At tanıyan oğlan”, “Səbr ilə dayanatız olsun”, “Yalançı qul”, “Şah Abbasla keçəl”. Toplayan: Havar İbadi.

13. Göyçək Süri 1308-ci ildə Marağanın Təzə kəndində anadan olub. Şair Məhəmməd Barizin böyük anasıdır. Söylədiyi mətnlər: “Üç bacı”, “Qızla qırx həramilər”. Toplayan: Havar İbadi

14. Əli Haşimzadə Duri 1345-ci ildə Duriq kəndində doğulub. Söylədiyi mətnlər: “Xoruzun nağılı”, “Noxudun nağılı”. Toplayan: Havar İbadi.

15. Dövlət Əli Əhmədzadə 1335-ci ildə Qərbi Azərbaycanın Molla kəndində doğulub. Söylədiyi mətnlər: “Eşşəyinən dəvənin nağılı, ya elat nağılı”, “Tülkü və ayının nağılı”, “Alı qızı, özü qızı”, “İbrahimlə Gülzarın nağılı”, “Quru kəllə”, “Mirvarinin nağılı”, “Ovçu pirim”, “Torçu Səyyad”, “Cılfacan Əhməd”. Toplayan: Havar İbadi.

16. Həsənoğlu Səlim Abbaszadə 1347-ci ildə Qaradağın Üzümdil mahalının Göycə Sultan kəndində doğulub. Yazıb-oxuya bilir. Söylədiyi mətn: “Şah Abbas ilə filosof”. Toplayan: Qasım Cəbrayılzadə

17. Abbas Əli qızı Səyyar Cəbrayılzadə 1320-ci ildə Qaradağın Üzümdil mahalının Göycə Sultan kəndində doğulub. Yazı-pozu bilməz. Söylədiyi mətn: “Bildim, dinmədim”.

18. Səməd Rəncbər. Təbrizin Ravasan kəndindəndir. 55 yaşındadır. Savadlıdır. Söylədiyi mətn: “Qənimət gətirməyən şah”

19. Ağa Dəhqan Təbrizdə yaşayır. Kökəni qaradağlıdır (Göycə Sultanlı). Təxminən 70-75 yaşındadır. Söylədiyi mətn: “Aslan ilə tülkü”. Mətnin toplama ili: 1391.

20. Murad xan qızı Səran Muradi 1326 doğumludur. Yeddilər “yeddiar” tayfasından olmuşdur. Qaradağın Göycə Sultan kəndində doğulub. Kökəni elat imiş. İndi isə Təbrizdə yaşayır. Söylədiyi mətnlər: “Məkkədə it qovan dərviş”, “Etməmişəm, etməzlər”. Toplama ili: 1394

21. Firidin Pur Həsən. Söylədiyi mətn: “Sədaqətli arvad”. Toplayan: Zəhra Abdar

23. Aşıq Günəş (Əli Rəmazani). 1949-cu ildə Savənin Ənciləvənd kəndində dünyaya gəlib. Əslən Bağdadi Şahsevən eli-

nin Yarcalı tayfasındandır. Aşıq Günəş Qum–Savə aşıq mühitinin tanınmış aşıqlarındandır. Orta məktəbi bitirən aşığın müəllimləri atası Mirzəcandan başqa mərhum Aşıq M.Ə. Sofular (Zəmani) və mərhum Aşıq Qiyas Cəbbari olubdur. Qum şəhərində yaşayır. Söylədiyi mətn: "Gəlin-qaynana davası".

24. Bayatıların söyləyiciləri:

1-226 nömrəli bayatılar "Azərbaycan xalq ədəbiyyatından bayatılar" (Tərtib edəni: Fərzanə Məhəmməd Əli, 1302 Tehran 1382) kitabından götürülüb.

227-338 nömrəli bayatılar İhsan Qasımxanı tərəfindən toplanıb. Bu bayatıları aşağıdakı şəxslər söyləyiblər:

1) Qəmər xanım Şahnəzəri. 74 yaşı var. Savadsızdır. Doğulduğu yer Fəzlabaddır. Hazırda da burada yaşayır.

2) Əkrəm xanım Qasımxani. 44 yaşı var. 5 sinif oxuyub. Fəzlabadda doğulub. Hazırda Ərakda yaşayır.

3) Leyla Qasımxani. 39 yaşı var. Təhsillidir. Fəzlabadda doğulub. Tehranda yaşayır.

339-436 nömrəli bayatıların söyləyiciləri göstərilməyib.

437-447 nömrəli Komican bayatıları Əfsanə Radan tərəfindən atasından toplanıb. Onun atası Qulamrza Gülabi. Komicanda dünyaya gəlib və orada yaşayır.

471-475 nömrəli Komican bayatıları Məhəmməd Əmin Mehrpərvər tərəfindən toplanıb. Söyləyiciləri məlum deyil.

476-479 Çömçəxatun bayatılarının toplayıcı və söyləyiciləri məlum deyil.

25. Mahnılar: Gülqayıt xanım Cavanşir. Muğan üstü Xoruzlu mahalı, Limli kəndi, Cavanşir elinin Qocabəyli tayfasındandır, doğum tarixi 1929-cu il (1308), təhsilsiz, 2011-ci (1390-ci il) ildə Ərdəbildə dünyasını dəyişib. Söylədiyi mətnlər: "Gör bacın göyçəkdi, ya da mən oğlan?", "Qaçaq yerin həmişə Tehran olsun", "Sərvan", "Ay qız adın….", "Kərbəla yolunda saldırım günbəz", "Atma məni yad ellərdə", "Otağuva sallam kilim" və s. mahnılar. Mahnıları anası Tutu xanımdan öyrənmişdir. Toplayan: Səmayə Cavanşir. Səs faylından köçürüb, nəşrə təqdim edən: Əlirza Sərrafi

## MÜNDƏRİCAT

**ÖN SÖZ *(Mətanət Maşallahqızı, Əlirza Sərrafi)* ................ 3**

**NAĞILLAR**

Ruzinin bolluğu.......................................................... 14
Ağıciruğ..................................................................... 16
Qulyabanı .................................................................. 20
Şeytan........................................................................ 21
Gəvənçi və qızılquş ................................................... 22
Keçəl (1) .................................................................... 25
Keçəl (2) .................................................................... 26
Eşşəyinən dəvənin nağılı, ya da elat nağılı.................... 29
Tülkü və ayı ............................................................... 33
Alı qızı, özü qızı.......................................................... 37
İbrahimlə Gülzar ........................................................ 43
Qarı nənə ilə qarğalar ................................................. 61
Qarı ilə pişik .............................................................. 62
Əsalət......................................................................... 64
Çirkin-göyçək bulaqlar................................................ 68
Zalım qaynana............................................................ 70
Tənbəl Əhməd............................................................. 72
Qərəxan ..................................................................... 87
Ata öyüdü .................................................................. 93
At tanıyan oğlan.......................................................... 96
Şəbr ilə dəyanətiniz olsun............................................ 98
Yalançı qul................................................................. 102
Şah Abbasla keçəl ...................................................... 104
Üç bacı....................................................................... 109
Qızla qırx həramilər ................................................... 112
Xoruz......................................................................... 115
Noxud........................................................................ 118
Quru kəllə .................................................................. 122
Mirvari....................................................................... 137
Ovçu Pirim................................................................. 145

Torçu Səyyad ........................................................... 147
Cılfacan Əhməd ........................................................ 154

**RƏVAYƏTLƏR**
Şah Abbas ilə filosof ................................................. 159
Bildim, dinmədim ...................................................... 160
Qənimət gətirməyən şah ............................................... 160
Aslan ilə tülkü ......................................................... 161
Məkkədə it qovan dərviş .............................................. 162
Etməmişəm, etməzlər .................................................. 163
Sədaqətli arvad ........................................................ 164

**GƏLİN–QAYNANA DAVASI ........................................ 166**

**GƏLİN-QAYNANA DEYİŞMƏLƏRİ ............................. 169**

**TAPMACALAR .......................................................... 170**

**ATALAR SÖZLƏRİ VƏ DEYİMLƏR ............................ 270**

**BAYATILAR .............................................................. 288**

**MAHNILAR**
Ölürəm dərdindən dükandar qızı ................................... 323
Gör bacın göyçəkdi, ya da mən oğlan? .......................... 323
Qurban mən olum ...................................................... 324
Mübarək olsun .......................................................... 324
Şirin dilli Leyla ......................................................... 325
Otağuva sallam kilim .................................................. 325
Atma məni yad ellərə .................................................. 326
Kərbəla yolunda saldırım günbəz .................................. 326

**Lüğət ........................................................................ 329**
**Söyləyicilər haqqında məlumat ...................................... 335**

**Güney Azərbaycan folkloru,**
**XI kitab.**
Bakı, Elm və təhsil, 2021

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığan:
**Ləman Abdulxalıqova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Korrektor:
**Məhsəti Süleymanova**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 340 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
"Elm və təhsil" NPM-də ofset üsulu ilə
hazır deopozitivlərdən çap olunmuşdur.